AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodik jurnal*

**2024, 4 (45)**

**BAKI-2024**

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 4 (45), 2024

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda nəşr edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

*Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2020-ci ildən tarix və antropologiya elmi istiqamətləri üzrə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir.*

## REDAKSİYA HEYƏTİ

**Tarix üzrə elmlər doktoru, professor Cəfər Cəfərov** *(baş redaktor)*
**Tarix elmləri doktoru, professor Abbas Seyidov** *(baş redaktorun müavini)*
**Tarix elmləri doktoru, professor İradə Hüseynova**
**Tarix elmləri doktoru, professor Anar İsgəndərov**
**Tarix elmləri doktoru, professor Oqtay Sultanov**
**Tarix elmləri doktoru, professor Xəqani Məmmədov**
**Tarix üzrə elmlər doktoru, professor Fəzail Vəliyev**
**Antropologiya üzrə elmlər doktoru, professor Əliağa Məmmədli**
**Tarix üzrə elmlər doktoru Eynulla Mədətli**
**Tarix üzrə elmlər doktoru, professor Sevinc Əliyeva**
**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yasin Qaraməmmədli**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Ərəstun Mehdiyev**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Naibə Əhmədova** *(məsul katib)*

**TARİX, İNSAN VƏ CƏMİYYƏT-2024, 4 (45), s.3-12**

# ŞƏKİ ŞƏHƏRİNDƏ TURİZMİN İNKİŞAFINA DAİR (2004-2018-Cİ İLLƏR)

**Elçin Vəliyev**
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
elcin-veliyev-1985@mail.ru

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Şəki şəhəri, turizmin inkişafı, mehmanxana, mədəniyyət və turizm şöbəsi.*

*Turizm iqtisadiyyatın yüksək gəlirli və dinamik sektorlarından biridir. Turizm iqtisadiyyatın nəqliyyat və rabitə, ticarət, tikinti, kənd təsərrüfatı, istehlak mallarının istehsalı və bir çox başqa sahələrinə böyük təsir göstərir, sosial-iqtisadi inkişafın katalizatoru kimi çıxış edir. Ekspertlərin fikrincə, XXI əsr turizm əsrinə çevriləcək.*

*Əsrarəngiz təbiətə, tarixi abidələrlə zəngin Azərbaycanın şimal-qərb bölgəsi tarixən səyyahların diqqətini cəlb etmişdir. Şəki isə Azərbaycanın şimal-qərb bölgəsində mühüm turizm mərkəzi hesab olunur. Tədqiqat mövzusu üçün müəyyən olunmuş dönəmdə Şəkidə iqtisadiyyatın önəmli sahəsi kimi turizmin coşqun inkişaf nümayiş etdirir. Ölkə prezidentinin bölgələrimizdə turuzmin beynəlxalq standartlara uyğun səviyyəyə qaldırılması, Azərbaycanın turizm üçün olduqca cazibədar bir ölkəyə çevrilməsi ilə bağlı strateji kursunun həyata keçirilməsi sayəsində Şəkidə də xeyli iş görülmüşdür. Təqdim olunan məqalədə 2004-2018-ci illərdə Şəki şəhərində turizmin inkişafı problem araşdırılmışdır. Vurğulanır ki, Şəkinin turizm cəlbediciliyini artırmaq məqsədilə bu illər ərzində şəhərin görkəmini kökündən dəyişdirən möhtəşəm quruculuq və bərpa işləri aparılıb, zəruri infrastruktur yaradılıb.*

## О РАЗВИТИИ ТУРИЗМА В ГОРОДЕ ШЕКИ (2004-2018 гг)

**Эльчин Валиев**

***Ключевые слова:*** *Азербайджанская Республика, город Шеки, развитие туризма, гостиница, отдель культуры и туризма.*

*Туризм, будучи одной из крупнейших высокодоходных и наиболее динамичных отраслей экономики, оказывает огромное влияние на такие ключевые секторы хозяйства, как транспорт и связь, торговля, строительство, сельское хозяйство, производство товаров народного потребления и многие другие, выступая катализатором социально-*

*экономического развития. По прогнозам специалистов, XXI век станет веком туризма.*

*Северо-западный регион Азербайджана, богатый дивной природой и историческими памятниками, исторически привлекал внимание путешественников. Шеки считается важным туристическим центром северо-западного региона Азербайджана. В исследуемый период туризм как важная отрасль экономики Шеки демонстрирует бурное развитие. Благодаря реализации стратегического курса Президента страны по повышению уровня туризма в наших регионах до международных стандартов, превращению Азербайджана в весьма привлекательную страну для туризма, в Шеки проделана большая работа. В представленной статье исследована проблема развития туризма в городе Шеки в 2004-2018 годах. Подчеркивается, что с целью увеличения туристической привлекательности Шеки за указанные годы в городе были осуществлены грандиозные строительные и реставрационные работы, которые кардинально преобразили его облик, а также создана необходимая инфраструктура.*

## ON THE DEVELOPMENT OF TOURISM IN THE CITY OF SHEKI (2004-2018)

**Elchin Valiyev**

***Key words:*** *Azerbaijan Republic, Sheki city, tourism development, hotel, department of culture and tourism.*

*Tourism, being one of the largest highly profitable and most dynamic sectors of the economy, has a huge impact on such key sectors of the economy as transport and communications, trade, construction, agriculture, production of consumer goods and many others, acting as a catalyst for socio-economic development. According to experts, the 21st century will become the century of tourism.*

*The northwestern region of Azerbaijan, rich in marvelous nature and historical monuments, has historically attracted the attention of travelers. Sheki is considered an important tourist center of the northwestern region of Azerbaijan. During the period under study, tourism as an important sector of the Sheki economy has demonstrated rapid development. Thanks to the implementation of the strategic course of the President of the country to raise the level of tourism in our regions to international standards, turning Azerbaijan into a very attractive country for tourism, a lot of work has been done in Sheki. The presented article examines the problem of tourism*

*development in the city of Sheki in 2004-2018. It is emphasized that in order to increase the tourist attractiveness of Sheki during these years, grandiose construction and restoration work was carried out in the city, which radically transformed its appearance, and the necessary infrastructure was created.*

Turizm, istirahət, əyləncə, yeni mədəniyyətlər və təcrübələr öyrənmək, işgüzar görüşlər keçirmək və müvəqqəti yerdəyişmə ilə bağlı digər məqsədlər üçün yaşayış yerindən başqa bölgələrə səyahət edən insanların fəaliyyətidir. Azərbaycan Respublikasında 2000-ci illərin əvvəllərindən turizm sektorunda müşahidə olunan infrastrukturun təkmilləşməsi, rayon iqtisadiyyatının artımına, əhalinin işlə təmin olunmasına, nəqliyyat, rabitə, ticarət xidmətinin yüksəlməsinə də güclü təkan verdi. Məhz həmin dövrdən etibarən ölkənin mövcud turizm potensialından səmərəli istifadə nəticəsində davamlı inkişafa nail olmaq hökumət tərəfindən əsas hədəf kimi qarşıya qoyulmuşdur [19, s.179-180].

Turizmin inkişaf etdirilməsi məqsədilə "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nda ölkənin turizm potensialından səmərəli istifadə etməklə Azərbaycan Respublikasında turizmin inkişafına nail olunması, turizm sahəsində sahibkarlığın, ilk növbədə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi, rəqabətə davamlı turizm bazarının yaradılması, turizmdən dövlət və yerli büdcələrə daxil olan vəsaitin həcminin artırılması, turistlərə xidmətin keyfiyyətinin yüksəldilməsini, onun beynəlxalq standartlara uyğunlaşdırılması, turizm infrastrukturunun onun maddi-texniki bazasının möhkəmləndirilməsi və s. vəzifələrin icrasını nəzərdə tuturdu [3, s.1544-1545; 2, s.749-750].

2010-cu ilin aprelin 6-da ölkə prezidenti tərəfindən təsdiqlənmiş "Azərbaycan Respublikasında 2010 — 2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nda Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsi başlıca məqsəd elan edilirdi. Bu sənədlə turizm sahəsində normativ hüquqi bazanın və dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi; turizm və rekreasiya zonalarında müvafiq infrastrukturun yaradılması; ölkənin turizm potensialından istifadə imkanlarının genişləndirilməsi; ölkənin bütün regionlarında turizm fəaliyyətinin stimullaşdırılması; turizm sahəsinə yerli və xarici investisiyaların cəlb edilməsi; mehmanxanaların və digər turizm xidməti müəssisələri şəbəkəsinin genişləndirilməsi; Azərbaycanın milli-tarixi, mədəni və mənəvi irsinin, milli adət-ənənələrin dünyada təbliği, ayrı-ayrı regionların və şəhərlərin tarixini əks etdirən materialların nəşr etdirilməsi və yayılması, müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsi; turizmin inkişafı sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi və s. istiqamət-

lərdə məqsədyönlü tədbirlərin həyata keçirilməsini nəzərdə tutulmuşdu [4, s.656-657].

Azərbaycanın ən mühüm turizm mərkəzlərindın biri də əsrarəngiz təbiətə və zəngin tarixi-memarlıq abidələrinə malik olan Şəkidir. Şəki Azərbaycanın o bölgələrindəndir ki, burada dünya mədəni irsinin nadir incilərindən olan və müxtəlif tarixi çağlara məxsus bir sıra abidələr vardır. Şəkidə hökumətin xüsusi qərarları ilə təşkil edilmiş iki qoruq: 1967-ci ildə yaradılmış Yuxarıbaş tarix-memarlıq qoruğu və 2004-cü ildə yaradılan Kiş dövlət tarix-memarlıq qoruq-muzeyi mövcuddur.

Şəki memarlığı üçün səciyyəvi olan kərpic və çay daşından tikilmiş Yuxarı Karvansarayın ümumi sahəsi 6 min kv. metrdir. Karvansarayın küçəyə baxan hissədə hündürlüyü 14 metr, daxili həyətindən isə 8 metrdir. İki mərtəbəli karvansarayda 300-dən artıq otaq və zirzəmi vardır.

Yuxarı Baş Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisində dövlət qeydiyyatına alınan 25 tarixi-memarlıq, arxeoloji və park-monumental abidə qorunur. Qoruğun ərazisində 2012-ci ildə 250 yaşını qeyd edilən Azərbaycan memarlığının nadir incilərindən olan, Şəki xanlarının sarayı, V-VI əsrlərə aid dairəvi məbəd, xalq tətbiqi sənəti və tarix-diyarşünaslıq muzeyləri, Dövlət Rəsm Qalereyası hər zaman turistlərin diqqətini özünə cəlb edir. Bundan başqa rayonda 11 ədəd ölkə əhəmiyyətli, 14 ədəd isə yerli əhəmiyyətli abidələr də vardı [24, s.8].

2009-cu ilə kimi Şəkidə Ümid, Şəki safarisi, Cənnət bağı turizm istirahət mərkəzləri istifadəyə verilmiş, Fazıl kəndində yerləşən Təpəbaşı nekropolunda son tamamlama işləri başa çatdırılmışdı. Bu nadir mədəniyyət abidəsi Şəkinin turizm marşrutuna daxil edilmişdir [14, s.5].

Şəkidə dövlət tərəfindən qorunan dünya əhəmiyyətli Kiş alban məbədi və XVIII əsrə aid Şəki xanlarının sarayı da daxil olmaqla 84 arxeoloji və memarlıq abidəsi var [1, s.4].

Şəkidə sanatoriya-mehmanxana kompleksləri istifadəyə verilmiş, Prezident İlham Əliyevin sərəncamı ilə 2011-ci il "Turizm ili" elan ediləndən sonra bu sahədəki işlər sürətləndirilmişdi. 2011-ci ilin noyabrın 17-də Azərbaycan Prezidenti İlham Əliyev Şəkiyə səfəri çərçivəsində 1,2 hektar ərazisi, kompleksə daxil olan otel və kotteclərin ümumi sahəsinin isə 5 min kvadratmetrdən çox olan, 200 nəfərin işlə təmin olunduğu "Green Hill İnn" mehmanxanasının açılışında iştirak etmişdir. Burada 4 birotaqlı, 12 ikiotaqlı, 8 üçotaqlı, 3 dördotaqlı nömrələr, həmçinin kottec tipli istirahət və əyləncə otağı, SPA, fitnes, yeməkxana vardır [12, s.6].

Prezident İlham Əliyevin 2012-ci ildə imzaladığı sərəncamla Şəki şəhərində 30 hektarlıq ərazidə 412 yerdən ibarət, 126 birotaqlı, 52 ikiotaqlı nömrələr olmaqla 178 otaqlı yeddi mərtəbəli mehmanxana binasından ibarət "Marxal" sanatoriya-istirahət kompleksinin yaradılmasına başlanılmışdı.

Kompleksdə 250 nəfərlik restoran, lobbi bar, 6 ticarət mağazası, 2 kinoteatr zalı, konfrans, uşaqlar üçün əyləncə zalları, kompleksin ərazisində isə 600 nəfərlik restoran, 40 nəfərlik yay kafesi, həmçinin 164 yerlik 27 ikimərtəbəli kottecin inşası, müxtəlif əyləncə bölmələri – 6 boulinq xəttinin olduğu mərkəz, mini futbol, tennis və basketbol meydançaları, 500 nəfərlik amfiteatr, SPA mərkəzi, qapalı hovuz, sauna, fitnes zalı, müxtəlif müalicə prosedurlarının aparılacağı otaqlar nəzərdə tutulmuşdu. Dövlətimizin başçısı 2015-ci il noyabrın 4-də Şəkiyə səfər edərkən "Marxal" müalicə-istirahət kompleksində tikinti işlərinin gedişi ilə maraqlanmış, tapşırıq və tövsiyələrini vermişdi [21, s.4]. Bu müalicə və istirahət kompleksinin inşası 2016-cı ildə başa çatdırılmış və avqustda istifadəyə verilmişdir.

Şəki mədəniyyət və turizm şöbəsi nəzdində Turizm İnformasiya Mərkəzi fəaliyyət göstərir. Şəkidə turizmin rəsmi statistikası 2006-cı ildən aparılsa da mədəniyyət şöbəsindən verilən məlumatlara görə 2004-cü ildə Şəkidə 2800 nəfər, 2005-ci ildə 6000 nəfər turist olmuşdur. 2006-cı ildə aparılan rəsmi statistikaya görə Şəkiyə həmin ildə 9 min nəfər, 2007-ci ildə 11500 nəfər, 2008-ci ildə 13 min nəfər turist səyahət etmişdir [25, s.78-80; 10, s.4]. Aparılan abadlıq-quruculuq və maarifləndirici tədbirlərin nəticəsində Şəkiyə gələn turistlərin sayı 2010-cu ildə 13 min nəfər, 2013-cü il üçün isə bu rəqəm 30 min nəfərdən çox olmuşdur [16, s.10].

Məlumdur ki, bölgələrə turizm axınının artmasının və turizmin inkişafının kökündə mehmanxana və mehmanxana tipli müəssisələrin olması, iaşə xidmətinin yaxşılaşdırılması, turistlərin nəqliyyatla təmini və onlara xidmət edən personalın formalaşdırılması dayanır. Bu baxımdan 2009-2014-cü illərdə qeyd olunan sferada xeyli işlər görülmüşdür. Belə ki, 2005-ci ildə Şəkidə 5 mahmanxana və mehmanxana tipli müəssisələrdə olan nömrələrin sayı 132, bu müəssisələrdə yerləşdirilmiş şəxslərin sayı 4367 olmuşdur [14, s.293]. Şəki rayonunda 2009-cu ildə 566, 2010-cu ildə 576, 2011-ci ildə 596, 2012-ci ildə 689, 2013-cü ildə 760, 2014-cü ildə isə 760 nəfər birdəfəlik tutumu olan mehmanxana və mehmanxana tipli müəssisələr turistlər və qonaqlara xidmət göstərmişdir. Şəkidəki mehmanxana və mehmanxana tipli müəssisələrdə olan nömrələrin sayı 2009-cu ildə 265, 2010-cu ildə 269, 2011-ci ildə 269, 2012-ci ildə 275, 2013-cü ildə 306, 2014-cü ildə isə 306-ya çatdırılmışdı [5, s.120-122].

Bu mehmanxana və mehmanxana tipli müəssisələrdə olmuş gecələmələrin sayı 2009-cu ildə 21993, 2010-cu ildə 7471, 2011-ci ildə 9407, 2012-ci ildə 10142, 2013-cü ildə 11786, 2014-cü ildə 14612 olmuşdu. Onlardan ölkə vətəndaşlarının payına düşən gecələmələrin sayı 2009-cu ildə 20062, 2010-cu ildə 5054, 2011-ci ildə 6730, 2012-ci ildə 8398, 2013-cü ildə 9183, 2014-cü ildə 10599 gecəyə, xarici ölkə vətəndaşlarının payına düşən gecələmələrin sayı isə 2009-cu ildə 1931, 2010-cu ildə 2417, 2011-ci ildə 2677, 2012-ci ildə 1744, 2013-cü ildə 2603, 2014-cü ildə 4013 gecəyə bərabər idi [5, s.130-133].

Mehmanxana və mehmanxana tipli müəssisələrdə 2009-cu ildə 5985, 2010-cu ildə 6319, 2011-ci ildə 7661, 2012-ci ildə 8200, 2013-cü ildə 9655, 2014-cü ildə 12293 nəfər yerləşdirilmişdi ki, onlardan ölkə vətəndaşlarının payına 2009-cu ildə 4199, 2010-cu ildə 4209, 2011-ci ildə 5392, 2012-ci ildə 6779, 2013-cü ildə 7518, 2014-cü ildə 9019 gecə, xarici ölkə vətəndaşlarının payına isə 2009-cu ildə 1786, 2010-cu ildə 2110, 2011-ci ildə 2269, 2012-ci ildə 1421, 2013-cü ildə 2137, 2014-cü ildə 3274 gecə düşürdü [5, s. 135-139].

Şəkidə turizmin inkişafı özəl mehmanxana, xostel və mehmanxana tipli müəssisələrin yaranmasını sürətləndirdi. 2015-ci ildə Şəkidə olan 16 mehmanxana və mehmanxana tipli müəssisələrin birdəfəlik tutumu 785-ə barabər idi. 2015-ci ildə Şəkidə olan 16 mehmanxana, motel, pansionat və mehmanxana tipli digər müəssisələrdən 6,3 faizi dövlət, 93,7 faizi özəl bölmənin payına düşürdü [13, s.5]. Bu müəssisələrdəki nömrələrin sayı isə 2015-ci ildə 785, 2016-cı ildə 808 olmuşdur [6, s.72-74]. Bu müəssisələrdə gecələmələrin sayı 2015-ci ildə 15293, 2016-cı ildə 10883 gecə olmuşdur ki, onlardan ölkə vətəndaşlarının payına düşən gecələmələrin sayı 2015-ci ildə 12161, 2016-cı ildə 7439 gecə, xarici ölkə vətəndaşlarının payına düşən gecələmələrin sayı isə 2015-ci ildə 3132, 2016-cı ildə 3444 gecə olmuşdur [6, s.76-80].

Şəki rayonundakı mehmanxana və mehmanxana tipli müəssisələrdə yerləşdirilmiş şəxslərin sayı 2015-ci ildə 12826 nəfər, 2016-cı ildə 9265 nəfər olmuş, onlardan 2015-ci ildə 9974, 2016-cı ildə 6172 nəfəri ölkə vətəndaşları, 2015-ci ildə 2852, 2016-cı ildə isə 3093 nəfəri xarici ölkə vətəndaşları olmuşdur [6, s.82-86].

2017-ci ildə Şəkidə birdəfəlik tutumu 511, nömrələrinin sayı 242 olan 16 mehmanxana və mehmanxana tipli müəssisə var idi. Bu müəssisələrdə olmuş gecələmələrin sayı 11822, onlardan ölkə vətəndaşlarının payına düşəni 7077, xarici ölkə vətəndaşlarının payına düşəni 4745 gecə olmuşdur. Həmin ildə Şəkidə olan mehmanxana və mehmanxana tipli müəssisələrdə 10544 nəfər yerləşdirilmiş, onlardan 6217 nəfər ölkə vətəndaşı, 4327 nəfər xarici ölkə vətəndaşları olmuşdur [7, s.62-76].

Müqayisə üçün qeyd edək ki, 2010-cu ildə Şəki-Zaqatala iqtisadi rayonunda mehmanxanalarda 37520 nəfər ölkə vətəndaşları, 4260 nəfəri isə xarici ölkə vətəndaşları olmaqla cəmi 41780 nəfər yerləşdirilmişdisə, həmin ildə təkcə Şəki rayonunun mehmanxanalarında 4209 nəfər ölkə vətəndaşları, 2110 nəfəri isə xarici ölkə vətəndaşları olmaqla cəmi 6319 nəfər yerləşdirilmişdi. Gətirilən rəqəmlərdən də göründüyü kimi, 6 rayondan ibarət Şəki-Zaqatala iqtisadi rayonun mehmanxanalarında 2010-cu ildə yerləşdirilmiş xarici ölkə vətəndaşlarının 50 faizə qədəri təkcə Şəki rayonunun payına düşür.

Son illərdə istər respublikamızın ayrı-ayrı bölgələrindən, istərsə də yaxın və uzaq xaricdən Şəki şəhərinə gələn turistlərin sayı artmaqdadır. Belə ki, əgər 2004-cü ildə Şəkiyə cəmi 2800 nəfər turist gəlmişdisə, 2014-cü ildə

onların sayı 31000 nəfərdən çox olmuşdur. 2014-cü ilin birinci yarısında Şəkiyə 7198 nəfər turistin gəlişi qeydə alınmışdısa, 2015-ci ilin müvafiq dövrü ərzində isə bu rəqəm 9481 olmuşdur ki, onlardan 2652 nəfərini əcnəbi turistlər təşkil etmişdir [10, s.4].

2009-2018-ci illərdə ayrı-ayrı respublikaların prezidentləri, Azərbaycana rəsmi səfər edən şəxslər, səfirlər, partiya sədrləri, qeyri-hökumət təşkilatlarının başçıları və digərləri Şəkinin fəxri qonaqları olmuşlar. 2013-cü ildə Rumıniyanın keçmiş Prezidenti Emil Konstantinesku, Vatikan Dövlətinin mədəniyyət üzrə pontifik şurasının prezidenti kardinal Canfranko Ravazi, Çin Xalq Respublikasının, Fransanın, İsrailin Türkiyənin, Koreyanın, Rumıniyanın, Rusiyanın, İordaniyanın, Tacikistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirləri Şəkidə olmuş, şəhərin gəzməli və görməli yerləri ilə tanış olmuşlar. Üçüncü Bakı Beynəlxalq Humanitar Forumunun, İkinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçıları və başqaları da Şəkinin geniş turizm potensialına malik olduğunu bildirmiş və şəhərdən xoş təəssüratla ayrılmışdılar [9, s.6].

2012-ci ilin sentyabr ayının 9-da Prezident İlham Əliyev Şəkiyə səfər etmişdir. Səfər çərçivəsində Prezident 423 məcburi köçkün ailəsi üçün salınmış yeni qəsəbə, Sahibkarlığa Kömək Milli Fondunun güzəştli krediti hesabına inşa olunmuş taxıl anbarı və dəyirman kompleksi ilə yanaşı, dörduldüzlu “Shaki Palace” otelinin açılışında iştirak etmişdir [17, s.10]. Səfəri zamanı Prezident İlham Əliyev məcburi köçkünlərlə söhbət etmişdi. Şəki şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşündə Şəki şəhərinin turizm potensialını yüksək qiymətləndirən İ.Əliyev Şəkinin nəinki Azərbaycanın, bölgənin və dünyanın turizm mərkəzinə çevrilməli olduğunu bildirmişdi [26].

2013-cü il avqust ayının 14-də Şəkidə növbəti dəfə səfərdə olan Prezident İ.Əliyev Şəki şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşündə bu şəhərin Azərbaycanın mədəni həyatındakı əvəzsiz rolunu qeyd edərək demişdir ki, Şəki Azərbaycanda və deyə bilərəm ki, bölgədə və dünyada öz gözəlliyi ilə seçilən bir şəhərdir. Burada əlbəttə təbiət və memarlıq, qədim və tarixi binalar, Şəkinin şəhərsalma qaydaları gözəl bir mənzərə, bir vəhdət yaradır. Təsadüfi deyil ki, Şəkinin mədəniyyəti ilə maraqlananların sayı getdikcə artır. Həm daxili turizm artır, həm xaricdən gələn qonaqların sayı. Azərbaycanın demək olar ki, bütün yerlərində Şəkiyə çox böyük hörmət və maraq vardır. İstərdim ki, Azərbaycanın bütün vətəndaşları vaxt tapıb Şəkiyə səfər etsinlər.“ [27].

Azərbaycana, o cümlədən Şəkiyə gələn xarici turistlər bu şəhərdən son dərəcə xoş təəssüratlarla ayrılırlar. İtalyan turisti Aleksandro Barbiyeri Şəki haqqındakı təəssüratlarında Şəki Xan sarayı və Karvansaray haqqındakı təəssüratlarını və xüsusi olaraq onlara italyandilli bələdçilərin təhkim edildiyini heyrətlə qeyd edirdi [20, s.7].

2013-cü il iyunun 28-dən iyulun 4-dək Şəkidə baş tutmuş IV “İpək Yolu” Beynəlxalq musiqi festivalının iştirakçısı olmuş, ABŞ Dövlət Departamentinin “Amerikanın mədəni elçiləri” proqramı çərçivəsində festivala qatılmış “Filligar” rok qrupunun rəhbəri Con Matiası da Şəkini çox gözəl məkan adlandırmış, belə tədbirlərin ölkələr arasında mədəni əlaqələrin inkişafındakı xüsusi rolunu qeyd etmişdir [15, s.11].

Şəkiyə gələn turist və qonaqların asudə vaxtlarının səmərəli və məzmunlu keçməsini təmin etmək məqsədi ilə müxtəlif xalq kollektivləri, folklor kollektivləri və instrumental ansambllar fəaliyyət göstərir. Şəki həmçinin vaxtaşırı olaraq beynəlxalq miqyaslı tədbirlərə, o cümlədən festivallara ev sahibliyi edir. Buna görə Şəki son illərdə haqlı olaraq artıq festivallar şəhəri kimi tanınır. Belə irimiqyaslı festivalların Şəkidə təşkil olunması bu bölgəyə turist axınının artımına müsbət təsir göstərir.

Şəkidə olan mehmanxana və mehmanxana tipli turist obyektlərinin demək olar ki, hamısında restoran, kafe, bəzilərində isə bar mövcuddur. Şəkidə Çələbixan, Soyuqbulaq, Qurcana, Qaqarin, Xanbağı, Karvan, Məkan, Arzu, Ləziz, Qırxbulaq, Sahil, İdeal, Min bir gecə, Sərin ada və s. restoran və kafelər, çoxsaylı Çay evləri vardır [11, s.3].

Şəkidə turizm infrastrukturunun yaradılması istiqamətində işlər davam etdirilir, müasir tipli istirahət mərkəzləri, yeni otellər istifadəyə verilir. Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə Azərbaycan, rus və ingilis dillərində Şəkinin turist xəritəsi hazırlanmışdır. Bələdçi xəritəsi Şəkinin görməli yerlərinə, turistik məkanlarına ən qısa marşrutu tapmağa köməklik etməklə rayonda olan mehmanxanalar, istirahət zonaları və restoranlar haqqında məlumatı əhatə edir.

“Avropa Avtobus Turu-2017” layihəsinin “Şəki Avropa şəhərciyi” tədbiri çərçivəsində 2017-ci ilin sentyabrın 23-də Şəki şəhərindəki “Marxal” müalicə-istirahət kompleksində Şəki şəhər rəhbərliyi ilə Avropa İttifaqına üzv ölkələrin Azərbaycanda fəaliyyət göstərən səfirlərin nümayəndələrinin görüşü baş keçirilmişdi. Görüşdə səfirliklərin təmsilçilərinə Azərbaycanın bu qədim diyarının tarixi, mədəniyyəti, iqtisadiyyatı, turizm potensialı barədə geniş məlumat verilmişdi.

Mədəniyyət Nazirliyi və Şəki Şəhər İcra Hakimiyyətinin birgə sifarişi əsasında Şəki şəhərində turizmin inkişafı üçün inkişaf konsepsiyasının hazırlanmasına xarici ekspertlərin cəlb olunması təklifinə Şəki Şəhər İcra Hakimiyyəti tərəfindən müsbət rəy bildirilmişdir. Şəki-Zaqatala iqtisadi rayonu üzrə turizm sahəsinin inkişafının dəstəklənməsi məqsədilə “Şimal-qərb əfsanələri” mədəni turizm marşrutu layihəsi hazırlanmış, pasportlaşdırılmış və marşrutların xəritəsi tərtib edilərək nəşr olunmuşdur [18, s.603].

Son illərdə dövlətimizin Şəki şəhərinin tarixi-memarlıq irsinin qorunmasına dair qayğısı daha da artmışdır. Buna Azərbaycan Respublikasının

Prezidenti İlham Əliyevin 2018-ci il oktyabrın 31-də imzaladığı Şəki şəhərinin tarixi hissəsinin qorunması ilə bağlı əlavə tədbirlər haqqında sərəncam [23, s.2] nümunə ola bilər.

Qədim şəhərin xarici qonaqlar üçün cəlbedici məkana çevrilməsi təbii təsirlərə məruz qalmış tarix və mədəniyyət abidələrinin konservasiyası və bərpası, ənənəvi xalq sənətkarlığı növlərinin dirçəldilməsi işlərinin sürətləndirilməsi bildirilir, Dövlət Turizm Agentliyinə "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin siyahıya alınması və vahid məlumat bazasının yaradılmasını təmin etmək, ərazidəki tarix və mədəniyyət abidələrinin uzunmüddətli qorunması, konservasiyası, bərpası və məqsədyönlü istifadəsi ilə bağlı konsepsiyanın layihəsini hazırlamaq tapşırılmışdır [22, s.2].

Beləliklə, gətirilən faktlar son illərdə Şəkidə iqtisadiyyatın perspektiv baxımından fövqəladə önəmli sahəsi kimi turizmin coşqun inkişafını parlaq şəkildə nümayiş etdirir. Otel sektorunun, iqtisadiyyatın, şəhərlərin və ümumilikdə cəmiyyətin inkişafına təkan verən turizmin başlıca üstünlükləri aşağıdakılardır:

- Turizm bir çox ölkələrin iqtisadiyyatının mühüm sektorudur. Bu sahə iş yerlərinin açılmasına kömək edir, sahibkarlıq və kiçik və orta biznesin inkişafına imkanlar yaradır. Turistlər pullarını otellərə, yeməklərə, nəqliyyata, əyləncələrə, alış-verişə və digər xidmətlərə xərcləyirlər ki, bu da gəlirlərin və vergi daxilolmalarının artmasına səbəb olur. Sənaye, həmçinin kənd təsərrüfatı, pərakəndə satış, nəqliyyat və sənətkarlıq kimi əlaqəli sahələrin inkişafını stimullaşdırır;

- Turizm sektoru şəhər və rayonların inkişafı üçün güclü katalizatordur. O, infrastrukturun yaxşılaşdırılmasına, mehmanxanaların, restoranların, attraksionların və əyləncə obyektlərinin tikintisi və yenidən qurulmasına öz töhfəsini verir. Turizm sənayesinin inkişafı investisiyaları cəlb edir və yerli biznesin böyüməsini stimullaşdırır. Bundan əlavə, turistik yerlər və fəaliyyətlər mədəni irsin və təbii mühitin qorunmasına töhfə verir;

- Turizm müxtəlif mədəniyyətlər və xalqlar arasında qarşılıqlı əlaqəni təşviq edir. Səyahət turistlərə yeni xalqlarla, adət-ənənələrlə tanış olmağa, onların dünyagörüşünü genişləndirməyə imkan verir. Bu, qərəzləri aradan qaldırmağa və bütün dünyada tolerant və açıq cəmiyyət yaratmağa kömək edir;

- Turizm fəaliyyəti infrastrukturun daim təkmilləşdirilməsini və müxtəlif xidmətlərin göstərilməsini tələb edir. Turistləri cəlb etmək üçün yaxşı nəqliyyat şəbəkəsi, inkişaf etmiş otellər, restoranlar, mağazalar, əyləncə obyektləri və digər müəssisələrin şəbəkəsi təmin edilməlidir. Nəticədə şəhər və rayonların infrastrukturu inkişaf etdirilir və təkmilləşdirilir ki, bu da yerli əhalinin həyat keyfiyyətinin yaxşılaşmasına səbəb olur. Turizm innovasiya və texnologiyaya

sərmayə cəlb edir, xidmətin yaxşılaşdırılmasına və turist təcrübəsinin yaxşılaşmasına səbəb olur;

- Turizm mədəni irsin və təbii mühitin qorunmasına töhfə verir. Yerli xalqlar öz mədəniyyətlərinin, adət-ənənələrinin və təbii sərvətlərinin dəyərini dərk edir və onları gələcək nəsillər üçün qoruyub saxlamağa çalışırlar. Turistlər müxtəlif tarixi yerlərı ziyarət etməklə, mədəni tədbirlərdə iştirak etməklə yerli adət-ənənələrin, sənətkarlığın və incəsənətin dəstəklənməsinə və inkişafına töhfə verirlər;

- Turizm həm də istirahətin idman növlərinin və aktiv həyat tərzinin inkişafına kömək edir. Cəlbedici təbiətə və təbii sərvətlərə malik şəhər və rayonlar idman, gəzinti, velosiped sürmək, su idmanı və digər fəaliyyətlər üçün imkanlar təklif edir. Turistlər nəinki gözəl təbiətdən həzz ala, həm də sağlamlıqlarının və fiziki hazırlığının qeydinə qala bilərlər.

## Ədəbiyyat


1. Avropa İttifaqına üzv ölkələrin səfirlikləri Şəki şəhəri ilə əlaqələrin daha da genişləndirilməsində maraqlıdırlar. Azərbaycan. – 2017, 24 sentyabr. – s.4.
2. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli 80 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 30 aprel 2009-cu il, №4, s.736-756.
3. Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 27 avqust tarixli 1029 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir . Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 31 avqust 2002-ci il, №8, s.1543-1549.
4. Azərbaycan Respublikasında 2010 - 2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 6 aprel tarixli 838 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 30 aprel 2010-cu il, №6, s. 654-661.
5. Azərbaycanda turizm: (Statistik məcmuə). Bakı, 2016, s.140.
6. Azərbaycanda turizm: (Statistik məcmuə) . Bakı, 2017, s.145.
7. Azərbaycanda turizm: (Statistik məcmuə) . Bakı, 2018. s.136.
8. Azərbaycanın regionları: (Statistik məcmuə). Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2015, s. 834.

9. Əhmədoğlu, M. Min illərin şəhərində yeni dövran başlayıb .Ədalət. 2014, 12 mart, s.6.
10. Əhmədoğlu, M. Şəki: Mədəniyyət və turizm sektorunun mühüm bazası .Ədalət. 2015, 2 oktyabr, s.4.
11. Əhmədoğlu, M. Şəki: Mədəniyyət və turizm sektorunun mühüm bazası. Ədalət. 2015, 3 oktyabr , s.3.
12. "Green Hill İnn" mehmanxanası Şəkinin turizm potensialının daha bir əyani göstəricisidir . Azərbaycan. 2011, 18 noyabr, s.6.
13. İlyasov, Z. Şəki qədimliklə müasirliyin qovuşduğu unikal bir şəhərdir .İqtisadiyyat. ,2015, 6-12 noyabr, s.5.
14. Nəzərli T. Dağlar qoynunda Şəki. Azərbaycan. ,2009, 17 iyun. s. 5.
15. Nəzərli, T. «İpək Yolu» IV Beynəlxalq musiqi festivalı uğurla başa çatdı. Azərbaycan. 2013, 9 iyul, s.11.
16. Nəzərli, T. Şəki turistlər üçün hər cəhətdən cəlbedici bölgədir. Azərbaycan. 2014, 1 iyul, s. 10.
17. Pənahov, İ. Şəki: sosial–iqtisadi inkişafın yeni mərhələsi . Respublika. 2013, 9 fevral, s.10
18. Regionların sosial-iqtisadi inkişafı (2014-2018-ci illər) (statistik məcmuə). Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2019. s. 676.
19. Rzayev, İ.M. Azərbaycan Respublikasında regionların davamlı sosial-iqtisadi inkişafı: mövcud vəziyyət və gələcək perspektivlər. İ.M.Rzayev. Bakı, Elm, 2010. s. 468.
20. Səlimov, Ə. Tarixi yaşadan Şəki. Azərbaycan. 2016, 7 sentyabr. s.7 .
21. Şəki-Qax-Zaqatala avtomobil yolunun Şəki-Qax hissəsinin yenidənqurmadan sonra açılışı olub . Azərbaycan. 2015, 5 noyabr, s. 4.
22. Şəki şəhərinin tarixi hissəsinin qorunması üçün əlavə tədbirlər görüləcək. Mədəniyyət. 2018, 2 noyabr, s.2 .
23. Şəki şəhərinin tarixi hissəsinin qorunması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 31 oktyabr 2018-ci il Azərbaycan. 2018, 1 noyabr, s. 2.
24. Şəki turizm mərkəzinə çevrilir. Mədəniyyət. 2010, 9 iyul, s.8.
25. Zəngin təəssüratla . Mədəni maarif, 2009, sayı 8-9, s. 78-80 .
26. http://sheki-ih.gov.az/page/37.html#2012
27. http://sheki-ih.gov.az/page/37.html#2013

# XIX ƏSRİN İKİNCİ YARISI XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN TARİXİ MƏSƏLƏLƏRİ DÖVRÜN MƏNBƏLƏRİNDƏ

**Naibə Əhmədova**
Azərbaycan Dövlət Pedaqoji Univeriteti
naiba.ahmedova@mail.ru
**Aybəniz Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
aybaniz.memmadova@gmail.com

***Açar sözlər:*** *Azərbaycan tarixi, mənbələr, hesabatlar, məcmuələr, kargüzarlıq sənədləri*

*XIX əsrin ikinci yarısı - XX əsrin əvvəlləri Azərbaycan tarixinin öyrənilməsində əsas mənbəşünaslıq bazasını arxiv sənədləri təşkil edir. Bu materiallar keçmiş SSRİ Mərkəzi Dövlət Tarix Arxivində, Azərbaycan SSR Mərkəzi Dövlət Tarix Arxivi, Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivi, AMEA Tarix İnstitutunun Elmi arxivinin fondlarında saxlanılır. Dövrün mənbələri arasında müxtəlif məlumat və sorğu kitabları, illik icmallar, statistik idarələrin nəşr etdirdikləri məcmuələr, qubernatorların, fabrik-zavod müfəttişlərinin və başqa hökümət məmurlarının hesabatları xüsusi yer tutur. Bu mənbələrdə müxtəlif rus müəssisələrinin və səhmdar cəmiyyətlərinin təsisolma tarixləri, təsisçiləri, idarə heyətlərinin tərkibi, kapitalların miqdarı və istehsal göstəriciləri haqqında materiallar vardır. Bu mənbələr bəzi müəlliflər tərəfindən tənqidi araşdırılmışdır.Məqalədə məhz bu sənədlər təhlil edilmişdir.*

## ИСТОРИЧЕСКИЕ ВОПРОСЫ АЗЕРБАЙДЖАНА ВО ВТОРОЙ ПОЛОВИНЕ XIX НАЧАЛЕ XX ВЕКА В ИСТОЧНИКАХ ТОГО ВРЕМЕНИ

**Наиба Ахмедова**
**Айбениз Мамедова**

***Ключевые слова:*** *История Азербайджана, источники, отчеты, сборники, делопроизводственные документы*

*Основу источниковедческой базы для изучения истории Азербайджана второй половины XIX - начала XX века составляют архивные документы. Эти материалы хранятся в Центральном Государственном Историческом Архиве бывшего СССР, Центральном Государственном*

*Историческом Архиве Азербайджанской ССР, Центральном Государственном Историческом Архиве Грузии, а также в фондах Научного архива Института истории НАНА. Среди источников того времени особое место занимают различные справочные и информационные книги, ежегодные обзоры, сборники, издаваемые статистическими управлениями, а также отчеты губернаторов, фабрично-заводских инспекторов и других государственных чиновников. Эти источники содержат материалы о датах основания различных русских учреждений и акционерных обществ, их учредителях, составе советов директоров, размерах капиталов и производственных показателях. Некоторые из этих источников подвергались критическому изучению со стороны авторов.* В статье *анализируются документы.*

## HİSTORİCAL ISSUES OF AZERBAİJAN İN THE SECOND HALF OF THE 19TH CENTURY TO THE EARLY 20TH CENTURY İN THE SOURCES OF THE PERİOD

**Naiba Ahmadova**
**Aybaniz Mammadova**

***Keywords:*** *History of Azerbaijan, sources, reports, collections, administrative documents*

*The main source base for studying the history of Azerbaijan in the second half of the 19th century to the early 20th century consists of archival documents. These materials are preserved in the Central State Historical Archive of the former USSR, the Central State Historical Archive of the Azerbaijan SSR, the Central State Historical Archive of Georgia, and the scientific archive funds of the Institute of History of ANAS. Among the sources of the period, special importance is given to various reference and informational books, annual reviews, collections published by statistical offices, and reports of governors, factory inspectors, and other government officials. These sources contain materials about the establishment dates of various Russian enterprises and joint-stock companies, their founders, board compositions, capital amounts, and production indicators. Some of these sources have been critically examined by certain authors. These documents are analyzed in the article.*

XIX əsrin ikinci yarısı Rusiyanın iqtisadi inkişafında feodal-təhkimçilik sistemi böhranının getdikcə dərinləşməsi və kapitalist münasibətlərinin

yaranması ilə xarakterizə olunur. Bu, Rusiya imperiyasının müstəmləkəsi olan Quzey Azərbaycana öz təsirini göstərir, burada da burjua münasibətləri təşəkkül tapırdı.

XIX əsrin birinci yarısında yaranmış bəzi mənbə növləri (salnamələr, aktlar, fərmanlar və s.) kapitalizm dövründə öz mövcudluğunu saxlasa da, xalqımızın həyatındakı keyfiyyət dəyişikliyi və sürətli inkişafı özündə ehtiva edən yeni növ mənbələr (partiya və təşkilatların, inhisar birliklərin sənədləri, foto-fono, kino sənədləri) yarandı. Quzey Azərbaycanın həyatının bütün sahələrində yaranan dəyişiklik və inkişafı izləmək baxımından bu mənbələr dəyərli məlumatlar verir.

XIX əsrin ikinci yarısı - XX əsrin əvvəlləri Azərbaycan tarixinin öyrənilməsində əsas mənbəşünaslıq bazasını arxiv sənədləri təşkil edir. Bu materiallar keçmiş SSRİ Mərkəzi Dövlət Tarix Arxivində, Azərbaycan SSR Mərkəzi Dövlət Tarix Arxivi, Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivi, AMEA Tarix İnstitutunun Elmi arxivinin fondlarında saxlanılır.

Dövrün mənbələri arasında müxtəlif məlumat və sorğu kitabları, illik icmallar, statistik idarələrin nəşr etdirdikləri məcmuələr, qubernatorların, fabrik-zavod müfəttişlərinin və başqa hökümət məmurlarının hesabatları xüsusi yer tutur. Bu mənbələrdə müxtəlif rus müəssisələrinin və səhmdar cəmiyyətlərinin təsisolma tarixləri, təsisçiləri, idarə heyətlərinin tərkibi, kapitalların miqdarı və istehsal göstəriciləri haqqında materiallar vardır. Bu mənbələr bəzi müəlliflər tərəfindən tənqidi araşdırılmışdır [10, s.13].

Azərbaycan Respublikası Tarix Arxivinin (ARTA) fondlarında Azərbaycanda aqrar islahatların keçirilməsi, kəndlilərin şikayətləri, bəy komissiyaları, su məsələsi ilə bağlı kəndlilərin çıxışları, qaçaqlar haqqında və digər materiallar vardır. Orada çarizmin müstəmləkəçilik siyasətinin istiqamətləri və Azərbaycan kəndlilərinin azadlıq mübarizəsinin gedişindən bəhs edən qiymətli faktlara rast gəlinir.

1917-ci ilin oktyabrınadək olan jurnal və illik məcmuələrdən (yejeqodnik) "Vestnik finansov", "Promışlennost i torqovlya", "Poçtovo-teleqrafnıy jurnal", "İzvestiya Zakavkazskoqo statistiçeskoqo komiteta", "Vestnik vinodeliya", "İzvestiya ministerstva zemledeliya i qosudarstvennıx imuşestv", "Obzorı qlavneyşix otrasley promışlennosti i torqovli" qəzetləri, "Moskovskiy teleqraf", "Severnaya pçela","Zemledelçeskaya qazeta","Yujnıy Kavkaz", "Baku", "Bakinskiye izvestiya", "Kaspi", "Qafqaz", "Novoye obozreniye", "Yelizavetpolskiye qubernskiye vedomost", "Yelizavetpolskiy listok", "Kavkazskoye xozyaystvo" və digər qəzetlərdə sənaye, ticarət, kənd təsərrüfatı, mədəniyyət və s. haqqında çoxlu məlumatlar vardır. 1847-ci ildə nəşr olunmuş Rusiyanın "Tam Qanunlar Külliyatı"nda və 1911-1914-cü illərdə nəşr olunmuş "Hərbi Ensiklopediya"dakı materiallar da mənbə xarakteri daşıyır [8, s. 14].

Hərbi Ensiklopediyada Cənubi Qafqazda aparılan hərbi əməliyyatlarla bağlı materiallar digər mənbələrdəki faktları dəqiqləşdirməyə imkan verir.

XIX əsrin ikinci yarısı – XX əsrin başlanğıcında burjua müəlliflərinin əsərlərində Cənubi Qafqazın ərazisi, xüsusən şəhərləri, əhalisi, sosial tərkibi, idarəçilik sistemi, büdcəsi, quruculuq, abadlıq işləri haqqında dəyərli məlumatlar vardır.

1917-ci ilədək Qafqaza gəlmiş müxtəlif sahələrin rus mütəxəssisləri, yoxlama aparmaq üçün ayrı-ayrı nazirlik və idarələrdən göndərilmiş məmurlar, yerli ictimaiyyətin nümayəndələri, Azərbaycanın şəhərləri, sosial-iqtisadi və mədəni həyatı haqqında informasiya verən məlumatlar, hesabatlar saxlamışlar. Onlardan K.Vorenkeviç-Bassantsın "Zaqafqaziya diyarının ölçü, çəki və pul vahidləri", M.Ballasın "Rusiyada şərabçılığın tarixi-statistik oçerki (Qafqaz və Krım)", K.Xatisovun "Zaqafqaziya diyarının kustar mədənləri", A.Gülişəmbərovun "Zaqafqaziya diyarının fabrik və zavodlarının xülasəsi" və digərlərini qeyd etmək lazımdır [9 ,7, 17, 11].

XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətində sosial-iqtisadi inkişafın xüsusiyyətləri, siyasi mübarizə bir çox sənədlərdə yazılı şəkildə özünü göstərirdi ki, bu da mənbəşünaslıq üçün xüsusi əhəmiyyət kəsb edirdi. Sənədlərdə həm əvvəlki dövrlərə xas olan, həm də spesifik xüsusiyyətlər öz ifadəsini tapmışdır.

Rusiya imperiyasında qanunların yaradılması prosesində baş verən dəyişikliklər I rus inqilabı ilə bağlıdır. Dövlət Dumasının təsisi qanunçuluq təşəbbüsünü reallaşdırmağa imkan verdi. Dövlət Dumasına "Qafqazda seçkilər haqqında Əsasnamə"nin çar tərəfindən təsdiqinə müxtəlif aktların xüsusi növü kimi çox az-az hallarda təsadüf olunurdu. Nizamnamələr aktların özünəməxsus forması idi, siyasi üstqurumdakı mühüm dəyişiklikləri əks etdirən sənədlər idi. Bir sıra xeyriyyə cəmiyyətlərini "Bakı Müsəlman Xeyriyyə cəmiyyəti", "Nəşr maarif", "Nicat", "Maarif" cəmiyyətlərinin, "Səadət", Gəncədə "Cəmiyyəti xeyriyyə", Şuşada "Hidayət" cəmiyyətlərinin, "Müsəlman Gənclik təşkilatı", "Müsəlman demokratik müsavat cəmiyyəti", "Müsəlman əyanları, ziyalıları və yuxarı təbəqələrinin ittifaqı və müdafiə cəmiyyəti", "Hümmət", "Qeyrət", "İttifaq", "Kadet", "Difai", "Müdafiə", "Müsavat" partiyalarının, sənaye, maliyyə, ticarət yönümlü təşkilatların nizamnamələri dövrə aid qiymətli mənbələrdir. Bu təşkilatların qəbul etdiyi proqramlar, qərarlar, bəyannamələr, intibahnamələr dövrün tarixi proseslərini izləmək üçün dəyərli sənədlərdir.

1901-ci ilin əvvəllərində əsasən rus və digər millətlərin nümayəndələrindən ibarət çarizmə və istismarçılara qarşı mübarizə aparan 15-ə qədər sosial-demokrat dərnəyi fəaliyyət göstərirdi. .Həmin təşkilatların birləşməsindən PSDFP-nın Bakı Komitəsi yarandı. Sosial-demokratlar gizli "Nina " mətbəəsi yaradıb "İskra" qəzetinin nömrələrini çoxaldaraq fəhlələr arasında yayırdılar.

1903-cü ildə RSDFP-nın Bakı komitəsi bolşevik və menşevik təşkilatlarına parçalandı.

İqtisadi böhran illərində Azərbaycanda fəhlə hərəkatı genişləndi. Bakıda ilk tətillər tələblərinə və mübarizə formasına görə əvvəlki illərdəki tətillərə oxşasa da, səviyyəsinə və qətiyyətinə görə xeyli fərqlənirdi. 1900-cü ildə Bakıda S.Razin dağında 1 May bayramı tətillə müşayiət olundu. 1901-ci ildə 1 May yenidən qeyd olunan zaman Bakı tütün fabrikində, Sabunçu "Remont" mexaniki emalatxanasında, Balaxanı mexaniki zavodunda, Gəncə və Tovuz dəmiryolu stansiyasında fəhlələr tətil etdilər. 1902-ci il aperin 27-də Bakıda ilk açıq 1 May nümayişi keçirildi.

1903-cü il iyunun 18-də Bibiheybətdə iqtisadi tələblərlə başlanan tətil, həm də siyasi xarakter alaraq ilk ümumi tətilə (4-22 iyul 1903) çevrildi. Neft maqnatları tətil komitəsini "Fəhlə hökuməti" adlandırdılar. Tətilçilərin tələblərinin çoxu ödənilmədi, lakin fəhlələr mənəvi cəhətdən qələbə qazandılar. Alman sosial-demokrat liderlərindən biri 1903-cü ildə dünyada fəhlə hərəkatının iki mühüm qələbəsindən biri kimi Bakı fəhlələrinin ümumi tətilini qeyd etmişdir. 1904-cü ilin 13-31 dekabrında keçirilmiş əzəmətli ümumbaki tətili neftçi fəhlələrin qələbəsi ilə başa çatdı. Dekabrın 30-da neft sənayeçiləri ilə fəhlələr arasında müştərək müqavilə ("Mazut Konstitutsiyası") bağlandı.

Mənbələrin yeni tipi olan kargüzarlıq sənədlərinin yaranması kapitalist münasibətlərinin inkişafı ilə bir dövrə təsadüf edir. Bu sənədlər müəssisə, təşkilat və idarələrin struktur fəaliyyətini əks etdirir və onların yaranmasını şərtləndirən amillər dövlət aparatının idarəetmə funksiyasının genişlənməsi, ictimaiyyətin idarəetmə orqanları ilə münasibətlərə tələbatının artması ilə bağlıdır.

Kargüzarlıq sənədləri bir neçə tipə bölünür: a)dövlət, müəssisə, təşkilat və idarə sənədləri; b)şəxsi təsərrüfat, təşkilat, müəssisə, kompaniya və bankların sənədləri; c)məhkəmə-istintaq orqanları sənədləri; d)siyasi partiya və təşkilatların sənədləri. Bu tiplərin özü də növlərə bölünür. Birinci tipə aid növlərə daxildir: protokol, hesabat, o cümlədən qubernator hesabatları, reyestrlər, müraciətlər, yazışmalar, göstərişlər, sirkulyarlar, sərəncamlar, diplomatik sənədlər. Bunların sırasında qubernator hesabatları daha əhəmiyyətlidir [3].

XX əsrin əvvəlləri çar Rusiyasında ictimai-siyasi gərginliyin artması ilə hökümətin bu qüvvələrə qarşı mübarizəsini əks etdirən sənədlər (axtarışlar, dindirilmələr, ifadələrin protokolları, hesabat sənədləri, mühakimə aktları) həm siyasi prosesləri izləmək, həm də ölkənin istintaq-məhkəmə orqanlarının iş metodlarının tədqiqi baxımından da aktualdır. Sosial-iqtisadi xarakterli materialları əhatə edən şəxsi müəssisə, təsərrüfat, təşkilat və bankların kargüzarlıq sənədləri aktlardan, mühasibat sənədlərindən, direktorların hesabatından, kargüzalıq statistikasından ibarətdir. Bu sənədlər sənaye və kənd təsərrüfatının inkişaf istiqamətləri ilə yanaşı, inqilabi hərəkatların yaranması və inkişaf tarixi

barədə də məlumatlar verir. Sosial-siyasi proseslərin araşdırılması üçün siyasi partiya və təşkilatların kargüzarlıq sənədləri çox qiymətlidir. Buraya partiya və təşkilatların sənədləri, nizamnamə və proqramlar, qərar və qətnamələr daxildir.

Yeni dövr tariximizin öyrənilməsində akt sənədlərinin bir növü olan iqtisadi-coğrafi təsvirlərin xüsusi əhəmiyyəti vardır. İqtisadi coğrafi təsvirlərin iqtisadi, hərbi-topoqrafik, səyyah, statistik qeydlər-hesabatlar kimi növləri vardır. QAKA-da dövrə aid minlərlə sənəd, məktub, fərman, arayış, raport toplanmışdır [6]. Burada həmçinin 1853-cü ildə Car-Balakəndəki üsyanlar, şahsevənlərin çıxışları, vergilər haqqında dəyərli məlumatlar vardır.

Bəhs olunan dövrün öyrənilməsində qanunçuluq aktlarının mühüm əhəmiyyəti var. Qanunun formalaşdırılması mərhələləri: qanunçuluq təşəbbüsü, qanun layihələrinin işlənib hazırlanması, müzakirəsi, təsdiqi, çapı, onun qəbul olunduğu şərait tədqiqatçıya xeyli informasiya verir.

Rus imperiyasının qanunvericilik sənədləri tipinə görə xüsusi və hökümət mənşəli olub Cənubi Qafqazda sosial-siyasi və sosial-iqtisadi prosesləri Romanovlar sülaləsinin mənafeyinə uyğun tənzimləyirdi. Onlar tariximizin araşdırılması və yazılması üçün dəyərli məxəzlərdir. Lakin Rusiyada mütləqiyyətin mövcudluğu qanunvericilik sənədlərinin dəqiq təsnifatını mümkünsüz edir. Həmin dövrün qanunvericilik sənədlərini belə qruplaşdırmaq olar: manifestlər, əsasnamələr, qanunlar, fərmanlar, nizamnamələr, Dövlət Şurasının aktları.

1859-cu il 1 yanvar tarixli "Baş idarə və Qafqaz Canişin Şurası haqqında Əsasnamə", 1860-cı il 5 mart tarixli "Dağıstan vilayətinin idarə olunması haqqında Əsasnamə", 1906-cı il fevralın 2-də "Qafqazda seçkilər haqqında Əsasnamə", 1878-ci ildə Bakıya aid edilmiş "1870-ci il Şəhər Əsasnaməsi", "1892-ci il Şəhər Əsasnaməsi" inzibati idarəçilik sahəsində dəyişiklikləri izləməyə imkan verir.

I Rus inqilabının gedişində bu və ya digər dəyişiklikləri elan edən Manifestlər (bəyannamə) meydana gəldi. İmperator II Nikolay inqilabi hərəkatı zəiflətmək və mütləqiyyətin iflasının qarşısını almaq üçün "17 oktyabr 1905-ci il" Manifestini imzalayaraq, bir sıra güzəştlərə gedəcəyini bəyan etmişdir. İmperator həmçinin 3 noyabr 1905-ci il tarixdə "Kənd əhalisinin maddi rifahının yaxşılaşdırılması və vəziyyətinin yüngülləşdirilməsinə dair Manifest", 1905-ci il 6 avqustda "Dövlət Dumasının təsis edilməsi haqqında Manifest" vermişdi. Əsasnamələr bəhs olunan dövrdə dövlət və xüsusi müəssisələrin, təşkilatların fəaliyyətini, ayrı-ayrı silklərin hüquqi vəziyyətini, bəzi regionların idarə edilməsi qaydalarını müəyyən edən qanunçuluq aktı formasıdır.

Quzey Azərbaycanda sahibkar kəndlilərlə bağlı islahat keçirmək üçün çar II Aleksandr ilk addım olaraq 1861-ci il iyunun 29-da "Cənubi Qafqaz diyarının mərzləşdirilməsi haqqında Əsasnamə"ni təsdiq etdi. Qanuna əsasən hər bir kənd icmasının, bütün mülk və malikanələrin sərhədlərini müəy-

yənləşdirmək üçün Cənubi Qafqaz Mərz Palatası yaradıldı. 1861-ci ildə çar höküməti ağaları kəndlilər üzərində polis nəzarəti və məhkəmə hakimiyyəti hüququndan məhrum etdi [1, s.180]. Həmin ilin dekabrında Cənubi Qafqazda yerli (zemski) gözətçi dəstələri haqqında "Əsasnamə" təsdiq edildi. Bu dəstələr yollar üzərindəki gözətçi xidmətinin və qarovul məntəqələrinin saxlanılmasını təmin etməli idilər. Elə həmin il Cənubi Qafqaz barədə müntəzəm məlumatlar toplayan quberniya statistika komitələri yarandı [1, s. 181].

1864-cü ildə çar hökümət Şərqi Gürcüstanda kəndli islahatı haqqında "Əsasnamə"ni təsdiq etdi. Həmin ildə Zəylik zəy zavoduna təhkim edilmiş kənd sakinlərinin, Bakı quberniyasındakı neft quyularına təhkim edilmiş Balaxanı kəndlilərinin, 1868-ci ildə Naxçıvan duz mədənlərində işləyən Şıx-mahmud kəndlilərinin məcburi əməyi ləğv edildi. Bütün bunlar Quzey Azərbaycanda kəndli islahatı keçrilməsinin başlanğıcını qoydu.

1865-ci il yanvarın 28-də bəyləri məhkəmə-polis hakimiyyəti hüququndan məhrum edən və "seçkili" əsaslar üzərində qurulan "Kənd cəmiyyətlərinin ictimai idarəsi haqqında Əsasnamə" nəşr edildi. Tiflisdə Mərkəzi Cənubi Qafqaz Komitəsi yaradıldı ki, bu Komitənin tərkibinə Azərbaycan bəylərinin bir nəfər də olsa nümayəndəsi daxil edilməmişdi. Ona görə ki, bəylər "ali silk" hesab olunsalar da, hüquqi cəhətdən rus və gürcü zadəganlarına və mülkədarlarına bərabərləşdirilməmişlər.

1870-ci il mayın 14-də verilmiş "Zaqafqaziya quberniyaları: Yelizavetpol, Bakı, İrəvan və qismən Tiflis quberniyaları ali müsəlman silkindən olan şəxslərin və habelə erməni məliklərinin torpaqlarında sakin olan dövlət kəndlilərinin torpaq quruluşu haqqında Əsasnamə" üç əsas məsələni əhatə edirdi: kəndlilərin şəxsi asılılığının ləğvi, torpaq və vergilər məsələsi. İslahat 1847-ci il "Kəndli əsasnamələri" əsasında hazırlanmışdı və bu qanunvericilik aktları kəndliləri iki qrupa: sahibkar (25-30%) və dövlət (70-75%) kəndlilərinə bölürdü [4, s.18].

1870-ci il 14 may "Əsasnamə"sinə görə torpaq sahibkarları ilə kəndlilər arasında münasibətlər "torpaq nizamnamələri" adlandırılan xüsusi aktlarla müəyyən olunurdu. Yerlərdə kəndli işləri üzrə quberniya idarələri barışıq vasitəçilərini əldə rəhbər tutaraq torpaq nizamnamələrinin vahid ümumi formasını müəyyən etdilər.

1870-ci il 14 may "Əsasnamə"si canişinin əmri ilə 1870-ci il noyabrın 8-də qüvvəyə mindi [12, s.230]. 1870-ci il "Kəndli Əsasnaməsi" 1873-cü ildə cüzi dəyişikliklə Quba qəzasına, 1913-cü il 7 iyulda Zaqatala dairəsinə aid edildi. Çar məmurlarının özləri dəfələrlə etiraf etmişdilər ki, kəndli islahatı imperiyanın heç yerində Cənubi Qafqazda olduğu kimi ağır və əzablı olmamışdır. Kəndlilərin bəy və ağalardan asılılığına tam son qoyulmadı, onlar torpaqla tam təmin edilmədi. İslahat Azərbaycan kənd istehsalçılarının çoxunu təşkil edən xəzinə (dövlət) kəndlilərinə aid edilmədi [15]. Bəhs olunan dövrdə

torpaq fondu yenə də xəzinə və xüsusi mülkiyyət kimi yerli bəylərin ixtiyarlarında olan sahibkar torpaqlarından ibarət idi.

1890-cı il dekabrın 3-də Cənubi Qafqazda torpaqların suvarılması işində hüquqi əsaslar və qayda – qanun yaratmaq məqsədilə "Sudan istifadə haqqında Əsasnamə" qəbul edildi [15]. "Əsasnamə" su üzərində xüsusi mülkiyyəti ləğv etdi. Bütün suvarma təsərrüfatına rəhbərlik edən Qafqaz Su Müfəttişi və hər su sahəsinin idarəçisi sayılan su mühəndisi vəzifələrini təsis etdi. Yenə də hər üç ildən bir seçilən mirab sudan istifadə işində həlledici rola malik idi. Hər il seçilən cuvarlar yenə də mirablara tabe edilirdilər."Əsasnamə" sudan istifadə qaydalarında dəyişiklik yaratmasa da, onları rəsmiləşdirməkdə mühüm iş gördü.

XX əsrin əvvəllərinə qədər çar hökuməti tərəfindən dövlət kəndində torpaq münasibətlərini nizama salmaq məqsədilə elə bir ciddi tədbir görülməmişdi. Dövlət kəndlisinin istifadəsindəki torpaq sahəsi sahibkar kəndlisinin istifadə etdiyi torpaqdan üç dəfə çox idi. 1900-cü il mayın 1-də imperator II Nikolay dövlət kəndində torpaq münasibətlərini qaydaya salmaq haqqında "Tiflis, Yelizavetpol, Bakı və İrəvan quberniyaları dövlət kəndlilərinin torpaq təminatının mühüm əsasları"nı təsdiq etdi. "Cənubi Qafqazda dövlət kəndlilərinin torpaq quruluşu haqqında" adlı bu qanun dövlət kəndlilərinə icma torpaqlarından nəsli istifadə hüququ verirdi [16, s.270]. Bunun üçün isə kənd icması yığıncaqlarının razılığı olmalı idi. Qanunun bu maddəsi icma torpaq mülkiyyətinə çox böyük zərbə vurdu.

1900-cü il may qanunun 14-cü maddəsinə uyğun olaraq 1903-cü il aprelin 21-də "Cənubi Qafqazın beş quberniyasında pay torpaqlarını müəyyənləşdirmək və torpaq quruluşu işini aparmaq qaydası haqqında Əsasnamə" verildi. Qanuna görə pay torpaqlarının planı hazırlanarkən istifadə edilən mövcud sərhədlər əsas götürülməli idi. Qanunlar imperiyada Dövlət Dumasının yaranmasından sonra meydana gəlmiş ali hüquqi statusa malik sənədlər idi.

IV Dövlət Dumasının "Cənubi Qafqaz quberniyalarında torpaqların məcburi surətdə satın alınması haqqında"1912-ci il 20 dekabr tarixli, "Dağıstan və Zaqatala dairəsində kəndlilərin bəylərdən və keşkəl sahiblərindən asılılıq münasibətlərini ləğv etməsi haqqında" 1913-cü il 7 iyul tarixli qanunları aqrar səpkili qanunlara aiddir.

Rus kapitalizmi imperiyanın ucqarlarında öz sənayesi üçün bazar yaradırdı, digər tərəfdən elə həmin sənayenin xammala olan ehtiyaclarını ödəmək üçün ucqarlarda ticarət əkinçiliyinin, balıq, dağ-mədən, neft və digər sənaye sahələrinin yaranması və inkişafını hər vasitə ilə stimullaşdırırdı. Bu da Azərbaycanda müstəmləkə iqtisadiyyatının, qismən hasilat və emal sənayesinin, ticarət xarakterli kənd təsərrüfatı sahələrinin yaranmasına gətirib çıxartdı.

XIX əsrin 60-cı illərindən başlayaraq sənaye müəssisələrində neftdən tədricən dünya miqyasında yanacaq vasitəsi kimi istifadə edilməyə başlandı.

Bununla əlaqədar neft məhsullarına olan tələbat artdı. Nəticədə Bakı nəinki Rusiya imperiyasının, həm də dünyanın əsas neft mərkəzinə çevrildi. Çar höküməti neft istehsalını artırmaq məqsədilə bu yoldakı maneələri aradan qaldırmaq üçün tədbirlər gördü. İlk olaraq 1864-cü ildə Balaxanı kəndlilərinin məcburi əməyi ləğv edildi. Bunun nəticəsində neft mədənlərində muzdlu fəhlələr işləməyə başladı. Bu, neft sənayesində kapitalistcəsinə inkişafın əlaməti idi.

Çar tərəfindən "Neft istehsalı və fotogen istehsalından aksiz haqqında qaydalar" 1872-ci il fevralın 1-də, "Qafqaz və Cənubi Qafqazın iltizamda olan xəzinə neft mədənlərinin müzayiqə yolu ilə xüsusi şəxslərə verilməsi haqqında qaydalar" isə 1872-ci il fevralın 17-də təsdiq olundu. Bu qaydalara əsasən xəzinənin iltizamda olan neft mənbələri müzayiqələr (torq) yolu ilə xüsusi şəxslərə verildi. İltizam sisteminin ləğvi neft istehsalında qəti dönüş yaratdı, neft sənayesi kapitalist istehsalı sahəsinə çevrildi. Zəy, mis və duz istehsalında da iltizam sisteminin ləğvi mütərəqqi addım idi.

Dumadan kənar qanunçuluq adlanan və əsas forma kimi qəbul edilən fərmanlar qanunçuluq aktlarının yayılmış formalarından biri idi. Fərmanlar geniş məsələlər dairəsi üzrə hüquqi normaları müəyyən edə bilirdi. "Kənd sakinlərinin və keçmişdə imkanlıların təsiri altına düşmüş şəxslərin hüquqlarında bəzi məhdudlaşdırmaların dəyişdirilməsinə dair" imperator II Nikolayın 1906-cı il 5 oktyabr tarixli Fərmanı ilə kəndlilərin hüquqi vəziyyətindəki şəxsi asılılığın bəzi qalıqları ləğv edildi [3, s.40].

Rusiya imperiyası Nazirlər Şurasının sədri Stolıpinin aqrar dəyişiklərinin başlanması ilə əlamətdar olan kəndli icmasının ləğv edilməsini və icma torpaqlarının kəndlilərin şəxsi mülkiyyətinə çevrilməsini nəzərdə tutan "Kəndlilərin torpaq sahibliyinə və torpaqdan istifadəsinə aid olan qanunların bəzi qərarlarına əlavələr haqqında" 1906-cı il 9 noyabr tarixli Fərmanı dövrün əsas sənədlərindən biri idi [2, s.40]. Tezliklə I Duma buraxıldı və bu qanun Duma tərəfindən təsdiq edilmədən elan olundu. 1906-cı il 9 noyabr tarixli Fərmanı ilə 1910-cu il iyunun 14-də II Nikolayın Dumanın və Dövlət Şurasının qəbul etdiyi "kəndli torpaq sahibliyinə dair" qanun layihəsi arasında üzvü əlaqə var idi [5, s.369].

Rusiya imperiyası Dövlət Şurasının aktları iqtisadi məsələləri nizamlayan sənəd kimi əhəmiyyətlidir. Rusiya imperiyası tərkibində olan Qafqazın idarəçiliynə aid qanunvericilik sənədləri 3 cilddən ibarət "Rusiya imperiyasının qanunlarının tam külliyatı" toplusunda nəşr olunmuşdur. Toplunun sonuncu 3-cü cildi 1881-ci ildən 1913-cü ilədək dərc olunmuş qanunları əhatə edir. Bu sənədlər Qafqazın idarə olunması mexanizmini, Rusiyanın müstəmləkəçilk siyasətinin istiqamətlərini və mahiyyətini, imperiyanın Qafqazı sosial-iqtisadi, siyasi, mədəni-dini cəhətdən nizamlaması, baxımından əhəmiyyətlidir.

## Ədəbiyyat


1. Azərbaycan tarixi. 7 cilddə, IV cild. Bakı, 2000, 503 s.
2. Əmirov H. Yeni və ən yeni Azərbaycan tarixinin mənbəşünaslığı. Bakı, 2001. 126 s .
3. Məmmədova Ş.R. Mənbəşünaslığa giriş, Bakı, Mütərcim, 2008. 220 s.
4. Niftəliyev R Y. XIX əsrin ikinci yarısında Azərbaycan kəndlilərinin azadlıq hərəkatı:/ tarix üzrə fəlsəfə doktoru dis. Avtoreferat, Bakı, 1999. 24 s.
5. SSRİ tarixi. İkinci hissə 1861-1917. Bakı: Maarif, 1982. 562 s.
6. Акты, собранные Кавказской Археографической Комиссией: Под редакцией А.Берже,тт, 1-XII,Тифлис. 1866-1904.
7. Баллас,М. Историко-статистический очерк виноделия в России /Кавказ и Крым/, СПб., 1877.
8. Военная Энциклопедия, I – XIV тт. СПб., 1911-1914
9. Воренкевич – Бассанц, К. Описание мер, весов и монет Закавказского края. Журн. Мин.Внут.Дел, ч.37, СПб., 1834.
10. Воробьев, Н. Очерки по истории промышленной статистики дореволюционной России и СССР. Москва. 1961. 133 с.
11. Гулишамбаров, С.И. Обзор фабрик и заводов Закавказского края. Тифлис, 1894. 414 с.
12. Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX вв., ч.I. Москва-Ленинград:-АН СССР,-1936.-463с. ч.II. Москва-Ленинград, 1937. 478 с.
13. Массовые источники по социально-экономической истории России период капитализма. Москва, 1973. 414 с.
14. Полное собрание законов Российской империи. СПб., 1847. 951 с.
15. СМИЭБГИЗК, ч.1,ч.2.
16. Френкель,А.С.Средства для борьбы с разбоем на Кавказе. Тифлис, 1898. 176 с.
17. Хатисов, К.Кустарные промыслы Закавказского края. Тифлис, 1891. 153 с.

# AZƏRBAYCANIN QALA VƏ İSTEHKAM TİKİLİLƏRİNİN MEMARLIQ XÜSUSİYYƏTLƏRİ

**Nərmin Bayramova**
*AMEA Arxeologiya və Antropologiya İnstitutu*
*nermin.bayramova98@gmail.com*

***Açar sözlər:*** *Azərbaycan memarlığı, müdafiə tikililəri, qalalar, orta əsrlər.*

*Məqalə özündə Azərbaycanda tarixi müdafiə tikililəri, qala və istehkamlar müxtəlif dövrlərin memarlıq xüsusiyyətlərini əks etdirir. Onlar təkcə hərbi məqsədlər üçün deyil, həm də şəhərlərin inkişafı və ətraf mühitlə uyğunlaşma baxımından mühüm rol oynayıb. İslamın yayılması ilə yeni müdafiə tikililəri inşa edilmiş, mövcud qalalar isə təkmilləşdirilmişdir. Bu qalalar Azərbaycanın qədim mədəni irsinin bir parçası olmaqla, mühüm strateji əhəmiyyət daşıyır. Bu qalalar Azərbaycan xalqının müxtəlif dövrlərdə xarici müdaxilələrə qarşı göstərdiyi müqavimət iradəsini təcəssüm etdirir. Onların tikilişi və yerləşdiyi coğrafiya həm müdafiə, həm də iqtisadi və mədəni əlaqələrin gücləndirilməsi məqsədinə xidmət etmişdir. Müasir dövrdə bu tikililər arxeoloji və memarlıq baxımından tədqiq edilir və qorunur. Tarixi qala və istehkamlar Azərbaycan memarlığının zənginliyini və strateji önəmini nümayiş etdirir, eyni zamanda ölkənin mədəni irsini gələcək nəsillərə çatdırmaq üçün bir körpü rolunu oynayır. Məqalədə yer alan müxtəlif qalalar haqqında geniş araşdırma tətbiq edilərək hərtərəfli şərh edilmişdir.*

## АРХИТЕКТУРНЫЕ ХАРАКТЕРИСТИКИ ФОРТОВ И ФОРТИКАЦИОННЫХ ЗДАНИЙ АЗЕРБАЙДЖАНА

**Нармин Байрамова**

***Ключевые слова:*** *архитектура Азербайджана, оборонительные сооружения, крепости, средневековье.*

*В статье отражены архитектурные особенности исторических оборонительных сооружений, замков и укреплений разных периодов в Азербайджане. Они сыграли важную роль не только в военных целях, но и в плане городского развития и адаптации к окружающей среде. С*

*распространением ислама были построены новые оборонительные сооружения и усовершенствованы существующие крепости. Являясь частью древнего культурного наследия Азербайджана, исследуемые архитектурные сооружения имеют важное стратегическое значение. Эти крепости олицетворяют волю азербайджанского народа противостоять иностранным интервенциям в различные периоды. Их конструкция и географическое положение служили целям как защиты, так и укрепления экономических и культурных связей. В наше время эти строения охраняются и изучаются археологическими и архитектурными исследованиями. Исторические крепости и укрепления демонстрируют богатство и стратегическое значение азербайджанской архитектуры и в то же время служат мостом для передачи культурного наследия страны будущим поколениям. Различные крепости, включенные в статью, были всесторонне интерпретированы на основе анализа обширных исследований.*

## ARCHITECTURAL FEATURES OF CASTLE AND FORTIFICATION BUILDINGS OF AZERBAIJAN

**Nermin Bayramova**

***Keywords:*** *Azerbaijan architecture, defensive structures, fortresses, Middle Ages.*

*The article reflects the architectural features of historical defensive structures, castles and fortifications of different periods in Azerbaijan. They played an important role not only for military purposes, but also in terms of the development of cities and their adaptation to the environment. With the spread of Islam, new defensive structures were built, and existing castles were improved. These castles, being part of the ancient cultural heritage of Azerbaijan, are of great strategic importance. These castles embody the will of the Azerbaijani people to resist foreign interference in different periods. Their construction and geography served the purpose of strengthening both defense and economic and cultural ties. In modern times, these buildings are studied and protected from an archaeological and architectural point of view. Historical castles and fortifications demonstrate the richness and strategic importance of Azerbaijani architecture, and at the same time play the role of a bridge to convey the country's cultural heritage to future generations. Extensive research has been applied to the various castles in the article, and a comprehensive commentary has been made.*

Azərbaycan ərazisində dövlətlərin təşəkkül tapdığı və urbanizasiya proseslərinin sürətləndiyi dövrlərdən başlayaraq müdafiə və istehkam tikililərinə xüsusi önəm verilmişdir. Şəhərlər möhtəşəm qala divarları və ətraflarına çəkilən xəndəklərlə qorunurdu. İslamın yayılması ilə həm yeni qala və istehkamlar inşa edilir, həm də mövcud tikililər bərpa olunurdu. Xarici hücum və basqınlar nəticəsində şəhərlərin müdafiə tikililərinə olan ehtiyac daha da artmışdır. Azərbaycan ərazisində bir çox müdafiə tikililəri mövcuddur və qalalar bu baxımdan ən çox diqqəti cəlb edənlərdir.

Arxeoloji araşdırmaların nəticələrinə əsasən, Azərbaycanda üç əsas istehkam növü fərqləndirilir [1]:

1. Məbədlər və dini əmlak üçün qalalar: Bu qalalar dini obyektləri və ruhanilərin əmlakını qorumaq məqsədi daşıyırdı. Belə qalalara misal olaraq Ləkit məbədi (Qax rayonu), Yovur qəsri (Ağdam rayonu), Xanəgah (Pirsaat çayı yaxınlığı) və digərlərini göstərmək olar.

2. Şəhər tipli qalalar: Feodal dövründə şəhərlərin inkişafı ilə bu cür qalalar meydana gəlmişdir. Onlar bəzən xəndəklər və iki-üç mərtəbəli divarlarla əhatə olunurdu. Şəhər qalaları kvadrat, dairəvi və yarımdairəvi bürclərlə xarakterizə edilir. Bakı, Dərbənd, Beyləqan və Qəbələ qalaları buna nümunədir.

3. Sığınacaq məqsədli qalalar: Bu qalalar əsasən əlçatmaz və strateji mövqelərdə inşa olunmuşdur. Çıraqqala, Cavanşirqala, Buğurt qalası, Əlincə qalası, Gülüstan qalası və Qız qalası bu kateqoriyaya daxildir.

XI-XVIII əsrlər arasında Azərbaycanın bir çox şəhərində onlarla qala və qəsr tikilmişdir. Hazırda onların bəziləri tamamilə dağılmış vəziyyətdə olsa da, arxeoloji tədqiqatlar sayəsində orta əsr müdafiə tikililərinin bir qisminin daha qədim bünövrələr üzərində inşa edildiyi müəyyən edilmişdir. Bakının Qız qalası buna nümunədir. Abidə silindrik formalı əsas hissə və uzunsov dayaq hissədən ibarətdir. Silindrik hissə müdafiəçiləri qorumaq üçün nəzərdə tutulmuşdur, lakin uzunsov hissənin funksiyası hələ də dəqiqləşdirilməmişdir. Qız qalasının hündürlüyü 29 metr, divar qalınlığı isə aşağıda 5 metr, yuxarıda 4 metrdir [4, s. 18-19].

Abidə səkkiz mərtəbəyə bölünmüşdür. Birinci mərtəbə 3 metr, qalan mərtəbələr isə orta hesabla 2,5 metr hündürlüyündədir. Hər mərtəbə günbəz formasında tavanla örtülmüşdür və bu tavanlarda dairəvi deliklər vardır ki, yuxarı mərtəbədən aşağıya doğru baxmaq mümkündür. Qalada xüsusi diqqət çəkən bir element qayadan yonulmuş su quyusudur. Quyunun diametri 0,7 metrdir və cənub-şərq divarının içində yerləşir. Arxeoloji tədqiqatlar nəticəsində quyunun XII əsrdən istifadə edildiyi aşkar edilmişdir.

Bakının digər mühüm müdafiə tikililərindən biri isə Şirvanşah I Axsitanın əmri ilə 1187-1188-ci illərdə inşa edilmiş Dördkünc Böyük Mərdəkan qalasıdır. Bu qala Axsitanın böyük bir qələbəsini əbədiləşdirmək məqsədilə tikilmişdir və tarixin müxtəlif mərhələlərində müdafiə istehkamı, müşahidə məntəqəsi və qala

kimi fəaliyyət göstərmişdir. Qalanın daxili həyəti 24x20 metr ölçüsündə, qülləsinin hündürlüyü isə 22 metrdir.

Tədqiqatçıların fikrincə, qüllə hündürlüyü müdafiəçilərə yalnız qala həyətini deyil, həm də ətraf sahələri nəzarətdə saxlamağa imkan verir. Qalanın yarımdairəvi kor qüllələri xarici müdafiəni gücləndirmək üçün bir-birindən 10-11 metr məsafədə yerləşdirilmişdir ki, bu da XIV əsrə qədər istifadə edilən normadan daha azdır [8, s. 52].

Memar düşmən atışlarından qorunmaq məqsədilə bu məsafəni daha qısa etmişdir. Mərdəkan qalasının xarici divarlarında maşikül adlanan kronşteynlər görünür. Giriş qapısının hər iki tərəfində yerləşən yarımdairəvi bürclər qapının müdafiəsini gücləndirir. Qalanın daxili həyəti elə qurulmuşdur ki, düşmən 5 metrlik dəhlizdən keçərək daxilə daxil olarkən müdafiəçilər üçün pusqu imkanı yaradırdı [8, s. 53].

Kəlbəcər rayonunda, Vəngli kəndində yerləşən, XIII əsrə aid tarixi-memarlıq abidəsi olan Xanabert qalası da diqqətəlayiq tikililərdən biridir. Qala həmçinin Xoxanabert kimi tanınır. Həsən Cəlal tərəfindən XIII əsrdə Gəncəsər monastırının yaxınlığında möhkəm müdafiə sistemi yaradılmışdır. Hökmdar öz kitabəsində özünü “Xoxanabert qalasının hakimi” adlandırmışdır. Qalanın ətrafında Qaxaç, Çilabörd kimi qalalar da Xanabertin hakimiyyəti altına daxil idi [9, s. 20].

Monqol istilalarının qarşısını almaq üçün ucaldılmış möhtəşəm müdafiə divarları və müxtəlif memarlıq üslubları bu günə qədər qismən də olsa qorunub saxlanmışdır. Qalanın daxilində eni üç, dərinliyi isə altı metr olan kvadrat şəklində üç su quyusu yerləşmişdir [9, s. 20].

Dağın zirvəsi qala divarları ilə tamamilə əhatə olunmuşdur. Xarabalıqlar arasında yaxşı qorunan bir pilləkən diqqət çəkir. Qalaya təxminən otuz metr məsafədə böyük bir qayanın üzərində ucaldılmış dördbucaqlı tikilinin qalıqları var. Bu tikili, ehtimal ki, müşahidə qülləsi olmuşdur.

Memar Mahmud ibn Səd tərəfindən 1301-ci ildə Abşeron yarımadasının şimal hissəsində Nardaran qalası inşa edilmişdir. Bu qala Bakı şəhərindən 25 km şimalda, Maştağa yaxınlığında, Nardaran kəndində yerləşir. Şirvanşahlar bu qaladan həm müdafiə, həm də müşahidə məqsədilə istifadə etmişlər.

Nardaran qalası üç əsas hissədən ibarətdir. Bu hissələrdən biri digərlərindən daha hündürdür. Qala divarlarının qalınlığı 1,5-dən 1,8 metrə qədər dəyişir. Birinci mərtəbədə yerləşən dərin quyu və bəzi məlumatlara görə qala daxilində mövcud olan yeraltı kanalizasiya sistemi diqqətəlayiqdir [7, s. 73].

Qalanın üç səviyyəsi mövcuddur və bu səviyyələr daş pilləkənlərlə bir-birinə bağlanır. Hər səviyyə yastı daş günbəzlərlə örtülmüşdür. Müdafiə tikilisi əsasən ağ daşlardan ibarətdir. Qüllənin ümumi hündürlüyü 12 metrdir və ətrafdakı divarların hündürlükləri isə müxtəlifdir.

Nardaran qalası memarlıq baxımından maraqlı plana malikdir. Qala divarları kvadrat formalı həyətləri əhatə edir, həyətlərin mərkəzində isə yaşayış binaları yerləşir. Hər bir həyətin dörd küncündə yerləşən qüllələr, divarların altı metr hündürlüyünü tamamlayır. Qalanın mərkəzində isə 12,5 metr hündürlüyündə bir qüllə yerləşir. Tikintidə əsasən yaxın ərazilərdən götürülmüş daşlardan istifadə edilmişdir [7, s. 73].

Nardaran qalasının bəzi hissələrində bəzək detalları mövcud olmasa da, ümumilikdə Abşeron memarlıq üslubunu nümayiş etdirir. Mərdəkan qalasındakı konsollardan fərqli olaraq, Nardaran qalasının donjon hissəsi sadəcə yonulmuş daşlardan hazırlanmışdır [8, s. 52].

Zaqatala rayonunun Car kəndində yerləşən Çingiz qalası həm müdafiə, həm də memarlıq baxımından əhəmiyyətli bir abidədir. Bu möhtəşəm qala, onu inşa edənlərin ağır həyat tərzini əks etdirir. Qalaya aid müdafiə divarlarının yalnız müəyyən hissələri günümüzə qədər qorunub saxlanmışdır. Buna baxmayaraq, qala divarlarının qalıqları bu tikilinin möhkəm və müdafiə məqsədli olduğunu sübut edir.

Qalanın qərb küncündə divarların kəsişmə nöqtəsi diqqət çəkir. Divarların günümüzə qədər salamat qalmış şimal-qərb hissəsi qədim dövrlərdə istifadə olunan yolların yaxınlığından keçir. Mazgalların yerləşməsi müdafiə məqsədini açıq şəkildə nümayiş etdirir.

Qalanın ən yaxşı vəziyyətdə qalmış hissəsi qüllədir. Təəssüf ki, 20-ci əsrdə qalanın bəzi memarlıq xüsusiyyətləri dağıntılara məruz qalmışdır. Qalanın tac hissəsi tamamilə uçmuş, lakin möhkəm daş kronşteynlər bu tarixi tikilinin keçmiş möhtəşəmliyini xatırladır [6, s. 113].

Qalanın qədim fotoşəkillərindən məlum olur ki, tikilinin ilkin forması beş mərtəbədən ibarət idi və hər mərtəbənin kvadrat ölçüsü 5,70x5,60 metr olmuşdur. Birinci mərtəbə yerdən iki metr yüksəklikdə yerləşir. Şimal-qərb divarında yerləşən giriş qapısı çağırılmamış qonaqlar üçün əlçatmaz olub, yerdən iki metr hündürlükdə yerləşir. Qapının yaxınlığında mazgallar yerləşdirilmişdir.

Üçüncü mərtəbədə mazgallar daha çox saydadır və bunlar əsasən qalanı qorumaq üçün strateji yerlərə yerləşdirilmişdir. Dördüncü və beşinci mərtəbələr uçsa da, möhkəm daş kronşteynlər və abidənin qədim təsvirləri onun orijinal formasını bərpa etməyə imkan verir [6, s. 113].

“Gələrsən-Görərsən” qalasının dəqiq tikilmə tarixi və memarı məlum olmasa da, bəzi mənbələr onu XVI əsrə aid edir. Digər tədqiqatçılar isə bu tikilinin daha qədim olduğunu irəli sürürlər [2].

Bu qala uca dağların və qüllələrin əhatəsində strateji bir mövqedə yerləşmişdir. Qalanın güclü müdafiə divarları və çətin keçilən coğrafiyası düşmənlərə qarşı əvəzolunmaz müdafiə vasitəsi olmuşdur.

Dövlətin himayəsi altında olan “Sumuq Qala” tarixi-memarlıq abidəsi xüsusi diqqət mərkəzindədir. Sumuq qalası 17-18-ci əsrlərdə i2nşa edilərək

hərbi və ticarət yollarının qovşağında yerləşmişdir. Qala əhəng məhlulu və çay daşlarından tikilmişdir. Onun kvadrat formalı planı və incələşən profili bu müdafiə tikilisinə həm sabitlik, həm də estetik görünüş vermişdir [12].

Eyni dövrə aid olan digər tarixi tikililərdən biri də Şahbulaq qalasıdır. Şahbulaq qalası, digər adı ilə Şah-Bulaq, adını Xaçınçay çayının yaxınlığında yerləşən bulaqdan almışdır. 1751-1752-ci illərdə inşa edilmiş bu kompleksdə bazar, yaşayış evləri, hamam və məscidlər mövcud olmuşdur. Tikintidə əsasən ölçülü daşlar və əhəngdən istifadə edilmişdir [3]. Qalanın şimal-qərb hissəsi və əsas istehkam divarları bu günümüzə qədər gəlib çatmış yeganə strukturlardır. Qalanın xarici divarları yarımsilindr və dairəvi qüllələrlə möhkəmləndirilmiş düzbucaqlı formada idi. Həm divarlarda, həm də qüllələrdə müdafiə məqsədli dişli bəndlər və merlonlar müşahidə edilir. Qüllələrin hündürlüyü 8,5 metrə, divarların isə 7 metrə çatır. Qalanın əsas girişi şərq divarının mərkəzində yerləşir. Xan dövründə giriş ikimərtəbəli qüllələrlə qorunurdu və həyətindən yuxarı mərtəbəyə daş pilləkən vasitəsilə keçid vardı. Qala tikililərində əsasən yarıyonulmuş daş materiallarından istifadə olunmuşdur [9, s. 114].

Şahbulaq qalası yalnız müdafiə deyil, həm də yaşayış mərkəzi olmuşdur. Burada şəhər evləri, ticarət yerləri, daş məscid və hamam mövcud idi. Qalanın çöl divarları ilə yanaşı, daxili iki divarı da vardı. Əsas saray isə məhsuldar bulaq yaxınlığında yerləşirdi. Pənahəli xan üçün inşa edilmiş bina düzbucaqlı formaya malik olmaqla səkkiz pilləkənə sahib idi. Divarlarının möhkəmliyi və hündürlüyü qalaya müdafiə gücü qatırdı. 1993-cü ildə ermənilərin işğalından sonra qala kompleksi zərər görmüş və məscid, hamam, xan sarayı ilə yanaşı bir neçə yaşayış binası tamamilə məhv edilmişdir. Salamat qalan yeganə hissələr isə müdafiə divarları olmuşdur [9, s. 114].

Şərq divarı istisna olmaqla, qalada ümumi memarlıq düzbucaqlı formada qurulmuşdu və künclərdə dörd dairəvi qüllə, hər tərəfində yarımdairəvi əlavə qüllələr yerləşirdi. Divarların üstü və kənar bürclər döyüş məqsədli dişli strukturlarla təchiz olunmuşdu. Hər divar və qüllənin üstündə mühafizə postları, alt hissələrində isə birmərtəbəli yaşayış yerləri yerləşirdi. Şərq girişini qoruyan ikimərtəbəli prizma formalı müdafiə tikilisi xüsusi diqqətəlayiq idi. Əsas qüllə isə Şahbulaq istehkamının ən yüksək nöqtəsində ucalırdı [9, s. 114].

XIII əsrə aid olan Lənkəran qalası, bu regionun qədim tarixi-memarlıq abidələrindən biri hesab olunur. Qala 1726-1727-ci illərdə tikilmişdir. Daha sonra Fransa və İngiltərədən olan memarların köməyi ilə ilkin düzbucaqlı memarlıq formasına qaytarılmışdır. Bakı qalası ilə müqayisədə (21,5 hektar), Lənkəran qalasının ərazisi daha geniş – təxminən 35 hektar idi. Təəssüf ki, bu günə qədər qalanın yalnız iki qülləsi salamat qalmışdır [11].

Lənkəran qalasının istehkam sisteminə su ilə dolu xəndəklərlə birləşdirilmiş iki möhkəm qüllə daxil idi. Şimal bürcündən başlayan müdafiə divarları çay sahili boyunca uzanır, müəyyən bucaq altında cənub bürcünə

dönərək qala kompleksini əhatələyirdi. Qalanın əsas müdafiə xəttini daş qüllələr təşkil edirdi. Həmçinin qala daxilində qubernator bağı, axşam bazarı kimi məkanlar mövcud olmuşdur. Yaşayış yerlərinə əlavə olaraq müxtəlif adlarla məhəllələr də təşkil olunmuşdur [11].

Şuşa qalası Qarabağ xanlığının banisi Pənahəli xan Cavanşir tərəfindən 1752-ci ildə inşa edilmişdir. Qala şəhərin tarixi mərkəzini əhatələyən möhtəşəm istehkam divarlarından ibarət olmuşdur. Əvvəlcə Pənahabad adlandırılmış bu qala daha sonra yerli əhali arasında Şuşa qalası və qısa müddət sonra sadəcə Şuşa kimi tanınmışdır.

Şuşa qalasının yerləşdiyi ərazi təpəlik, yarğanlar və qərb tərəfdən amfiteatr formasını xatırladan dağlarla əhatələnmiş yayladır. Yaylanın iki yüksək nöqtəsi var – biri dəniz səviyyəsindən 1600 metr, digəri isə 1300 metr hündürlükdədir. Ərazi qərbə doğru yüksələrək bölgəyə hakim nöqtəyə çevrilir və şərq tərəfə kəskin meyllənir. Yaylanın mərkəzində yerləşən təpə böyük amfiteatrın əsas hissəsini təşkil edir [5, s. 17].

Şuşa yaylası ətrafında Daşaltı və Xəlfəli çaylarına doğru uzanan sıldırım qayalar yerləşir. Ənənəvi memarlıq məktəblərinin əsas mərkəzləri sayılan Naxçıvan, Gəncə və Şamaxı XVIII əsrin əvvəllərində, yəni Azərbaycan xanlıqları yaranmazdan əvvəl, zəifləmə mərhələsinə daxil olmuşdu. Azərbaycanın daha kiçik inzibati bölgələrə parçalanması nəticəsində bu memarlıq mərkəzlərinin təsiri azalmışdır. Yeni xanlıq paytaxtlarında saraylar, qalalar və müdafiə istehkamlarının inşası zərurətə çevrildi. Buna görə də feodal hökmdarlar yeni şəhərlərin tikintisi üçün yerli kənd memarlarının xidmətindən yararlanmağa məcbur olmuşlar. Beləliklə, XVIII əsrin ortalarında Azərbaycanda salınan yeni şəhərlərdə həmin memarların üslubunun izləri aydın görünür. Bu dövr tikililərinin inşasında zəif kəsilmiş daşlardan istifadə olunmuşdur ki, bu da onların monumental xarakterini məhdudlaşdıran bir xüsusiyyətdir. Bu, əksər orta əsr tikililərinə xas olan bir cəhətdir [5, s. 22].

Bununla belə, az tanınan memarlar üçün şəhər layihələrində önəmli üstünlük vardı: onlar yerli tikinti materiallarını yaxşı tanıyır və onlardan istifadə etməyi bilirdilər. Beləliklə, xalq memarları öz yaradıcılıqlarını əvvəlki memarlıq məktəblərinin ənənələri ilə birləşdirmişdilər.

Şuşa qalasının üç əsas qapısı mövcud idi: Gəncə, İrəvan və Ağoğlan qapıları. Hər üç qapının adı tarixi mənbələrdə və Şuşanın XIX əsrə aid baş planlarında qeyd olunur. Şimal qapısı Ağoğlan və İrəvan darvazalarının arasında yerləşir və qalanın perimetrindən rahat keçid təmin edirdi. Gəncə qapısı isə bu günə qədər ən yaxşı vəziyyətdə qalmış Şuşa qapılarından biridir [5, s. 32].

Qalanın qərb hissəsində yerləşən İrəvan qapısı (digər adı Xəlfəli qapısı) qalanın üç əsas girişindən biridir. Bu qapıdan çıxan yol Şuşanı Xəlfəli və İrəvan

şəhərləri ilə birləşdirirdi. XIX əsrə aid olan bütün baş planlarda İrəvan qapısı Şuşanın digər iki qapısı ilə yanaşı qeyd edilmişdir [5, s. 34].

Şərq tərəfdə yerləşən Ağoğlan Qapısı isə həm Muxtar Qapısı, həm də Şuşakənd Qapısı kimi tanınır. Bu giriş darvazası Ağoğlan qalasına aparan yolu başlayır və Şuşanı Muxtar və Şuşakənd kəndləri ilə birləşdirirdi. XIX əsrə aid rusdilli mənbələrdə Ağoğlan qapısı Şuşanın cənub giriş qapısı kimi göstərilmişdir [5, s. 35].

Qarabağın XVIII əsrə aid digər möhtəşəm qalalarından biri Əsgəran qalasıdır. Bu qala Xocalı rayonunda yerləşir. Qarqar çayının sahilində salınmış və iki hissəyə bölünən qala XVIII əsrin ortalarında tikilmişdir. Sol sahildəki hissə qoşa daş divarlardan ibarətdir.

Qarqar çayının vadisi boyunca qalanın divarları təxminən 1,5 km uzanır. Qalanın qoşa divarları iki metr qalınlığında və doqquz metr hündürlüyündə olmaqla, müxtəlif müdafiə elementləri ilə möhkəmləndirilmişdir. Bu divarlar qısa keçid yolları və müşahidə məntəqələri kimi istifadə edilən əhəngdaşı qüllələri ilə birləşdirilmişdir. Döşəməsi daşdan inşa edilən qala, sferik forma malik olan döşəmə planına əsaslanır [10].

Qarabağ xanlığı dövründə Qarqar çay vadisi üzərində nəzarəti gücləndirmək məqsədilə çayın hər iki sahilində Əsgəran qalası tikilmişdir. Qalanın şərq hissəsində müdafiə funksiyasını qüllələrlə möhkəmləndirilmiş qoşa daş divarlar yerinə yetirirdi. Qüllələr arasında iki mərtəbəli keçidlər var idi. Relyefin xüsusiyyətlərinə görə, bir qüllənin birinci mərtəbəsi digərinin ikinci mərtəbəsi ilə əlaqələndirilmişdir. Şərq divarının xaricində yerləşən qüllələr dağ keçidindən qorumaq üçün unikal kameralardan ibarət idi [10].

Qalanın qərb hissəsində isə trapezoidal formalı müdafiə divarları qoruyucu halqa şəklində tikilmişdir. Bu divarlar relyefi nəzərə alaraq altı qüllə ilə möhkəmləndirilmişdir. Qalanın həyəti Qarqar çayından başlayaraq zirvəyə qədər uzanan divarlarla əhatələnmişdir.

Üst qala kvadrat formalı olub, hər küncündə qüllələr yerləşir. Bu kvadrat formalı istehkamın daxilində tağlı darvaza vasitəsilə həyətin yuxarı və aşağı hissələri bir-birindən ayrılmışdır. Aşağı həyətdən yalnız şərq divarlarına, daha sonra isə çaya çıxış mümkündür. Qalanın üçüncü mərtəbəsində isə zindanlar yerləşmişdir. Üst hissənin quruluşu, düşmənin aşağı hissəni ələ keçirdikdən sonra belə müdafiəni davam etdirməyə imkan yaratmaq üçün nəzərdə tutulmuşdur. Divarların qalınlığı 2 metr, hündürlüyü isə 9 metr olmaqla, yonulmuş çay daşlarından inşa edilmişdir. Üfüqi səki daşlarının ardıcıllığı qalanın ümumi strukturuna estetik canlılıq qatır [10].

Qala və istehkam tikililəri bir zamanlar müdafiə xarakterli tikilmiş olsalarda, bugünkü günümüzdə bu tikililər müzey rolunda çıxış edir. Azərbaycanın qədim qalaları və müdafiə tikililəri, dövrün hərbi strategiyasını, memarlıq üslubunu və sosial-iqtisadi şəraitini əks etdirərək, ölkənin zəngin tarixinin

ayrılmaz hissəsi kimi əhəmiyyətlidir. Hər biri özünəməxsus memarlıq xüsusiyyətləri və tarixi ilə bu abidələr milli irsimizin qorunub saxlanılması və öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Müdafiə tikililərinin yerləşdiyi yerlər onların əsas funksiyalarını əks etdirir: düşmən hücumlarının qarşısını almaq, strateji keçidləri qorumaq və ticarət yollarını nəzarətdə saxlamaq. Tikililərdə yerli tikinti materiallarının istifadəsi və regionun memarlıq üslubları öz əksini tapmışdır.

Nəticə etibarilə, Azərbaycanın müdafiə tikililəri həm milli mədəniyyətin bir hissəsi, həm də regionun tarixi inkişafının şahidi kimi mühüm əhəmiyyət kəsb edir. Bu tikililər tarixdə müxtəlif sivilizasiyaların birləşmə və toqquşma nöqtəsində yerləşən Azərbaycanın mühüm strateji rolunu əks etdirir.

## Ədəbiyyat

1. Abdullayeva, A. Azərbaycan qalaları // Mədəniyyət qəzeti. – 2009, 13 fevral.
2. Babayev T. "GƏLƏRSƏN - GÖRƏRSƏN" qalası, Şəki tarixinə ötəri bir nəzər. Xalq qəzeti, 2012, s. 7.
3. Qaraoğlu F. Tarixdə iz buraxanlar: Pənahəli xan. Bakı, Bakı Xəbər, 2017.
4. Salamzadə Ə. V. Azərbaycanın memarlıq abidələri. Bakı , Azərnəşr, 1958, s.767.
5. Авалов, Э. В. Архитектура города Шуши и проблемы сохранения его исторического облика. Баку, Элм, 1977, s. 110.
6. Бретаницкий Л, Мамиконов Л. Оборонительные сооружения Закатальского и Белоканского районов (Памятники архитектуры Азербайджана). Баку . 1950, s. 111–119.
7. Мамедзаде К.М. Строительное Искусство Азербайджана (с древнейших времен до XIX в.), Баку, Елм, 1983. с. 336.
8. Мамиконов, Л. Г. К изучению средневековых оборонительных сооружений Апшерона. Москва — Баку, Государственное Архитектурное Издательство, 1946.
9. Исмайылов Ф, Принудительная арменизация, Баку, Элм, 2009, с.183
10. https://az.wikipedia.org/wiki/Əsgəran_qalası
11. http://lenkeran-ih.gov.az/az/page/16.html
12. https://oxu.az/society/325177

# KİŞ-DOXUN NEKROPOLUNDA İZLƏNİLƏN DƏFN MƏRASİMLƏRİ

**Nərmin Məmmədli**
AMEA Arxeologiya və Antropologiya İnstitutu
nermin.mmmdl07@gmail.com

***Açar sözlər**: Kiş-Doxun nekropolu, kollektiv dəfn, ayin yerləri, dəfn mərasimi, sarmatlar*

*Kiş-Doxun nekropolu Qafqaz Albaniyasının antik dövr dəfn ənənələri və mərasim praktikasını öyrənmək baxımından əhəmiyyətli arxeoloji abidədir. Kollektiv dəfnlərə malik unikal qəbir tipləri və ayin yerləri ilə seçilən bu nekropol antik dövr dəfn ritualları, inanc sistemləri haqqında mühüm məlumatlar təqdim edir. Məqalədə, 2020-ci ildə abidədə aparılan arxeoloji tədqiqatlar zamanı aşkar edilmiş qəbir abidələri və ayin yerləri əsas götürülərək nekropolun dəfn mərasimlərinin xüsusiyyətləri tədqiq edilir. Aşkar olunan müxtəlif qəbir tipləri, dəfn adətləri və qəbir avadanlıqlarının analogiyaları araşdırılır. Tədqiq olunan qəbirlərdən biri antik dövrə aid yeni bir qəbir tipi kimi (region üçün) dəyərləndirilir və bu, həmin dövrün dəfn adətləri haqqında yeni məlumatlar ortaya qoyur.*

## ОБРЯДЫ ПОГРЕБЕНИЯ НЕКРОПОЛЯ КИШ-ДОХУН

**Нермин Маммедли**

***Ключевые слова:** Некрополь Киш-Дохун, коллективное захоронение, ритуальные места, погребальный обряд, сарматы*

*Некрополь Киш-Дохун является важным археологическим памятником с точки зрения изучения погребальных традиций и обрядовой практики античного периода Кавказской Албании. Этот некрополь, отличающийся уникальными типами могил с коллективными захоронениями и ритуальными местами, предөставляет важную информацию о погребальных ритуалах античного периода. В статье приведены особенности погребальных обрядов некрополя на основе гробниц и ритуальных мест, обнаруженных в ходе археологических исследований, проведенных на памятнике в 2020 году. Исследуются обнаруженные формы могил, аналогии погребальной практики и погребального оборудования. Одно из исследованных погребений было определено как новый (для региона) тип захоронения, античного периода,*

*что раскрывает новые сведения о погребальной цивилизации этого периода.*

## FUNERAL RİTUALS OF THE THE KISH-DOKHUN NECROPOLIS

**Nermin Mammadli**

***Keywords:*** *Kish-Dokhun necropolis, collective burial, ritual places, funeral ceremony, Sarmatian*

*The Kish-Dokhun necropolis is an important archaeological site for the research of the burial traditions and ceremonial practices of Caucasian Albania during the classical antiquity. This necropolis, distinguished by its unique grave types with collective burials and ritual places provides important information about the burial rituals of the classical antiquity. The article examines the features of the necropolis' funeral rites based on the graves and ritual places discovered during archaeological research conducted in 2020. The discovered grave forms, analogies of burial practices and grave equipment are examined. One of the studied graves is evaluated as a new grave type (for the region) belonging to the classical antiquity period, which reveals new information about the burial culture of that period.*

Kiş-Doxun nekropolu Şəki rayonunun Kiş və Oxud kəndləri arasında, Doxun məhəlləsi ərazisində yerləşir. Abidə şimaldan Kiş–Oxud kənd yolları ilə, cənubdan Kiş çayının sağ sahili ilə, şərq və qərbdən isə qobularla sərhədlənir. Nekropol sıldırım qaya üzərində yerləşir və cənub hissəsi vaxtaşırı olaraq uçub tökülür. Nəticədə, qəbirlərin bir qismi çaya dağılıb. Nekropolun hazırkı sahəsi 0,5 hektara yaxındır.

Abidə ilk dəfə 1982-ci ildə Nəsib Muxtarov tərəfindən qeydə alınıb [3, s.11]. 1980-ci illər ərzində abidədə bir neçə dəfə xilasetmə işləri aparılmışdır [3, s.4]. 2020-ci ildə Zaur Həsənov və Zaynolla Samaşevin rəhbərliyi ilə Azərbaycan-Qazaxıstan beynəlxalq arxeoloji ekspedisiyası tərəfindən abidədə çöl tədqiqat işləri aparılmışdır [1].

Kiş-Doxun nekropolu regionda təkrarı olmayan yeni tip qəbirləri ilə qədim Albaniya mədəniyyətinin bir sıra tərəflərini öyrənmək üçün müstəsna elmi əhəmiyyətə malikdir. İzlənilən qəbir formaları, dəfn adətləri, onların icrası dövrün insanlarının dünyagörüşlərini, eyni zamanda, cəmiyyətin ictimai, iqtisadi səviyyəsini, hərbi, mədəni və sosial həyatını öyrənməyə imkan verir. Bəhs olunan nekropolda aparılan arxeoloji tədqiqatlar nəticəsində maraqlı dəfn mərasimlərinin izlənildiyi qəbir abidələri və ayin yerləri, həyat və məişətin müxtəlif sahələrini əks etdirən xeyli sayda material aşkar olunub.

Məqalədə 2020-ci ildə nekropolda aparılan arxeoloji tədqiqatlar zamanı müəyyən olunmuş qəbir abidələri və ayin yerləri əsasında nekropolun dəfn mərasimlərinin xüsusiyyətləri araşdırılır. Nekropolun əsas səciyyəvi xüsusiyyətlərindən biri anatomik pozisiyonun gözlənilmədiyi kollektiv dəfnlərin icra olunmasıdır. Qəbirlər əsasən şimal və şimal-şərq istiqamətindədir.

**Kollektiv dəfnlər.** Aşkar edilmiş qəbirlərdən birində ölü arxası üstə uzadılmış, ayaqları bir-birinin üstünə keçirilmiş vəziyyətdə dəfn edilmişdir. Skeletin kəllə ətrafına orta ölçülü daşlar düzülmüş, sol qolunun yanına isə küpə qoyulmuşdu. Uzadılmış skeletin baş və ayaq hissəsinə orta həcmli küplər şaquli şəkildə yerləşdirilib [şək.1,2]. Baş tərəfdə yerləşdirilən küpün içərisi boş idi. Ayaq tərəfdən qoyulan küpün içərisindən isə 3 şəxsə məxsus kəllə qutusu və digər antropoloji qalıqlar izlənildi. Eynilə küpün ətrafından da 3 nəfərə məxsus qalıqlar qeydə alınıb [şək.1, 4]. Qəbirin ətrafı kiçik təpə formalı strukturla əhatələnir ki, inşasında xırda və orta ölçülü daşlardan, gil və əhəng qarışıqlı məhluldan istifadə olunmuşdu [şək.1, 1].

Bu, ilk baxışdan sadə “küp qəbir” kimi görünə bilər, lakin onu tam olaraq küpdə dəfn etmə adəti ilə eyniləşdirmək doğru olmaz. Dəfn praktikasının detallarına  baxsaq, fərqli xüsusiyyətlər müşahidə etmək olur. Əvvəla, burada küp qəbirlərdə izlənildiyi kimi küpün maili yox, şaquli şəkildə yerləşdirilməsi diqqəti çəkir. Digər tərəfdən, küpün içərisində və ətrafında tapılan antropoloji qalıntılardan savayı, qəbirdə 1 uzadılmış dəfn də var idi ki, bu fakt özlüyündə dəfn etmə şəkli ilə bağlı daha geniş mənzərə əldə etməyə kömək edir. Görünür, dəfn ilk əvvəl arxası üstə uzadılaraq həyata keçirilirmiş, daha sonra yeni cəsədlər əlavə olunduqda qəbirdəki sümüklər yığılaraq küpün içərisinə, sonrakı mərhələlərdə isə (küp ağzına kimi sümüklə dolandan sonra) ətrafına yerləşdirilmişdi.

Küpün ətrafından ümumilikdə 3 ədəd nizə ucluğu aşkar olunub. Nizələrdən ikisi üst-üstə olmaqla uc hissələri şimal-qərbə isiqamətində, üfüqi şəkildə qoyulmuşdu [1, s. 9]. Digər nizə ucluğu isə şaquli vəziyyətdə yerə sancılmış şəkildə idi [şək.1, 3]. Nizənin yerə sancılması skiflər və onlardan sonrakı çöl xalqlarının dəfnlərində tətbiq edilən ənənələrdəndir [5, s. 56]. Bundan əlavə, qəbirdən tunc boyunbağı, canavar dişindən və maral buynuzundan hazırlanmış amuletlər və sarmat tipli xəncər də əldə olunub. Xəncər küpün şərq tərəfinə ucu şimala istiqamətlənmiş şəkildə maili olaraq qoyulmuşdur. Xəncərin tutacağın başlıq hissəsi oval formalıdır [1, s. 10].

Qəbir bir sıra xüsusiyyətlərinə görə, Şimali Qafqazın Alban-Sarmat dövrünə aid olan Sarmat torpaq qəbirləri ilə uzlaşır. K.F.Smirnovun təsvirlərinə görə, Dağıstanın Qarabudaqkənd kəndində yer alan belə dəfnlərdə qəbirə hər dəfə yeni cəsəd gətirildikdə əvvəlki skelet yığılaraq yeni dəfn olunanın ayaq tərəfinə yerləşdirilirdi. Təsvirdəkindən əlavə olaraq, Kiş-Doxun nekropolunda

əvvəlki skelet yeninin ayaq tərəfindəki küpün içərisinə yığılırdı. Görünür, bu, yerli modifikasiya idi [5, s. 56; bax: 7, s. 167-219].

Kiş-Doxun nekropolunun daha bir maraqlı qəbir abidəsi 3 qatdan (yarusdan) ibarət olub, zəngin qəbir avadanlığına sahibdir. Aşkar olunmuş abidənin üst qatı ayin yeri, 2-ci və 3-cü qatları isə kollektiv dəfn olunmuş qəbirlərdir. Üst qatdan bir neçə heyvan sümüklərinin fraqmentləri və 1 ədəd süddan biçimli qab müəyyən olunub. Qəbirin ikinci qatından böyük küpün fraqmentləri, heç bir anatomik pozisyonun qorunmadığı xeyli sayda insan sümükləri, müxtəlif saxsı qablar, dəmir nizə ucluqları, tunc bəzək əşyaları, Roma üslublu göz muncuğu və s. əldə olunub. Sümüklər əsas etibarı ilə böyük küpün fraqmentlərinin haşiyəyə aldığı iç hissədən aşkarlanıb. Bu qatdan çoxlu insan qalıqları çıxsa da, bütöv kəlləyə rast gəlinməyib, yalnız bir neçə çənə sümükləri qeydə alınıb [1, s. 20-21]. Qəbirin alt qatında isə 18 insan kəlləsi və müxtəlif insan qalıqları yenə də pərakəndə halda aşkarlanıb. Bu qatda da yenə zəngin maddi mədəniyyət nümunələri — bıçaq, nizə ucluğu, sümükdən və qaban dişindən hazırlanmış amuletlər, zınqırov və zəncirlər, müxtəlif mineral daşlardan hazırlanmış nəfis muncuqlar əldə olunub. Nizə ucluqları üfüqi şəkildə qoyulmuşdur və sözü gedən qatda 2 ədəd təşkil edir [şək. 2, 2]. Qəbrin 3-cü qatından əldə olunan keramika nümunələri 2-ci qatdan əldə olunan materiallarla müqayisədə daha sağlam və bütöv şəkildə qalmışdır. Diqqəti çəkən digər məqam isə orta və balaca ölçülü qablar bütöv şəkildə qaldığı halda iri həcmli küplərin fraqment halında aşkarlanmasıdır. İkinci qatda aşkarlanan antropoloji qalıntıların haşiyə aldığı küp də sınmış vəziyyyətdə tapılmışdır ki, bu da onun ya əvvəldən sınmış halda dəfn edildiyini, ya da sonradan, təkrar dəfnlər zamanı sındırıldığını göstərir [şək. 2, 1].

Dəfn mərasimi ilə bağlı ümumiləşdirmə etsək, deyə bilərik ki, kollektiv dəfnin izlənildiyi bu qəbirdə də təkrar dəfnlər həyata keçirilmiş və müəyyən rituala əsasən ölənlərin kəllə qutuları, bəzi antropoloji hissələr (əsasən uzun sümüklər), saxsı qablar və nizə ucluqları kimi tapıntılar qəbrin alt hissəsinə düzülmüşdür. Digər antropoloji qalıntılar isə iri küpün fraqmentlərinin haşiyə olunduğu hissəyə yığılmış, ətrafına saxsı qablar və onların fraqmentləri, nizə ucluqları, bəzək əşyaları və s. qoyulmuşdur. Ən sonda isə qəbrin üst hissəsində ayin keçirilmişdir.

Qəbirdə sümüklər xaotik vəziyyətdə aşkarlansa da, qəbrin hər iki qatında da bütün materiallar yerindədir. Yəni, bu qəbirin hər hansı bir qarətə məruz qaldığını deyə bilmərik. Skeletlərin belə nizamsız olmasını isə Z.Həsənov “ölünün zərərsizləşdirilməsi” ayini ilə əlaqələndirir. Bu ritual Kislovodsk şəhəri yaxınlığındakı Alan III Klin-Yar qəbiristanlığının materiallarından da məlumdur [5, s. 55; bax: 8, s.372]. Bu ayin ölənin öz qohumları tərəfindən ölümdən bir müddət sonra həyata keçirilirdi.

Aşkar edilən 3 qatlı (yaruslu) qəbir Azərbaycan arxeologiyası üçün unikal hesab edilə bilər, bu cür dəfn strukturu ölkə ərazisində daha əvvəl qeydə alınmamışdır. Belə dəfnlər Krımda yerləşən son skif və alan kollektiv qəbirləri və Aral bölgəsinin sarmat dəfnləri ilə oxşarlıq təşkil edir [9, s.24; 10, s. 5-6, 22]

**Ayin yerləri.** Kiş-Doxun nekropolunda qəbirlərlə yanaşı, 3 ayin yerləri də aşkar olunub. Ayin yerləri əsasən iri həcmli daşlarla əhatələnir ki, bu da onların sərhədlərini və ya strukturunu müəyyənləşdirmək üçün istifadə edilmiş ola bilərdi. Ayinlə bağlı digər elementlər — keramika məmulatları, kömür qalıqları, heyvan sümükləri və s. əsasən ayin yerindəki bu daşların ətrafından aşkar olunub. Nekropolda izlənilən 3 ayin yerindən ikisi qəbirlərin yaxınlığında yerləşir və həmin qəbirlərlə bir-başa əlaqali olduğunu deməyə əsasə verir.

Aşkar olunan ayin yerlərindən birində 7 ədəd saxsı qab şimal-qərbdən cənub-şərq istiqamətində düzülmüş şəkildə aşkarlanıb. Qablar şimal-şərqdən bir, cənub-qərb tərəfdən isə iki böyük daşla sərhədlənmişdir. Cənub-qərb tərəfdəki daşların ətrafından qalın təbəqə şəklində kül və kömür qatı müşahidə olunub. Kül qatından at dişi və heyvan sümüklərindən fraqmentlər, sıra ilə düzülmüş qabların altından isə biserlər tapılıb [1, s. 24-25]. Tapıntılar burada dəfn zamanı və ya ondan sonra iştirakçılar tərəfindən dini və ya sosial xarakter daşıyan mərasimlərin keçirildiyini göstərir. Eyni zamanda, qabların altından aşkar edilən biserlər, onların qabların altında mövcud olmuş süfrənin və ya ritual məqsədli örtüyün qalıntıları ola biləcəyi ehtimalını irəli sürür. Əlavə olaraq, ayin yerinin döşəməsinin daş və gil qarışıq məhlulla hazırlanmış olması da qeydə alınıb ki, bu da yerin strukturunun möhkəmləndirilməsinə və mərasimlərin keçirildiyi məkanın xüsusi olaraq hazırlanmasına göstəricidir.

Ayin yerlərindən digəri 3 yaruslu qəbirdən təxminən 1 metr şərqdə yerləşir. Cənub və qərb hissələrdən böyük daşlarla əhatələnmiş ayin yerindən çoxlu sayda keramika məmulatları qeydə alınıb. Keramikaların əksəriyyəti fraqment halındadır. Üst səviyyələrdə bütöv şəkildə qorunub saxlanılmış saxsı qablara rast gəlinsə də, aşağı qatlarda böyük ölçülü küplərin fraqmentləri tapılmışdır. Fraqmentlər arasında üzərində sarmat tipli damğası olan küpün ağız hissəsi də aşkarlanıb [5, s. 55]. Qeyd etmək lazımdır ki, sarmat tipli damğalı qablara Şəkinin dəmir və antik dövr abidəsi olan Təpəbaşı abidəsində də rast gəlinib [2, s. 8]. Bundan əlavə, qabların arasından sancağa bənzəyən dəmirdən əşya, bikonik formalı muncuq, tunc zəncir halqası da aşkar edilib. Bəzi hissələrdə kül qatı və kömür parçalarının mövcudluğu burada keçirilmiş mərasimlərin yanğın ilə bağlı ola biləcəyinə işarə edir.

Ayin yerinin istər keramik materialları, istərsə də digər tapıntıları yaxınlığında yerləşən 2 nömrəli qəbirin materialları ilə eynilik təşkil edir. Hətta, burada tapılan küpün ağız hissəsinin bir tərəfi yanındakı qəbirdən aşkar olunmuşdur. Bu, qəbir və ayin yerinin bir-birilə əlaqali olduğunu və onların vahid bir ayin kontekstində istifadə edildiyini düşünməyə əsas verir. Digər

tərəfdən, buradan dəfn mərasimi zamanı qabların sındırılması ritualının həyata keçirildiyini də deyə bilərik.

Aşkar olunan üçüncü ayin yeri cənub tərəfdən üst-üstə qoyulmuş və maili şəkildə düzülmüş 3 uzunsov formalı böyük daşlarla, şimal tərəfdən isə şaquli yerləşdirilən iri daşla sərhədlənir. Daşların ətrafından kömür hissəcikləri, bir neçə xırda ölçülü keramika fraqmenti və bir ədəd insana məxsus süd dişi aşkar edilmişdir. Ayin yeri uzadılaraq dəfn edilən qəbirin yaxınlığında yerləşir və qəbirlə bərabər kiçik təpə formalı strukturla əhatələnir [1, s. 6].

Yekunda demək olar ki, Kiş-Doxun nekropolunda izlənilən 3 yaruslu kollektiv qəbir və onun dəfn xüsusiyyətləri antik dövrə aid yeni qəbir tipi kimi dəyərləndirilə bilər. Aşkar olunan qəbirlərin yaxınlığında ayin yerlərinin yerləşməsi dəfn mərasimlərinin kompleks şəkildə, müəyyən ritual praktikaları ilə müşayiət olunduğunu göstərir. Belə bir yerləşim ayin yerlərinin dəfn prosesinin ayrılmaz hissəsi olduğunu və burada sosial və dini xarakterli mərasimlərin keçirildiyini təsdiqləyir. Həmçinin, nekropolda Cənubi Qafqaz sənət nümunələrinin, Roma tipli bəzəklərin və Sarmat tipli tapıntıların bir yerdə aşkarlanması burada müxtəlif mədəniyyətlərin bir-birilə sıx əlaqədə olduğunu deməyə imkan verir.

## Ədəbiyyat

1. Həsənov Z., Samaşev Z., Karıyev E. [və b.] "Azərbaycan-Qazaxıstan arxeoloji ekspedisiyası"nın "Kiş" Tarix-Memarlıq Qoruğunda çöl-tədqiqat işlərinin 18 sentyabr–22 noyabr, 2020-ci il ərzində aparılması haqqında hesabat. Bakı, AMEA Arxeologiya və Antropologiya İnstitutunun Elmi Arxivi, 2020, İnv. №922, vərəq – 140.
2. Həsənov Z., Samaşev Z., Karıyev E. [və b.] "Şəki, Oğuz, Zaqatala arxeoloji ekspedisiyası", "Azərbaycan-Qazaxıstan arxeoloji ekspedisiyası"nın Şəki rayonunda apardığı arxeoloji çöl-tədqiqat işlərinin hesabatı. Bakı, AMEA Arxeologiya və Antropologiya İnstitutunun Elmi Arxivi, 2020 İnv. №921, vərəq –79.
3. Muxtarov N. 1985-ci ildə Şəki rayonu ərazisində olan arxeoloji abidələrdə aparılmış xilasetmə işləri haqqında hesabat Şəki, AMEA Arxeologiya və Antropologiya İnstitutunun Elmi Arxivi, 1985. İnv. №398, vərəq – 142.
4. Muxtarov N. 1986-cı ildə Şəki rayonu abidələrində xilasetmə işlərinə dair hesabat, Şəki, AMEA Arxeologiya və Antropologiya İnstitutunun Elmi Arxivi, 1986. İnv. № 452, vərəq – 33.
5. Гасанов З. Азербайджано"Работа -Казахстанской международной археологической экспедиции" в 2019-2022 гг. //Astana, Cultural

Heritage. Science Journal. National Museum of Kazakhstan, 2022. №4 (99), с. 53-58.

6. Самашев З. Древние всадники западной Азии. Труды Центрального музея. Алматы, Гылым, 2004. с. 230–266
7. Смирнов К.Ф. Грунтовые могильники албано-сарматского времени у селения Карабудахкент // Махачкала: Материалы по археологии Дагестана. Т. 2. 1961. с. 167–219
8. Флёров В.С. Постпогребальные обряды Центрального Предкавказья в I в. до н. э. IV в. н. э. и Восточной Европы в IV в. до н. э. – XIV в н. э. Москва, Таус, 2007. – с.372.
9. Дашевская О.Д. Поздние скифы в Крыму //Археология СССР. Свод археологических источников. Москва, Наука, 1991. с. 140.
10. Храпунов И. Н. Склеп с погребениями III – IV вв. н. э. из могильника Нейзац. Симферополь: Доля, 2011. с.72.


1


2


3


4

**Şəkil 1**: Uzadılmış skelet və küp içərisində təkrar dəfnlərin icra olunduğu qəbir



1



2

**Şəkil 2**: Nekropolda izlənilən 3 qatlı qəbrin ikinci və üçüncü qatları

# AZƏRBAYCAN-GÜRCÜSTAN MÜNASİBƏTLƏRİNDƏ ƏRAZİ-SƏRHƏD PROBLEMLƏRİ (ZAQATALA MAHALININ MƏNSUBLUĞU MƏSƏLƏSİ)

**Nəsrin Mehdiyeva**
Bakı Dövlət Universiteti
nesrin.abdullayeva99@mail.ru

***Açar sözlər:*** *Cənubi Qafqaz, Azərbaycan, Gürcüstan, sərhədyanı mübahisələr, Zaqatala dairəsi, sovet Rusiyası*

*Azərbaycan və Gürcüstan arasındakı ərazi və sərhəd məsələləri 1918-ci ildə hər iki dövlətin müstəqilliklərini elan etməsindən sonra əsas mübahisə mövzularından biri olmuşdur. 1918–1920-ci illər arasında Batum və ətraf bölgələr kimi strateji ərazilər üzərində mübahisələr yaranmış, iki dövlət arasında sərhəd məsələləri qarşılıqlı maraqlara və etnik bölgülərə görə mürəkkəbləşmişdir.1920-ci illərdə sərhəd məsələləri Moskvanın qərarları ilə müəyyənləşdirilsə də, bəzi yerli mübahisələr qalmaqda idi.Sovet İttifaqının siyasi strukturu çərçivəsində ərazi məsələləri yenidən təyin olundu. Bu dövrdə, Azərbaycanın və Gürcüstanın sərhədləri böyük ölçüdə Moskvanın qərarları ilə müəyyən olundu. Sovet hökuməti hər iki ölkə arasında sərhəd məsələlərini müəyyən edərkən, yerli etnik qrupların yerləşməsini, coğrafi şəraiti və iqtisadi maraqları nəzərə almırdı.*

*Sovet İttifaqının dağılmasından sonra, 1991-ci ildə həm Azərbaycan, həm də Gürcüstan öz müstəqilliklərini bərpa etdilər.Müstəqillik dövründə hər iki ölkə arasında sərhəd məsələləri yenidən diqqət mərkəzinə gətirildi. Lakin 90-cı illərin əvvəllərində Azərbaycan və Gürcüstan arasında dəqiq sərhəd xəttinin müəyyən olunması məsələsi danışıqlar və diplomatik əməkdaşlıq nəticəsində zamanla aradan qaldırılmışdı.Məqalədə Azərbaycan-Gürcüstan münasibətlərində ərazi və sərhəd məsələlərinə aydınlıq gətirilmişdir.*

## ТЕРРИТОРИАЛЬНО - ГРАНИЧНЫЕ ПРОБЛЕМЫ В ОТНОШЕНИЯХ АЗЕРБАЙДЖАНА И ГРУЗИИ (ВОПРОС ПРИНАДЛЕЖНОСТИ ЗАКАТАЛЬСКОГО УЕЗДА)

**Насрин Мехтиева**

***Ключевые слова:*** *Южный Кавказ, Азербайджан, Грузия, пограничные споры, Закатальский округ, Советская Россия.*

*Территориальные и пограничные вопросы между Азербайджаном и Грузией были одной из главных тем споров с момента провозглашения*

*независимости обоих государств в 1918 году. Между 1918 и 1920 годами возникли споры по поводу стратегических территорий, таких как Батум и прилегающие регионы, а пограничные вопросы между двумя государствами усложнились из-за взаимных интересов и этнических разногласий. Хотя пограничные вопросы определялись решениями Москвы в 1920-х годах, некоторые местные споры оставались. Советские территориальные вопросы были пересмотрены в политической структуре Союза. В этот период границы Азербайджана и Грузии во многом определялись решениями Москвы. Советское правительство не учитывало местонахождение местных этносов, географические условия и экономические интересы при определении пограничных вопросов между двумя странами.*

*После распада Советского Союза и Азербайджан, и Грузия восстановили свою независимость в 1991 году. В период независимости пограничные вопросы между двумя странами снова оказались в центре внимания. Однако в начале 1990-х годов вопрос определения точной линии границы между Азербайджаном и Грузией со временем был решен в результате переговоров и дипломатического сотрудничества. В статье были уточнены территориальные и пограничные вопросы в азербайджано-грузинских отношениях.*

## TERRITORIAL AND BORDER ISSUES IN AZERBAIJAN-GEORGIA RELATIONS (THE QUESTION OF ZAGATALA DISTRICT'S AFFILIATION)

**Nasrin Mehdiyeva**

***Keywords:*** *South Caucasus, Azerbaijan, Georgia, border disputes, Zagatala district, Soviet Russia.*

*The territorial and border issues between Azerbaijan and Georgia became a major topic of dispute following both countries' declarations of independence in 1918. Between 1918 and 1920, conflicts arose over strategic areas such as Batumi and its surrounding regions, complicating border matters due to mutual interests and ethnic divisions. In the 1920s, although border issues were largely determined by Moscow's decisions, some local disputes persisted. Within the political structure of the Soviet Union, territorial matters were redefined, with the borders of Azerbaijan and Georgia mainly shaped by Moscow's directives. The Soviet government did not consider the local ethnic groups' distribution, geographical conditions, or economic interests when determining these borders.*

*After the dissolution of the Soviet Union, both Azerbaijan and Georgia regained their independence in 1991. During this period, border issues were once again brought to the forefront. However, in the early 1990s, the precise delineation of the border between Azerbaijan and Georgia was gradually resolved through negotiations and diplomatic cooperation. The article sheds light on the territorial and border issues in Azerbaijan-Georgia relations.*

1918-1920-ci illərdə Cənubi Qafqazda ortaya çıxan çoxsaylı ərazi mübahisələrindən biri Zaqatala məsələsi olmuşdur. Bu problemin kökləri daha əvvəlki onilliklərə dayanır. Gürcü tarixçilərinin yaratdığı və xalqının etnomədəni dirçəlişinə təkan verməyi hədəfləyən "tarixi konsepsiyaya" görə, Zaqatala dairəsi - Şimal-Qərbi Azərbaycan Gürcüstanın tarixi-coğrafi, siyasi və mədəni məkanının bir hissəsi kimi qələmə verilirdi. Bu konsepsiyanın tanınmış gürcü tarixçisi və coğrafiyaçısı Vaxuştinin əsərlərində formalaşdırılmışdı və heç bir mənbəyə əsaslanmır. İki gənc respublika arasında mübahisəli məsələlərdən biri də "Zaqatala problemi", daha doğrusu, bu tarixi Azərbaycan bölgəsinə Gürcüstanın iddiaları idi. Zaqatala dairəsi, rus inzibati idarəçiliyi altında Azərbaycanın şimal-qərbində, tarixən Car-Balakən camaatlığı və İlisu sultanlığı torpaqlarında yaradılmışdı. İnqilabdan əvvəl, 1909-cu və 1916-cı illərdə Cənubi Qafqazda zemstvo institutunun tətbiqi məsələsi müzakirə olunarkən, bu ərazinin Tiflis quberniyasına daxil edilməsi üçün cəhdlər olmuşdu. Lakin A.Qardaşov, İ.Qəbulov, N.Qazıyev, B.N.Kiçikxanov, B.Qalacov, Müslüm əfəndi və Zaqatala mahalının digər nüfuzlu şəxslərinin səyləri sayəsində bu cəhdlər müvəffəqiyyətsiz olmuşdu [14, s.372-384]. 1918-ci ildə Cənubi Qafqazda müstəqil respublikaların yaranması ilə birlikdə gürcü siyasətçilərin əsası olmayan iddiaları bölgənin siyasi aidiyyəti məsələsini mübahisə obyekti halına gətirdi. Bu mübahisə digər oxşar ixtilaflardan fərqli olaraq onun gizli şəkildə davam etdirilirdi. Bu hal, eyni zamanda, 1917-1920-ci illər arasında regionda və onun ətrafında formalaşan beynəlxalq siyasi şəraitin təsiri ilə də izah olunur. Mövcud beynəlxalq şərait Azərbaycan və Gürcüstan arasında siyasi yaxınlaşmanı vacib edir, bu da mövcud ixtilafların arxa plana keçməsinə şərait yaradırdı. Zaqatala dairəsinin yerli müsəlman ictimai-siyasi fəalları 26 iyun 1918-ci ildə tarixi, siyasi və mədəni səbəblər əsasında Azərbaycanı dəstəkləmə qərarı verməsi və Qafqaz İslam Ordusu sıralarına qoşulması Gürcüstana birləşmək ehtimalını isə tamamilə rədd edirdi. Bu vəziyyət gürcü siyasi dairələrinin bu məsələ ilə bağlı radikal addımlar atmaqdan çəkinməsinə səbəb oldu. Həmçinin, Gürcü və Azərbaycan xalqları arasında keçmişdə qanlı münaqişə və ziddiyyətlər mövcud olmamışdı. Lakin Gürcüstan tərəfi, Zaqatala bölgəsinin Azərbaycan Respublikasının tərkibinə daxil olmasını yalnız de-fakto qəbul etmişdi; de-yure isə bu ərazinin statusunu öz xeyrinə təsbit etməyə çalışırdı. Gürcü rəsmi dairələri hər vəchlə müxtəlif diplomatik sənədlərdə Zaqatala mahalını öz ərazisi kimi təqdim

edir, nəşr etdikləri xəritələrdə bu bölgəni öz sərhədləri daxilində göstərir və formal olaraq oraya öz hakimiyyət nümayəndələrini təyin etməyə çalışırdılar. 1918-ci ildən etibarən Zaqatala bölgəsi ilə bağlı yeni bir ixtilafın yaranması müşahidə olunurdu. Çar hökumətinin XIX əsrdə Cənubi Qafqazda həyata keçirdiyi inzibati-ərazi bölgüsü zamanı, bölgənin tarixi, etnoqrafik və iqtisadi xüsusiyyətlərini nəzərə alınmamışdı. Bu məsələ 1918-1920-ci illərdə çoxsaylı torpaq mübahisələrinin ortaya çıxmasının əsas səbəblərindən biri idi. Rus hökumətinin əsas məqsədi Qafqaz regionunda müsəlman xalqlarının, xüsusilə də azərbaycanlıların nüfuzunu zəiflətmək, eyni zamanda xristian əhalinin sayını artıraraq onların mövqeyini gücləndirmək idi. Bu siyasət vasitəsilə regionda öz təsirini daha da möhkəmləndirməyə çalışırdı.

Əsrlərdən bəri Alazan çayının sağ sahili və Şirək düzündəki geniş şumluq, otlaq, biçənək və meşə sahələri Şimal-Qərbi Azərbaycanın Car-Balakən camaatlıqları və İlisu sultanlığının kənd icmalarının istifadəsində olmuşdur. Lakin XIX əsrdə rus hakimiyyəti qurulduqdan sonra, siyasi və hərbi məqsədlər səbəbilə, o dövrdə gürcü əhalisinin olmadığı bu ərazilər Sığnaq qəzasının tərkibinə daxil edilmiş və ya Tiflis quberniyasının idarəçiliyinə verilmişdi. Lakin Qafqazda rus hakimiyyəti dövründə müəyyənləşdirilən sərhədlər dövlətin daxili sərhədləri olduğu üçün münaqişələrə səbəb olmurdu. Buna görə də, 1917-ci ilə qədər Zaqatala dairəsinin yerli sakinləri həmin torpaqlardan istifadə zamanı ciddi problemlərlə üzləşmirdilər. Lakin XIX əsrdən etibarən mərkəzi hökumət vaxtaşırı Zaqatala kənd icmalarının istifadə etdiyi torpaq sahələrindən hissələr ayıraraq müxtəlif gürcü zadəganlarına, gürcü dağlılarına (tuşinlərə) və daha sonra isə rus köçkünlərinə paylayırdı.

Cənubi Qafqazda yeni dövlətlərin yaranması ilə əvvəlki inzibati sərhədlər dövlət sərhədlərinə çevrildi. Nəticədə, əvvəlki dövrlərdə Zaqatala sakinlərinin sərbəst şəkildə istifadə etdiyi torpaqlar birdən-birə başqa dövlətin ərazisinə çevrildi və onlar üçün əlçatmaz oldu, bu da münaqişələrə səbəb oldu. Gürcü hökumətinin münaqişəyə cəlb olmasına səbəb olan müxtəlif iqtisadi, siyasi və ideoloji səbəblər var idi. Birincisi, Çiaur meşəsi və xüsusilə Alazan vadisi təsərrüfat baxımından çox faydalı və əhəmiyyətli sahələr idi. Menşevik hökuməti tərəfindən aparılan aqrar islahatlar zamanı Gürcüstanın torpaq qıtlığı olan ərazilərindən kəndlilər boş torpaqların olduğu şərq rayonlarına, o cümlədən bu ərazilərə köçürülürdü. Digər tərəfdən, gürcü hakimiyyəti Zaqatala sakinlərinin mübahisəli ərazilərə girişini məhdudlaşdırmaqla yanaşı, siyasi təşviqat məqsədini də güdürdü. Sakinlərə Gürcüstanın lehinə siyasi seçim etmək təklifi irəli sürülürdü.

1919-cu ilin martında baş verən Birinci Mazımçay insidenti, münaqişənin gərginləşməyə başladığının göstəricisi idi. 1919-cu ilin sentyabr ayının sonunda baş verən İkinci Mazımçay insidenti isə münaqişəni daha da

kəskinləşdirdi. 1919-cu ilin mart-aprel və sentyabr-oktyabr aylarında baş vermiş və şərti olaraq "Birinci və İkinci Mazımçay hadisələri" adlandırılan bu hadisələr konfliktoloji baxımdan insident kimi xarakterizə oluna bilər [8]. Bu hadisələr, tərəflər arasında ilk açıq toqquşmalar idi. Xüsusilə ikinci insident iki dövləti hərbi qarşıdurma astanasına qədər gətirib çıxarmışdı. Azərbaycan tərəfinin hərbi qarşıdurmadan qaçmasından istifadə edən gürcü hakimiyyəti strateji əhəmiyyət daşıyan mövqeləri ələ keçirərək “mübahisəli torpaqlar” məsələsini gündəmdə saxlayırdı. Bu vəziyyət yerli əhalinin, hətta silahlı müqavimət göstərməsinə səbəb oldu. Lakin ümumilikdə Azərbaycan-Gürcüstan münasibətlərinin inkişafı və Qafqaz ətrafında formalaşan xarici-siyasi vəziyyət, münaqişənin tərəflərini destruktiv davranışlardan çəkindirirdi. Nəticə etibarilə, Azərbaycan və Gürcüstan respublikalarının müstəqil olduqları illər ərzində Çiaur meşəliyi və Şirək düzündəki Zaqatala kənd icmalarına aid torpaq sahələri məsələsi həll olunmamış qaldı. Azərbaycan tərəfi bu əraziləri Azərbaycan Respublikasına daxil etməyə çalışırdı lakin Gürcü tərəfi isə münaqişədə tətbiq etdiyi siyasətlə bu torpaqları öz sahiblərindən mərhələli şəkildə alıb, demoqrafik və iqtisadi baxımdan mənimsəməyi planlaşdırırdı.

Azərbaycanın sovetləşməsindən sonra 1920-21-ci illərdə Zaqatala bölgəsinin siyasi mənsubiyyəti ilə bağlı münaqişənin dinamikasında əhəmiyyətli dəyişikliklər meydana gəlirdi. Bu proses Cənubi Qafqazı sosial-siyasi və geosiyasi baxımdan parçalayaraq, Gürcüstanı Antanta – Qərbin düşərgəsinə, Azərbaycanı isə həmin Qərbin əksinə sovet düşərgəsinə daxil etdi. Bu amil, 1920-ci ilin aprel sonu və mayın əvvəllərində Azərbaycan-Gürcüstan münasibətlərinin sürətlə pisləşməsinə və hətta lokal münaqişələrin yaranmasına səbəb oldu. Bu münaqişələrin inkişafında Orconikidze və Kirovun simasında yerli Qafqaz bolşevik rəhbərliyi mühüm rol oynamışdır. Moskvanın rəsmi mövqeyinə baxmayaraq, Qafqaz bolşevikləri Azərbaycan ssenarisinin Gürcüstanda da tətbiq etməyə çalışırdılar və öz planlarında Azərbaycanı bir vasitə və strateji baza kimi istifadə etməyi planlaşdırırdılar. Lakin, Polşa cəbhəsində baş verən hadisələr, eyni zamanda Gürcüstanın kifayət qədər müqavimət göstərməsi Gürcüstana qarşı planlaşdırılan müdaxiləni dayandırıldı.

Sovet-Gürcü qarşıdurması Zaqatala bölgəsi ilə bağlı yaranmış münaqişənin aktuallaşmasına səbəb oldu. Birincisi, may ayında baş vermiş toqquşmaların başlıca ocaqlarından biri məhz bu region idi. İkincisi isə, mayın 7 və 12-də Moskvada imzalanmış müqavilə və əlavə protokollar, həmçinin Azərbaycan ilə Gürcüstan arasında Ağstafada imzalanan müqavilə, bu mübahisəli məsələnin hüquqi səviyyəyə daşınmasına şərait yaratdı. Ümumilikdə, bölgənin siyasi mənsubiyyətini mübahisə mövzusu olaraq qəbul edən ilk hüquqi sənəd kimi - Ağstafa müqaviləsi Azərbaycan tərəfindən tanındı. Lakin, praktiki olaraq bu sənədlər Gürcüstan tərəfinin gözləntilərini yerinə

yetirmədi: sovet hökuməti Cənubi Qafqazın tam ərazi-inzibati bölgüsünü yalnız regionun tam sovetləşməsi başa çatdıqdan sonra həll etməyi planlaşdırırdı.

İyun ayında baş verən üsyan Zaqatala bölgəsinin siyasi mənsubiyyətinə dair mübahisənin aktuallaşmasında vacib faktor idi. Qırmızı Ordu komandanlığının yerli xüsusiyyətlərə laqeyd yanaşması və qarətçi fəaliyyətləri nəticəsində yaranan üsyanın gedişatında, onun rəhbərliyi Gürcüstan hökuməti ilə razılaşma imzaladı. Bir tərəfdən üsyan rəhbərlərinin və bölgənin əvvəlki elitalarının sosial-siyasi maraqlarına zidd olan yeni inqilabi vəziyyət, digər tərəfdən isə əhalinin sosial narazılığı əsasında razılaşma bağlandı. Bu qərarın müəyyən dərəcədə Tiflisdəki "Azərbaycan qurtuluş komitəsi" ilə razılaşdırıldığı ehtimalı irəli sürülür. Bu razılaşma üsyan rəhbərliyi tərəfindən yalnız müvəqqəti taktiki bir addım idi. Zaqatala bölgəsinin hansı dövlətə aid olması məsələsi yalnız Gürcüstanın sovetləşməsindən sonra həllini tapdı. 1921-ci il iyulun 5-də F.Maxaradze və N.Nərimanov Azərbaycan ilə Gürcüstan arasında sərhəd xəttinin müəyyənləşdirilməsi ilə bağlı qərara imza atdılar. Bu sənəd və 15 noyabr 1921-ci il tarixində bağlanan M.Hacıyev-B.Mdivani sazişi ilə Gürcüstan SSR, Zaqatala bölgəsi üzərindəki bütün iddialarından imtina etdi [7, s.17]. Zaqatala mahalının əhalisinin böyük əksəriyyətinin müsəlman olması və Azərbaycanın tərkibində yaşamağa olan istəklərini bəyan etmələri sözügedən münaqişənin həllində mühüm rol oynamışdı. Orconikidze və digər Qafqaz bolşevik rəhbərlərinin bu məsələyə praqmatik yanaşaraq dəstək vermələri, Zaqatala bölgəsinin Azərbaycanın tərkibində qalmasında əsas qərarverici amil oldu. Sovetlər Birliyi bir struktur olaraq bir imperiya xarakteri daşıyırdı, etnoərazi münaqişələrinin həllinə maraqlıydı. Bu baxımdan, Zaqatala mahalının mənsubluğu məsələsi həll olunarkən, bu bölgənin Azərbaycan Demokratik Respublikası dövründə respublikamızın tərkibində olması faktı nəzərə alındı.

Zaqatala bölgəsinin mənsubluğu ilə bağlı qərar verildikdən sonra, Sığnaq qəzasına aid torpaq məsələsi münaqişənin əsas müzakirə mövzusuna çevrildi və 30-cu illərin əvvəllərinə qədər bu məsələ aktual olaraq qalırdı. 1920-30-cu illərin başlanğıcında Zaqatala mahalı kənd icmaları öz əzəli torpaqları olan Çiaur meşəliyi və Şirək çölündən məhrum oldular. Sığnaq qəzasının şimal-şərqində, indiki Laqodexi rayonunda rus idarəçiliyi tərəfindən "Çiaur meşə məntəqəsi" adlanan ərazidə 1917-ci ildə Qabaqçöl kənd cəmiyyətinə məxsus təqribən 4500 desyatin, yəni 5000 hektara yaxın torpaq sahəsi var idi [8]. Rus inzibati idarəçiliyi əraziyə "Çiaur meşəliyi" adı verilmişdi. Bu toponimika "Car salnaməsində" "Cüyür" kimi verilir [5, s.22]. Həmin dövrdə münaqişə faktiki olaraq iki mərhələyə ayrılır. İlk mərhələ 1924-cü ilin oktyabrına qədər davam edirdi və bu dövrdə Gürcüstan tərəfi məsələnin hüquqi həllinə, yəni torpaqların Gürcüstan sərhədlərində qeyd olunmasına çalışırdı. 1924-cü ilin oktyabrın 15-də Tiflisdə baş tutan Azərbaycan-Gürcüstan müşavirəsinin protokolu və 17 oktyabrda xalq torpaq komissarları Bünyadzadə və Gegeçkorinin imzaladığı

sazişlər əsasında, Çiaur meşəliyi və Alazanyanı vadisi inzibati baxımdan Gürcüstana verildi.

Bundan sonra ixtilafın inkişafında növbəti mərhələ başladı. 1924-cü ilin oktyabrında bağlanan sazişlər mübahisəli hesab edilən rayonları inzibati baxımdan Gürcüstana tabe etsə də, həmin ərazilərdəki bir sıra torpaqların Zaqatala kəndlilərinin istifadəsində qalmasını şərtləndirirdi. Lakin bu şərt gürcü hakimiyyəti tərəfindən kobud şəkildə pozulurdu. Gürcü tərəfi öz torpaqlarının azlığını və torpaqsız kənd əhalisinin çoxluğunu əsas gətirərək mübahisəli ərazilərin Gürcüstana verilməsinin zəruriliyini izah edirdilər. Halbuki, təqdim olunan məlumatlardan aydın olurdu ki, Azərbaycan kəndlisi də bu problemdən ciddi şəkildə məruz qalmışdı. Şirək məsələsində olduğu kimi, "Çiaur meşəliyi" ilə bağlı problemlərdə Qabaqçöl sakinləri 1924-cü ilin oktyabrında imzalanan sazişdən sonra gürcü hakimiyyətinin və əhalisinin davamlı təzyiq və sıxışdırmalarına məruz qalırdılar. Məsələn, Azərbaycan meşə tresti müdiri Y.Məlikovun 1925-ci ilin sentyabr ayında xalq torpaq komissarlığına göndərdiyi yazıda bildirilirdi ki, Gürcüstan meşə təsərrüfatı idarəsi, Sığnaq qəza milisinə Zaqatala sakinlərini Laqodex rayonunda mübahisəli ərazidə ağac kəsməyə buraxmamaq barədə sərəncam vermişdi [12, s.167]. 1920-ci illərdə gürcü tərəfinin irəli sürdüyü arqumentlər Cənubi Qafqazın ali orqanlarındakı gürcü və erməni məmurları tərəfindən dəstəklənirdi. Gürcü hakimiyyəti Zaqatala kəndlilərini öz doğma torpaqlarından sıxışdıraraq çıxarmağa çalışırdı. Lakin buna baxmayaraq Cənubi Qafqaz MİK Rəyasət Heyəti, Çiaur meşəsi və Şirək bölgəsində Azərbaycan kəndlilərinə torpaq verilməsi ilə bağlı bir neçə dəfə qərar çıxarmışdı.

XX əsrin 20-ci illərin sonlarında, münaqişənin ikinci mərhələsi demək olar ki, tamamlanmışdı. Gürcüstan hökuməti mübahisəli ərazilərin əksər hissəsini təsərrüfat baxımından mənimsəməyi bacarmış, dağlıq və torpaqsız bölgələrdən köçürülən vətəndaşlarını burada yerləşdirmişdi. Nəticədə, Zaqatala sakinləri bu ərazilərdən uzaqlaşdırıldı. 20-ci illərin sonları və 30-cu illərin əvvəllərində həyata keçirilən kollektivləşdirmə prosesində Gürcüstan hakimiyyəti bu torpaqlarda iri təsərrüfat vahidləri – kolxozlar və sovxozlar yaratmağa başladı. Bu şəraitdə böyük torpaq sahələrinə ehtiyaclarını əsas gətirən gürcülər Azərbaycan tərəfinin kiçik torpaq sahələrinin güzəştə getmək təkliflərini sərt şəkildə rədd edirdilər. Artıq 30-cu illərin ortalarına yaxın, Şirək çölü və Çiaur meşəliyindəki sabiq Zaqatala dairəsi kəndlilərinin torpaqları məsələsi tədricən gündəlikdən çıxarıldı. Mübahisənin başlanğıcında torpaqların Gürcüstan tərəfindən tamamilə mənimsənilmədiyi, məsələnin ədalətli həlli ilə bağlı ümidlərin qaldığı dövrdə problem hələ də gündəmdə qalırdı.

Gətirilən faktlardan məlum olur ki, Zaqatala kəndliləri öz torpaqlarını itirmək fikri ilə razılaşmamış, dəfələrlə yuxarı instansiyalara müraciət etmiş, hər zaman gürcü tərəfinin qanunsuz hərəkətlərinə qarşı mübarizə aparmışlar. Lakin,

Azərbaycan kəndlilərinin ən sadə və təsərrüfat məqsədli müraciətləri belə nəzərə alınmırdı. Bir tərəfdən savadlı və öz vətəninin tarixi, coğrafiyası və təsərrüfat şəraitinə bələd olan Azərbaycan kadrlarının az olması, digər tərəfdən isə Cənubi Qafqazdakı hakimiyyət strukturlarında qonşu xalqların nümayəndələrinin üstünlük təşkil etməsi mübahisəli məsələlərin qarşı tərəfin xeyrinə həll olunmasına səbəb olurdu. Azərbaycan üçün çox mühüm olan mübahisəli ərazilərin həlli məsələsi Kasyan, Şaverdov, Onanov, Balabanov, Çxenkeli kimi şəxslərin ixtiyarına verilmişdi.

Bütün bunların nəticəsində 20-ci illərin ortalarında və ikinci yarısında Azərbaycanla Gürcüstan arasında qəbul edilmiş qərarlar nəticəsində 63 min hektardan çox torpaq Gürcüstana verilmişdir. Bu dövr ərzində əvvəllər Azərbaycana qaytarılmış və ya Azərbaycan tərəfinin haqları tanınmış torpaqların da böyük bir hissəsi müxtəlif bəhanələrlə mərhələli şəkildə Gürcüstana güzəşt edilmişdi.

## Ədəbiyyat

1. Azərbaycan tarixi. VII cilddə. VI cild (aprel 1920 - iyun 1941). Bakı, Elm, 2008, 568 s.
2. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası /Baş redaktor Y.M.Mahmudov: 2 cilddə, I cild, Bakı, Lider, 2004, 440 s.
3. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası /Baş redaktor Y.M.Mahmudov: 2 cilddə, II cild, Bakı: Lider, 2005, 475 s.
4. Baxşəliyev R. Tarixin acı gerçəkliyi, Bakı, Azərbaycan qəzeti, 2022, 2 fevral.
5. Molla Məhəmməd Əl-Cari. Car salnaməsi (ərəbcədən tərcümə, giriş, şərhlər və qeydlər S.Süleymanovanındır). Bakı: Səda, 1997, 146 s.
6. Nəsibzadə N. Sərhədlər. Bakı, Elm qəzeti, 1989, 17 iyun
7. Rəhmanzadə Ş. Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri (Azərbaycanın şimal-qərb bölgəsinin materialları əsasında, 1917-1930-cu illərin əvvəlləri). Bakı, Aspoliqraf, 2008, 376 s.
8. Rəhmanzadə Ş. Sərhədyanı mübahisə 1918-1920-ci illərdə Azərbaycan-Gürcüstan münasibətlərində əlverişsiz amil kimi. "Strateji təhlil" jurnalı, say 1-2 (23-24), 2018
9. Архипова Е. Границы между Азербайджаном, Грузией и Россией: Советское наследие // «Центральная Азия и Кавказ». Журнал социально-политических исследований. №6(42), 2005, с. 38.
10. Азизбекова П., Мнацаканян А., Траскунов М. Советская Россия и борьба за установление и упрочение власти советов в Закавказье - Баку: Азерб. гос.изд во, 1969, с. 247.
11. Гусейнова И.М. История народов Кавказа. Баку, 2018. 1248 с.

12. Мустафаева С.О. Изменения границ и территорий на Южном Кавказе (1917-1922 гг.) Баку, Европа, 2017. 304 с .

13. Мустафазаде Р.С. Две Республики. Азербайджано-российские отношения в 1918-1922 п: -М., 2006. 356 с .

14. Материалы по вопросу о введении земских учреждений в Закавказье. Т. VII.Тифлисская губерния и Закатальский округ. Тифлис, Издание Канцелярии Наместника Е.И.В. на Кавказе, 1910.  602 с.

# XX ƏSRİN 90-CI İLLƏRİNİN BİRİNCİ YARISINDA AZƏRBAYCAN - TÜRKİYƏ ƏLAQƏLƏRİNİN TƏŞƏKKÜLÜNDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İŞTİRAKI

**Pərviz Səfərov**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
parviz.safarov60@mail.ru

***Açar sözlər:*** *Azərbaycan, Türkiyə, Naxçıvan, tarixi gerçəklik, təhlükəsizlik tədbirləri, erməni işğalı, nəqliyyat blokadası, humanitar yardımlar, layihələr, Heydər Əliyevin fəaliyyəti.*

*Məqalədə XX əsrin 90-cı illərinin birinci yarısında – Azərbaycan Respublikası Dövlət Müstəqilliyini qazandıqdan sonra formalaşan Azərbaycan-Türkiyə əlaqələrində Azərbaycan Respublikasının tarixi ədalətsizlik nəticəsində anklav şəklinə düşmüş Naxçıvan bölgəsinin iştirakı, Ermənistanın Naxçıvanı işğal etmək planı və təhdidləri, bu planları dəf etmək istiqamətində Türkiyənin səyləri, iqtisadi-nəqliyyat blokadası şəraitində yaşayan Naxçıvanın Türkiyə ilə əlaqələr qurması, göstərilən humanitar yardımlar və gələcəyə hesablanmış birgə layihələrin həyata keçirilməsi üçün tərəflərin birgə fəaliyyətindən danışılır. Məqalədə Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinin Naxçıvan dövrünə aid məqamlar da yer alıb.Xüsusilə Heydər Əliyevin Naxçıvanı iqtisadi-nəqliyyat və enerji böhranından çıxarmaq istiqamətində Türkiyə Cümhuriyyətinin rəhbərləri ilə siyasi təmasları və birgə fəaliyyəti məqalədə öz əksini tapıb.*

# УЧАСТИЕ НАХИЧЕВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ В СТАНОВЛЕНИИ СВЯЗЕЙ АЗЕРБАЙДЖАНА С ТУРЦИЕЙ В ПЕРВОЙ ПОЛОВИНЕ 90 -Х ГГ XX ВЕКА

**Парвиз Сафаров**

***Ключевые слова:*** *Азербайджан, Турция, Нахичевань, исторические реалии, меры безопасности, армянская агрессия, транспортная блокада, гуманитарная помощь, проекты, деятельность Гейдара Алиева*

*Статья рассмотрено участие Нахичеванского региона, который в результате исторической несправедливости попал в положение анклава, в связях Азербайджана с Турцией, которые вошли в процесс*

*формирования и развития в первой половине 90-х гг. XX века. Также отмечается о планах и угрозах Армении по захвату Нахичеванской Автономной Республики, о мерах Турции по предотвращению этих планов, о формировании отношений с ней Нахичеванской Автономной Республики существующей в условиях транспортно-экономической блокады навязанной Арменией, об оказанной гуманитарной помощи жителям НАР Турцией и стремлениям сторон по осуществлению совместных проектов рассчитанных на будущее. В статье нашло отражение также отдельные страницы нахичеванского периода жизни и деятельности Общенационального Лидера Гейдара Алиева. Особо подчеркивается его личные контакты с руководством Турецкой Республики и взаимодействие с ними по выводу НАР из транспортной, экономической и энергетической блокады.*

## THE PARTICIPATION OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC IN THE FORMATION OF AZERBAIJAN- TURKIYE RELATIONS IN THE FIRST HALF OF THE 90S OF THE 20 TH CENTURY

**Parviz Safarov**

***Keywords:*** *Azerbaijan, Turkiye, Nakhchivan, historical reality, security measures, Armenian occupation, transportation blockade, humanitarian aid, projects, activity of Heydar Aliyev*

*The article discusses the formation of Azerbaijan-Turkey relations in the first half of the 1990s, following the Republic of Azerbaijan's independence. It highlights the involvement of the Nakhchivan region, which had become an enclave due to historical injustices, in these relations. The article also addresses Armenia's plans to occupy Nakhchivan and the threats it posed, as well as Turkey's efforts to counter these plans. In the context of the economic and transport blockade Nakhchivan faced, the article explores how the region established connections with Turkey, including humanitarian aid and the implementation of joint projects aimed at the future.*

*The article also touches upon the period of National Leader Heydar Aliyev's life and activities in Nakhchivan, focusing particularly on his political contacts and joint efforts with Turkish leaders to help Nakhchivan overcome its economic, transport, and energy crises. These interactions are central to the article's discussion.*

Qafqazda və Azərbaycanda daim strateji maraqları olan regional güclərdən biri Türkiyədir. Türkiyə Azərbaycan Respublikasının regionda təbii müttəfiqi sayılan Türkiyə müstəqilliyinin ilk illərində ona beynəlxalq hüquq normaları çərçivəsində imkanlarına uyğun yardım göstərərək, onun təbii sərvətlərinin istismarında iştirak edərək daxili enerji tələbatını təmin etmək, Qərbin neft şirkətlərinin iştirakı ilə hasil edilən Azərbaycan neftinin dünya bazasına çıxaran neft kəmərini öz ərazisindən keçməsinə çalışaraq öz strateji əhəmiyyətini artırmağa, eləcə də Azərbaycandan tranzit ərazi kimi yararlanaraq Mərkəzi Asiyanın türk dövlətlərinə çıxmağa səy göstərirdi. Türkiyə gözəl anlayırdı ki, Azərbaycanla yeganə kiçik sərhəd zolağının mövcud olduğu Naxçıvan bölgəsi onun Qafqaz, Azərbaycan və Mərkəzi Asiya strategiyasında necə önəmli əhəmiyyət kəsb edir. Eyni zamanda, Azərbaycan da Naxçıvanın strateji əhəmiyətini yaxşı dərk edirdi. Ona görə də 90-cı illərin əvvəllərində Ermənistanın Qarabağla yanaşı Naxçıvana da təcavüzkar niyyətlərini qəti dəf etməkdə Türkiyənin qəti addımlarına ümid bəsləyirdi. Bu dövrdə Heydər Əliyevin Naxçıvanın rəhbəri olaraq uzaqgörən və cəsarətli addımları, Türkiyə ilə əlaqələr qurması və bölgənin blokada nəticəsində yaranmış ağır durumunun yaxşılaşdırılması, həmçinin Türkiyə Cümhuriyyəti rəhbərliyinin buna qarşılıq verməsi və Naxçıvanın hər vəclə təcavüzdən qorumaq istiqamətində verdikləri qətiyyətli bəyanatlar Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyini təmin etdi, sonradan bu bölgə Azərbaycan - Türkiyə ilişkilərinin inkişafında mühüm həlqəyə çevrildi.

## 1. Naxçıvanın təhlükəsizliyini və toxunulmazlığını təmin etmək təmin etmək sahəsində Türkiyənin fəallığının siyasi və tarixi amilləri

Avropa və Asiyanın qovuşuğunda yerləşmiş, coğrafi cəhətdən əlverişli mövqeyə, zəngin təbii ehtiyatlara malik Azərbaycanda baş verən hadisələr fonunda Qərb dövlətlərinin və Türkiyənin regionda fəallıq göstərmələri Rusiya və İran tərəfindən kəskin siyasi ziddiyyətlərlə qarşılandı. Cənubi Qafqaz şərqlə qərb arasında bir növ bağlayıcı həlqə rolunu oynayır. Müstəqil Cənubi Qafqaz dövlətlərinin meydana gəlməsi bu regionun böyük iqtisadi, hərbi-strateji imkanlarını bir daha qabarıq şəkildə ortaya qoydu. Yalnız enerji daşıyıcıları və Gürcüstanın dünya okeanlarına çıxışı ilə gündəmə gələn bu region yaxın perspektivdə mühüm nəqliyyat - kommunikasiya dəhlizinə çevrilməklə Mərkəzi Asiyanı da öz arxasına apararaq Rusiyadan yan keçməklə onu Avropaya çıxaran lokomotivə çevrildi. Xəzərlə Qara dənizi birləşdirən körpüyəbənzər bu mühüm zəncirin ən vacib həlqəsi isə inkişaf etmiş nəqliyyat infrostrukturuna malik Azərbaycan idi. Əgər buraya ölkənin zəngin təbii ehtiyatlarını da əlavə etsək onda Azərbaycan uğrunda gedən çarpışmanın coğrafiyasının niyə belə geniş olduğunu anlayırıq. Azərbaycanın nəqliyyat-logistika siyasəti uzaq perspektivə hesablanmışdır. Bu nəqliyyat yolunun mühüm həlqəsi həm də hələ

Sovet dövründə mövcud olmuş və 90-cı illərin birinci yarısında Ermənistan tərəfindən bağlanmış Azərbaycanı Naxçıvan və Türkiyə ilə birləşdirəcək Mehri dəhlizi idi. Bu dəhliz əlverişli relyefinə görə sərnişin, yükdaşımalar üçün iqtisadi cəhətdən çox səmərəli olmaqla Naxçıvanı beynəlxalq miqyasda mühüm nəqliyyat qovşağına çevirə bilirdi.

90-cı illərin əvvəllərində Azərbaycanda baş verən mürəkkəb ictimai-siyasi proseslər, onun ətrafında geosiyasi qarşıdurmanı gərginləşdirir, burada ənənəvi maraqları olan Rusiya, İran və Türkiyə arasında ziddiyyətləri daha da kəskinləşdirirdi. SSRİ-nin dağılmasından sonra özünü onun hüquqi varisi edən Rusiya Federasiyası bəyan etdi ki, yeni yaranmış Müstəqil Dövlətlər Birliyi Rusiya üçün həyati əhəmiyyəti olan təsir dairəsidir. Ordu üzərində vahid komandanlıq, vahid iqtisadi məkan, həmçinin unikal mədəni məkan ümumi sərhədlər və ümumi rus dili, bunlar Rusiyanın MDB çərçivəsində ən vacib göstərilənləridir. Rusiya Federasiyasının keçmiş Xarici İşlər naziri A.Korıyev dəfələrlə qeyd etmişdir ki, Rusiya bu maraqlarnı bütün mümkün, hətta ən sərt vasitələrlə qoruyacaq [12, s.16]. Münaqişələr baş verdikdə, Cənubi Qafqaz ölkələri (xüsusilə, Gürcüstan və Azərbaycan) bu təzyiqi həqiqətən öz üzərində hiss edirdilər. 1988-ci ildə Azərbaycanın Dağlıq Qarabağ bölgəsində qiyam qaldıran erməni əhalisini yönəldən Ermənistan 1991-ci ildən Naxçıvan MR-ını tam nəqliyyat blokadasına salmışdır. Rusiya Ermənistana böyük təzyiq imkanları olmasına baxmayaraq Naxçıvanın ağır blokadasını aradan qaldırmaq üçün heç bir tədbir görmədi.

İranın Qafqazda maraqları Rusiyanın və Türkiyənin maraqları ilə toqquşurdu və burada qarşılıqlı anlaşmaya gedən yol çox uzun idi. İranın Naxçıvan Muxtar Respublikası ərazisində Türkiyənin hərbi bazasının yerləşdirilməsi mümkünlüyü barədə mətbuatda gedən polimikalara reaksiyası və ya Qarabağ münaqişəsi arasında nəzərdə tutulan sülhyaratma kontingentinin həm də Türkiyə hərbiçilərindən ibarət olması barədə ehtimal və təkliflətə Tehran sərt bəyanatla cavab vermişdir. Baxmayaraq ki, Türkiyə vaxtilə Naxçıvanın təhlükəsizliyi baxımından öz üzərinə öhdəliklər götürmüşdür.

XIX əsrin 20-30-cu illərində Rusiya–İran və Rusiya–Türkiyə müharibələrinin Rusiyanın qələbəsi ilə başa çatmasından sonra Rusiya İmperiyası qəti olaraq Gürcüstanda möhkəmlənərək - Azərbaycanın şimalını da öz ərazilərinə qatdı. 16 (28) may 1812-ci ildə Osmanlı İmperiyası ilə Rusiya İmperiyası arasında Buxarestdə bağlanmış müqaviləyə əsasən Cənubi Qafqaz Rusiyanın mənafe dairəsinə keçdi [2, s.84]. Cənubi Qafqaz Türkiyə və İrandan on minlərlə erməni köçürülməyə başladı. İki il ərzində İrandan Azərbaycana 40 min, Anadoludan isə 84 min erməni köçürüldü. Digər məlumatlara görə bu illərdə İrəvan, Naxçıvan və Qarabağa ermənilər kütləvi şəkildə (təxminən 200 min) köçürülmüşdülər [30,s.58]. Köçürülənlərin əsas hissəsi keçmiş Naxçıvan və İrəvan xanlıqları ərazisində Bakı və Yelizavetpol quberniyasında

yerləşdirildilər. Bu proses sonrakı dövrlərdə də davam etdirildi [25, s.124-125].

Qarabağ başlamış erməni qiyamı, azərbaycanlılara qarşı törədilmiş vəhşiliklərin cəzasız qaldığını görən ermənilər ruhlanaraq Naxçıvana qarşı da həmlələrini artırırdılar. 1990-ci ilin yanvarında Naxçıvanın Şərur, Şahbuz və Ordubad rayonlarının sərhəd kəndləri erməni həmlələrinə məruz qaldı. Ən ağır hücuma Şərurun Sədərək kəndi məruz qaldı. Erməni quldur dəstələrinin həmlələri, yerli əhali və sərhədi qoruyan milis (polis) qüvvələri arasında itkilər, Moskvanın seyirçi mövqeyi insanların səbrini lap daşırdı. 19 yanvar 1990-ci ildə Naxçıvan MSSR Ali Soveti (parlamenti), Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən çıxdığını elan etdi [18,s.81-83].

Hələ, 1918-ci ildə Rusiyanın Brest anlaşmasını imzalamasına yaxın dövrdə İstanbulda Gürcüstan və indiki Ermənistanın qərbindəki bəzi əraziləri, o cümlədən, Azərbaycan və Qafqazın işğalında torpaqları özündə birləşdirən dini ideologiyaya əsaslanan bir sultanlıq yaratmaq planı hazırlamışdır. Osmanlı bu yolla özlərini rus təhlükəsindən və təzyiqlərdən qorumağa çalışırdı. Bu dövlət hər iki imperiya arasında ayırıcı sədd rolunu oynamalı idi [21,s.29-41]. Azərbaycan Demokratik Respublikası yaradıldıqdan sonra 1918-ci ilin dekabrında Ermənistanın daşnak hökuməti Naxçıvan, Zəngəzur və Qarabağı ələ keçirmək üçün müharibəyə başladı [27, s.187]. 1920-ci il aprelin 28-də qurulan Azərbaycan Sovet Respublikasının ilk diplomatik addımlarından biri Ermənistan hökumətinə 30 aprel 1920-ci il tarixli etiraz notası oldu. Lakin, Ermənistan höküməti işğalçılıq fəaliyyətini dayandırmayaraq 1920-ci ilin yayında Qarabağ, Zəngəzur və Naxçıvanı, Qazax və Yelizavetpol (Gəncə-P.S) qəzalarının isə cənubunu işğal etməyə cəhd göstərdi. Həmin ilin yayın sonunda ermənilər geri oturduldular [27, s.188].

16 mart 1921-ci ildə Rusiya ilə Türkiyə arasında bağlanmış Moskva müqaviləsi Türkiyənin Gümrü (Aleksandropol) anlaşmasına görə qazandığı əraziləri təsdiq etdi. Naxçıvan və Qarabağ Azərbaycanın tərkibində qaldı [22, s.250]. Moskva və Qars (13 oktyabr 1921-ci il) müqavilələrinə görə Naxçıvanın – Azərbaycanın proteraktorluğu altında saxlanılması ilə Naxçıvana olan iddialara son nöqtə qoyuldu [8, s.91-99].

Lakin, müqavilələr Zəngəzurun böyük hissəsinin Azərbaycandan ayrılıb Ermənistana verilməsi və bununla da Naxçıvanın süni surətdə ölkənin əsas hissəsindən təcrid edilərək, anklav halına düşməsi fonunda imzalandı. Moskvanın təkidi ilə 1920-ci il noyabrın 30-da Zəngəzurun iki hissəyə bölündü və cüzi hissəsi Azərbaycanda qalmaqla 4505 kv.km-lik ərazi Ermənistana verildi [12, s.35]. Halbuki, 1920-ci ildə Zəngəzurda yaşayan 224.197 nəfər əhalinin 70%-i azərbaycanlılar idilər [6, s.22]. Beləliklə, Zəngəzurun Ermənistana verilməsi yuxarıda qeyd edildiyi kimi 1988-ci ildən başlayaraq Qarabağı zəbt etməyi qarşısına məqsəd qoymuş Ermənistanın daha sonra Naxçıvanı ələ keçirmək barədə məkrli planına uyğun olaraq oranın blokadaya salınmasına,

Naxçıvanın Azərbaycanla quru və dəmir yolu əlaqəsinin kəsilməsinə səbəb oldu. Azərbaycan Naxçıvanla İran, yaxud Gürcüstandan keçməklə Qars-İğdır yolu ilə Türkiyə vasitəsi ilə əlaqə saxlaya bilərdi.

90-cı ilin yarısında – Azərbaycanda xalq hərəkatı geniş vüsət almışdır. Xalqın bütün təbəqələri ölkənin torpaq bütünlüyünə hər hansı bir qəsdin qarşısını olmaq məqsədi ilə yumruq kimi birləşmişdilər. Hamı bu milli birliyə zidd olaraq Moskva ilə hər hansı danışığa, razılaşmaya getməyin əleyhinə idi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə isə Sovet qoşunları ağır texnikanın müşayəti ilə şəhərə daxil olaraq misli görünməmiş qırğın törətdilər [26, s.287].

Azərbaycan xalqının o gün faciə yaratdığı bir vaxtda Moskvada yaşayan Heydər Əliyev yanvarın 21-də Azərbaycan SSR-nin Moskvdakı daimi nümayəndəliyinə gələrək təşkil olunmuş toplantıda və mətbuat konfransında Bakıda baş vermiş qanlı qırğını pislədi, baş verən hadisələrdə ölkə rəhbərliyini fəaliyyətsizlikdə ittiham etdi [28,s.28]. Bu bəyanatdan sonra Heydər Əliyevin Moskvada yaşaması mümkünsüz oldu. O,SovİKP sıralarını tərk edərək Azərbaycana qayıtdı və doğulduğu Naxçıvana getdi [17,s.1.,5, s.91]. Həmin vaxt Ermənistan ərazisində Azərbaycanın əsas ərazisi ilə Naxçıvan Muxtar Respublikası ərazisində, Mehri rayonunda sonuncu azərbaycanlı kəndi – Nügədi kəndinin sakinləri öz torpaqlarından qovuldular. Beləliklə, 1988-1991-ci illər ərzində Ermənistanda 180-dən çox yaşayış məntəqəsindən 230 min azərbaycanlı qovuldu [10, s.130].

1991-ci il sentyabr 4-də Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin sədri seçildi. Bu elə bir zamanda baş verdi ki, Naxçıvan MR Ermənistanın ona qarşı təcavüzünün baş verə biləcəyi reallığı ilə üz-üzə gəlmişdir [5, s.287]. 1993-cü ilin sentyabrında Qarabağ bölgəsində Araz çayı boyunca erməni işğalının güclənməsi ilə Naxçıvanda da vəziyyətin gərginləşdi.Naxçıvvan MR-in 300 mindən çox əhalisi təcavüz baş verərsə ya İrana,ya da Türkiyəyə pənah aparmalı idilər[29, s.191].

Yaranmış təhlükəli vəziyyətlə bağlı Türkiyənin diplomatik fəallığının artdığını görən İran bütün vasitələrlə regionda Türkiyənin təsirini məhdudlaşdırmağa və onu neytrallaşdırmağa çalışırdı. Elçibəy hökümətinin Türkiyəyönümlü siyasəti İranın vasitəçilik fəaliyyətinə ciddi maneə törədirdi. Bu isə İranın Ermənistanla yaxınlaşmasına təkan verdi. Hətta İran ermənilərin 1992-ci ilin mayında Naxçıvana növbəti təcavüzünü pisləsə də, Ermənistan rəsmi dairələri İranın vasitəçilik səylərini alqışlayırdılar [12, s.155-163].

1992-1993-cü illərdə Türkiyə ictimaiyyəti ermənilərin Azərbaycanda törətdikləri vəhşiliklərdən sarsıldı. Bu hadisələr türk mətbuatında da geniş işıqlandırıldı. Prezident T.Özal hətta Ermənistana xəbərdarlıq edərək bildirdi ki, Türkiyə ermənilərin Azərbaycan ərazisində törətdiklərini kənardan sadəcə seyr etməklə kifayətlənə bilməz.1992-ci il may ayının 8-də “ Milliyet” qəzetinin verdiyi xəbərə görə Türkiyə Cümhuriyyətinin baş naziri S.Dəmirəl ABŞ

prezidenti C.Buş ilətelefon danışığında bildirmişdir ki, Ermənistan Naxçıvana hücumları davam etdirsə Türkiyə kənar müşahidəçi kimi qala bilməyəcəkdir. Hətta 1992-ci ilin mayında erməni hərbi hissələrinin Naxçıvana hücumları gücləndirdikdə Türkiyədə hərbi müdaxilə imkanları ciddi müzakirə olunurdu. [ 13, 290]

Türkiyə hakim dairələrinin fikrincə Rusiya ilə 1921-ci ildə bağlanmış Qars müqaviləsi onun Naxçıvanın statusu ilə əlaqədar mübahisələrə müdaxilə etməyə imkan verirdi. Bu müqaviləyə istinad edən dövlət başçısı T.Özal hökumətdən Naxçıvana əsgər göndərməyi istəyirdi. DSP lideri B.Ecevit və MHP lideri A.Türkeş də Ermənistanın Naxçıvana hücum edəcəyi təqdirdə Türkiyənin hərbi müdaxiləsinin zəruriliyini qeyd edirdilər. T.Özal vəfat etdikdən sonra baş nazir T.Çiller də TBMM-dən belə hal baş verdikdə Türkiyənin Naxçıvana qoşun yeritməsi üçün ona səlahiyyət verilməsini istəyirdi [20, s.751].

Qeyd edilməlidir ki, 1921-ci il 16 mart tarixli Rusiya ilə Türkiyə arasında müqavilənin 3-cü bəndində bildirilir ki, əsas müqaviləyə I (c) əlavəsində göstərilən sərhədlər çərçivəsində olan Naxçıvan vilayəti Muxtariyyət ərazisi kimi Azərbaycanın protektoreatlığına verilir, bu şərtlə ki, Azərbaycan öz protektoretlığını üçüncü dövlətə verməməlidir [4, s.439-444].

Türkiyə Cümhuriyyətinin Birləşmiş Millətlər Təşkilatında nümayəndəsi Mustafa Aksin 1993-cü il aprelin 6-da Kəlbəcərin işğalından 4 gün sonra keçirdiyi mətbuat konfransında bildirdi ki, Türkiyə qardaş Azərbaycanın torpaqlarının zəbt edilməsinə və ona qarşı indiyə kimi törədilmiş ədalətsizliyin qalmasına imkan verməyəcəkdir.[ 15, s.122 ]

Türkiyə prezidenti S.Dəmirəl Dağlıq Qarabağın münaqişəsinə daha ehtiyatlı yanaşırdı. O qeyd edirdi ki, əgər Türkiyə Azərbaycan tərəfində müharibəyə daxil olarsa, bu addım kənardan xristian - müsəlman qarşıdurması kimi qəbul edilə bilər və eyni zamanda Türkiyə - ABŞ münasibətlərinə də mənfi təsir göstərər, Rusiya ilə münasibətləri xeyli gərginləşdirərək, Dəmirəlin fikrincə Türkiyənin bu münaqişədə rolu vasitəçi olmaqdan ibarətdir [31, s.12-13].

**2. Naxçıvan iqtisadi-nəqliyyat blokadasından çıxarılması istiqamətində Türkiyə-Azərbaycan əməkdaşlığı.**

1991-1993-cü illərdə Heydər Əliyevin Naxçıvanda olması və Muxtar Respublikaya rəhbərlik etməsi diyarın üzləşdiyi ağır vəziyyətdən və mənfur düşmənin əlinə keçməkdən xilas etdi. 29 oktyabr 1991-ci ildə Naxçıvanın Sədərək rayonunda Araz çayı üzərində Naxçıvan ilə Türkiyəni bir-birinə bağlayan müvəqqəti körpünün istifadəyə verilməsi Naxçıvanın Türkiyə ilə əlaqələrinə önəm qazandırmışdır. Müvəqqəti körpünün açılması ilə Türkiyənin Naxçıvana yardımları artmağa başladı. 9 noyabr 1991-ci ildə Türkiyə Qızılayı Naxçıvana 126 ton buğda göndərməklə yardım etmiş, 29 noyabrda isə İğdır

əhalisi və valiliyinin yardımlarından ibarət 19 iri tonnajlı yük avtomobillərindən ibarət karvan Naxçıvana yardım gətirmişdir. 1991-ci il oktyabrın 29-da Azərbaycanla Türkiyə arasında Sədərək rayonu ərazisində, Araz çayı üzərində salınmış müvəqqəti körpünün açılış mərasimi oldu. Mərasimdə Heydər Əliyevlə yanaşı, Türkiyə hökümətinin rəsmiləri, Bakıdan gələn nümayəndələr iştirak etmişlər [13, s.211].

1992-1993-cü illərdə Naxçıvan MR-nın Ermənistan tərəfindən elektrik enerjisinin verilməsinin dayandırılmasına və dəmir yolunun Mehri sahəsində hərəkətin dayandırılmasına baxmayaraq Naxçıvan yaşayır və müharibə aparırdı. Çətinliklərə baxmayaraq, Heydər Əliyev Naxçıvana uğurla rəhbərlik edirdi. 1992-ci ilin martında Türkiyə prezidenti S.Dəmirəllə danışıqlardan sonra buraya hərtərəfli yardım göndərildi. Muxtar Respublika Türkiyənin elektrik şəbəkəsinə qoşuldu [16, s.102]. Naxçıvanı Türkiyə birləşdirəcək yol heç vaxt olmamışdır. Tərəflərin təşəbbüsü ilə Araz çayı üzərində Naxçıvanı Türkiyənin Dilucu adlanan bölgəsini birləşdirən körpü tikildi [15,s.156]. Naxçıvanlılar, həmçinin bütün Azərbaycan bu körpünü "Ümid körpüsü" adlandırırdı.1992-ci il mayın 28-də Sədərək Dilucu körpüsünün açılışı iqtisadi böhran içərisində yaşayan Naxçıvanda bayrama çevrildi. Körpünün rəsmi açılışında iştirak etmək üçün Türkiyənin Baş naziri S.Dəmirəlin başçılığı ilə böyük nümayəndə heyəti Naxçıvana gələrək bölgə ilə tanış oldular. Körpünün açılış mərasimində "bu gün burada cərəyan edən hadisə tək bu körpünün açılışı deyildir. Cərəyan edən əsas hadisə 70 il bir-biri ilə qürbətdə, həsrətdə qalmış qardaşlarımızın yenidən görüşməsidir, bu coşqunluğu anlaya bilmək lazımdır" - deyən S.Dəmirəl onu da əlavə etdi ki, "Qardaşlıq, dostluq bundan sonra daha sıx olacaqdır. Türkiyə ilə Azərbaycan, ona bağlı Naxçıvan arasında əlaqələr genişlənəcək, adamlar bir-birləri ilə yaxınlaşacaqlar" [1, s.3].

"Naxçıvan türk-islam dünyasına bir qapıdır" söyləyən Heydər Əliyevin Türkiyə Respublikasına Naxçıvanın rəhbəri kimi ilk rəsmi səfəri 1992-ci ilin martın 22-25-də həyata keçirilmiş, səfər zamanı Türkiyə Prezidenti Turqut Özal, Baş nazir Süleyman Dəmirəl və digər rəsmi şəxslərlə görüşlər keçirilmişdir. Görüşlərdə əsas müzakirə edilən məsələ Qars müqaviləsini yenidən gündəmə gətirməklə Ermənistanın düşdüyü ağır vəziyyət olmuşdur. Nəticədə, Türkiyənin Baş naziri ilə Naxçıvan Ali Məclisinin sədri arasında birgə "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu" imzalanaraq, bütün sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi nəzərdə tutulmuşdur [1,s.20]. Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda mühüm iqtisadi islahatlar keçirildi, sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradıldı. Türkiyənin iş adamları Naxçıvana dəvət edildi. Onlara biznez fəaliyyəti üçün lazımi şərait yaradıldı.

Heydər Əliyev hərbi quruculuq məsələlərinə xüsusi diqqət yetirirdi. Naxçıvan ərazisində qalan keçmiş sovet ordusunun və sərhəd zastavasının

bütün silahları və hərbi texnikası milli ordu hissələrinə verildi. Respublika rəhbərliyi belə çətin vəziyyətdə Ermənistan Respublikaası ilə uzun sərhəd zolağına malik Naxçıvan MR-nı, onun rəhbərləri dəstəkləmək Naxçıvan MR-nın təhlükəsizliyini və ərzaq təminatını həyata keçirən bu şəxsin fəaliyyətini təqdir etmək əvəzinə, ona qısqanclıqla yanaşır, fəaliyyətini ləkələməyə çalışırdı. Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin sədri kimi 1992-ci ildə 4 dəfə (3 dəfə Ankaraya, 1 dəfə İğdıra), 1993-cü ildə isə 3 dəfə Türkiyə Respublikasına (İğdır, İstanbul və Ankaraya) səfərləri Ermənistan tərəfindən ağır iqtisadi-nəqliyyat blokadasına salınan bölgəni ərzaq, yanacaq və gündəlik tələbat malları ilə təchiz etməkdə böyük rol oynamışdır. Nə qədər qəribə olsa səfərlər Bakıda böyük narazılıqla qarşılanmışdır. Halbuki, bu səfərlər Naxçıvanla, həm də bölgə üçün çox vacib enerji sahəsində əməkdaşlığın əsasını qoymuş, gələcəkdə Türkiyə şirkətlərinin modul və kanal tipli elektrik stansiyalarının tikintisinə cəlb olunmasına, Türkiyənin BOTAŞ şirkətinin Naxçıvanı fasiləsiz qazla təchizatına zəmin yaratmışdır, 92 km-lik İğdır-Naxçıvan yüksək gərginlikli elektrik xətti çəkilmişdir [7, s.31]. Bu siyasətin davamı olaraq Naxçıvanda təsis edilən Türkiyə Respublikasının Baş Konsulluğu 5 fevral 1993-cü ildə fəaliyyətə başlamışdır [1, s.20].

1992-ci il sentyabrın 11-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Türkiyə Respublikasının Bakıdakı səfirliyinə göndərdiyi notada Heydər Əliyevin Türkiyərə dəvət etdiyi səfərlərə etirazını bildirərək, onun imzaladığı sənədlərin legitimliyini şübhə altına almışdır. Öz cavab notasında Türkiyə Respublikasının Xarici İşlər Nazirliyi aşağıdakıları bildirmişdir: Türkiyə Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 11 sentyabr 1992-ci il tarixli notası ilə əlaqədar aşağıdakıları diqqətinizə çatdırırıq... Türkiyə Respublikası hökuməti Azərbaycana bağlı Muxtar bir Respublika olduğu 13 oktyabr tarixli Qars müqaviləsi ilə müəyyənləşmiş olan Naxçıvan ilə imzaladığı sənədlərdə Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasına bağlı olmayan müstəqil vahid kimi qəbul edilməsi fikrini yarada biləcək hər hansı bir ifadəyə yol verməməsinə xüsusi diqqət çəkmişdir... Türkiyə Respublikası hökuməti Azərbaycan Respublikasının və ona bağlı Muxtar Respublika... ilə bölünməz bir tam olduğunu bilir və bu bütövlüyün qorunması yolunda yardımlarını iki ölkə arasında mövcud dostluq, vətəndaşlıq prinsiplərinə uyğun davam etdirəcəkdir" [19, s.17-18].

ABŞ, Fransa və Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında ardıcıl mövqe tutmaması Ermənistan daha da həyasızlaşmağa, beynəlxalq və regional qurumlara meydan oxumağa ruhlandırır, Azərbaycan ictimaiyyətində isə onların gücsüzlüyü barədə rəy yaradırdı. Azərbaycan diplomatiyası Ermənistanın təcavüzkar olduğunu beynəlxalq birliyə sübut edə bilmədi. 1993-cü il aprelin 7-də Kəlbəcərin işğalı ilə bağlı qətnamə qəbul edən

BMT-nin Təhlükəsizlik Şurası Türkiyənin təşkilatdakı nümayəndəsinin Ermənistanı təcavüzkar elan etmək təklifini qəbul etməyərək işğalı Qarabağ ermənilərinin yerli özünümüdafiə qüvvələrinin həyata keçirdiyini qeyd etdi [3, s.76].

Belə bir şəraitdə ölkədə daxili ictimai-siyasi durum da gərginləşmişdir. Kəlbəcərin işğalı Elçibəy hökumətinin nüfuzuna böyük zərbə vurdu. Vəzifələrindən kənaşlaşdırılan korpus komandiri Surət Hüseynov, Müdafiə naziri Rəhim Qazıyev, Daxili İşlər naziri İskəndər Həmidov hakimiyyət daxilində siyasi qarşıdurmanın güclənməsinin sübutu idi. Belə vəziyyətdə ölkəni yalnız Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev çıxara bilərdi. İnsanlar onun böyük dövlətçilik təcrübəsinə inanırdılar.1993-cü ilin iyununda erməni işğalının daha da genişlənməsi nəticəsində Azərbaycanda siyasi vəziyyətin kəskinləşməsi, hakimiyyət və müxalifət arasında qarşıdurmanın silahlı toqquşmalar həddinə çatması ölkəni Vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoydu. Hakimiyyət Heydər Əliyevin Naxçıvandan Bakıya dəvət etdi. Ölkə rəhbərliyində Ə.Elçibəyi Heydər Əliyev əvəz etdi. Ölkənin tarixində yeni mərhələ başladı. Qanunçuluq və nizam-intizam bərpa etməklə yanaşı ölkəni iqtisadi böhrandan çıxarmaq üçün təcil tədbirlər görüldü. Həmçinin, Azərbaycan ətrafında formalaşan geosiyasi reallığa cavab verən və ölkənin milli mənafeləri ilə səsləşən xarici siyasət konsepsiyası işlənib hazırlandı. 1993-1995-ci illərdəTürkiyə ilə Azərbaycan arasında siyasi, iqtisadi və mədəni əlaqələrinin inkişafında böyük irəliləyiş baş verdi. Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra Azərbaycan - Türkiyə əlaqələri daha məqsədyönlü xarakter aldı. Qısa müddətdə xarici ticarət dövriyyəsində Türkiyə ikinci yerə çıxdı. Ticarət dövriyyəsinin həcmi 250 milyon ABŞ dolları təşkil edirdi. Azərbaycanda 800-dək türk şirkəti fəaliyyət göstərirdi. Ölkəyə 500 milyon dollar sərmayə yatırılmışdır. 1995-ci ildə Azərbaycanda birgə müəssisələr və xarici firmalara qoyulan sərmayələrin 45,6 faizi Türkiyənin payına düşürdü. [15, s.196].

1995-ci illərin sonlarından başlayaraq Türkiyə ilə Naxçıvan siyasi, iqtisadi əlaqələri keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Əgər bu dövrə qədər bü əlaqələr əsasən Türkiyənin Muxtar Respublikaya maliyyə, ərzaq, yanacaq və digər humanitar köməyi formasında həyata keçirildisə, bu dövrdən başlayaraq tərəflər arasında qarşılıqlı ticarət, istehsal, bank işi, birgə müəssisələrin yaradılması, idxal-ixrac formasında münasibətlər inkişaf etməyə başladı. Xarici əlaqələrin həcmi artdı. Həmçinin, Türkiyəyə ixrac edilən malların da həcmi və çeşidi artdı. Əlaqələrin genişlənməsi regionun – xüsusilə, Türkiyənin İğdır vilayətinin - sosial-iqtisadi ən zəruri şərtlərindən biri olmuşdur, bu da öz növbəsində bütövlükdə inkişaf etməkdə olan Azərbaycan-Türkiyə əməkdaşlığının artan dinamikasına müsbət təsir göstərmişdir.

2009-cu il oktyabrın 3-də Türkdilli dövlət başçılarının IX Zirvə görüşünün Naxçıvanda keçirilməsi də təsadüfi deyildi. Prezident İlham

Əliyevin toplantıda yekun nitqində demişdir: "Naxçıvanın türk dünyasında çox böyük xüsusi yeri vardır. Naxçıvan çox böyük tarixə malik olan diyardır. Naxçıvanın strateji əhəmiyyəti, tarixi, mədəniyyəti, tarixi abidələri bizim böyük dəyərimizdir. O da həqiqətdir ki, Azərbaycanın müstəqilliyinin bünövrəsinin qoyulması məhz Naxçıvanda həyata keçirilmişdir [1, s.20].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 11-13 noyabr 2013-cü il tarixindəTürkiyə Respublikasına rəsmi səfər etmiş, səfər çərçivəsində imzalanmış Birgə Bəyanatın əlavəsi olaraq, "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında əlaqələrin dərinləşməsinə dair 2014-2015-ci illər üzrə fəaliyyət planı" qəbul edilmişdir. Fəaliyyət planında "Naxçıvan və Türkiyə arasında qarşılıqlı ticarətin asanlaşdırılması üçün zəruri tədbirlərin görülməsi", "Naxçıvana Türkiyə vasitəsi ilə dəmir yolu xəttinin (Qars-İğdır-Aralıq-Dilucu-Naxçıvan) inşa edilməsi məqsədi ilə hazırlıqların sürətləndirilməsi və 2014-cü ilin birinci rübündə vəziyyətə dair hesabatın və konkret iş planının hesablanması", həmçinin, "Naxçıvana Türkiyədən təbii qazın verilməsi üçün lazım olan kəmərin başa çatdırılması və istismara verilməsi ilə bağlı olan məsələlərin ARDNŞ ilə BOTAŞ arasında müzakirə edilməsinə baxılması" kimi məsələlər öz əksini tapmışdır [1, s.20].

Müxtəlif illərdə Türkiyə və Naxçıvanın yüksək rütbəli rəsmilərinin qarşılıqlı səfərləri də əlaqəni möhkəmləndirən amil olmuşdur. 2017-ci il dekabrın 20-də Türkiyə Cümhuriyyətinin Baş naziri Banəli Yıldırım Naxçıvana rəsmi səfər etmişdir. 2023-cü ilin sentyabrın 25-də Naxçıvana rəsmi səfər edən Türkiyə Cümhuriyyətinin prezidenti R.T.Ərdoğan İlhamƏliyevlə birlikdə İğdır-Naxçıvan qaz kəmərinin təməlini qoydular, "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Qars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu" imzaladılar.[ 11]

Naxçıvan ənənəvi olaraq, Azərbaycan-Türkiyə əlaqələrində mühüm bağlayıcı həlqədir. Bugün gündəmdə olan Ermənistanın Mehri rayonundan keçəcək dəmir yolunun bərpası və yuxarıda qeyd etdiyimiz Naxçıvan-Qars yolunun istismara verilməsi Muxtar Respublikanı nəinki region ölkələri ilə Mərkəzi Asiya arasında, həm də beynəlxalq miqyasda yük və sərnişin daşımalarında vacib geostrateji məkana çevriləcəkdir.

## Ədəbiyyat

1. Abbasova S. Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasındakı əlaqələr: Ali səviyyəli görüşlər və məaliyyətlər / Naxçıvan-Türkiyə diplomatik əlaqələri yeni müstəvidə mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Naxçıvan, Qeyrət, 2019. 190 s.
2. Abdulla Mustafayev, Ruhiyyə Rzayeva. Türkiyə Azərbaycan siyasi əlaqələrində Naxçıvan // Naxçıvan-Türkiyə diplomatik əlaqələri yeni

müstəvidə mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Naxçıvan, Qeyrət, 2019. 190 s.
3. Abdullayev E İ. Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində, Bakı, Təhsil, 2004. 216 s.
4. Allahverdiyev Q Ə. Sultanzadə V.M. Heydər Əliyev və Şərq, VI cilddə III cild, Bakı, Çaşıoğlu, 2005. 760 s.
5. Azərbaycan tarixi VII cild, məs. red. T.B.Qafarov, Bakı, Elm, 2008. 688 s.
6. Əliyev V. Zəngəzurda qalan izimiz Bakı, Nurlan 2004..294 s.
7. Hüseynov Yusif. Azərbaycan-Türkiyə qarşılıqlı əməkdaşlıq və strateji tərəfdaşlıq əlaqələrində Naxçıvan //Naxçıvan-Türkiyə diplomatik əlaqələrini yeni müstəidə mövzusunda Beynəlxalq Elmi Konfransın materialları, Naxçıvan, Qeyrət, 2019..190 s.
8. Kərimova V T. Erməni məsələsinin yaranmasında İngiltərənin rolu məsələsi müasir türk tarixşünaslığında. Bakı, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix institutu, Elmi əsərlər, №78 , 2019. .90-100 s.
9. Məmmədov M. Azərbaycan-Türkiyə əlaqələrində Naxçıvanın yeri. Azərbaycan qəzeti, 2010 15 may, s.8.
10. Mustafazadə T T. "Erməni məsələsindən "erməni terrorizminə. Bakı, Turxan. NPB, 2016. 140 s.
11. https://azertag.az/xeber/politoloq_naxchivanda_imzalanan_senedler_olduqca_muhum_tarixi_ehemiyyete_malikdir-2763298
12. Qasımlı M C. Azərbyacan Respublikasının xarici siyasəti 1991-2003, II cild, Bakı, Mütərcim, 2015..640 s.
13. Qətiyyətin təntənəsi (sənədli xronika)./ Müəllif-tərtibçi Şakir Yaqubov, Bakı, Səhər qəzeti, 1995. 848 s.
14. Rusiyanın yeni hərbi doktrinası və sülhyaratma (11 noyabr 1992-ci il) // Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin arxivi, fond №28, siyahı №19, iş № 32, vərəq 95.
15. Səfərov P. Azərbaycan Respublikası Rusiya, İran və Türkiyənin geosiyasi maraqlarında, Bakı, Elm və həyat, 2011. 264 s.
16. Səfərov P. XX əsrin 90-cı illərinin birinci yarısında Naxçıvan MR-nın - Azərbaycanın İranla iqtisadi nəqliyyat əlaqələrinin iştirakının bəzi problemləri. Bakı, Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası. 2023, №2, s.97-106.
17. SSRİ Nazirlər Kabinetinin partiya təşkilatına // Azadlıq qəzeti, 1991, 26 iyul, s.8
18. Sultanov O.B. 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə, Bakı, Maarif, 1995. 223 s.

19. Türkiyə Respublikası XİN notası (Ankara: 14 sentyabr 1992-ci il) // Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin arxivi, fond № 28, siyahı № 21, iş № 31. Vərəq 2.
20. Bal İ. XXI yüzyılda Türk Dış politikası (Geliştirilmiş 2. baskı) // Ankara, Nobel Yayım Dağıtım, 2004..994 s.
21. Ünal Ö.F. Osmanlı-Azərbaycan ilişkileri (1918-1920) // -Bakı: Journal of Kafkaz University 2000, s.29-41.
22. Алиева С.И. Взаимоотношения Азербайджана и народов Северного Кавказа (XIX-начало XX вв.). Баку, ИПО Турхан, 2015. 486 с.
23. Владимирский А.В. Великий. Ататюрк. «Отец народа», Человек судьбы. Москва Эксмо, 2014.. 352 с .
24. Гасымлы М. К истории передачи Зангезура Армении «Ирс», № 114, Баку, 2022, с.32-45.
25. Глинка С.Н. Описание переселения армян аддербиджанских в пределы России. Баку: Elm, 1990. 144с .
26. *Джаббаров З.А.* Четверть *века в независимом Азербайджане. Баку: Бакинская типография, 2с016. .450.*
27. Карабах: очерк истории и культуры. Под редакцией А.Аббасова. Баку: Чашыоглы, 2004..216 с.
28. *Люкимсон П.Е.* «*Нагорный Карабах*: хроника конфликта. Записки бакинского еврея». *Баку: Ишыг, 1992. 32 с.*
29. Рамезанзаде А. Роль Ирана как посредника в Нагорно Карабахском кризисе // Спорные границы на Кавказе под ред. Брупо Коппитерс. Москва: Весь мир, 1996, с.182-198
30. Шавров Н.И. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам//Bakı-Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1988..59 s
31. Winrow G.M. Turkey and the Caucasus. Domestic and Security Conserns. London: Royal Institute of International Affeirs, 2000, p.67.

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ VƏZİYYƏTİ STATİSTİK MƏLUMATLARDA

**Ramilə Mustafayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
r.mustafayeva86@gmail.com

***Açar sözlər**: Statistika bürosu, sosial-iqtisadi vəziyyət, neft sənayesi, inhisarçı kapital*

*Məqalədə XX əsrin əvvəllərində Azərbaycanın sosial-iqtisadi vəziyyəti sənədlər əsasında təhlil edilmişdir. Dövrün mənbələri arasında sənaye statistikasının məlumatları xüsusi yer tutur. Neft Sənayeçiləri Qurultay Şurasının müsbət işlərindən biri Statistika Bürosunu yaratması idi.Şuranın sistematik nəşr materialları arasında 1891-1915-ci illərdə buraxılmış "İcmallar" öz ardıcılığına görə fərqlənir. XX əsrin əvvəllərində Azərbaycanda tarix elminin inkişafı üçün "hökumət statistikası" deyilən orqan tərəfindən çap olunan müxtəlif nəşrlərin materiallarının müəyyən əhəmiyyəti olmuşdu. Məqalədə təqdim olunan sənədlər araşdırılaraq təhlil edilir.*

# СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ ПОЛОЖЕНИЕ АЗЕРБАЙДЖАНА В НАЧАЛЕ XX ВЕКА В СТАТИСТИЧЕСКИХ ДАННЫХ.

**Рамиля Мустафеева**

***Ключевые слова:** Статистическое бюро, социально-экономическое положение, нефтяная промышленность, монополистический капитал*

*В статье на основе документов проанализировано социально-экономическое положение Азербайджана в начале XX века. Среди источников того времени особое место занимают данные промышленной статистики. Одним из положительных достижений Совета съезда нефтепромышленников стало создание Статистического бюро. Среди систематически публиковавшихся материалов Совета выделяются "Обзоры", издававшиеся в 1891-1915 годах, благодаря своей последовательности. В начале XX века материалы различных публикаций, выпускавшихся органами так называемой "государственной статистики", сыграли определённую роль в развитии исторической науки в*

*Азербайджане. В статье представленные документы исследуются и анализируются.*

## THE SOCİO-ECONOMİC SİTUATİON OF AZERBAİJAN İN THE EARLY 20TH CENTURY İN STATİSTİCAL DATA.

**Ramila Mustafayeva**

***Keywords:*** *Statistical Bureau, socio-economic situation, oil industry, monopolistic capital*

*The article analyzes the socio-economic situation of Azerbaijan in the early 20th century based on historical documents. Among the sources of the period, industrial statistical data holds a significant place. One of the positive achievements of the Council of Oil Industrialists' Congress was the establishment of the Statistical Bureau. The systematically published materials of the Council, particularly the "Reviews" released between 1891-1915, stand out for their consistency. In the early 20th century, the materials published by the so-called "government statistics" body played a certain role in the development of historical studies in Azerbaijan. The documents presented in the article are thoroughly examined and analyzed.*

XIX əsrin sonu- XX əsrin əvvəllərində Azərbaycanın sürətlə dəyişən sosial-iqtisadi vəziyyəti statistik məlumatlarda öz ifadəsini tapmışdır. Bəhs olunan dövr məhz bu məlumatların sürətlə artması, toplanması və nəşri ilə seçilir. Bu mənada statistikanın sənaye, aqrar, demoqrafik və digər növlərini qeyd etmək lazımdır. 1900, 1908 və 1910-1912-ci illərdə aparılmış üç sənaye statistikasından 1900-cü ildəki sənaye statistikası qismən Qafqaza aid edilmişdi. Bu barədə məlumatlar "Akzis vergisi qoyulmamış istehsal üzrə fabrik və zavodlar haqqında statistik məlumat" adlı topluda dərc edilmişdir [24]. 1908-ci il statistikasında dağ-mədən və neft sənayesindən başqa imperiyanın bütün sənaye sahələri əhatə olunmuşdu. Bu statistik qeydiyyata yalnız Bakının neft müəssisələri daxil edilmişdir. Həmin statistik tədqiqatın nəticələri 1908-ci il üçün "Rusiya imperiyası fabrik-zavod emalı sənayesi üzrə statistik məlumatlar" adlı məcmuədə öz ifadəsini tapmışdır. 1910-1912-ci il siyahıyaalınması isə Rusiyanın yalnız Avropa hissəsinə aid idi.

Neft Sənayeçiləri Qurultay Şurasının müsbət işlərindən biri Statistika Bürosunu yaratması idi.Şuranın sistematik nəşr materialları arasında 1891-1915-ci illərdə buraxılmış "İcmallar" öz ardıcılığına görə fərqlənir. "İcmallar"da statistik məlumatlar hər il sentyabrın 1-dən, ya da yanvarın 1-dən dərc olunurdu. "İcmallar"ın "Mətn" adlanan I hissəsində neft sənayesinin

müxtəlif sahələri haqqında ümumi məlumat, "Əlavə" adlanan hissəsində isə neft sənayesinin müxtəlif sahələri üzrə müəssisələrin vəziyyəti haqqında adbaad məlumatlar verilirdi[1]. Hər bir mənbə 3 əsas bölmədən ibarət idi:mədənlər haqqında; zavodlar haqqında;neft və neft məhsullarının daşınması haqqında məlumatlar.

Çarizmin neft siyasətinin vergi məsələləri haqqında dəyərli məlumatları "Bakı neft sənayesinin xülasəsi" adlı illik icmallarda, aksiz və başqa gəlirlərin qaynağından ayrı-ayrı sənaye sahələri üzrə xülasələrdə, "Rus sənayesi və ticarətinə dəstək cəmiyyəti"nin əsərlərində, ayrı-ayrı yüksək rütbəli çar məmurları və idarələrinin hesabatlarında qorunub saxlanılmışdır.

Neftin neft-boru kəmərləri vasitəsi ilə nəqlinə münasibətin öyrənilməsi baxımından Russiya İmperator Texniki Cəmiyyəti nəzdindəki neft boru kəmərləri və neft işinin inkişaf tədbirləri üzrə komissiyanın əsərlərində qiymətli məlumatlar vardır.

1900-ci ilədək neft sənayesi müəssisələrinin yaradılması və onların fəaliyyəti üzərində hökumət nəzarətini imperiya Maliyyə Nazirliyi sisteminə daxil olan Ticarət və Manufakturalar Departamenti, sonradan isə yenə də həmin Nazirliyin Ticarət şöbəsi tərəfindən həyata keçirilirdi. 1905-ci ildə Ticarət şöbəsi Ticarət və Sənaye Nazirliyinin tərkibinə daxil edildi. Bu şöbənin funksiyalarına yaradılan səhmdar cəmiyyətlərin nizamnamə layihələrinin nəzərdən keçirilməsi də daxil idi.

Təsis olunan yerli şirkətlərin nizamnamə layihələri, xarici neft şirkətlərinin vəsatətləri Ticarət və Sənaye Nazirliyinin Ticarət şöbəsinə, oradan isə Nazirlər Şurasına göndərilir, daha sonra isə Dövlət Şurasının təsdiqinə verilirdi.Belə materiallar tam şəkildə rus imperiyasının maliyyə, ticarət və sənaye nazirliklərinin fondlarında qorunub saxlanmışdır.Ayrı-ayrı illər üzrə illik statistik toplular, neft sənayeçiləri üçün məlumat kitabçaları,neft sənayesinin durumu haqqında qısa statistik oçerklər əhəmiyyətlidir.Dəmir yolu və su nəqliyyatının inkişaf etdirilməsi və tənzimlənməsini öyrənmək baxımından Qafqaz və ABŞ-da neft hasilatı işlərinin müqayisəli təhlilinə həsr edilmiş təsvirlərin, habelə dağ-mədən sənayesinin ayrı-ayrı sahələri üzrə ümumi xülasələrin materialları da bu qəbildəndir.

Çoxsaylı sənəd və külliyyatlar içərisində "İnhisarçı kapital Rusiya neft sənayesində" adlı məcmuəni xüsusilə qeyd etmək lazımdır. Çarizmin xarici kapitala münasibəti, neft sənayesində inhisarlaşma prosesləri, inhisarların dövlət strukturları ilə qovuşması və başqa problemlərin ətraflı öyrənilməsi baxımından məcmuənin əhəmiyəti böyükdür.

Çar Rusiyasının neft siyasətinin tarixi üzrə sənədli materialların əsas hissəsi bu sahəni idarə edən dövlət idarələrinin Sankt-Peterburq şəhərindəki Rusiya Federasiyası Dövlət Tarix Arxiv fondlarında saxlanılır. Bu fondlarda çarizmin aksiz siyasəti, neft sənayesinin inkişafına yönəlmiş tədbirlər, Neft

Sənayeçiləri qurultaylarının çağrılması, orada müzakirə edilən məsələlər, qəbul edilən qərarlar, neft boru kəmərlərinin çəkilməsi, dəmiryolu işinin nizamlanması, neft sənayesi üzrə səhmdar cəmiyyətlərin nizamnamələri haqqında qiymətli materiallar qorunub saxlanmaqdadır[3].

XX əsrin əvvəllərində Azərbaycan sahibkarlarının fəaliyyətlərini səciyyələndirən izahlar “Yeni inqilabi yüksəliş illərində Azərbaycanda fəhlə hərəkatı” adlı sənədlər toplusunda cəmlənmiş sənədlərə əlavə olunmuşdur. “SSRİ tarixinə dair materiallar”da toplanmış sənədlər də diqqətəlayiqdir. Burada “Bakı ağ neft zavodları ittifaqı”nın təsisi və ölkə ağ neftinin birgə ixracı barəsində müqavilələrin layihələri verilmişdir.

H.Z.Tağıyevin firmasının yaranması və fəaliyyəti tarixinin öyrənilməsi üçün “Rusiyanın neft sənayesində inhisarçı kapital: 1883-1914” toplusu böyük əhəmiyyətə malikdir. Bu topluda H.Z.Tağıyevin inhisarçı birləşmələrdə iştirakını, neft məhsullarının ixracı uğrunda mübarizəsini işıqlandıran qiymətli sənədlər və bu sənədlərin izahları toplanmışdır.

Qeyd etmək lazımdır ki, bir sıra əsərlərdəki məlumatların diqqətlə yoxlanmasına və dəqiqləşdirilməsinə ehtiyac var, çünki bunlar bir çox hallarda ziddiyyətlidir və kifayət qədər əsaslandırılmamışdır. H.Z.Tağıyevin fəaliyyətinə qiymət verərkən bütün nəşrləri, o cümlədən N.Nərimanovun Tağıyev haqqında 1900-cü ildə çap olunmuş kitabçasını, habelə H.Z.Tağıyevin ictimai-siyasi fəaliyyətinin, bir qədər düzxətli də olsa, müəyyən təhlilini əks etdirən “Kommunist” qəzetindəki nekroloq məqaləni də nəzərə almaq lazımdır[4]. 1906-cı ildə Bakıda Müsəlman Müəllimlərinin I qurultayında N.Nərimanovun çıxışına qarşı – Tağıyevin çıxışına da diqqət yetirmək vacibdir.

XX əsrin əvvəllərində Azərbaycanda tarix elminin inkişafı üçün “hökumət statistikası” deyilən orqan tərəfindən çap olunan müxtəlif nəşrlərin,yəni Bakı və Gəncə quberniyalarına, Zaqatala mahalına dair tərtib edilmiş hesabat və icmalların, müxtəlif nazirliklərin orqanları və idarələrinin məlumatlarının, mədən və fabrik müfəttişliyi materiallarının müəyyən əhəmiyyəti olmuşdu.

İlk mənbə xarakteri daşıyan həmin qrup nəşrlər içərisində 1885-ci ilədək “Rusiyanın mədən-zavod məhsuldarlığı” adı ilə çıxan, sonralar isə “Rusiyanın mədən-zavod sənayesi haqqında statistika məlumatı məcmuəsi”, “Rusiyanın fabrik-zavod sənayesi haqqında məlumat məcmuəsi”, “Fabrik müfəttişləri hesabatları məcmuəsi” adlandırılan illik məcmuələri, quberniyalar üzrə icmalları qeyd etmək lazımdır[16]. Demoqrafik statistikanın-1897-ci ildə əhalinin Ümumrusiya miqyasında ilk siyahıya alınması, 1899 və 1903-cü illərdə Bakı əhalisinin və xüsusilə Bakı proletariatının müxtəlif qruplarının nəzərdən keçirilməsi, 1913-cü il siyahıyaalma materiallarının da böyük əhəmiyyəti olmuşdur.

Kəndli məsələsi ilə əlaqədar AMEA Tarix İnstitutunun arxivindəki fondlarda xeyli material vardır. Dövrün öyrənilməsində kameral (əhali) siyahıyaalınmanın əhəmiyyəti vardır. Bu mənbədə tam olmasa da, Azərbaycanda

demoqrafik proseslər izlənilmişdir. Burada Azərbaycanın şəhər əhalisinin yaş, milli və silki tərkibi haqqında məlumatlar vardır.

Tarixşünaslıqda belə bir fikir mövcuddur ki, 1873-cü il kameral təsvirində məlumatlar azaldılmışdır, əhalinin məşğuliyyəti haqqında məlumatlar tam əhatə olunmamışdır[12,s.57]. 1873-cü il kameral təsvirinə nisbətən 1886-cı ildə ailə siyahıları üzrə tərtib olunmuş statistik məlumat müfəssəl və tam hesab olunur[18]. 1886-cı il məlumatlar toplusundan aydın olur ki, təbii artım və ailələrin bölünməsi hesabına evlərin sayı artmışdır. Buradakı ailə siyahılarında şəhər əhalisinin artım dinamikası, sosial tərkibi və əhalinin məşğuliyyəti haqqında məlumat verilir.

Tədqiqatçılar tez-tez 1897-ci ildə Rusiya imperiyasında keçirilən Birinci ümuməhali siyahıyaalınması məsələlərinə müraciət edirlər[7]. Burada imperiyanın bütün quberniyalarında əhalinin sayı,nisbəti, təhsili barədə məlumatlar vardır. 1897-ci il siyahıyaalınmasında ilk dəfə yerli əhalidən olmayanların silki quruluşu haqqında məlumatlar da verilir. Qeyd etmək lazımdır ki, şəhərlər haqqında demoqrafik məlumatlar şəhər ətrafı yaşayış məntəqələrini də əhatə edir. Bu mənbə kapitalizm dövründə demoqrafik prosesləri tədqiq etmək baxımından qiymətlidir. Bir sıra mənbələr Azərbaycan və onun bölgələri haqqında statistik məlumatlar vermək baxımından əhəmiyyətlidir[15,16].

XIX əsr-XX əsrin əvvəllərində Azərbaycan neft sənayesinə dair Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının nəşrləri o dövr Azərbaycan tarixinin öyrənilməsi üçün mühüm mənbə rolunu oynayır. Şura statistika materiallarının toplanması və çap edilməsinə çox az vəsait buraxır və məlumat kitabcaları “Bakı neft sənayesi icmalları”(1891-1915),” Neft sənayeçilərinin məlumat kitabcaları”(1897-1917) hesab edilirdi. Lakin XIX əsrin sonları-XX əsrin əvvəllərində hər il çıxmağa başlayan bu məlumat kitabçaları ilk mənbə olaraq, Bakı rayonunda neft hasilatı, emalı və daşınması,həmçinin neftin və neft məhsullarının qiyməti haqqında maraqlı məlumat verirlər. Bəzən, Neft Sənayeçiləri Qurultayı Şurasının arzusundan asılı olmayaraq, həmin nəşrlərdə, xüsusən “Bakı neft sənayesi icmallarında” neft mədənlərindəki fəhlələrin sayı və onların vəziyyətinin bəzi göstəriciləri haqqında məlumatlar da çap edilirdi.

Dövrün sosial-iqtisadi və mədəni həyatına aid mənbələrə Rusiya imperiyasının müxtəlif idarələrinin nəşr olunmuş məlumat kitabçaları, stolüstü təqvimlər, illik məcmuələr, fabrik-zavod və kustar sənayenin təqvim kitabları, quberniya hesabatları və icmalları, maliyyə-kredit və bank hesabatları daxildir. Elmi tədqiqatlar zamanı bu mənbələrdən götürülən məlumatlardan istifadə olunarkən, faktlar müqayisə edilməli və ziddiyyətli məqamlar qeyd olunmalıdır.

Qafqazda mühüm vəzifələrdə işləmiş ayrı-ayrı çar məmurlarının xatirələri bizə kəndli islahatının keçrilməsi, bu aqrar qanunları həyata keçirənlər, bəy komissiyaları haqqında sanballı məlumatlar verir[6].Çarizm Cənubi Qafqazda özünün gələcək siyasətini müəyyənləşdirmək məqsədi ilə XIX əsrin

80-ci illərində bütün dövlət kəndlilərinin vəziyyətini öyrənməyi qərara almışdı. Toplanmış materiallar çoxcildlik kitablarda nəşr edilmişdir[14].

XIX əsrin ikinci yarısında aqrar və vergi məsələləri, torpaq sahibliyi, torpaqdan istifadə haqqında İ.L.Seqalın, O.Seminin, V.P.Krivenkonun, V.Geyevskinin, S.Zavaryanın, İ.Alibekovun, V.M.İvanenkonun, S.A.Yegiaza-rovun əsərlərində xeyli materiallar toplanmışdır [19,20,21,22,23, 13,8,10,5, 12,9]. Qafqazda canişinlik etmiş çar məmurlarının fəaliyyəti, yerlərdə gördüyü işlər barəsində yazılmış əsərlər də bu problemə həsr olunmuşdur.

Mətbuat da mənbəşünaslığın mühüm bir növünü təşkil edir. XIX əsrin ikinci yarısında yaranan milli mətbuat ("Əkinçi","Ziya","Ziyayi-Qafqaziyyə", "Kəşkül" və s.) Azərbaycanın bəhs olunan dövrdəki həyatının güzgüsü, həm də mübarizə tribunası idi. XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan mətbuatı yeni bir mərhələyə qədəm qoydu. 1898-ci ildə Qafqazda nəşr olunan 41 adda dövri nəşrdən 5-i (12%) Bakının payına düşürdü ki, bu da Cənubi Qafqazda rus dilində nəşr olunan qəzet və jurnalların (cəmisi 28 idi) 20%-ni təşkil edirdi. Əgər erməni və gürcü dillərində 13 mətbuat orqanı çıxırdısa, Azərbaycan dilində heç bir mətbuat orqanı yox idi. 1899-1903-cü illərdə Bakıda dövri mətbuata 3 yenisi əlavə olundu. 1903-cü ildə Tiflisdə azərbaycanca yeganə qəzet "Şərqi-Rus" nəşrə başladı [2,s.228]. 1905-1907-ci illər inqilabı dövründə Bakıda Aəzrbaycan dilində 12 yeni mətbuat oraqanı meydana çıxdı. Ümumiyyətlə, 1907-ci ilin fevralınadək Azərbaycanda 227 dövri məbuat orqanı nəşr edildi. Onlardan 30% (66 adda) milli mətbuat orqanları, 50%(119 adda) rusdilli qəzet və jurnallar idi ki,onlar Bakıda, Gəncədə və Şuşada nəşr edilirdi. 1906-1911-ci illərdə Həştərxan, Peterburq və İrəvanda da Azərbaycan dilində mətbuat orqanları nəşr edildi. 1917-ci ilin fevralınadək nəşr olunan qəzet və jurnalların 60%-i 1905-1907-ci illərin payına düşür, onların bəzisi sonrakı illərdə də çıxmışdı. Bu da ictimai-siyasi həyatın oyanışı, mətbuata marağın artması ilə bağlı idi.

"Şərqi-Rus" (1903-1905) qəzetinin nəşri ilə publisistlərin və ədəbiyyat-şünasların yeni nəslinin formalaşması başlandı. M.Şahtaxtinski, C.Məm-mədquluzadə, M.Ə.Sabir, Ə.Ağayev, F.Köçərli, M.S.Ordubadi, Ö.F.Neman-zadə, Ə.Nəcəfov (Qəmküsar), M.Ə.Rəsulzadə, H.Cavid (Rəsizadə) və başqaları bu qəbildən idi. Mətbuat orqanlarında publisistlərin sıraları xeyli genişləndi. Onlardan Ə.Hüseynzadə, N.Nərimanov, Ə.Haqverdiyev, S.S.Axundov, Ü.Hacı-bəyov, N.B.Vəzirov, M.Hadi, A.Şaiq, Əli Rza (Şamçızadə),S.Mümtaz kimi ədibləri və publisistləri göstərmək olar. "Həyat"da H.Zərdabinin, Ə.Hüseyn-zadənin, N.Nərimanovun, "İrşad"da isə Ə.Ağayev, Ü.Hacıbəyovun məzmunlu yazıları öz aktuallığı ilə seçilirdi.

Beləliklə, XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Azərbaycan tarixinə dair yaranmış mənbələrin çox hissəsi Rusiya imperiyasına məxsus rusdilli dövlət sənədləridir. Bu mənbələr əsasında Azərbaycanda kapitalizmin

genezisini, sosial-iqtisadi, siyasi və mədəni həyatda keyfiyyət dəyişiklilərini izləmək mümkündür.Bu məxəzlər imperiyanın maraq və mənafeyinə uyğun tərtib edilərək, imperiyanın mövqeyini Cənubi Qafqazda, o cümlədən Azərbaycanda möhkəmlətmək məqsədini güdür və tənzimləyici xarakter daşıyır. Mənbələrin müxtəlif növlərində - kargüzarlıq, aktlar, qanunlar, fərmanlar, əsasnamələrdə yeni yaranan burjuaziyanın mənafeyi gözlənilirdi. Doğrudur, məlum səbəbdən bu mənbələrdən tam obyektivlik gözləmək olmaz, ancaq etiraf etmək lazımdır li, əgər bu mənbələr olmasaydı, bəhs olunan dövrdə Vətənimizin tarixi gerçəkliyini tədqiq etmək olmazdı. İstər çarizm, istər sovet, istərsə də müstəqillik illərində tarixçilər bu sənədlərə istinad edərək tarixi əsərlər yazmışlar. Lakin elmi-tədqiqat zamanı bu mənbələrdən götürülən fakt və iqtibaslara tənqidi yanaşılmalı, digər mənbələrdəki fakt və iqtibaslarla müqayisə edilməli, ziddiyyətli məqamlar qeyd olunmalıdır.

## Ədəbiyyat


1. Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, Fəlsəfə, Hüquq seriyası, 1980, №3, 50 s.
2. Azərbaycan tarixi. VII cilddə, V cild. Bakı. 2008. 693 s.
3. Kərimov N.Ə. XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda çar Rusiyasının neft siyasəti:/ tarix üzrə fəlsəfə doktoru dis. Bakı. 2015. 155 s.
4. Kommunist.- 13 sentyabr 1924-cü il
5. Алибеков И. Елисаветпольские кровавые дни перед судом обществ, Тифлис, 1906
6. Барон Н. Воспоминании из моей жизни (Крестьянская реформа в Закавказском крае). Русский архив, 1892, №28
7. Гагемейстер Ю.А. Статистическое описание Шемахинской губернии; Кавказский календарь на 1832 г. Тифлис. 1848.
8. Геевский В.Краткий очерк земледелия за Кавказом. Тифлис. 1887
9. Егиазаров С.А. Исследование по истории учреждений Закавказье. Т.1, Сельская община, Казань.1889
10. Заварян С.Экономические условия Карабаха и голод 1906-1907 гг. СПб,1907
11. Иваненко В.Н. Гражданское управление Закавказьем от присоединения Грузии до наместничества Великого князя Михаила Николаевича. Тифлис.1901
12. Исмаилзаде Д.И. Русское крестьянство в Закавказье. Москва.1982
13. Кривенко В.П. Кавказские очерки, СПб.,1910.

14. Материалы для изучения экономического быта государственных крестьян Закавказского края.т.I-VII,1885-1888;Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края. т.I-V,1887-1888.
15. Сборник сведений о Елизаветпольской губернии. Тифлис.1902
16. Сборник материалов для описания местностей и племен Кавказа. Вып.VIII,Тифлис.1889 (СМОМПК)
17. Сборник статистических сведений по Закавказскому краю.ч.1. Тифлис.1902
18. Свод статистических данных о населений Закавказского края, извлеченных из посемейных списков 1886 г. Тифлис.1893
19. Сегаль, И.Л. Крестьянское землевладение в Закавказье. Тифлис. 1912. 296 с.
20. Сегаль, И.Л. Русские поселяне в Елизаветпольской губернии. Елизаветполь. 1890
21. Сегаль, И.Л. Сборник сведений о Елисаветпольской губернии, Тифлис.1902
22. Семин, О. Основные вопросы местного самоуправления. Баку.1912
23. Семин, О.Великая годовшина, Аграрный вопрос и крестьянская реформа на Кавказе. Киев.1911
24. Статистические сведения по обрабатывающей фабрично-заводской промышленности Российской империи за 1908 г. СПб.,1908.

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN ELMİNƏ QAYĞISI (XX ƏSRİN 70-80-Cİ İLLƏRİ)

**Rəşid Mehdiyev**
Bakı Dövlət Universiteti
resid.mehdiyev1998@mail.ru
mresid.1998@gmail.com

***Açar sözlər:*** *Ümummilli lider, Azərbaycan SSR, 70-80-ci illər, elm, azərbaycanlı alimlər, Elmlər Akademiyası*

*1969-cu ildə Azərbaycanda siyasi rəhbərliyə gələn Ümummilli lider Heydər Əliyev mövcud rejimin sərt şərtləri altında, Azərbaycanın milli maraqlarına xidmət etmək məqsədilə çox düşünülmüş bir siyasət yürüdərək, ölkənin iqtisadiyyatı, elmi və təhsilinin inkişafını təmin etməyə müvəffəq olmuşdur. Ulu öndər, respublikada elmin tərəqqisi üçün lazım olan bütün addımları atmışdır. O, yaxşı anlayırdı ki, cəmiyyətin inkişafında və elmin, mədəniyyətin yüksəlişində ən təsirli vasitələrdən biri təhsildir. Heydər Əliyev fəaliyyətinin bütün dövrlərində bu sahələrə xüsusi diqqət ayırmış, yüksək biliyə malik, intellektual və elitar təbəqənin formalaşmasına yönəlmişdir.*

*Məqalədə Ümummilli lider Heydər Əliyevin Azərbaycan elminə və alimlərinə xüsusi diqqət yetirərək bu sahədəki davamlı və sistemli fəaliyyəti, Azərbaycanın elmi nailiyyətlərinin ölkədə və beynəlxalq aləmdə tanıdılması üçün görülən işlər, milli dəyərlərə xidmət edən alimlərimizin rejimin təzyiqlərindən qorunması, onlara yaradılan şərait, Azərbaycan tarixi, dili və ədəbiyyatı sahəsindəki tədqiqatların genişləndirilməsinə göstərilən dəstək və s. bu kimi addımlar Ulu öndər Heydər Əliyevin istiqlalın təməlini yaratmaqda göstərdiyi tarixi xidmətin bir hissəsi kimi təhlil edilir.*

# ЗАБОТА ГЕЙДАРА АЛИЕВА О НАУКЕ АЗЕРБАЙДЖАНА (70-80-Е ГОДЫ XX ВЕКА)

**Рашид Мехтиев**

***Ключевые слова:*** *Общенациональный лидер, Азербайджанская ССР, 70-80-е годы, наука, азербайджанские ученые, Академия наук.*

*В 1969 году, когда Общенациональный лидер Гейдар Алиев возглавил руководство Азербайджана, он под жесткими условиями*

*существующего режима проводил продуманную политику, направленную на служение национальным интересам Азербайджана. Ему удалось обеспечить развитие экономики, науки и образования страны. Великий лидер предпринял все необходимые шаги для прогресса науки в республике. Он прекрасно понимал, что одним из самых эффективных инструментов развития общества и подъема науки и культуры является образование. На протяжении всей своей деятельности Гейдар Алиев уделял особое внимание этим сферам, направляя усилия на формирование высокообразованной, интеллектуальной и элитарной прослойки.*

*В статье анализируется непрерывная и системная деятельность Общенационального лидера Гейдара Алиева в области науки, его особое внимание к азербайджанским ученым, усилия, предпринятые для продвижения научных достижений Азербайджана как внутри страны, так и на международной арене, защита ученых, служащих национальным ценностям, от давления режима, создание благоприятных условий для них, поддержка исследований в области азербайджанской истории, языка и литературы и подобные инициативы. Эти действия рассматриваются как часть исторической заслуги Гейдара Алиева в создании основы независимости.*

## HEYDAR ALIYEV'S ATTENTION TO AZERBAIJANI SCIENCE (1970-1980S)

**Rashid Mehdiyev**

***Keywords:*** *National Leader, Azerbaijan SSR, 70s-80s, science, Azerbaijani scholars, Academy of Sciences*

*In 1969, when the National Leader Heydar Aliyev assumed the leadership of Azerbaijan, he pursued a well-thought-out policy under the harsh conditions of the existing regime, aiming to serve the national interests of Azerbaijan. He succeeded in ensuring the development of the country's economy, science, and education. The great leader took all the necessary steps for the progress of science in the republic. He understood well that one of the most effective tools for societal development and the rise of science and culture is education. Throughout his career, Heydar Aliyev paid special attention to these areas, focusing on forming a highly educated, intellectual, and elite stratum.*

*The article analyzes the National Leader Heydar Aliyev's continuous and systematic activities in science, his special attention to Azerbaijani*

*scientists, the efforts made to promote Azerbaijan's scientific achievements both domestically and internationally, the protection of scholars serving national values from regime pressures, the favorable conditions created for them, the support provided for expanding research in the fields of Azerbaijani history, language, and literature, and similar initiatives. These actions are considered part of Heydar Aliyev's historical service in laying the foundation for independence.*

Ümummilli lider Heydər Əliyev Azərbaycan elminə və alimlərinə xüsusi diqqət yetirərək bu sahədəki fəaliyyətini bir neçə istiqamət üzrə davamlı və sistemli şəkildə həyata keçirirdi. O, elmi-tədqiqat institutlarının və alimlərin sayını artırır, həmçinin Azərbaycanın elmi nailiyyətlərini ölkədə və beynəlxalq aləmdə tanıtmaq üçün mühüm işlər görürdü. Tanınmış alimlər müxtəlif orden və medallar ilə təltif edilir, Azərbaycan tarixi, dili və ədəbiyyatı sahəsindəki tədqiqatların genişləndirilməsinə dəstək göstərilirdi. Milli dəyərlərə xidmət edən alimlərimizə qarşı təzyiqlərdən qoruyaraq onlara yaradıcılıq şəraiti yaradılırdı. Ümummilli lider Heydər Əliyev öz nitqlərində bildirirdi: "Azərbaycan xalqının mədəniyyətinin və elmi təfəkkürünün əsası tarixin dərin qatlarına gedib çıxır. Bu xalq əsrlər boyunca Şərq ədəbiyyatının, incəsənətinin, fəlsəfəsinin ən yüksək nailiyyətlərini özündə əks etdirən, zəngin və unikal bir mədəniyyət qurmuşdur. Ən qədim dövrlərdən başlayaraq, burada təbabət, astronomiya, riyaziyyat, coğrafiya, tarix, ədəbiyyat, musiqi, dekorativ sənət və bədii incəsənət sahələri inkişaf etmiş, möhtəşəm memarlıq abidələri inşa olunmuşdur [5, s.73]".

Ulu öndər Heydər Əliyev, Azərbaycanın elmini ölkə miqyasında inkişaf etdirmək məqsədilə elmi-tədqiqat institutlarının və elmi işçilərin sayını artırır və onlara xüsusi diqqət yetirirdi. Bu sahədə onun fəaliyyəti çox uğurlu olmuşdur. 1969-cu ildə Azərbaycanda 89 elmi-tədqiqat və layihə müəssisəsi, sahə institutları və ali məktəblərdəki problem laboratoriyalarında 12,350 elmi işçi çalışırdı. Bunlara Elmlər Akademiyasının 55 akademiki və müxbir üzvü, 329 elmlər doktoru və 300 elmlər namizədi daxildir. 1978-ci ildə isə elmi-tədqiqat və layihə institutlarının sayı 118-ə çatmış, elmi işçilərin ümumi sayı 21,407-ə, akademik və müxbir üzvlərin sayı 100-ə, elmlər doktorlarının sayı 853-ə, elmlər namizədlərinin sayı isə 7,594-ə yüksəlmişdi. 1980-ci ildə yalnız Elmlər Akademiyasının sistemində 34 elmi və elm-istehsalat idarəsində 4,000-dən çox elmi işçi fəaliyyət göstərir, bunların içində 245 elmlər doktoru və 1,600 elmlər namizədi vardı. Həmin ildə Azərbaycan elmi 123 elmi idarə və 17 ali məktəb kafedrasını əhatə edirdi. Bu sahələrdə ümumilikdə təqribən 22,000 elmi əməkdaş işləyir, bunların içində 900-dən çox elmlər doktoru və 8,000-ə yaxın elmlər namizədi fəaliyyət göstərirdi [5, s.81]. Ümummilli lider Heydər Əliyev, elmin ən müasir və perspektivli sahələri üzrə elmi-tədqiqat

işlərinin aparılmasını alimlərə və elmi idarə rəhbərlərinə tövsiyə edirdi. Azərbaycanda bu sahələr üzrə geniş və əhəmiyyətli tədqiqatlar həyata keçirilirdi. 1979-cu ildə təbiət və sosial elmlər sahəsində respublikada aparılan elmi işlərin 55 nəticəsi Sovet İttifaqının ən mühüm elmi nailiyyətləri arasında yerini almışdı. Bu, Azərbaycanın fundamental elmi sahələrində əldə edilən böyük uğurların göstəricisi idi. 1971-1980-ci illərdə Elmlər Akademiyasının alimləri tərəfindən istehsalata tətbiq edilən tədqiqatların nəticəsində əldə edilən iqtisadi fayda 570 milyon manatdan artıq olmuşdu. Bu dövr ərzində akademiya alimləri yüzlərlə ixtira etmiş və 1000-dən çox müəlliflik şəhadətnaməsi almışdılar [5, s.82].

Ümummilli lider Heydər Əliyev elmi işçilər arasında azərbaycanlıların sayının artırılması istiqamətində ciddi səylər göstərmiş və bu sahədə mühüm irəliləyişlər əldə edilmişdir. Belə ki, 1947-ci ildə Azərbaycandakı azərbaycanlı elmi işçilərin faizi 48,6%, 1960-cı ildə isə 64,6% olmuşdu. 1970-ci ildə bu göstərici 70,9%-ə, 1971-ci ildə isə 71,3%-ə yüksəlmişdi. Azərbaycanlılar arasında elm və təhsilə olan marağın artması, elmi-tədqiqat institutlarında maaşların yüksəlişi, verilmiş, əhali artımının sürətlənməsi nəticəsində xarici xalqların nümayəndələrinin elmi işçilər içindəki payı zamanla azalmış, yerli kadrların sayı artmışdır.

Neft kimyası və neftayırma, Azərbaycan elminin əsas inkişaf istiqamətlərindən birinə çevrilmişdi. Bu sahəyə əhəmiyyətli dərəcədə resurslar və maliyyə vəsaitləri ayrılmışdı. Azərbaycanın neft sahəsindəki alimləri təkcə ölkə daxilində deyil, həm də beynəlxalq aləmdə tanınmış və nüfuzlu şəxsiyyətlər idi. Bu sahə ilə bağlı elmi məsələlər müzakirə edilərkən, qərarlar tez-tez azərbaycanlı alimlərin yekun rəyinə əsaslanaraq qəbul edilirdi. Həmçinin, Azərbaycan alimləri dünyanın müxtəlif elmi mərkəzlərində və universitetlərində mühazirələr oxuyur və bu çıxışlar yüksək qiymətləndirilirdi. Azərbaycan Respublikasında təbiətşünaslıq elmləri sürətlə inkişaf edirdi. 1978-ci ildə Elmlər Akademiyasında bu sahə üzrə fəaliyyət göstərən nüfuzlu bir elmi mərkəz olan Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu təsis olundu. Qısa bir müddət ərzində institutun alimlərinin apardıqları tədqiqatlar ölkə üzrə yüksək dəyərləndirilirdi.

Azərbaycanlı alimlər, Volqaboyu, Qərbi Sibir, Türkmənistan, Qazaxıstan, Belarusiya, Ukrayna və digər respublikalarda neft yataqlarının işlənməsində aktiv iştirak edirdilər. Eyni zamanda, onlar ADR, Rumıniya, Əfqanıstan, Hindistan, Əlcəzair, Kuba, İraq və Suriyada da neft yataqlarının inkişaf etdirilməsi sahəsində mühüm töhfələr vermişdilər. Azərbaycanlı alimlər 15 ölkədə patentlər aldılar [9, s.73]. Həmçinin bu dövrdə respublikada radiotexnika, elektronika sənayesinin inkişafı perspektivlərini nəzərə alaraq, alimlər texniki fizika, tətbiqi riyaziyyat, kibernetika, radioelektronika və digər müasir elm sahələrində fəaliyyətlərini genişləndirirdilər. Xalq təsərrüfatının

artıq formalaşmış və iqtisadiyyat üçün ənənəvi sahələrinin yenidən qurulması prosesi də həyata keçirilirdi. Ekologiya sahəsində aparılan elmi-tədqiqat işlərinə xüsusi diqqət ayrılırdı, müxtəlif elm sahələrində çalışan alimlərin əməkdaşlığı gücləndirilirdi. Buna misal olaraq göstərmək olar ki, 1981-ci ildə Azərbaycanın elmi-tədqiqat və layihə institutları ölkə üzrə 25 kompleks proqramın hazırlanmasında iştirak etmişdilər [5, s.82].

Ulu öndər Heydər Əliyev Elmlər Akademiyasının və onun institutlarının fəaliyyətini, görkəmli alimlərin yubileylərini qeyd etməyə və onların ev-muzeylərini yaratmağa xüsusi önəm verirdi. O, belə yubileylərin təşkilinin respublikada elmə olan marağı artırdığına və Azərbaycan elmini və alimlərini təkcə ölkə daxilində, həm də beynəlxalq aləmdə tanıtdığına inanırdı Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə, 1969-cu il 30 dekabr tarixində Azərbaycan KP MK-nın iclasında Azərbaycan Elmlər Akademiyasının 25 illik yubileyinin qeyd edilməsi qərara alındı. Bu qərara əsasən, təşkil olunan konfranslar və simpoziumlarda həm yerli, həm də xarici ölkələrin müxtəlif elmi qurumlarının nümayəndələri iştirak edərək elmi uğurlar haqqında müzakirələr apardılar və Azərbaycan xalqının qədim tarixi, zəngin mədəni irsi haqqında məlumat aldılar. Heydər Əliyevin göstərişi ilə 1975-ci ildə isə Azərbaycan Elmlər Akademiyasının 30 illik yubileyi təntənə ilə qeyd edildi. Heydər Əliyev akademiyanın Xalqlar Dostluğu Ordeni ilə təltif olunması üçün Sov.İKP MK-na müraciət edərək bu istəyinə nail olmuşdu. Bu qərara uyğun olaraq, elmi konfranslar və simpoziumlar təşkil olunmuşdu. 1982-ci il sentyabrın 14-də Azərbaycan KP MK tərəfindən Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun 50 illiyinin keçirilməsi ilə bağlı qəbul olunan qərar, ədəbiyyat sahəsindəki tədqiqatların dəstəklənməsi və ədəbi irsə olan diqqət və qayğının göstəricisi idi. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1976-cı ilin yanvarında görkəmli alim Yusif Məmmədəliyevin Ordubadda ev muzeyinin açılışının böyük təntənə ilə keçirilməsi və bu tədbirdə respublikanın nüfuzlu alimləri, partiya nümayəndələrinin iştirakı Naxçıvanda elmə olan marağın yüksəlməsinə təkan verdi.

Ümummilli lider Əliyev Azərbaycanda geniş çaplı nəşrlərə, xüsusilə ensiklopediyaların hazırlanmasına xüsusi əhəmiyyət verirdi. 1965-ci ildə Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti tərəfindən qəbul edilən Azərbaycan sovet ensiklopediyasının nəşri ilə bağlı qərara əsasən, ensiklopediyanın on cildi hazırlanmalı və hər biri 70 çap vərəqi həcmində olmalı idi. Lakin çoxlu səhvlər səbəbi ilə nəşr edilməmişdi. Bu məqsədlə, 1974-cü il mayın 23-də Sov.İKP MK-ya 252 saylı tam məxfi məktub göndərərək, ensiklopediyanın birinci cildinin 1974-cü ildə, onuncu cildinin isə 1980-ci ildə çap olunması üçün icazə almaq istəyini bildirmiş və Moskvanın razılığını əldə etmişdi. Ulu öndər Heydər Əliyevin dəstəyi ilə Azərbaycan Sovet Ensiklopediyasının (ASE) birinci cildi işıq üzü görərkən burada 3836

məqalə toplanmışdır. Amma alimlər arasında baş verən fikir ayrılıqları və intriqalar nəticəsində birinci cilddə Azərbaycan haqqında məqalə yer almamışdır. Heydər Əliyev bir çıxışında bu məsələyə toxunaraq, alimlər arasında birliyin olmamasının belə bir çatışmazlığa səbəb olduğunu bildirmişdir. O, alimlər arasında həmrəyliyi, əməkdaşlığı və birgə fəaliyyətin inkişafını dəstəklədiyini qeyd etmişdir. Bununla belə, 1980-ci ildə ensiklopediyanın dördüncü cildi çapdan çıxmış, digər cildlərin hazırlanması isə sonrakı illərdə də davam etdirilmişdir.

Ulu öndər Heydər Əliyev respublikaya birinci rəhbərliyi dövründə Azərbaycan tarixi, dili və mədəniyyəti üzrə elmi tədqiqatların aparılması və monoqrafiyaların çapı əhəmiyyətli dərəcədə artdı. Azərbaycan tarixi və dilçilik sahəsində bir sıra əsərlərə dövlət mükafatları təqdim olunurdu. İctimai elmlər sahəsində tədqiqatlar intensivləşdirilirdi. O, alimlərə Azərbaycan tarixinin müxtəlif dövrlərinin daha dərindən tədqiq edilməsini tövsiyə edirdi. Heydər Əliyev deyirdi ki, "Ümumi çətinliklər nə qədər olsa da, biz elmə, təhsilə qayğı göstərməliyik və elmin inkişafı üçün mövcud imkanlardan daha çox istifadə etməliyik" [7]. Tarixçilərlə mütəmadi görüşlər keçirərək, xüsusən qədim, orta əsrlər və XIX, XX əsrlərin tarixinin hələ kifayət qədər əhatəli şəkildə işlənmədiyini vurğulayır və bu sahədə öz narahatlığını ifadə etmişdi. Azərbaycan rəhbəri Heydər Əliyev başqa respublikaların tarixçilərinin öz tarixlərini yaxşı yazdığını azərbaycanlı alimlərin nəzərinə çatdırır, onları buna səsləyirdi [2, s.154]. Heydər Əliyev bilirdi ki, xalq öz tarixi köklərini bilməli, onu yadda saxlamalı və elm və mədəniyyətinə bağlı qalmalıdır. Tarixçilərə tarixi düzgün şəkildə yazmağı, obyektiv şəkildə öyrənməyi və ədalətli qiymətləndirməyi tövsiyə edirdi.

Ulu öndər Heydər Əliyev Azərbaycanın zəngin tarixi və mədəniyyətinin dərindən öyrənilməsinə və təbliğinə xüsusi diqqət yetirir, qədim əlyazmaların qorunub araşdırılmasına böyük önəm verirdi. O, qeyd edirdi ki, bir çox azərbaycanlılar tarix üzrə dəyərli tədqiqatlar aparsalar da, Azərbaycanın əvvəllər sistemli tarixşünaslığı mövcud olmayıb. Heydər Əliyev tarixşünaslığın yaradılmasının vacibliyini, mənbələrin və qədim əlyazmaların tədqiqinin xalqın tarixinin və mədəniyyətinin öyrənilməsində mühüm rol oynadığını bildirirdi. 1930-cu illərdə Azərbaycan xalqının ən qiymətli tarixi əlyazmalarının əksəriyyəti kütləvi şəkildə zərərli sayılaraq yandırılmışdı. Heydər Əliyev hakimiyyətə gələnə qədər Respublika Əlyazmalar Fondundakı əlyazmalar bərbad vəziyyətdə, binanın zirzəmisində saxlanılırdı. Azərbaycanın tarixi və mədəniyyəti ilə bağlı bu qiymətli əlyazmalar pis şəraitdə çürüyərək zay olurdu. Onların qorunması və bərpası çox əhəmiyyətli məsələ idi. Azərbaycan tarixi və mədəniyyəti ilə bağlı dünyanın müxtəlif arxiv və kitabxanalarında saxlanılan əlyazmaların respublikaya gətirilməsi mümkün deyildi. Azərbaycanlı alimlərin bu mənbələrdən faydalana bilmələri üçün Ümummilli lider

Heydər Əliyev mühüm qərarların qəbul edilməsinə nail oldu. 1981-ci ilin avqust ayında Azərbaycan KP MK, "Azərbaycan SSR Elmlər Akademiyasının respublika Əlyazmaları Fondunun fəaliyyətinin yaxşılaşdırılması barədə" məsələyə baxaraq mühüm elmi və siyasi əhəmiyyətə malik qərar qəbul olundu. Burada qeyd olunurdu ki, fondda müxtəlif dillərdə 40 mindən çox nadir yazılı abidə saxlanılır. Azərbaycan elmi, mədəniyyəti və tarixi üçün mühüm əhəmiyyət kəsb edən bu qərar nəticəsində, Əlyazmalar Fondu Əlyazmalar İnstitutuna çevrildi. Bu qərarda həmçinin abidələrin qorunması üçün uyğun şəraitin yaradılması, fondun maddi-texniki bazasının gücləndirilməsi və əlyazmaların tapılıb mühafizə edilməsi məsələləri də nəzərdə tutulurdu. XX əsrin əvvəllərində tanınmış milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin inşa etdiyi bina qədim kitabların Azərbaycan xalqının tarixini və milli sərvətini əks etdirdiyini əsas gətirilərək Əlyazmalar İnstitutuna təhvil verildi. Bu addım Azərbaycan tarixinin və mədəniyyətinin araşdırılması sahəsində yeni bir mərhələnin başlanğıcı idi. Qərar qəbul edildikdən sonra, bu binanın zirzəmisində zədələnmiş və nəm içində olan köhnə kitablar çıxarılaraq bərpa edildi və nadir muzey nümunələri kimi qorunmağa başlandı. Sonrakı dövrlərdə də qədim əlyazmalara aid müxtəlif respublika və beynəlxalq elmi konfranslar, simpoziumlar, tədbirlər keçirilmişdir.

Ümummilli lider Heydər Əliyev Azərbaycanın elm və mədəniyyət mərkəzi kimi tanıdılmasına böyük əhəmiyyət verirdi. O, müxtəlif xarici ölkələrin alimlərinin ölkə ilə tanış olması və əlaqələr qurması məqsədilə müxtəlif tədbirlər təşkil edirdi. Onun təşəbbüsü ilə, 1981-ci il 14 iyul tarixində Azərbaycan KP MK bürosunun iclasında böyük alim Məhəmməd Nəsrəddin Tusinin 780 illik yubileyinin qeyd edilməsi barədə qərar qəbul edildi. Tanınmış ədəbiyyatşünas alim, akademik M.A.Dadaşzadənin 70 illik yubileyinin qeyd edilməsi ilə əlaqədar, Oktyabr İnqilabı ordeni ilə təltif edilməsi barədə Azərbaycan KP MK bürosunun 1974-cü il 21 may tarixli qərarına uyğun qərar qəbul edildi. Azərbaycan KP MK bürosunun 1977-ci il yanvarın 11-də keçirilən iclasında, məşhur tarixçi alim, akademik Ə.Sumbatzadənin Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunması barədə müvafiq qərar qəbul edildi. Ümummilli lider Heydər Əliyev Azərbaycanı Sovet İttifaqının öndə gələn elmi mərkəzinə çevirmək məqsədilə intensiv fəaliyyət göstərirdi. Şərqdə baş verən mühüm hadisələr, xüsusən İran inqilabı və Əfqanıstana Sovet müdaxiləsindən sonra bu məsələnin aktuallığını nəzərə alaraq 1982-ci ildə Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda Cənubi Azərbaycan tarixi şöbəsi təsis edildi, Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Azərbaycan şöbəsi təşkil olundu. Həmin il, görkəmli şərqşünas alim Mirzə Kazımbəyin anadan olmasının 180 illiyi də təntənə ilə qeyd olundu [8, s.75]. Azərbaycan alimləri Mirəli Qaşqayın, akademik Ə.Hüseynovun, M.Quluzadənin təltif olunması ilə bağlı Sov.İKP MK-ya məktubla müraciət edilmişdi.

Görkəmli coğrafiyaşünas alim, akademik H.Əliyevin anadan olmasının 70 illik yubileyi qeyd olundu. Ədəbiyyatşünas alim H.Araslı anadan olmasının 75 illiyi münasibətilə onu Qırmızı Əmək Bayrağı ordeni ilə, görkəmli dilçi alim, akademik M.Şirəliyev Lenin ordeni ilə təltif edilməsi təltif edildi.

XX əsrin 70-80-ci illərində Azərbaycan, müxtəlif ümumittifaq və beynəlxalq elmi tədbirlərin keçirilməsi baxımından önəmli mərkəzə çevrilmişdi. Respublika müntəzəm olaraq mühüm konqreslər, elmi konfranslar və simpoziumlara ev sahibliyi edirdi. Azərbaycana səfər edən sovet və xarici alimlər, Azərbaycanın elmi nailiyyətləri, tarixi və mədəniyyəti ilə yaxından tanış olurdular. Məsələn, 1973-cü ilin oktyabr ayında Bakıda keçirilən 24-cü Beynəlxalq Astronavtika Konqresi, yalnız Azərbaycan üçün deyil, bütün ölkə üçün mühüm elmi hadisə idi. Bu tədbirdə 25 ölkədən 560 alim və mütəxəssis, o cümlədən məşhur ABŞ astronavtı T.Stafford iştirak edirdi. Bu tədbirin təşkili, Azərbaycan elminin nailiyyətlərinin təbliğində və alimlər arasında beynəlxalq əlaqələrin qurulmasında əhəmiyyətli rol oynadı. ABŞ və digər xarici ölkələrdən olan alimlərin iştirakı Azərbaycanın elmi yüksək qiymətləndirməsini göstərirdi. 1977-ci ilin may ayında Bakıda Asiya, Afrika və Latın Amerikası xalqlarının milli azadlıq hərəkatı mövzusunda keçirilən böyük beynəlxalq elmi konfransda 70-dən çox ölkənin siyasi və ictimai xadimləri, alimləri iştirak etdilər. Heydər Əliyevin bu tədbirdə dərin məzmunlu məruzə edərək, bu ölkələrin xalqlarının milli azadlıq mübarizəsini yüksək qiymətləndirdi. Bakıda keçirilən belə bir tədbir və Heydər Əliyevin burada etdiyi nitq, Azərbaycan rəhbərinin yalnız türk və müsəlman dünyasında deyil, həm də milli azadlıq mübarizəsi aparan ölkələrin xalqları, hökumətləri və ictimaiyyətləri arasında böyük nüfuza sahib olan tanınmış dövlət xadimi olduğunu nümayiş etdirirdi. Ümummilli lider Heydər Əliyev Azərbaycanın dəyərli alimlərinin beynəlxalq əlaqələrini genişləndirmək üçün böyük səy göstərirdi. Onun təşəbbüsü ilə, alimlərimiz müxtəlif beynəlxalq elmi konfrans və simpoziumlarda məruzələrlə iştirak edir, bu vasitə ilə Azərbaycan elmini dünya miqyasında tanıdır və xalqı ləyaqətlə təmsil edirdilər.

Ümummilli lider Azərbaycan alimlərini sovet rejiminin təzyiqlərindən qoruyaraq onların fəaliyyətini dəstəkləyirdi. Moskvanın diqqətini yayındırmaq üçün bəzən alimləri tənqid edirdi. Bununla belə, sonradan həmin alimlərin rahat işləməsi üçün şərait yaradılırdı. Beləliklə, alimlər təqiblərdən qorunurdu. 1964-cü ildə Azərbaycanın 150 il əvvəl Rusiyanın tərkibinə "könüllü" daxil olması qeyd edilmiş və bu münasibətlə bayram tədbirləri keçirilmişdi. Azərbaycan Lenin ordeni ilə təltif edilmişdi. 1967-1968-ci illərdə tarixçi Ziya Bünyadov rəsmi mövqeyə qarşı çıxaraq, Azərbaycanın könüllü deyil, zorla Rusiyaya birləşdirildiyini açıq şəkildə bəyan edərək mövqeyini bildirdi. Bu cəsarətli mövqe mövcud siyasi sistemin tələblərinə zidd olduğu üçün ciddi təzyiqlərə səbəb olmuşdu. Yaranmış həssas və mürəkkəb vəziyyəti idarə

etmək məqsədilə Ümummilli lider Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda tarixçi alimlər, o cümlədən Ziya Bünyadov və M.İsmayılov haqqında açıq tənqidlər etmişdi. Lakin onun bu addımı alimləri daha böyük təhlükələrdən qorumuşdur. Ulu öndər Heydər Əliyev qısa müddət sonra Ziya Bünyadovu Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru təyin etdi və akademik seçilməsində mühüm rol oynadı. Elmlər Akademiyasına tarix elmləri üzrə kimlərin seçiləcəyi məsələsi Mərkəzi Komitədə müzakirə edilərkən Heydər Əliyev "Əgər mən akademiklərin yerində olsaydım, Sovet İttifaqı Qəhrəmanı və tanınmış tarixçi alimə səs verərdim" deyərək Ziya Bünyadovun adını irəli sürdü və onun seçilməsi məsələsini istədiyini bildirdi [9, s.76]. "Millətçi" və "şovinist" kimi qələmə verilən və Moskvanın cəzalandırmaq istədiyi Ziya Bünyadovun "Azərbaycan Atabəylər dövləti" əsərinə bir müddət sonra dövlət mükafatı verildi. Bundan sonra ermənilər Heydər Əliyevə Moskva vasitəsilə daha çox məktublar göndərərək onun millətçi və şovinist olduğunu, millətçi tarixçiləri müdafiə etdiyini bildirdi. Ümummilli lider Heydər Əliyev hesab edirdi ki, Bünyadovun əsərləri xalqın tarixi və milli ruhunun yüksəldilməsində mühüm əhəmiyyət daşıyır. Eyni münasibət M.İsmayılova da qarşı göstərildi və O, Elmlər Akademiyasının Tarix İnstitutunun direktor müavini təyin oldu, müxbir üzv seçildi.

Sovet dövründə antisovet meylləri olan müəllimlərin tədris müəssisələrində fəaliyyət göstərməsi SSRİ Dövlət Təhlükəsizlik Komitəsi (DTK) tərəfindən qəbulolunmaz hal sayılırdı. Bu şəxslər daim dövlətin nəzarəti altında saxlanır, gənclərlə əlaqə qurmaqları məhdudlaşdırılırdı. 1970-ci il 12 may tarixində SSRİ DTK-nın sədri Y.Andropov Sov.İKP Mərkəzi Komitəsinə 1281-A №-li məxfi məktub göndərərək, bəzi orta və ali məktəblərdə əvvəllər antisovet fəaliyyətdə olduğu üçün mühakimə edilmiş müəllimlərin gənclərə mənfi təsir göstərdiklərini bildirdi [8, s.77]. Andropov belə müəllimlərin tədris prosesindən uzaqlaşdırılmasını və işə qəbul zamanı bu faktorların nəzərə alınmasını tövsiyə edirdi. Belə vəziyyətdə Azərbaycan rəhbərliyi müəllimləri universitetdən uzaqlaşdırmaq istəmirdi və onlara toxunmurdu. Abbas Zamanov, Xəlil Rza, Bəxtiyar Vahabzadə, Əbülfəz Əliyev kimi antisovet baxışları ilə tanınmış professorlar ali məktəb auditoriyalarında dərs verməyə davam edirdilər. Bu cür antisovet və millətçi təzahürlər çox vaxt ört-basdır edilir, görülən tədbirlər və tərbiyə işləri ilə aradan qaldırılır, alimlər və ziyalılar rejimin təzyiqlərindən qorunurdu. 1975-ci ildə Heydər Əliyevə məlumat verildi ki, Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinin Asiya və Afrika ölkələrinin tarixi kafedrasının müəllimi Əbülfəz Əliyev (Elçibəy) millətçilik ittihamı ilə həbs olunub. Heydər Əliyev DTK sədri ilə əlaqə saxlayaraq məsələnin şişirdilməməsini xahiş edir və məsələyə müdaxilə edərək öyrənir ki, Əbülfəz Əliyev universitet auditoriyalarında Rusiyanın

Azərbaycanı işğal etməsi, müstəmləkəçilik siyasəti və xalqın çətin vəziyyəti ilə bağlı söhbətlər apardığı üçün həbs olunub. Ümummilli lider məsələni dərindən təhlil etdikdən sonra, bu söhbətlərin dövlətə heç bir təhlükə yaratmadığı qənaətinə gəlir və bir müddət keçdikdən sonra Əbülfəz Əliyevin azadlığa buraxılması ilə bağlı qərar verir. Əbülfəz Əliyev Respublika Əlyazmalar Fondunda işlə təmin edilir. Bu hadisələrlə bağlı O, sonralar qeyd edirdi: “Mən həbsxanada olduğum vaxtda Heydər Əliyevin əleyhinə idim, həbsdən çıxdıqdan sonra da bir-iki il onun əleyhinə danışdım. Lakin sonralar onun bəzi çıxışları və manevrlərini gördükdən sonra inandım ki, o, çox idraklı və çox güclü şəxsiyyətdir”. Ümummilli lider Heydər Əliyev Azərbaycan elminin keyfiyyətinin artırılmasına xüsusi diqqət yetirirdi. O, hakimiyyətə gəldiyi dövrə qədər Azərbaycanda partiya, sovet və iqtisadiyyat sahələrində çalışan çox sayda insan, vəzifələri ilə yanaşı, elmi dərəcələr, adlar əldə etməyə çalışırdılar. Vəzifələrindən və maddi imkanlarından istifadə edərək, namizədlik və doktorluq dissertasiyaları yazdırıb müdafiə edirdilər. O dövrdə elm adamlarının maaşları yüksək idi. Məsələn, 70-ci illərdə Elmi Tədqiqat İnstitutu direktorunun maaşı, MK katibləri və Nazirlər Sovetinin müavinlərinin maaşından yüksək idi. Bu insanlar, vəzifədən sonra elmi idarələrdə özlərinə möhkəm yerlər quraraq, rəhbər vəzifələrə təyin olunur və nəticədə elmin inkişafına mane olurdular. Bu o demək idi ki, elmi dərəcəyə malik olanların sayı artsa da, elm inkişaf etmirdi və alimlər geniş şəkildə tanınmırdılar. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra, bu hallara qarşı sərt mübarizə başlatdı. Bu qanunsuz halların qarşısı alındı və bir çox insan cəzalandırıldı. Elmlə davamlı məşğul olmayan, elmə uzaq olan adamların dissertasiya işlərinin müdafiəsi qadağan edildi. Ümummilli lider Heydər Əliyev Moskvada yüksək vəzifədə işləyərkən də Azərbaycan elminə və alimlərinə qarşı diqqətini əsirgəmədi. O, tanınmış azərbaycanlı alimlərə xalqın mənafelərini qorumağın vacibliyini vurğulayırdı.

Ümummilli lider Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə alimlər cəmiyyətdə ən nüfuzlu və hörmətli şəxslərdən sayılırdı. Azərbaycan alimləri maddi cəhətdən yaxşı təmin olunmuş, yaşayış şəraiti yaxşılaşmışdı. Bu şərait gənclər arasında elmə olan marağı artırırdı. İstedadlı gənclər elmə maraq göstərərək dissertasiya işlərini müdafiə edib elmi dərəcələr əldə edirdilər. Elm Azərbaycanda ən hörmətli sahələrdən biri hesab olunurdu. Sonralar Heydər Əliyev qeyd edirdi: “Azərbaycan elmi böyük bir irəliləyiş əldə etmiş və öz gücünü bütün dünyaya göstərmişdir” [1, s.72]. Elmə və alimlərə xüsusi diqqət yetirilir, fundamental elmlərin inkişafı üçün əlverişli şərait yaradılırdı. Bakı beynəlxalq elmi tədbirlərin mərkəzinə çevrilmişdi. Elmi tədqiqat institutlarında azərbaycanlı alimlərin sayı müntəzəm olaraq artırıldı. Azərbaycan təhsili, peşəkar kadrlarının yetişdirilməsi və inkişaf etmiş elmi müstəqilliyin əsasını qoyaraq onun təmin edilməsinə hazırlıq görülürdü.

Bütün bu addımlar, Ulu öndər Heydər Əliyevin istiqlalın təməlini yaratmaqda göstərdiyi tarixi xidmətin bir hissəsi idi.

## Ədəbiyyat

1. Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Prezidenti Heydər Əliyevin 1993-1994-cü illərdə xarici ölkələrə səfərlərinə dair materiallar). I cild. Bakı, Göytürk, 1996.
2. Əliyev H.Ə Müstəqilliyimiz əbədidir. Birinci kitab. Bakı, Azərnəşr, 1997.160 s.
3. Əliyev H.Ə Müstəqillik yolu: seçilmiş fikirlər, Bakı, Azərbaycan Universiteti, 1997. 135 s.
4. Əliyev H.Ə Mədəni irsimizin keşiyində, I kitab, Bakı, Heydər Əliyev Fondu, 2001. 440
5. Əliyev H.Ə Sovet Azərbaycanı. Bakı, Azərnəşr, 1981.
6. Hüseynova İ.M Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, Təhsil, 2004. 62 s.
7. Hüseynova İ.M Prezident Fərmanının işığında: Elm və təhsilin vəhdət zərurəti. "Respublika" qəz., Bakı, 2022, 7 sentyabr.
8. Heydər Əliyev. Bakı Şəhər İcra Hakimiyyəti və AMEA Tarix İnstitutunun birgə layihəsi. Bakı, "Şərq-Qərb", 2023. 304 s.
9. Qasımlı M.C Heydər Əliyev - istiqlala gedən yol (1969-1987-ci illər). Bakı, Bakı Universiteti nəşriyyatı, 2006. 608 s.
10. Zeynalov İ.X. Azərbaycanın sosial-iqtisadi inkişafı XX əsrin II yarısında, Bakı, Azərnəşr, 2004.
11. Zeynalov İ.X. Azərbaycanın milli dövlətçilik tarixində Heydər Əliyev zirvəsi: dahi şəxsiyyətin şərəfli ömür yolu. Bakı, "Füyuzat", 2024.656s.

# ŞƏKİ-ZAQATALA BÖLGƏSİNDƏ YAŞAYAN AZSAYLI XALQLARIN İNANCLARI

**Sahibə Musayeva**
AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu
Azərbaycan Dövlət Pedaqoji Universiteti
sahibe.musayeva@adpu.edu.az

***Açar sözlər:*** *Şəki-Zaqatala bölgəsi, azsaylı xalqlar, inanclar, folklor, din*

*Məqalədə Şəki-Zaqatala bölgəsi, həmçinin burada yaşayan azsaylı xalqlardan olan saxur, ingiloy, rutul, ləzgi, axvax, udi və digər etnosların maraqlı inancları və adətləri barədə ətraflı məlumat verilir. Bu inanclar və ənənələr, bu xalqların tarixi və mədəniyyəti ilə sıx bağlıdır və çox vaxt onların həyat tərzini, dünya görüşünü və dini anlayışlarını əks etdirir. Bəzi inanclar hələ də müasir dövrdə həmin xalqların arasında geniş yayılıb və gündəlik həyatlarında mühüm rol oynamaqdadır. Lakin təəssüf ki, bir çox digər inanclar zamanla dəyişmiş, bəziləri isə tamamilə unudulmuş və ya itmişdir. Bu, həm də regionda sürən sosial və mədəni dəyişikliklər, qlobalizasiya və müasir həyat tərzinin təsiri ilə əlaqəlidir. Bu inancların və adətlərin qorunub saxlanılması, gələcək nəsillərə ötürülməsi böyük əhəmiyyət kəsb edir, çünki onlar xalqların kimliyinin və mədəni irsinin qorunmasına xidmət edir.*

## ВЕРОВАНИЯ МАЛОЧИСЛЕННЫХ НАРОДОВ, ПРОЖИВАЮЩИХ В РЕГИОНЕ ШЕКИ-ЗАГАТАЛА

***Сахиба Мусаева***

***Ключевые слова:*** *регион Шеки-Загатальский, малочисленные народы, верования, фольклор, религия.*

*В статье представлена подробная информация о интересных верованиях и обычаях азербайджанских малочисленных народов, проживающих в регионе Шеки-Загатала, таких как сакуры, ингилоиды, рутулы, лезгины, ахвахи, уди и другие этносы. Эти верования и традиции тесно связаны с историей и культурой этих народов и часто отражают их образ жизни, мировоззрение и религиозные представления. Некоторые из этих верований по-прежнему широко распространены среди этих народов в современную эпоху и играют важную роль в их повседневной*

*жизни. Однако, к сожалению, многие другие верования со временем изменились, а некоторые из них были полностью забыты или утрачены. Это также связано с социальными и культурными изменениями, происходящими в регионе, а также с воздействием глобализации и современного образа жизни. Сохранение этих верований и обычаев и передача их будущим поколениям имеет большое значение, поскольку они способствуют сохранению идентичности народов и их культурного наследия.*

## BELIEFS OF MINORITY PEOPLES LIVING IN THE SHEKI-ZAGATALA REGION

***Sahiba Musaeva***

***Keywords:*** *Sheki-Zagatala region, minority peoples, beliefs, folklore, religion*

*The article provides detailed information about the interesting beliefs and customs of the minority peoples of Azerbaijan living in the Sheki-Zagatala region, such as the Saxurs, Ingiloys, Rutuls, Lezgins, Akhvakhs, Udis, and other ethnic groups. These beliefs and traditions are closely tied to the history and culture of these peoples and often reflect their way of life, worldview, and religious beliefs. Some of these beliefs are still widely spread among these peoples in the modern era and play an important role in their daily lives. However, unfortunately, many other beliefs have changed over time, and some have been completely forgotten or lost. This is also related to the social and cultural changes occurring in the region, as well as the influence of globalization and modern lifestyles. Preserving these beliefs and customs and passing them on to future generations is of great importance, as they help maintain the identity of these peoples and their cultural heritage.*

Özünün qədim tarixi və mənəvi mədəniyyəti, həm də zəngin etnik tərkibi ilə tanınan Azərbaycanda əsrlər boyu müxtəlif dini və etnik mənşəli xalqlar yaşayıb-yaradıblar. Onlar zaman keçdikcə daha da bu torpaqlara sıx bağlanmış, Azərbaycan tarixində iz qoyub Azərbaycan etnogenezinin formalaşmasında fəal iştirak ediblər. Qeyd edilən Şəki-Zaqatala zonasında Azərbaycan türkləri ilə yanaşı, avarlar, axvaxlar (və ya axaxlar), saxurlar, rutullar, ingiloylar, ləzgilər, udilər və digər xalqın nümayəndələri yaşayır. Bu milli etniklər zaman-zaman azərbaycanlılarla qaynayıb-qarışsa da öz folklor nümunələrini də qoruyub saxlamışlar. Bu nümunələrdən biri də onların inancları ilə bağlıdır.

İnanclar elmi əsasa malik olmasa da illərin sınağından keçmiş və xalqların mənəvi mədəniyyəti aid olan bir sahədir. İnancların özündə bir xeyir,

bir şər xüsusiyyəti vardır. İnsanlar dəfələrlə sınağa çəkib artıq bunun xeyirmi, şərmi olduğunu qətiləşdirib. İnanclar belə meydana gəlib [8,s.61]. İnanclar eyni zamanda şifahi ədəbiyyatda əsasən də ağız ədəbiyyatının ən qədim nümunəsi olan Balakəndə “hayla”, Zaqatalada isə “Tala mahnıları” adlanan folklor nümunələri bölgə insanlarının, bölgədə yaşayan xalqların ən qədim dövrdən, hətta daş dövründən bəri tarixini, inanc və birgə yaşayış qaydalarını öyrənməyə imkan verən maraqlı mənbədir [2,s.40]. İnanclar müstəqil janr kimi hazırda folklorşünaslığımızda tədqiq olunur. Qeyd etmək yerinə düşər ki, Azərbaycanın şimal-qərb bölgəsi etnik müxtəlifliyi - müxtəlif xalqların yanaşı yaşaması, müxtəlif adət və ənənələrin, müxtəlif inancların mövcud olması ilə fərqlənən bölgədir. Tarixçi-etnoqraf Qiyasədin Qeybullayev saxurları qədim mənbələrdə adı çəkilən şimal-qərbi Albaniyanın qafqazdilli tayfalarından biri olan ciqblərin varisi olduğunu yazırdı [6,s.43]. Qeyd etmək lazımdır ki, əslində saxurların etnik özünü adlandırması "yıxbı" (yıkbı) dır. “Saxurlar özlərini “yıkbı” adlandırırlar. Mənası “biz dağlıyıq” və ya “biz bir xalqıq” deməkdir. “Saxur” sözü isə “sak” etnonimindən əmələ gəlmişdir.” Saxur etnonimi isə onlara qonşu xalqlar tərəfindən Saxur kəndinin adı ilə bağlı - saxurlular mənasında verilmişdir. Belə ki, saxurların əsas və qədim yaşayış məskəni məhz Saxur ərazisi olmuşdur. Sonrakı tarixi mərhələlərdə tədricən İlisu sultanlığının da dini-mədəni mərkəzinə çevrilmişdir. İndiki dövrdə saxurların daha çox yaşadığı, Zaqatala şəhərində yerləşən 1953-cü ildə salınmış Yeni Suvagil kənd sakini Əbdürrəhman Ömərov özlərinəməxsus bu inancları bölüşür:

-Əgər leysan olarsa Qara qoyunun yununu yandırırlar ki, yağış dayansın.

-Uşaq həddən artıq çox ağlayarlarsa itburnu kolununa yaxın onu tək qoyarlar. Hardasa 3-4 saat ərzində o orada qalar, sonra yaşlı qadınlardan biri gedərək uşağın qulağına pıçıldayardı- məsələn, sənin adın Yaşar deyil, Muraddır.

- Həm məhsul həm də mal-qara arasında bolluq olsun deyə hədiy bişirər, dua oxunar və kənd camaatı arasında paylanardı.

Əgər uzun müddət yağış yağmazsa kənd camaatı onda Kəsikbaş ziyarətinə gedərdi. Öncə ziyarət sahibinin başının kəsildiyi yere gedər, xoruz kəsilib qanı axıdılar, daha sonra ziyarət sahibinin qəbri ziyarət olunardı. Özləri ilə yemek üçün ərzaq-mer-meyvə aparar, qalan ərzaq isə imkansız şəxslərə paylanılardı [4,s.29].

Saxurlara məxsus digər inanclara görə isə qədim zamanlarda çoxlu yağış yağan zaman maxara (red.-günəş formasını xatırladır) bişirirdilər ki, günəş çıxsın yəni, yağışın axması dayansın. Əgər quraqlıq olarsa o zaman tsint yeməyini bişirərlərdi və qohum-qonşu arasında paylanardı.

Subay qız oğanı bəyənsəydi papağı özündə saxlayar, bəyənməzsə papağı sahibinə qaytardı. Bu inanc təəssüf ki, indi geniş istifadə olunmur.

Müəyyən yaşa çatdıqda ərə getməyən qızlar və evlənməyən oğlanlar üçün bəxtaçma duası yazdırardılar. Çünki, onlar insan bəxtinin onu sevməyən insanlar tərəfindən cadu vasitəsilə bağlanmasına inanardılar. Gözbarax kənd sakini Rəfiyeva İradənin məlumatına əsasən təkcə evdə qalmış subaylar üçün deyil, müxtəlif məqsədlər üçün, məsələn, bəd nəzərdən (həmin insanlara bəzən "şuqul" deyirlər ki, bu da bölgəyə xasdır) qorunmaq bədnəzər duası, uzaq səfərə çıxan şəxs üçün səfər duası, bir-birini sevən gənclər üçün məhəbbət duası yazdırmaq indiyədək qalan inanclardandır.

Sarıbaşlılar arasında saç və dırnaqla bağlı çoxlu ayinlər vardır ki, təəssüf ki, onların bəziləri indiyədək öz aktuallığını saxlamamışdır. Məsələn, kəsilmiş dırnaqları, qırxılmış saçı ayaq altına tökməzdilər [7,s.226]

Ərə getməmiş qızlar kəmər taxmazdırlar, çünki əhali buna yalnız bəzək vasitəsi kimi deyil də bunda sehrli gücün olduğuna inanardılar. Beləliklə, üzəri qiymətli daşlarlar bəzədilmiş, gümüş sikkələri olan, qızıl suyuna çəkilmiş və ya gümüşdən olan bu kəməri gəlin köçən vaxt taxmalıydı. Bu da hökmən oğlan uşağı tərəfindən icra olunmalıydı.

Qədim vaxtlardan məhz şimal-qərb bölgəsində yaşayan və Azərbaycan xalqının tərkib hissələrindən biri olan ingiloylara məxsus olan bu inanc təəssüf ki, yalnız "Nənələr" adlı folklor qrupunun rəqsində öz əksini tapır. Deyilənə görə hələ əzəl vaxtlardan ingiloy kişiləri dəyirmanda çalışan zaman onların xanımları görülən işin görünməyən qüvvələr tərəfindən ziyan görməməsi üçün bu cür rəqslər edirlərmiş. İngiloylar keçmişdə qeyd etdikləri milli bayramlar kimi "Ereti oba", "Kurmux oba"nı bu dövrümüzə qədər də qeyd edirlər. Bitkilərə və heyvanlara inam, pirlərə, yəni – Sarı pir baba, Yaz baba, Dilek pir baba və s. kimi inanclar bu günümüzə qədər mövcuddur [2, s.106]. Digər inanca görə isə yumurtanı qabın içərisinə qoyursan, o evdə bədnəzər varsa, o yumurta çatlayacaq.

Bölgədə yaşayan və qədim leq (lek)tayfasının varisi hesab olunan ləzgilərin də özünəməxsus inancları vardır. Onlar bu günədək öz keçmiş inanclarını qoruyub saxlayır və öz bütpərəst Allahlarına tez-tez müraciət edirlər. Onlar Bahar bayramı ərəfəsində od tanrısı "Alpan"a, su tanrısı "Tabar"a, döyüş tanrısı "Sleq"ə, günəş tanrısı "Atap"a, münbitlik tanrısı "Yar"a, bolluq tanrısı "Tap"a, xeyirlə-şər tanrısı "Epen baxar"a, pislik tanrısı "Alapex"ə müraciət edirlər [2, s.94]

Şəki-Zaqatala xüsusən Qax və Zaqatala rayonlarının xüsusi neməti sayılan qoz ağacı ta qədimdən müqəddəs sayılmış, hətta pir hesab olunmuşdur. Odur ki, "Dağdağan, qoz, zoğal, çinar, əncir - pir hesab edilir, onları kəsmək və yandırmaq olmaz" [1,s.276].

Şəki şəhəri, Şin kənd sakini, əslən rutul olan İsfəndiyar baba məlumat verir ki, əvvəllər daxal adlanan balaca, üstü torpaqla örtülən evlərin sayı bəlkə də 10-a çatardı. İndi isə daha müasir formada tikilən evlərin sayı artmaqdadır.

Rutul inancına görə evi bədnəzərdən qorumaq üçün evin bünövrəsinə qurd və ya ayı dişi, gümüş pul qoyardılar. Həmçinin də ev ruzili olsun deyə bünövrəyə halva sürtərdilər. Ölkəmizdə mövcud olan azsaylı xalqlardan biri də udi (udin) adlı xalqdır. Udilər haqqında da ilk məlumatı antik yunan müəlliflərinin (Strabon, Herodot və s.) əsərlərindən öyrənirik. Müxtəlif dillərdə danışan 26 alban tayfasından biri olan udilər Qafqaz Albaniyasının Uti əyalətində, XIX əsrdə isə Nuxa (Şəki rayonu) bölgəsinin bir neçə yaşayış məskənində məskunlaşmışdır. Müasir dövrdə başlıca olaraq Qəbələ rayonunun Nic kəndində və qismən də Oğuz rayon mərkəzində yaşayırlar. Udilərin el arasında olan inancına görə, gəlin və qaynana eyni bulağın suyundan içə bilməzmiş. Udinlərdə baramaçılığın inkişafı ilə əlaqədar inanclar, sınamalar mövcuddur ki, başqa regionlarda rastlanılmır. Barama yığılarkən onun üstündən keçmək, tullanmaq olmaz, çünki bərəkətini itirər [3, s.25] və ya digər inanca görə İpəkqurdunun canlanması dövründə adamlar bir-birinə bostan bitkilərinin toxumunu, od və başqa şeylər verə bilməzdi. Yoxsa barama məhsul verməzdi [2, s.177].

Azərbaycanda yaşayan digər etnoslar kimi avarlar da öz etnik kimliklərini günümüzədək qoruyub saxlamaqla əsrlər boyu qardaşlıq şəraitində yaşayıblar. Bu etnik qrup əsasən Zaqatala, Balakən zonasında yaşayırlar. Azərbaycanlılarla eyni ortaq mədəniyyətə və vahid mədəni dəyərlərə sahib olan avarlar öz etnik spesifikliyini qoruyub saxlamaqla bütövlükdə Azərbaycanın milli dəyərinə özünəməxsus rəng qatırlar. Avarlar arasında yağış və günəş istəmə uşaqlar və böyüklərin həvəslə keçirdiyi mərasimlərdir. “Yağış istəmə” mərasimində “burca”, “günəş istəmə” mərasimində isə “maxara” bişirilər və kənd camaatına paylanardı. İnanclara görə burca yəni, əriştə yağış damcılarını, maxara isə günəş şəfəqlərini xatırladır.

Bölgədə yaşayan kiçik etnik qruplardan olan olan axvaxlar və ya avaxlar əsasən Dağıstanın Axvax rayonunda məskunlaşıblar. Azərbaycana onların köçməsi XVII-XVIII əsrlərə təsadüf edir.Hal-hazırda onlar Zaqatala rayonunun Axadərə kəndində məskunlaşıblar. Axvaxların inancına görə məhsul bol olsun deyə yeri şumlayıb qurtaranda şənliklər keçirilər, ağaclardan suvalçağ (red.- yelləncək) asılar, hədiklər bişirilib paylanardı.

Azərbaycanlılarla ortaq inancları da mövcuddur ki, bunlara-gecə vaxtı qayçıdan istifadə etmək, məhləni süpürmək, adamın üstündə paltar tikmək olmaz kimi inancları aid etmək olar. Azərbaycanın hər yerində olduğu kimi, Şəki-Zaqatala bölgəsində də erkən qalxmaq, yəni günəş şüalarının yerə yayılmasından öncə oyanmağın uğur gətirəcəyinə inanır, günəşin batma saatlarında yatmaq isə yaxşı əlamət sayılmır, "günün dalınca yatanın bəxti də yatar" deyərlər (1, s.249). Bu bölgənin əhalisi at nalına xoşbəxtlik nişanəsi kimi baxır və evlərinin girəcəyinə mıxlayardılar. Bunu bölgədəki bir çox evlərin girəcəyində görmək olar.

Şəki-Zaqatala bölgəsində yaşayan xalqların və etnik qrupların folklor örnəklərini tədqiq etməklə, Azərbaycan dili ilə qarşılıqlı müqayisə fonunda bu xalqların dil xüsusiyyətlərini, dini inanclarını, adət-ənənələrini aşkara çıxarmış oluruq. Tədqiqatdan da aydın olur ki, Şəki-Zaqatala bölgəsi Azərbaycan Respublikasının həm rəngarəng etnik tərkibə, həm də zəngin adət-ənənələrə malik olan bir ərazisidir.

Nəticə olaraq belə demək mümkündür ki, Şəki-Zaqatala bölgəsində yaşayan müxtəlif xalqların və etnik qrupların nümayəndələri tərəfindən yaradılmış və nəsildən-nəslə ötürülən zəngin folklor örnəkləri Azərbaycan mədəniyyətinin çoxşaxəli və rəngarəng mənzərəsini formalaşdıran vacib elementlərdən biridir. Bu folklor örnəkləri, bölgənin coğrafi mövqeyindən, tarixi inkişaf proseslərindən və multietnik sosial quruluşundan irəli gələn mədəni təsirlərin nəticəsində formalaşaraq vahid Azərbaycan folklorunun tərkib hissəsinə çevrilmişdir. Şəki-Zaqatala bölgəsi folklorunun özünəməxsusluğu, burada yaşayan xalqların ortaq mədəni yaddaşında iz buraxan mifoloji görüşlər, inanclar, adət-ənənələr, bayram mərasimləri və şifahi ədəbiyyat nümunələrinin harmonik şəkildə birləşməsi ilə xarakterizə olunur. Bu nümunələr təkcə bölgənin deyil, bütövlükdə Azərbaycan folklorunun regional atlasında mühüm yer tutur və ölkənin zəngin mədəni irsinin araşdırılması baxımından geniş tədqiqat perspektivləri açır.

## Ədəbiyyat:

1. Axundov Ə. Azərbaycan folkloru antologiyası. I kitab. Bakı, Azərbaycan SSR Elmlər Akademiyası,1968, 289 s.

2. Azərbaycan folkloru və milli-mədəni müxtəliflik beynəlxalq elmi-praktik konfransın materialları, Zaqatala, 2016. 242 s.

3. Azsaylı xalqların folkloru, I kitab. Bakı, Elm və təhsil, 2014. 204 s.

4. Azsaylı xalqların folkloru, VI kitab. Bakı, Elm və təhsil,2024. 331 s.

5. Paşayeva M. Azərbaycanlıların ailə mərasimlərində etnik ənənələr (XIX -XX əsrin əvvəlləri Şəki-Zaqatala bölgəsinin materialları üzrə). Bakı, Azərbaycan Dövlət Nəşriyyatı,2008. 308s.

6. Tahirzadə R. Sarıbaş və sarıbaşlılar.Bakı, Elm və təhsil,2003. 480 s.

7. Yaqubqızı M. Azərbaycan folklorunda tolerantlıq və multikulturalizm (Şəki-Zaqatala bölgəsində yaşayan xalqların və etnik qrupların folklor örnəkləri əsasında).Bakı, Elm və təhsil nəşriyyatı, 2016, 184 səh.

Söyləyicilər:

1. Əbdürrəhman Ömərov, Zaqatala rayonu, Yeni Suvagil kənd sakini, 1953-cü il təvəllüdlü

2. İradə Rəfiyeva, Zaqatala rayonu,Gözbarax kənd sakini, təvəllüdlü 1978-ci il

# FRANSANIN ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRİ KİMİ FƏALİYYƏTİ (1997-2003)

**Səlimə Quliyeva**
Bakı Dövlət Universiteti
quliyeva_salima@mail.ru

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Fransa Respublikası, ATƏT-in Minsk qrupu, Lissabon sammiti, münaqişə*

*1997-2003-cü illərdə ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən biri olan Fransa Respublikasının siyasətinin araşdırılması elmi-siyasi aktuallıq və mühüm əhəmiyyət kəsb edir. Araşdırmalar əsasında Fransa Respublikasının Minsk qrupunun həmsədrlərindən biri kimi beynəlxalq aləmdə mühüm çəkiyə malik olan ATƏT kimi təşkilatın qərarlarının qəbul edilməsində, həmin qırarların həyata keçirilməsində, regionda sülhün bərqərar edilməsi və təhlükəsizliyin təmin edilməsində tutduğu mövqe beynəlxalq birlik tərəfindən qəbul edilmiş prinsiplərə uyğun olmamışdır. Həmsədr olaraq bitərəflik mövqeyi nümayiş etdirməsi lazım gəlsə də, Fransanın tərəfinin addımları ədalətli olmamışdır. Belə mövqe ərazilərinin işğalının davam etdirilməsində Ermənistanı şirnikləndirmişdir. Fransa Respublikasının Dağlıq Qarabağ münaqişəsinə münasibətdə siyasətinin səbəblərini və məqsədlərini dərindən tədqiq etmək aktualdır.*

# ФРАНЦИЯ КАК СОПРЕДСЕДАТЕЛЬ МИНСКОЙ ГРУППЫ ОБСЕ (1997-2003)

**Салима Гулиева**

***Ключевые слова:*** *Азербайджанская Республика, Французская Республика, Минская группа ОБСЕ, Лиссабонский саммит, конфликт*

*Изучение политики Французской Республики, одной из стран-сопредседателей Минской группы ОБСЕ в 1997-2003 годах, имеет научную и политическую актуальность и важность. На основе проведенного исследования позиция Французской Республики, как одного из сопредседателей Минской группы, в принятии решений такой организации, как ОБСЕ, имеющей значительный вес в международном сообществе, в реализации этих решений, и в установлении мира и обеспечении безопасности в регионе, не соответствовало принципам, принятым международным сообществом. Хотя было необходимо*

*продемонстрировать нейтральную позицию как сопредседателя, шаги, предпринятые французской стороной, были несправедливыми. Такая позиция подтолкнула Армению к продолжению оккупации своих территорий. Представляется целесообразным глубоко рассмотреть причины и цели политики Французской Республики в отношении нагорно-карабахского конфликта.*

## FRANCE'S ACTİVİTY AS CO-CHAİR OF THE OSCE MİNSK GROUP (1997-2003)

**Salima Guliyeva**

***Keywords:*** *Republic of Azerbaijan, Republic of France, OSCE Minsk Group, Lisbon Summit, conflict*

*The study of the policy of the Republic of France, one of the co-chair countries of the OSCE Minsk Group in 1997-2003, is of scientific and political relevance and importance. Based on the research, the position of the Republic of France, as one of the co-chair countries of the Minsk Group, in adopting decisions of an organization such as the OSCE, which has significant weight in the international community, in implementing those decisions, in establishing peace and ensuring security in the region, did not comply with the principles adopted by the international community. Although it was necessary to demonstrate a neutral position as a co-chair, the steps of the French side were not fair. Such a position tempted Armenia to continue the occupation of its territories. It is relevant to deeply study the reasons and goals of the policy of the Republic of France in relation to the Nagorno-Karabakh conflict.*

XX əsrin 90-cı illərində yaranmış Qarabağ münaqişəsi yarandığı dönəmdən dünya ölkələrinin diqqətini cəlb etmiş və münaqişənin həlli istiqamətində müəyyən səylər göstərilmişdi. Atılmış mühüm addımlardan biri ATƏT-in Minsk qrupunun yaradılmasıdı. Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində ATƏT-in prinsipləri əsas götürülmüşdür. 1992-ci il 24 martında Helsinkidə Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli məqsədilə görüş keçirilmiş və müzakirələr aparılmışdı. Nəticədə Minsk konfransının çağırılması qərara alınmışdı.1994-cü il dekabrında Minsk qurumunun yaradılması və idarə edilməsi məsələsində həmsədrlik institutu təsis olundu ki, bu quruma əvvəlcə Finlandiya və Rusiya, 1995–1996-cı illər dövründə İsveç və Rusiya rəhbərlik etmişdir. 1 yanvar 1997-ci ildən başlayaraq ATƏT-in Minsk Prosesinə ABŞ, Rusiya və Fransa həmsədr olaraq başçılıq etməyə başlamışdılar. Fransa Respublikası mövcud olan Dağlıq Qarabağ

münaqişəsinin tənzimlənməsində və həllində mühüm rol oynamağa çalışırdı. Fransa Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətdə fəallığını artırmış və belə bir fəallıq səbəbsiz deyildi. Fransanın Minsk qrupunun həmsədri olmaqla Azərbaycanda öz iqtisadi maraqlarını təmin edə bilirdi. 1996-cı il iyunun 4-də Fransanın "Elf-Agiten" neft şirkəti ilə "Şahdəniz" beynəlxalq müqaviləsi imzalamış və bu kontrakt əsasında Fransa tərəfi 10 faizlik pay əldə etmişdi. Fransa hökuməti Azərbaycan qoyduğu kapitalı qorumaq və davamlı təmin etmək məqsədilə Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmsı qarşıya qoyulmuş əsas məqsədə çevrilir. Bölgədə sabitliyin bərqərar edilməsi iqtisadi cəhətdən Fransanın maraqlarını müdafiə etmiş olurdu. Başı həmişə Balkan yarımadasında proseslərə qarışan Fransa artıq bölgədəki neft "oyunların"ın əhəmiyyətini başa düşürdü [13, s.28]. Fransanın Minsk qrupunda rolunu artırmaq və həmsədr olmaq istəyi müəyyən danışıqlarda müzakirə predmeti oldu. Açıq bəyan edilməsə də, Fransanın Minsk qrupunun daha fəal üzvünə, dolayısı ilə həmsədrinə çevrilmək niyyəti xarici işlər naziri Erve de Şarettin 1996-cı il oktyabrın 11-də Azərbaycana rəsmi səfəri zamanı üzə çıxdı [11, s. 126]. Erve de Şarett ölkəsinin öz fəaliyyətini gücləndirərək Dağlıq Qarabağ münaqişəsinin həllinə kömək göstərmək məramında olduğunu bəyan etdi [19]. ATƏT-in sədri Flavio Kotti 1996-cı ilin dekabrında rəsmi olaraq Fransanın Minsk qrupunun həmsədrliyinə namizədliyini təşkilatın Lissabon sammitindəifadə etsə də, bu təklif zirvə toplantısında anlaşılmazlıq yaratmış və Azərbaycan tərəfi Fransanın ikinci həmsədr kimi namizədliyini müdafiə etmədi. Çünki Lissabon sammitindən əvvəl Rusiyadan sonra ABŞ-ın ikinci həmsədrliyə öz namizədliyini irəli sürmüş və bu tərəflərlə razılaşdırılmışdı. Fransanın siyasi müstəvidə irəli sürdüyü təklif ciddi mübahisələrə səbəb olmuşdu, bu anlaşılmazlıqdan irəli gələrək ikinci həmsədr məsələsi həll olunmamış qaldı. Buna baxmayaraq, zirvə toplantısında Dağlıq Qarabağ münaqişəsinə dair digər müzakirələrdə Fransa hökumət nümayəndələri yaxından iştirak etdi və ATƏT sədrinin bəyanatını müdafiə etdi. Ermənistandan başqa, ATƏT-in qalan 53 üzvü tərəfindən dəstəklənən təşkilat sədrinin Dağlıq Qarabağ münaqişəsinin həllinə dair bəyanatı Azərbaycan və Ermənistanın ərazi bütövlüyünü, Dağlıq Qarabağ Azərbaycan sərhədləri daxilində mümkün geniş muxtariyyət və regionun erməni və azərbaycanlı əhalisinin təhlükəsizliyinə təminat verilməsini nəzərdə tuturdu [13, s.29]. ATƏT-in 1996-cı il dekabr ayının 2-dən 4-dək keçirilən Lissabon zirvə görüşündən [18] sonra Minsk qrupunun həmsədrlik institutunda dəyişiklik baş verdi. 1992-ci ildən 1996-cı ilə qədərki dövrdə Minsk qrupuna İtaliya (1992-1993), İsveç (1994), Rusiya və Finlandiya (1995-1996) sədrlik etmişdilər [15]. Minsk qrupunun dövri sədrlik institutu 1994-cü il dekabrın 5-6-da ATƏT-in Budapeşt həmsədrlik institutu ilə əvəz edilməsi qərara alındı. Minsk qrupunda həmsədrlik Rusiya və İsveç ilə başlasa da, sonradan İsveç Finlandiya ilə əvəz edilmişdi. Minsk qrupunun həmsədrlərinin dəyişməsi

Lissabon zirvə toplantısından sonra dəyişərək həmsədrlik institutu mərhələli olaraq üç ölkənin daimi həmsədrliyi şəklində müəyyənləşdi. 1996-cı il dekabrın 30-da Finlandiya nümayəndəsinin əvəzinə Fransa Respublikasının təmsilçisi həmsədr təyin edildi. ABŞ isə həmsədr ölkə olaraq Minsk qrupunun işinə 1997-ci il fevralın 14-də qoşuldu [17]. Fransanın Dağlıq Qarabağ münaqişənin həllinə daha yaxından cəlb olunmaq məsələsi Azərbaycan Respublikası Prezidentinin 1997-ci il yanvarın 13-15-də bu ölkəyə ikinci rəsmi səfəri zamanı geniş müzakirə olundu. Prezident Jak Şirak bəyan etdi ki, Fransa ona dost olan iki ölkə arasındakı münaqişəni həll etməyə hazırdır. Lakin Prezident Heydər Əliyev vurğuladı: "Minsk qrupu yaranandan bu yana Fransa onun üzvü olsa da, bu dosyeyə heç vaxt dərindən maraq göstərməyib" [16]. Fransanın həmsədrliyinə gəlincə, Azərbaycan tərəfi bildirdi ki, "Fransanın bu gün ifa etdiyi yeni arzuya biz hörmətlə yanaşırıq. Lakin biz artıq Minsk qrupunun həmsədrliyi üçün amerikalı Strob Telbotun namizədliyinə razılıq vermişik" [5 s.181]. Doğrudan da, həmsədrliyə başqa bir ölkənin də namizədliyini vermək qeyri- mümkün idi. Nəinki etika qaydaları, həm də həmsədrliyin ikili olması buna heç cür imkan vermirdi. ATƏT-in fəaliyyətdə olan sədri F.Kotti Minsk qrupu üzvlərinin, xüsusən də Azərbaycanın razılığını almadan Fransanın namizədliyini irəli sürmüşdü. Əslində isə münaqişə tərəflərindən biri razılıq verməsəydi, bu məsələ həll oluna bilməzdi. 1997-ci ilin fevral ayına qədər ikinci həmsədr məsələsi mübahisə obyekti olaraq qaldı. Fransa və ABŞ bu yerə iddia etdikləri üçün onlardan heç biri öz namizədliyini geri götürmək istəmirdi. Artıq ikinci həmsədr vəzifəsinin Minsk qrupunun başqa zəif üzv dövlətlərindən birinə verilmək ehtimalı yaranmışdı. Çünki artıq qrupun nüfuzlu üzvlərindən – İtaliya öz missiyasını başa vurmuş, Almaniyanın namizədliyi geri atılmış, Türkiyə isə namizədliyini irəli sürməmişdi. Ona görə də Rusiyanın Minsk qrupu həmsədrliyində öz iradəsini təyin olunacaq zəif bir dövlətə qəbul etdirməməsi üçün üç həmsədr mexanizmi yaratmaq, Fransa və ABŞ-ın namizədliklərini saxlamaq qərara alındı. Beləliklə, Ermənistan-Azərbaycan arasındakı münaqişəni nizamlamaq məqsədi ilə yaradılan Minsk qrupunun həmsədrlərindən biri olan Fransanı Jak Blo təmsil etmişdir. Ondan sonra Fransanı bu qurumda Jorj Vojye, Jan Jak Qalyard, Filip de Sürmen, Anri Jakole, Bernar Fasye, Jak For, Pyer Andriyö, Stefan Viskonti təmsil etmişdilər. 1997-ci ilin aprel ayından başlayaraq isə Minsk qrupu daxilində danışıqlar münaqişə zonasına səfərlər etmək formasında davam etdirilmişdir. Həmsədrlər Qarabağdakı münaqişənin həlli üçün iki hissəli paket təqdim etmələrinə baxmayaraq istənilən nəticə əldə edilmir. Buna əsasən hər iki tərəf mübahisəli məsələləri danışıqlar yolu ilə masa arxasında həll etməli idilər. Eləcədə hər iki tərəf silahlı münaqişəni durdurmalı Dağlıq Qarabağın status məsələsində kompramisə gəlməli idilər. Əslində Cənubi Qafqazdakı bu münaqişənin tezliklə sülh yolu ilə həllində həmsədrlər özləri də maraqlı idilər. Belə ki, 1997-ci il

iyun ayının 20-də ABŞ prezidenti Bill Klinton, RF-nın prezidenti Boris Yeltsin və Fransanın prezidenti Jak Şirakın iştirakı ilə Denverdə keçirilən böyük səkkizlərin toplantısında bəyanat imzalanmışdır [12, s.241-242]. Bəyanatda hər üç ölkənin prezidentləri münaqişənin tezliklə sülh yolu ilə həll olunmasının tərəfdarı olduqlarını qeyd etmişdilər. Ümumiyyətlə, münaqişənin üzanmasının tərəfdarı olmadıqlarını və bunun regionun həm iqtisadiyyatına, həm də ictimai inkişafına müsbət təsir göstərməməsindən narahat olduqlarını da bildirmişdilər. Buna görə də Azərbaycan və Ermənistan tərəfindən müntəzəm danışıqlar aparmasını tövsiyyə edirdilər. Bununla yanaşı, onlar Minsk qrupunun münaqişənin həlli barədə təklif etdikləri iki hissəli paketi bəyəndiklərini də qeyd edirdilər. Elə həmin ilin iyul ayının 18-də Minsk qrupunun həmsədrləri münaqişənin həll istiqamətində tərəflər arasında danışıqlar başlatmışdılar. Azərbaycan tərəfi Minsk qrupunun təklifi ilə razılaşsa da, Ermənistan bu təklifdən tamamilə imtina etmişdi. Bununla münaqişənin həll üçün atılan ilk ciddi addım nəticəsiz oldu. 1997-ci il sentyabr ayının 19-23-də monitorinqin keçirilməsi məqsədilə həmsədrlər yenidən münaqişə zonasına gəlirlər. Onların fikrincə, münaqişənin həlli mərhələlərlə həyata keçirilməli idi. Birinci mərhələdə altı rayon işğaldan azad olunmalı, ATƏT-in sülh yaratma əməliyyatı başlamalı, məcburi köçkünlər adı çəkilən rayonlara geri qaytarılmalı və komunikasiya xəttlərinin bərpası həyata keçirilməli idi. İkinci mərhələdə isə Laçın və Şuşa, həmçinin Dağlıq Qarabağın status məsələsi həll olunmalı idi. Bu qeyd olunan məsələlər həllini tapdıqdan sonra Minsk qrupunun yekun konfransı çağrılmalı idi. Həmsədrlər sentyabrın 19-23-də bölgəyə növbəti səfərləri zamanı ilk mərhələdə 6 rayonun (Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan) işğaldan azad olunmasını, ATƏT-in sülhyaratma əməliyyatlarının başlanmasını, məcburi köçkünlərin azad olunmuş ərazilərə qayıtmasını və münaqişə bölgəsində əsas kommunikasiya vasitələrinin bərpasını, ikinci mərhələdə isə Laçın və Şuşa məsələlərinin həllini, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin statusunun əsas prinsiplərinin qəbul olunmasını və nəticədə ATƏT-in Minsk konfransının çağırılmasını nəzərdə tutan mərhələli həlli təklif etdilər [16]. 1997-ci ilin okyabr ayında Avropa Şurasına üzv olan ölkələrin dövlət və hökumət başçılarının Strasburqda keçirilən ikinci zirvə görüşündə [14] Azərbaycan və Ermənistan prezidentləri Fransa Prezidenti Jak Şirak ilə ayrı-ayrılıqda görüşdülər. Münaqişənin həllinə dair Prezident Jak Şirakın mövqeyi belə idi: "Münaqişəyə sülh yolu ilə son qoyulması ATƏT-in Lissabon zirvə görüşündə qəbul edilmiş prinsiplər əsasında həllini tapa bilər. Münaqişənin həmin prinsiplər əsasında aradan qaldırılması üçün biz əlimizdən gələni edəcəyik. Bu məsələdə Fransanın mövqeyi dəyişməzdir" [6, s.317]. Rusiya Federasiyasının Prezidenti Boris Yeltsin, ABŞ Prezidenti Bill Klinton, Fransa Respublikasının Prezidenti Jak Şirak Denverdə 1997-ci il noyabrın 20-də Dağlıq Qarabağ münaqişəsinə dair bəyanat verdilər. 1998-ci il noyabrın 9-da

Azərbaycana səfər edən Minsk qrupunun həmsədrləri Jorj Vojye (Fransa), Yuri Yukalov (Rusiya) və Donald Kayzeri (ABŞ) Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə görüşdə ümumi dövlət konsepsiyasına əsaslanan təklifi irəli sürdülər. Azərbaycan Respublikasının suverenliyinə zidd olan bu təklifə görə, Dağlıq Qarabağ bölgəsinə respublika formasında dövlət və ərazi vahidi statusu verilməli və o, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycan ilə birlikdə ümumi dövlət təşkil etməli idi. Azərbaycan dövləti Ermənistanın bilavasitə hərbi təcavüzü nəticəsində yaradılmış qondarma qurum ilə "ümumi dövlət" yarada bilməzdi. Ona görə də həmin təklifi qətiyyətlə rədd etdi. Bundan sonra Fransanın daxil olduğu Minsk prosesi çıxılmaz vəziyyətə düşdü. Beləliklə, 1997-1998-ci illər ərzində münaqişənin həllinə dair Minsk qrupunun həmsədrlərinin üç təklifi paket, mərhələli və ümumdövlət təklifləri reallaşdırılmadı [2, s.70]. 1999-cu ilin aprel ayının 20-də AR-nın prezidenti Heydər Əliyev Fransanın prezidenti Jak Şiraka göndərdiyi məktubda Ermənistan – Azərbaycan münaqişəsinin həll olunmasında BMT və ATƏT-in, həmçinin Minsk qrupunun önə sürdüyü təkliflər haqqında məlumat vermişdir. Eləcə də məktubda Azərbaycanın bunlara münasibəti də öz əksini tapmışdır. Heydər Əliyev həmsədrlərin "ümumi dövlət" prinsipi təklifini tənqid etdi, bu ideyanın ATƏT-in iki sammitinin təsdiq etdiyi qərarlardan və əvvəlki mövqedən eri çəkilməkdən başqa bir şey olmadığı, əslində Dağlıq Qarabağı respublika formasında dövlət ərazi qurumu kimi ayırdığını, ona uydurma "ümumi dövlət" çərçivəsində Azərbaycan ilə bərabər status verdiyini yazdı. Məktubda Rusiya Federasiyasının Ermənistan Respublikasını ciddi-cəhdlə silahlandırmaqda davam etməsi, Ermənistana qanunsuz yollarla 1 milyard ABŞ dolları dəyərində silahlar verməsinin, MİQ-29 təyyarələrinin və S-300 raketlərinin göndərilməsinin tənzimləmə prosesinə ciddi ziyan vurduğu qeyd edildi. Azərbaycan rəhbəri münaqişənin həlli üçün həmsədrlərdən qətiyyət göstərilməsini xahiş edirdi. Prezident Heydər Əliyevin Jak Şiraka məktubunda yazılırdı: "Bunları nəzərə alaraq, hörmətli cənab prezident, mən Sizə həm də ATƏT-in Minsk qrupunun həmsədri olduğunuza görə müraciət edirəm və təkidlə xahiş edirəm ki, getdikcə zanan, Avropada sülh və sabitlik üçün ciddi təhlükə mənbəyi olan bu münaqişənin Lissabon sammitinin prinsiplərini həyata keçirərək tezliklə aradan qaldırılması üçün şəxsi fəaliyyətinizi, habelə ölkənizin xarici siyasət idarəsinin işini gücləndirəsiniz" [8 s.25-28]. Bu müraciətlə ümid olunurdu ki, münaqişənin sülh yolu ilə həllində Fransanın mövqeyi dəyişəcək. Lakin, bu ümid olunan kimi olmadı. Minsk qrupunun həmsədrlərinin təklif etdikləri iki hissəli həll yolunun puça çıxması ilə həmsədrlər danışıqların formatını dəyişməyə çalışırdılar. Belə ki, 1999-cu ilin iyulun 16-da Fransanın Leman gölü sahilindəki Le Grand Saugy iqamətgahında keçirilən görüşdə də heç bir nəticə əldə edilmədi [12, s.252]. Həmsədrlər belə hesab edirlər ki, Azərbaycan və Ermənistan hansısa bir razılığa

gəlsə idilər, Minsk qrupu da onu qəbul edərdi. Lakin, bu mümkün deyildi. İşğalçı Ermənistan Azərbaycan ərazisindən çıxmaq fikrində deyildi. ATƏT-in İstanbul zirvə toplantısı ərəfəsində, 1999-ci ilin noyabr ayının 9-da Minsk qrupunun Fransalı yeni həmsədri Jan Jak Qayyard Azərbaycana səfər etmişdi. Həmsədri qəbul edən AR-nın prezidenti Heydər Əliyev qurumdan ümumi narazılığını bildirdi [9 s.56-62]. 1999-ci ilin noyabrın 18-19-da İstanbulda ATƏT-in zirvə konfransında AR-ın Prezidenti Heydər Əliyev Fransa Prezidenti Jak Şirak görüşərək münaqişənin nizamlanması haqqında müzakirələr aparmışdılar. Heydər Əliyev Fransadan bu mövzuda səylərini artırmasını istəmişdi. Fransa Minsk qrupunun həmsədri kimi münaqişənin həll olunmasında səylərini artıracağını bildirsə də, irəliləyiş olmamışdı.

Beləliklə, 1999-cu il dekabrın 14-də Minsk qrupunun həmsədrləri və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının, BMT inkişaf proqramının, Beynəlxalq Valyuta Fondunun, Avropa Yenidənqurma və İnkişaf Bankının nümayəndələrindən ibarət bir qrup Bakıya səfər etmişdi. AR-nın Prezidenti Heydər Əliyev ilə aparılan müzakirələr zamanı Jan Jak Qayard bildirmişdi ki, həmsədrlər münaqişənin həlli istiqamətində irəlləyiş əldə olunması üçün Azərbaycan və Ermənistanın birbaşa görüşlərinin vacibliyini bildirirdilər [10 s.5-20]. 2001-ci il yanvarın 26-da Fransa Respublikasının Prezidenti Jak Şirak, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Ermənistan prezidenti Robert Koçaryan arasında görüş oldu [4, s.125]. Ölkə başçıları münaqişə tərəfləri arasında birbaşa dialoqun davam etdirilməsinin vacibliyini vurğuladılar, Minsk qrupunun səylərinə tərəfdar çıxdılar [4, s.211-218]. Lakin Ermənistan danışıqlara tərəfdar olmaqla prosesi uzatmaq və işğalı "oldu-bitdi" kimi qələmə verməyə çalışırdı. Prezident Jak Şirak Prezident Heydər Əliyev və Prezident Robert Koçaryanın yeni görüşünün keçirilməsi təşəbbüsünü irəli sürdü. Azərbaycan Prezidenti Minsk qrupu formatında münaqişənin həlli yollarını müzakirə etmək məqsədilə Prezident Jak Şirakın dəvətinə əsasən 2001-ci il martın 4-6-da Parisə işgüzar səfər etdi [4, s.211-218]. Əvvəlcə prezidentlər Heydər Əliyev və Robert Koçaryan təkbətək görüşdülər. Fransa Prezidentinin iştirakı ilə üçtərəfli görüş keçirildi [4, s.219-220]. Dövlət başçıları Azərbaycan və Ermənistan prezidentləri arasında birbaşa görüşlərin keçirilməsinin vacib olduğunu bir daha vurğuladılar [13, c.125]. Müzakirələr başa çatdıqdan sonra isə Prezident Jak Şirak danışıqların "dostcasına və səmimi" keçdiyini bildirdi. Qeyd etdi ki, tərəflər münaqişəni həll etməkdə maraqlıdırlar. Belə bir ifadə işlətdi ki, 2001-ci ilin sonuna qədər problemin sülh yolu ilə həlli mümkündür [1]. Təkcə Fransa Respublikasının Prezidenti deyil, bütün həmsədrlər bildirirdilər ki, əgər Ermənistan və Azərbaycan danışıqlar nəticəsində eyni fikrə gələ bilsəydi münaqişə həll oluna bilərdi. Ancaq Azərbaycan və Ermənistanın ortaq fikrə gəlməsi mümkün deyildi. Çünki Ermənistan Dağlıq Qarabağ regionunu Azərbaycanın tərkib hissəsi kimi qəbul

etmir, işğal etdiyi torpaqlardan çıxmırdı. Belə olduqda hansı kompromisdən, razılaşmadan söhbət gedə bilərdi? O cümlədən, həmsədrlərin tərəfləri dil tapmağa səsləmələri, daha çox Azərbaycanı güzəştə vadar etmək məqsədi daşıyırdı. Ona görə də münaqişə öz ədalətli həllini tapmırdı. 2001-ci il aprel ayının 3-də ABŞ-ın Florida ştatının Ki Vest şəhərində Ermənistan-Azərbaycan arasındakı münaqişənin həlli istiqamətində müzakirələr aparılmışdır. Danışıqlar prosesində ABŞ dövlət katibi Kolin Pauell, prezidentlər Heydər Əliyev, Robert Koçaryan və Minsk qrupunun həmsədrləri Keri Kavano, Jan Jak Qayyard, Nikolay Qribkov və Minsk qrupunun həmsədri, RF-nın xarici işlər nazirinin birinci müavini Vyaçeslav Trubnikov olmuşdur [4, s.358-359]. Azərbaycan və Ermənistan arasında ərazi mübadiləsi təklifi reallaşdırılmadı. Bu təklifə görə, Azərbaycan Dağlıq Qarabağı Ermənistana vermək müqabilində Zəngəzurda ərazi alır və Naxçıvanla birbaşa ərazi bağlantısı əldə edirdi. Aprelin 5- də Prezident Heydər Əliyev ilə görüşdə də Fransadan olan həmsədr Jan Jak Qayyard ölkəsinin münaqişənin həllindən ötrü səylərini artıracağını qeyd etdi [4, s.359-365]. Lakin bu görüşdə nəticəsiz başa çatdı. Minsk qrupunun həmsədrləri 2002-ci ilin mart ayında bölgəyə səfərləri zamanı görüşlərin Azərbaycan və Ermənistan prezidentlərinin xüsusi nümayəndələri səviyyəsində davam etdirilməsi təklifini irəli sürdülər. Təklif hər iki ölkə başçısı tərəfindən qəbul olunsa da, ilk görüşün Praqada keçirilməsi razılaşdırıldı. Lakin Praqa görüşü uğursuzluqla nəticələndi. Ümumiyyətlə, Minsk qrupu 1997-2003-cü illərdə fəaliyyətinin uğursuzluqla nəticələnməsinin başlıca səbəbi bir tərəfdən Ermənistanın qeyri-konstruktiv mövqeyi idisə, digər tərəfdən isə münaqişənin sülh və sabitlik yolu ilə həll olunmasında həmsədrlərin, o cümlədən Fransanın ikili standartlardan çıxış etməsi idi. Buna görə də Minsk qrupunun həmsədri kimi Fransa Respublikasının fəaliyyətində fəallıq diqqəti cəlb etsə də, bütövlükdə konstruktiv olmamış, münaqişəni dondurmağa xidmət etmişdir. Nəticədə, Minsk qrupunun həmsədr ölkəsi olan Fransanın fəaliyyəti tədqiq edilən illərdə münaqişənin ədalətli həllinə gətirib çıxarmadı. 2020-ci ilin sentyabr-noyabr aylarında baş verən 44 günlük müharibədə Azərbaycan işğalçı Ermənistan üzərində qələbə qazandı, ərazilərini işğaldan azad etdi. Hərbi əməliyyatlar aparılan günlərdə Fransa həmsədrlik mandatına zidd mövqe nümayiş etdirdi. Eyni zamanda, heç bir faktı söyləmədən, uydurma xəbərlərə əsaslanaraq Azərbaycana xarici ölkələrdən muzdlu döyüşçülər gətirməsi barədə böhtan atdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin faktların verilməsinə dair tələbləri qarşısında bir söz söyləyə bilmədi. Fransa müharibədən sonra hər vəchlə özünün əvvəlki təsir imkanlarını qaytarmağa, Ermənistan üçün əlverişli vəziyyət yaratmağa, gözdən düşürmüş Minsk qrupunun səmərəsiz fəaliyyətini yenidən canlandırmağa çalışırdı. AR Prezidenti İlham Əliyev Fransa Senatının Dağlıq Qarabağla əlaqədar verdiyi bəyənatları pisləyərək bunun münaqişənin həlli üçün bir problem olacağını bildirdi.

## Ədəbiyyat

1. Azərbaycan Prezidenti Heydər Əliyevin Fransaya işgüzar səfəri başa çatdı // Azərbaycan, 2001, 07 mart, 1 s.
2. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016): (məqalələr toplusu). – Bakı, Poliart MMC, 2017, 904 s.
3. Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Bakı, Qoliaf Nəşriyyat Evi MMC, 2010, 1124 s.
4. Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. II hissə, Bakı, Qoliaf Nəşriyyat Evi MMC, 2010, 384 s.
5. Əliyev H. Müstəqilliyimiz əbədidir: 46 cilddə VIII cild, Bakı, Azərnəşr, 1998, 488 s.
6. Əliyev H. Müstəqilliyimiz əbədidir: 46 cilddə XII cild , Bakı, Azərnəşr, 2004, 432 s.
7. Əliyev H. Müstəqilliyimiz əbədidir: 46 cilddə XVIII cild, Bakı, Azərnəşr, 2006, 552 s.
8. Əliyev, H. Müstəqilliyimiz əbədidir: 46 cilddə XX cild, Bakı, Azərnəşr, 2007, 536 s.
9. Əliyev H. Müstəqilliyimiz əbədidir: 46 cilddə XXIII cild, Bakı, Azərnəşr, 2007, 480 s.
10. Əliyev H. Müstəqilliyimiz əbədidir: 46 cilddə XXIV cild, Bakı, Azərnəşr, 2008, 504 s.
11. Qasımlı M.C. Azərbaycanın xarici siyasəti (1991-2003): II cilddə I cild , Bakı, Mütərcim, 2015, 648 s.
12. Qocayev (Eyvazlı) A. Müasir–Azərbaycan Fransa münasibətləri , Bakı, Şuşa, 1999, 64 s.
13. От Майендорфа до Астаны: принципиальные аспекты армяно-азербайджанского нагорно-карабахского конфликта / Под ред. Г.М.Алексеева (доктор исторических наук, профессор МГУ им. М.В.Ломоносова), Москва: Информационно-аналитический центр по изучению постсоветского пространства, 2010, 552 с.
14. https://70.coe.int/1997-second-council-of-europe-summit-fr.html. – Paris, – 1997.
15. https://republic. preslib. az/az_a75.html.
16. https://sia.az/az/news/politics/937930.html. – Bakı.
17. https://www.lorientlejour.com/article/225535/ Mediation_francaise_pour_regler_la_crise_du_Nagorny_Karabakh.html . Paris, 1998
18. https://www.osce.org/ event/ summit_1996.
19. https://www.osce.org/ mg.

**TARİX, İNSAN VƏ CƏMİYYƏT-2024, 4 (45), s.98-107**

# FRANSADA TÜRK DİASPORUNUN FORMALAŞMASI PROSESİ

**Taleh Cəfərov**
Bakı Dövlət Universiteti
taleh.ceferov.83@mail.ru

***Açar sözlər:*** *Fransada türk diasporu, lobbi təşkilatları, diasporlaşma prosesi*

*Yeni dövr diasporları sırasında yer alan türk diasporunun Fransada təşəkkülü və formalaşması prosesi XX əsrin 60-80-ci illərinə təsadüf edir. Bu zaman Türkiyənin şərq bölgələrindən əməkçi miqrantların Fransya miqrasiyası nəticəsində diasporun rüşeymləri formalaşmağa başladı. Qərbi Avropa ölkələrindəki yeddi milyonluq türk diasporunun 800 min nəfəri məhz Fransadakı türk icmaları təşkil edir. Fransadakı 200-dən artıq beynəlxaq təşkilatlar sırasında 15-dən artıq türk diaspor təşkilatının olması sevindirici haldır. Türk diasporunun Fransada genişlənməsinə qarşı dövlət bir sıra miqrasiyanı məhdudlaşdıran qərarlar və qanunlar qəbul etmişdir.*

## ПРОЦЕСС ФОРМИРОВАНИЯ ТУРЕЦКОЙ ДИАСПОРЫ ВО ФРАНЦИИ

**Талех Джафаров**

***Ключевые слова:*** *турецкая диаспора во Франции, лоббистские организации, процесс диас-поризации*

*Процесс организации и формирования турецкой диаспоры во Франции, входящей в число диаспор новой эпохи, совпадает с 60-80-ми годами XX века. В это время в результате миграции трудовых мигрантов из восточных регионов Турции во Францию стали формироваться зародыши диаспоры. В это время в результате миграции трудовых мигрантов из восточных регионов Турции во Францию стали формироваться зародыши диаспоры. Из семимиллионной турецкой диаспоры в странах Западной Европы 800 тысяч человек составляют турецкие общины во Франции. Среди более чем 200 международных организаций во Франции имеется более 15 организаций турецкой диаспоры. На фоне расширения турецкой диаспоры во Франции правительство приняло ряд решений и законов, ограничивающих миграцию.*

# THE FORMATION PROCESS OF THE TURKISH DIASPORA IN FRANCE

**Taleh Jafarov**

***Key words:*** *Turkish diaspora in France, lobby organizations, diasporization process*

*The process of organization and formation of the Turkish diaspora in France, which is among the diasporas of the new era, coincides with the 60s-80s of the 20th century. At that time, as a result of the migration of labor migrants from the eastern regions of Turkey to France, the embryos of the diaspora began to form. Of the seven million Turkish diaspora in Western European countries, 800,000 people make up the Turkish communities in France. Among the more than 200 international organizations in France, there are more than 15 Turkish diaspora organizations. Against the expansion of the Turkish diaspora in France, the government has adopted a number of decisions and laws limiting migration.*

Müasir dövrdə beynəlxalq münasibətlər sistemində hər bir dövlətin potensial təsir qüvvəsi və təbliğatçılıq işində güvənə biləcəyi strateji silahlardan biri də diaspordur. Bu gün öz dövlətçilik prinsiplərində bu mühüm amili nəzərə alan respublikalar diaspor fəaliyyətini məqsədyönlü şəkildə həyata keçirməklə dünyanın aparıcı ölkələrinin dəstəyini qazanır, onların daxili siyasətinə təsir imkanı əldə edirlər. Məhz bu baxımdan hər bir dövlətin öz mədəniyyətini, dilini, tarixini, adət-ənənəsini təbliğ etmək yolunda diasporilizasiya (diasporlaşma prosesi-T.C) mühüm əhəmiyyət kəsb etməkdədir.

Mütəxəssislər yaranma tarixi, fəaliyyət genişliyi baxımından diasporları üç qrupa bölürlər:

-Qədim və orta yaranma tarixinə malik diasporlar;

-nisbətən gənc diasporlar;

-müasir diasporlar.

Qədim və orta əsrlərdən etibarən fəaliyyət göstərən diasporlar sırasına yəhudi, yunan, Çin və Hindistan (bəzi tədqiqatçılar bu sıraya erməniləri əlavə edirlər) xalqları daxildir. Nisbətən yeni diasporlar sırasında Türkiyə, Polşa, Əlcəzair, Mərakeş, Koreya, Yaponiya  və s. dövlətlərin nümayəndələri yer alır. 1970-ci ildən yaranmağa başlayan diaspor isə yeni diaspor kimi qeyd olunur. Məsələn, Fars körfəzi, Ərəbistan yarımadası kimi ərazilərdə yaranan diasporlar bu qəbildəndir [5, 87].

Bu gün təşəkkül tarixi hətta bir neçə ili əhatə edən diaspor xalqlar mövcuddur. Bu cür diasporları müasir diasporlar adlandırırlar. Onlara misal olaraq Rusiyada məskunlaşan Əfqan diasporu, Şimali Qafqazda Koreya

diasporu, cənubi Hindistanda Tibet diasporu və uyğur diasporunu və s. göstərmək olar.

Bu gün dünyada diasporu olmayan dövlət təsəvvür etmək mümkün deyildir. Əksər ölkələrin vətəndaşları müxtəlif səbəblərdən daha çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrə davamlı olaraq miqrasiya edir və həmin ölkələrin vətəndaşı olmağa can atırlar. Sözsüz ki, bu, qeyd edildiyi kimi, o qədər də sadə məsələ deyildir. Bunu uzun bir tarixi prosesin məntiqi nəticəsi kimi qiymətləndirmək olar. Bu baxımdan miqrant qəbul edən ölkə, ilk növbədə, demokratik dəyərlərə söykənməli və miqrantların hüquqlarını konstitusion qaydada qorumalıdır. Qərbi Avropa ölkəsi olan Fransa 60-cı illərdən fərqli olaraq bu gün miqrant siyasətinə daha kardinal yanaşmaqla miqrant axının qarşısını bu və ya digər qanunverici aktlarla almağa çalışır.

Məlumat üçün qeyd edək ki, diasporun formalaşmasına təsir edən başlıca amillərdən biri və ya birincisi inteqrasiya prosesidir. Fərqli mədəni dəyərlərə və etnik mənşəyə malik şəxslərin birgə yaşaması nəticəsində ikitərəfli inteqrasiya prosesi baş verə bilər. Demək olar ki, sosial inteqrasiya mövcud olduqda və bütün fərdlərin, qrupların mənsubiyyətinə və dəyərlərinə hörmət mümkün olarsa sosial inteqrasiya əldə edilir. Bununla belə, miqrant qəbul edən inkişaf etmiş ölkələrin siyasi tənzimləmələrində inteqrasiya mühüm rol oynamaqdadır.

Qeyd edək ki, yeni cəmiyyətlərdə miqrantların sosial inteqrasiya baxımından yenidən sosi-allaşması qarşılıqlı əlaqə və aidiyyət əsasında qiymətləndirilir. İnteqrasiya siyasətinə uyğun olaraq Fransa hökuməti 2006-cı ildə yeni miqrantları hədəfə aldı və onlara *Qonaqlama və İnteqrasiya Müqaviləsi* (*Contact d,Accueil et d,Integration -CAI*)ni imzalamağa məcbur etdi. Beləcə, 2007-ci ildə Köç, İnteqrasiya və Milli Kimlik Nazirliyinin yaradılması ilə hökumət miqrasiya və inteqrasi-ya siyasətinə mərkəzçi bir yanaşma sərgiləməyə başladı [3, s.147].

Hökumət ölkədəki mühacirlərin sayını azaltmaq və yeni mühacirlərin gəlişinin qarşısını almaq məqsədilə Miqrasiya Nəzarəti, İnteqrasiya və Sığınacaq haqqında Qanunu qəbul etdi. Qanu-nun maddələrinə nəzər saldıqda burada ailə birləşməsinin qarşısının tez-tez alındığını və bunun harmoniya üçün təhlükə yaratdığını görmuş olarıq. Eyni zamanda qanunda sosial inteqrasiyanın birtərəfli qaydada həyata keçirilməsi nəzərdə tutulurdu.

Miqrasiya Nəzarəti, İnteqrasiya və Sığınacaq haqqında Qanunun müvafiq maddələrində aşağıdakılar nəzərdə tutulmuşdur:

-15-65 yaşları arasında olub ailə birləşməsi şəklində ölkəyə gəlmək üçün viza əldə etmək məqsədilə müraciət edəcək mühacirlərin Fransadakı nümayəndəliklərində fransız dili və respublika dəyərləri ilə bağlı bilikləri yoxlanılacaq, nəticə qeyri-kafi olarsa, onlar iki aylıq müddətdə dil və inteqrasiya təlimindən keçəcəklər və bu təlimin sonunda müvəffəqiyyətli olduqları təqdirdə ye-nidən

imtahandan keçəcəklər. Uğurlu olduqları halda ailə birliyinin tələbinə uyğun olaraq uğur sertifikatı əldə edəcəklər.

-Ailə birləşməsi çərçivəsində Fransaya gələcək əcnəbilərin irqi-etnik məlumatlarını topla-maq və qohumluq əlaqələrini təsdiqləmək üçün DNT testi aparılacaq. İctimai reaksiyaya səbəb olan müddəanın Konstitusiya Şurası tərəfindən müəyyən şərtlər daxilində Konstitusiyaya uyğun olduğu müəyyən edilmiş və bu konteksdə sözügedən təcrübənin ərizəçi ilə anası arasında həyata keçirilməsi, ərizəçinin açıq razılığının alınması və əhali uçotunun aparılmadığı və ya natamam aparılan ölkələrdən müraciət edənlərə tətbiq edilməsi qəbul edilmişdir. Məhkəmə DNT testinin zəruri olub-olmadığına dair qərar verəcək və testin xərcləri Fransa dövləti tərəfindən qarşılanacaqdır. DNT testinin aparılacağı ölkələrin siyahısı Danıştay tərəfindən açıqlanmalı, səlahiyyətli şəxslərin genetik analiz aparacağı şərtlər isə Danışdayın qərarı ilə müəyyən edilməlidir. Konstitusiya Şurası onu da bildirib ki, DNT analizi tətbiq ediləcəyi ölkələrdə bunun sistemli praktikaya çev-rilməməsi tövsiyə edilir.

-Ailə birləşməsindən faydalananlar hüquq və vəzifələri ilə bağlı qəbul və uyğunlaşma mü-qaviləsi imzalayacaqlar. Müqaviləyə əsasən, tabe olmaq istəməyən əcnəbilər üçün ailə yardımı ödənişləri kəsiləcəkdir. Ailə valideynlərin hüquq və vəzifələri ilə bağlı təlim keçəcək və öhdəliklərini yerinə yetirməyən valideynlərin yaşayış icarələri yenilənməyəcəkdir.

-Ailə birləşməsini tələb edənlər, ailə fərdlərinin qala biləcəyi böyüklükdə bir evdə yaşadıqlarını sübut etməlidir.

-Ailə birləşməsini tələb edən şəxslərin lazımi maliyyə imkanlarının (əsgəri ücrətin üstündə) olub-olmadığı yoxlanılacaqdır.

-Ailə birləşməsi üçün 12 aylıq gözləmə müddəti 18 aya qədər artırılmışdır.

-Ailə birləşməsi çərçivəsində Fransaya getmək istəyənlərin viza ala biləcəyi ölkələrdə tətbiq olunacaq dil və mədəniyyət imtahanı 1 dekabr 2008-ci il tarixindən başlayıb. İmtahanda iştirak edəcək şəxslərdən ilk olaraq 60 günlük dil və uyğunlaşma kursunda iştirak etmələri xahiş olunur. Yeni təcrübədə kursda müvəffəqiyyət qazana bilməyənlərin ikinci sınaqdan keçiriləcəyi, bu imtahanda müvəffəqiyyət qazana bilməyənlərə isə müvəqqəti viza veriləcəyi bildirilir. Ailənin birləş-məsi çərçivəsində Fransaya gələn hər bir şəxs Qəbul və İnteqrasiya Müqaviləsi imzalanmalıdır[2].

Bu qanunla ölkə vətəndaşlarını və onların şəxsi bacarıqlarını nəzərə almayan kütləvi in-teqrasiya siyasəti bir kənara qoyularaq Fransada yaşayacaq şəxs ilə dövlət arasında qarşılıqlı hüquq və vəzifələrin müəyyən edildiyi yeni sistemin qurulduğu, inteqrasiya proqramı həyata keçirdiyi, dövlətin pulsuz fransız dili və vətəndaşlıq dərsləri verilib və həmin şəxsin bacarıqları müəyyən edilərək iş tapmasına köməklik edilib. Hər il təxminən 100 min xarici ölkə vətəndaşı bu proqrama daxil edilir.

Daxili İşlər naziri Manuel Vallsa görə, Fransa dövlətinin inteqrasiya siyasəti mahiyyətcə yaşayış hüququna hörmət edərək fırıldaqçılara və qeyri-qanuni yollarla Fransaya daxil olub məskunlaşmağa çalışanlara qarşı mübarizə aparmaq, Fransada yaşamaq icazəsi olmayan insanları de-portasiya etmək, Fransanı inkişafa töhfə verən ixtisaslı immiqrantlar üçün cəlbedici etmək və hər il qanuni olaraq ölkəyə gələnlərə qarşı mübarizə aparmaq və məskunlaşanları Fransa Respublikası-nın dəyərləri ilə uyğunlaşdırmağı hədəfləyir.

2000-ci illərdən etibarən köç və inteqrasiya siyasətinin təşkilatçısı kimi tanınan Nicola Sarkozi 2003-cü və 2006-cı illərdə siyasi tənzimləmələr baxımından iki qanunvericilik təklifi irəli sürüb. 24 iyul 2006-cı il tarixli qanun-la sanki "məcburi köç əvəzinə seçmə immiqrasiya dövrü baş-layıb [9, s.112]. Görünür, Sarkozinin məqsədi burada ailə birləşməsini məhdudlaşdırmaqla ölkəyə mühacir axınını azaltmaq, həmçinin mühacirlərin coğrafi və etnik mənşəyinə əsaslanan ayrı-seçki-lik siyasəti həyata keçirməkdir.

Mühacir əhalinin əksəriyyətinin Afrikadan gələn icmalardan ibarət olması və bu səbəbdən irq, dil və din qarışıqlığının yaşandığı Fransanın tarix boyu müxtəlif köçlər qəbul edərək kosmopolit bir ölkə olaraq qaldığı görülür. Xüsusilə, insan hərəkətliliyi nəticəsində qara irqə və müsəlman kimliyinə qarşı ksenefobiya immiqrasiyaya siyasi təsir göstərir.

1967-ci ildən Fransaya başlayan türk köçü nəticəsində mühacir türk toplumuna cinayətkar və əxlaqsız davranışlar sərgiləyən bir icma kimi baxan fransızlar inteqrasiyaya maneçilik törətməklə yanaşı, daha çox müsəlman cəmiyyəti olan, mədəni və dini elementlər üçün təhlükə sayılan Türkiyə cəmiyyətinə qarşı islamafobiyaya yol açmış oldular.

Türk kimliyinə münasibətə və türklərə qarşı davranışlara nəzər saldıqda aydın olur ki, Avropaya köç nəticəsində tez-tez islamafobiya, irqçilik və ksenefobiya halları baş verir, mühacirləri geri göndərmək üçün yerli əhali tərəfindən təkcə psixoloji deyil, fiziki zorakılıq da tətbiq edilir. Belə ki, 2012-ci ildə TBMM-in İnsan Haqları Araşdırma Komissiyası Avropa qitəsində türklərə qarşı hər sahədə din, dil və irq əleyhinə yönəlmiş hallarla bağlı manitorinq keçirmiş və hücumlarla bağlı ayrı-ayrı ölkələr üzrə hesabatlar təqdim edilmişdir. Nəticədə, 2012-ci ildə Avropa ölkələrin-də türklərə qarşı hücumlar, yanğınlar, hədə-qorxu gələn məktublar və sair (nümayişlər, Qurani-Kərimin yandırılması, ölü heyvanların atılması və s.) daxil olmaqla, irqçilik motivli əməlin baş verdiyi müşahidə edilmişdir. Ölkələr üzrə bölgüyə nəzər saldıqda bu cür neqativ hallara daha çox Almaniya (62%), Hollandiya (12%) və Fransada (6%) rast gəlindiyini qeyd etmək olar[8].

Fərqli etnik qrup və cəmiyyət daxilində mədəniyyətə və kimliyə sadiq olmaq, mədəni dəyərləri qoruyub saxlamaq və öz nəsillərinə ötürmək, vətənə qayıtmaq məqsədi daşımaq diasporik kimliyi müəyyən edən başlıca amillərdir. Diasporik kimlik daha çox insanın etnik xüsusiyyətlərindən fərqli olan başqa bir

ölkəyə hərəkət etməsi, ölkədə baş verən əmək miqrasiyası və siyasi üs-yanlar nəticəsində formalaşır.

Vətənlə ünsiyyəti gücləndirmək, öz mədəni dəyərlərini qorumaq, assimilyasiyaya qarşı assosiasiya, vəqf, birlik kimi güclü həmrəylik şəbəkələri yaratmaq mədəni və dini cəmiyyətə mənsubluğu gücləndirir, diasporu inkişaf etdirir.

Şəxsiyyət fərdin mənsub olduğu cəmiyyətin əsas dəyərlərinə uyğun olaraq formalaşır və şəxsiyyətlə əlaqəli dəyərlər fərdin bağlı olduğu cəmiyyət daxilində mövcud olan həmrəylik şəbəkəsi tərəfindən təmin edilir.

Türkiyə ilə Fransa arasında əmək münasibətlərini tənzimləyən hüquqi çərçivə 1966-cı ildə işçi müqavilənin imzalanması ilə başlamışdır. İkitərəfli mü-qaviləyə əsasən türk köçünün başlaması nəticəsində Fransada türk diasporunun rüşeymləri yaranmağa başladı. Fransaya türk işçi qüvvəsinin miqrasiyasının üçüncü mərhələsində diasporun ortaya çıxdığını qeyd etmək olar. Fransa dövlə-tinin türk köçünə dair rəsmi sənədlərinə nəzər saldıqda türk miqrantların bu ölkəyə axınının ilkin mərhələsi 1950-1970-ci illər arasında baş vermişdir. Fransanın əsas işçi qüvvəsi Afrika ölkələrindən gələn miqrantlar hesabına formalaşdığından ilk illərdə türk işçi qüvvəsi burada azlıq təşkil edirdi. Ancaq buna baxmayaraq Avropa ölkələrinə davam edən türk köçü ildən-ilə dinamikliyi ilə seçilirdi. Rəsmi statistik məlumatlara görə, 1972-ci il-də Fransaya 600.000 türk miqrantın gəldiyi-ni qeyd etmək olar [6, s.127].

Lakin 70-ci illərin əvvəllərindən Fransaya artan türk köçündə 1973-cü ildə qlobal iqtisadi böhranla əlaqədar durğunluq yaşanmışdır. Avropaya axın edən türk mühacirlərin sayının 1980-ci ildə təxminən 2 milyon, 1990-cı illərin ortalarında isə 2,9 milyon nəfərə çatdığını qeyd etmək olar [3, s.144]. Avropaya türk köçünün artmasının səbəbləri əmək miqrasiyası ilə yanaşı, bəhs olunan dövrdə Türkiyədə yaşanan siyasi təlatümlər, hərbi çevriliş dövründə evə dön-məyi təşviq edən qanunların, miqrantların təhsil, sığınacaq istəkləri, müxtəlif təşkilatlanma fəaliyyətlərinin məhdudlaşdırılması ilə bağlı idi.

Fransadakı türk diasporunun rüşeymini həyat şəraitini yaxşılaşdırmaq məqsə-dilə buraya üz tutan əmək miqrantları formalaşdırmışdır. Türkiyədən Avropaya üz tutan əmək miqrantlarının böyük əksəriyyətini kənd yerlərindən olanlar təşkil edirdi. Kənd yerlərindən köçün çoxluq təşkil etməsinin əsas səbəbi iş yerlərinin olmaması, iqtisadi problemlər və ən əsası şərq bölgələrindən olan köçün siyasi nəticələrdən qaynaqlanması idi. Onlar burada "Fransa Türk Mühacir Dərnəkləri Şurası" ("Conseil Fançais des Associations d,immigres de Turquie-CFAİT")nı yaratmaqla Fransa-da bərabər hüquqların təmin edilməsinə çalışır, eyni zamanda siyasi münasibətlərin və vətəndaş cəmiyyətinin yaranma prosesinin başlanğıcını təmin edirdilər.

Fransadakı türk diasporunun vəziyyəti mühacirlərin yaşadıqları həyat şəraiti və çətinlikləri ilə müəyyən edilsə də, türk kimliyini və mədəniyyətini

qorumaq üçün dil, din və mədəni proteksionizm birliyi də özünü göstərmişdir. Bunun ilk nümunəsi 1978-ci ildə imzalanmış "Doğma Mədə-niyyət və Ana Dildə Təhsil Proqramı" ("Enseignement de la Langue et de Culture d,Origine-ELCO") çərçivəsində Fransaya gələn pedaqoqlar və 1980-ci illərdən etibarən Diyanət İşləri Nazir-liyinə tabe olaraq gələn imamlar vasitəsilə başlamışdır.

1980-ci illərdən sonra Türkiyədə hərbi çevrilişin əmələ gətirdiyi siyasi proses nəticəsində miqrasiyanın xarakteri dəyişmiş, Avropaya miqrasiya nəticəsində siyasi qrupların formalaşdırdığı dərnəkləşmə prosesinin prinsiplərini yeniləmişdir.

Daha əvvəllər həyat şəraitini yaxşılaşdırmaq məqsədi daşıyan ictimai təşkilatlar artıq 1980-ci illərdə din, dil və mədəni əlaqələri qorumaq və siyasi azadlığı təmin etmək məqsədi ilə inkişaf etmişdir.

1985-ci ildə yaranmış "Fransa Türk İşçi Dərnəyi" ("Asociation des Travailleurs de Turquie de France-ATİTF") siyasi səbəblərdən ölkəni tərk etmək məcburiyyətində qalan ixtisaslı gənc əhalini, bir müddət əvvəl işçi qüvvəsi səbəbiylə gələn Türkiyə kökənli şəxsləri və Fransada doğulmuş olan gənc nəsili öz ətrafında birləşdi-rir.

1990-cı illərdə Fransadakı türk əsilli icmalar etnik, dini, sosial-iqtisadi inkişafla yanaşı, hü-quqi status (keçmiş qanuni mühacir, ailə birləşməsi, qaçqın, sənədsiz və s.) baxımından da fərqli mənzərə ortaya qoymuş oldu. Xüsusilə siyasi səbəblərlə bağlı köçlərin artması ilə Fransada Tür-kiyə mənşəli diasporun formalaşmasından bəhs etmək olduqca çətindir. Bu Türkiyədən gedən köçkünlər daxilində müşahidə edilən parçalanmış strukturdan qaynaqlanır. Etnik (türk-kürd) və dini (ələvi-sünni və ya müsəlman-xristian) bölünmələr, eləcə də Avropadakı mühacirlər arasında siyasi qütbləşmələr bu strukturu qidalandırmışdır [3, s.157].

Əvvəllər həyat şəraitini yaxşılaşdırmaq məqsədi daşıyan ictimai təşkilatlar artıq 1980-ci illərdən etibarən din, dil və mədəni əlaqələri qorumaq və siyasi azadlığı təmin etməyi qarşısına hədəf kimi qoymuşdur. Eyni zamanda Türkiyənin imperiya keçmişinə malik olduğunu nəzərə alsaq, demək olar ki, Türkiyə sərhədləri daxilində ortaq dinə və milli dəyərlərə bağlı olan bütün fərdlər köçdükləri cəmiyyətlər daxilində assimilyasiyaya qarşı müqavimət yaratmağa meyillidirlər.

Qeyd etmək lazımdır ki, Fransadakı türk diasporunun formalaşması prosesi dərnək, qurum, ictimai və siyasi təşkilatların yaranması ilə başladı. Məlumat üçün qeyd edək ki, hazırda Fransada 200-dən çox beynəlxalq təşkilat fəaliyyət göstərir [7, s.19-20]. Bu gün Fransanın müxtəlif bölgələ-rinə şaxələnmiş təxminən 15 institusio-nal təşkilat fəaliyyət göstərir. Bunlardan ilk yaranan təşkilat "Türk Mənşəli Mühacir Dərnəkləri Fransız Şurası" ("Conseil Français des Associations d,Immigres de Turquie-CFAIT")dır. Daha sonra "Türk Mənşəli Miqrant İşçilərin Mədəniyyət Dərnəyi" ("Culturelle des Travailleurs

İmmigres de Turquie") və "Türkiyə Mənşəli İşçilərin Demokratik Dərnəyi" ("Association Democratique des Travailleurs de Turquie") təsis edildi.

Bu gün Fransada fəallığı ilə seçilən türk diaspor təşkilatlarına misal olaraq aşağıdakıları qeyd etmək olar:

-"Valentigney Türk Sosial-Mədəniyyət Dərnəyi" ("*L,alternative Continue, Association Socio-Culturelle Turque de Valentigney*");

-"Türk İşçiləri Həmrəylik Dərnəyi" ("*Association de Solidariteavec les Tra-vailleurs Turc*");

-"Fransa Türk İşçiləri Dərnəyi" ("*A Ta Turquie, Association des Travailleurs de Turquie de France*");

-"Moselle Türk İşçiləri Dərnəyi" ("*Association des Travailleurs de Turquie de Moselle*");

-"Valle de la Frenşe Türk İşçiləri Dərnəyi" ("*Association des Travailleurs de Turquie de la Vallee de la Frensch*);

-"Fransa Çoxmədəniyyətli Gənclik Şurası" ("*Cactus, Conseil de la Jeunessa Pluriculturelle de France*");

-"Evry Fransa-Anadolu Demokratik Mədəniyyət Mərkəzi Dərnəklər Evi" ("*Cenre Culturel Democratique Franco-Anatolien d,Evry Maison des As-sociations*");

-"Türkiyəli Mühacirlər Mədəniyyət Evi" ("*Horizons Turcs, Maison Cultu-relle des İmmigres de Turquie*");-

-"Türk Mənşəli Qadın və Gənclik Evi" ("*Maison de la Femme et de la Jeynesse de la Turquie*") [3, 158].

Müasir dövrdə Avropada türkcə danışan təxminən 7 milyon insan yaşamaq-dadır. Fransada assimilyasiya siyasəti rəsmi olaraq qəbul edildiyi üçün etnik və ya dini mənsubiyyətlə bağlı məlumatlar dərc edilmir. Yalnız vətəndaşlıq hüququ əldə etmiş şəxslər barədə statistika dərc olunur. 2005-ci ilə aid fransız qeydlərinə görə bu ölkədə 240 min türk olduğu bildirilsə də, türk təmsilçiləri bu sayın 650 min olduğunu qeyd edirdilər [4, s.108].

2018-ci ilin rəsmi statistik məlumatlarına əsasən Fransada 700.000, bu gün isə təxminən 800.000 civarında türk yaşamaqdadır [2, 82]. Bunların əksə-riyyətinin üçüncü nəsil mühacir olması türk vətəndaşlarının sosial təcrübə-lərinin və mövcud uyğunlaşma prosesinin araşdırılmasının vacibliyini göstərir. Fransada üçüncü nəsillər arasında aparılan araşdırmalara görə, burada orta yaş-ları 23 olan 30 tələbə arasında aparılmış sorğuya əsasən onlardan 13-ünün tələbə, 17-sinin isə işləyən Fransa doğumlu türk olduğu müəyyən edilmişdir.

Fransadakı diaspor türkləri arasında aparılmış sosioloji sorğularda iştirak edənlər türk mədəniyyətinə uyğun yaşamağa çalışdıqlarını bildirirlər. Onların əksəriyyəti doğulduğu gündən ailə mühitində bu mədəniyyətlə böyüdükləri üçün türk mədəniyyətinin onlar üçün təbii olaraq inkişaf edən bir həyat tərzi olduğunu bildirdilər. Demək olar ki, bəzi iştirakçılar sosial mühitə

uyğunlaşmaq məcburiyyətində qaldıqları üçün tədricən bəzi vərdişlərini itirdiklərini vurğuladılar [1, s.62].

Araşdırmada üçüncü nəsil gənclərin daha çox fransızca ünsiyyətə üstünlük verdikləri qeyd edilmiş və başlıca səbəbi kimi fransız dilinin daha rahat və anlaşılan olması vurğulanmışdır. Bu, gənclər arasında türk dilinin tədricən unudulmasını şərtləndirən başlıca amillərdəndir.

Özlərindən daha çox fərqli dini dəyərlərə və inanclara malik ölkələrə köç edən türk mühacirlərin, xüsusən köçün ilk illərində sosial sahədə böyük qarşıdurmalarla üzləşdiklərini söyləmək olar. Birinci və ikinci nəsil mühacirlərin əvvəllər bu cür fərqli dini qruplarla rastlaşmadıqları və yüksək dini mənsubiyyətləri səbəbilə onların Fransa xalqının dini kimlikləri üçün təhlükə yaratdığı düşünülür və mühacir müsəlman türklərin inteqrasiyasına mane olan əsas səbəblərdəndir. Sosial sahədə birdən çox dini mənsubiyyətə malik qrupun mövcudluğu inanc sahəsində azadlıqların məhdudlaşdırılmasına və hakim dini kimliyin azlıqda dini kimliyi məhv etmək cəhdlərinə səbəb olmuş-dur. Bu vəziyyət Avropa ölkələrində yayılmış islamafobiya sosial hərəkətlərinin örnəkləri arasında yer almaqdadır.

Cəmiyyətdə antimüsəlman əhvali-ruhiyyənin artması sosial sahədə azlıq təşkil edən müsəlman qrupların görünməsini təhlükəli hala çevirib. Üçüncü nəsil türk mühacirlərinin dini mənsubiyyətlərinin arxa planda qalması ilə bağlı olduğunu söyləmək mümkündür.

Beləcə, Qərbi Avropanın aparıcı ölkələrindən olan Fransada türk diasporunun təşkilatlanması və inkişafı istiqamətində müsbət tendensiya özünü göstərməkdədir. Diaspor türklərinin fransız cəmiyyətinə sürətli inteqrasiyası ilə yanaşı, türk diaspor təşkilatlarının milli dilin və adət-ənənələrin qorunub saxlanılması istiqamətində atdıqları ardıcıl və məqsədyönlü tədbirlər Türkiyə hökuməti tərəfindən dəstəklənməkdədir.

## Ədəbiyyat

1. Akdoğan Ö S, Taş Y.Y. Fransadakı Üçüncü Kuşak Türklerin Kültürel Uyum Durumlarının İncelenmesi. Erzincan Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, s. 55-66
2. İlyas Kara, Yılmaz Ali. Fransadakı Türk Diasporasının Anadili Egitimine ve Kimliginin Korun-masına Yönelik Faaliyetler. İnternational Journal of Field Education, 2021, 7 (2), s.77-91
3. Koca Ş. N. Fransada Türk Diasporası. Göç Araştırmaları Dergisi. Cilt:7, Sayı:1, Ocak-Haziran 2021, s.140-162
4. Köse M. Türk Diasporasının siyasal katılımı çerçevesinde diaspor politikalarının gelişimi. Doktora tezi. İstanbul. 2020. 237 s.

5. Məmmədov R.R. Azərbaycan diasporu (dərs vəsaiti). Bakı, Zərdabi MMC, 2019, s.312.
6. Şahin E., Duğan Ö. Almanya ve Fransada yaşayan türkler örnekleminde gurbetçilerin AB ve AB-ye katılım tutumu. Ankara Avrupa Çalışmaları Dergisi, 16(2), s.121-145
7. Шукуров И. «Дипломатия мира об итогах визитов Президента Азербайджанской Республики Гейдара Алиева в зарубежные страны (1993-1997 гг.)». Баку, Издательства Азербайджан, 2010,
8. Türkiye Büyük Millet Meclisi İnsan Haklarını İnceleme Komisyonu. Fransa Raporu, 2001.
9. Yardım M. Göç ve Entegrasyon Politikaları Işığında Fransada Toplumsal Kabul. Göç Araştırmaları Dergisi, 3(2), s.100-136

# İKİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ ALMANİYADA AZƏRBAYCANLI SİYASİ MÜHACİRLƏR

**Vüqar Abdullayev**
*Milli Azərbaycan Tarixi Muzeyi*
raguv@mail.ru

***Açar sözləri:*** *Azərbaycanlı siyasi mühacirlər, İkinci Dünya müharibəsi, Almaniyada azərbaycanlıların mühacirlik fəaliyyəti.*

*Məqalədə Almaniyada fəaliyyət göstərən azərbaycanlı siyasi mühacirlərdən, həmçinin bir çox həmyerlimizin İkinci Dünya müharibəsi illərində və müharibədən sonrakı dönəmdə mühacirlik fəaliyyətindən və Azərbaycanın müstəqilliyi uğrunda apardıqları mübarizədən bəhs edilir.*

*Bu mühacirlərdən xüsusilə əslən Səfəvilər nəslindən olan Əbdürrəhman bəy Düdənginski, onun M.Ə.Rəsulzadə ilə çiyin-çiyinə çalışaraq, Almaniyada azərbaycanlı əsirlərin həyatını qorumalarından, onların soyqırımdan qurtarılmasındakı gördüyü işlərdən söz açılır. Cümhuriyyətin süqutuna səbəb olan bolşevik rejiminə qarşı nifrət, İkinci Dünya müharibəsinin SSRİ üçün İ. Stalinin səhvi üzündən qəfil başlaması, sovetlər qoşunu tərkibində Almaniyaya qarşı vuruşan bir çox azərbaycanlıların almanlara əsir düşdükdən sonra onlara qoşularaq sovet qoşunlarına qarşı vuruşmalarına gətirib çıxarmışdır.*

*Məqalədə Sovet İttifaqı qəhrəmanı M.Hüseynzadə haqqında-onun bir qəhrəman kimi fəaliyyəti ilə əlaqədar, daxili, mənəvi dünyasından da söz açılır. Müharibə illərində Almaniyada M.Ə.Rəsulzadə, Ə.Düdənginski və digər azərbaycanlı ziyalı mühacirlər tərəfindən Azərbaycan jurnalının nəşrindən də bəhs olunur.*

## АЗЕРБАЙДЖАНСКИЕ ПОЛИТИЧЕСКИЕ ИММИГРАНТЫ В ГЕРМАНИИ ВО ВРЕМЯ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ

**Вугар Абдуллаев**

***Ключевые слова:*** *азербайджанские политэмигранты, Вторая Мировая война, эмигрантская деятельность азербайджанцев в Германии.*

*В статье автор рассказывает об азербайджанских политических иммигрантах, работающих в Германии, также рассказывается об эмиграционной деятельности многих наших соотечественников во время*

*Второй Мировой войны, и в послевоенные годы и их борьбе за независимость Азербайджана.*

*Среди этих иммигрантов упоминается Абдуррахман-бей Дуденгинский, родом из Сефевидов, за свою работу по защите жизни азербайджанских заключенных в Германии и спасению их от геноцида, работая бок о бок с М.А. Расулзаде. Ненависть к большевистскому режиму, приведшая к падению республики, И внезапный старт из-за ошибки Сталина привел к тому, что многие азербайджанцы, воевавшие против Германии в составе советской армии, после пленения немцами перешли к немцам и воевали против советских войск.*

*В статье говорится о герое Советского Союза М. Гусейнзаде, о его героической деятельности, а также о его внутреннем и духовном мире. Упоминается также издание азербайджанского журнала М.А.Расулзаде, А. Дуденгинского и других азербайджанских интелле-туалов-эмигрантов в Германии во время войны.*

## AZERBAIJAN POLITICAL IMMIGRANTS IN GERMANY DURING WORLD WAR II

**Vugar Abdullayev**

***Key words:*** *Azerbaijani political emigrants, World War II, emigrant activities of Azerbaijanis in Germany.*

*In the article, the author talks about Azerbaijani political immigrants working in Germany. The article talks about the emigration activities of many of our compatriots during the Second World War and the years after the war and their struggle for the independence of Azerbaijan.*

*Among these immigrants, Abdurrahman Bey Dudenginski, originally from Safavid descent, is mentioned for his work in protecting the lives of Azerbaijani prisoners in Germany and saving them from the genocide, working side by side with M.A. Rasulzadeh. Hatred of the Bolshevik regime, which led to the fall of the republic, I. The sudden start due to Stalin's mistake led to the fact that many Azerbaijanis who were fighting against Germany as part of the Soviet army joined the Germans and fought against the Soviet troops after being captured by the Germans.*

*The article talks about the hero of the Soviet Union, M. Huseynzade, about his activities as a hero, as well as his inner and spiritual world. It is also mentioned the publication of an Azerbaijan magazine by Rasulzade, A. Dudenginski and other Azerbaijani intellectual emigrants in Germany during the war.*

23 avqust 1939-cu ildə sovet-Alman (Stalin, Molotov, Ribbentrop) – müharibə etməmək haqqında müqaviləsinin imzalanmasına baxmayaraq, 1941-ci ilin iyunun 22-də Alman qoşunları SSRİ üzərinə hücuma keçdi. Uzun müddətli və böyük itkilərə səbəb olmuş İkinci Dünya müharibəsi haqqında qalaq-qalaq kitablar yazılmış, sənədli və bədii filmlər çəkilmişdir. Bu müharibədə Azərbaycan xalqı, onun döyüşkən ruhlu əzmkar övladları misli görünməyən iradə nümayiş etdirmiş və əfsanəvi qəhrəmanlarımız daima Azərbaycan xalqının qürur mənbəyinə çevrilmişdir. İ.Stalinin siyasi səhvi üzündən müharibənin sovet xalqları tərəfindən qəfil qarşılanması ilk illərdə xeyli canlı qüvvə itkisinə səbəb olmuşdur. Digər tərəfdən kifayət qədər döyüş təchizatının olmaması, müharibənin ilk günlərindən rəhbər heyətin səriştəsizliyi xeyli əsgərlərin almanlara əsir düşməsinə gətirib çıxarımış və müharibənin əvvəllərində belə əsirlərə almanların o qədər də etibar etməməsi, onların əsir düşərgələrində işgəncələrə məruz qalmasına səbəb olmuşdur.

Azərbaycan Cümhuriyyətinin süqutuna səbəb olan Sovet İttifaqına qarşı azərbaycanlı əsgərlərdə olan nifrət, bolşevizmə qarşı olan narazılıq, bəzi azərbaycanlı əsirlərin almanların tərəfində vuruşma meylini artırırdı. Həmin illərdə bir çox Azərbaycan ziyalıları, o cümlədən Məmmədəmin Rəsulzadə, keçmiş sovet zabiti, mayor Əbdürrəhman bəy Fətəlibəyli - Düdənginski azərbaycanlı əsirlərin bir legion halında birləşməsi üçün xeyli əmək sərf etmişdir. Məmməd Əmin Rəsulzadə başçılıq etdiyi heyətlə hətta A. Hitlerlə belə görüşmüş, azərbaycanlı əsirləri soyqırımdan xilas etmişdi [1].

İkinci Dünya müharibəsi dövründə M.Ə.Rəsulzadə ilə çiyin-çiyinə çalışan azərbaycanlı mühacirlərdən birini xüsusilə qeyd etmək lazımdır. Bu Ə.Fətəlibəyli - Düdənginskidir. Naxçıvanın Şərur rayonun Düdəngə kəndində dünyaya göz açan, nəslən məşhur Səfəvilərdən olan bu ziyalımız, səfəvilərdən Əbdürrəhman (Abo) Fətəlibəyov - İsmayıl xanın (Naso xanın) nəvəsidir [3].

Onun atası Əli bəy çar Rusiyası vaxtında Türküstan, sonralar İrəvan quberniyasının sərhəd boyu zabiti vəzifəsində xidmət etmişdir. Belə bir hörmətli şəxsi rus zabitləri heç cür həzm edə bilmirdilər, nəticədə onu zəhərləyib öldürmüşdülər [3]. Hələ 2 yaşında uşaq ikən atası faciəli şəkildə vəfat edən Ə. Fətəlibəylinin həyatı çox ağır keçmişdir, atasına görə (bəy nəslindən olduğu üçün) sıxıtılara məruz qalmışdır. Ona görə də Tiflisə gəlmiş və təhsilini orada davam etmiş, hərbi məktəbdə oxumuşdur və Azərbaycan diviziyasında zabit olmuşdur. 1935-1936 – cı illərdə Moskva hərbi Akademiyasında oxumuşdur. 1937-ci ildə Leyla xanım Qazıyeva ilə ailə həyatı qurmuşdur. Leninqrad hərbi hissəsində çalışmışdır, qərargah rəisi olmuşdur. İkinci Dünya müharibəsi dövründə Sovet İttifaqı Pribaltika respublikalarını işğal etdikdən sonra Riqada hərbi qərargahda işləmiş və burada almanlara əsir düşmüşdür. M.Ə.Rəsulzadə Ə.Fətəlibəyli Düdənginskini çox yüksək qiymətləndirirdi. O yazırdı: "Hərarətli və anlayışlı bir əsgərlə qarşılaşdım. Milli

davanın əsaslarını və mücadilə kadrosunun proqramını məndən duymuş, məmnun olmuşdu. Milli Azərbaycan komitəsi, nasist alman məqamlarına məram anlada bilmədi. Hitler "Heç bir komitə istəmirəm"demiş, təşkil olunan milli legionlarla ordu qərargahı arasında rabitə vəzifəsini aparan məhdud və müəyyən işlər ilə bağlı olan "rabitə heyətləri" (əlaqələr heyəti) qurulmasını əmr etmişdi. Azərbaycan rabitə heyətinin başına da mərhum Fətəlibəyli gətirilmişdir. İş bu şəkil alınca mayor Fətəlibəyli müvəffəqiyyətlə təmənna edərək, fəaliyyət sahəsindən çəkilmiş və milli əsaslarımıza sadiq qaldığı müddətcə onu mənən dəstəkləyəcəyimizi vəd etmişdir".

Ə.Fətəlibəyli hərbi əsirlər düşərgəsindən azad edildikdən sonra almanlar (Ali baş komandanlıq) ona Azərbaycan legionlarına komandanlıq etməyi tapşırmışdır. Xalqını və vətənini həyatı qədər sevən Ə. Fətəlibəyli Azərbaycanlı əsirləri qorumaq, nifrət etdiyi bolşevizm ideologiyasına qarşı mübarizə aparmaq üçün bu təklif ilə razılaşmışdır.

1943-cü il noyabrın 6-da Almaniyanın Berlin şəhərində "Kayserhof" mehmanxanasında "Milli Azərbaycan Qurultayı" keçirildi. Bu qurultayın keçirilməsinin əsas təşəbbüskarı Ə. Fətəlibəyli idi. O zaman Almaniyada olan azərbaycanlıları təmsil edən bir neçə qrupu birləşdirərək, vahid qrup halına gətirilməsi ideyası da ona məxsus idi ("Milli Azərbaycan komitəsi", "Gənc Azərbaycanın Millətçilər Qrupu" və s.). Bu qruplardan əsasən bolşevizmə qarşı istifadə edən Alman dövləti, qurultayın keçirilməsinə icazə verdi.[4] Qurultayın işində bir neçə görkəmli azərbaycanlılar (Cahangir bəy Kazımoğlu, Abbas bəy Atamalıbəyov və başqaları) çıxış etmişlər. Lakin qurultaydakı çıxışlardan ən çox diqqəti cəlb edən Ə. Fətəlibəylinin çıxışı oldu, o, öz çıxışında "Yeni Azərbaycan modeli" ni təqdim etdi [4]. Ə. Fətəlibəyli çıxışında azərbaycan millətinin tolerantlığını vurğuladı: - yeni Azərbaycan modelinə rəğmən, Azərbaycan elə bir ölkə olacaq ki, burada bütün millətlər xoşbəxt və firavan yaşayacaqlar. Ə. Fətəlibəyli çıxışını bu sözlərlə bitirdi: "Şübhə yoxdur ki, bütün qafqazlılar son damla qanlarına kimi də müqəddəs borclarını yerinə yetirəcək və Almaniya ilə birlikdə insanlığın düşməni olan bolşevizmlə mübarizə aparacaq və bütün Qafqaz xalqlarını bolşevik zülmündən azad edəcək. Yaşasın azad və müstəqil Azərbaycan! Yaşasın vahid və müstəqil Qafqaz! " [4].

İkinci Dünya müharibəsindən sonra Qərbi Almaniyada vəziyyət çətin idi. Düzdür, ABŞ və qərb ölkələri Sovet rejiminə qarşı mübarizə aparır və bu mübarizədə legionerlərdən istifadə etməyə çalışırdı, lakin bu uzun sürən inamsızlıq Almaniyada, onun qərbində məskunlaşan mühacirlərə həm maddi, həm də mənəvi sıxıntı verirdi. Həmin illərdə Ə. Fətəlibəylinin Ankarada yaşayan C. Hacıbəyliyə ünvanladığı məktublar maraqlıdır. Həmin məktublarda Ə.Fətəlibəyli məruz qaldığı çətinliklər, lakin bunlara rəğmən "Qərbin bəzi nümayəndələri ilə görüşündə "Milli Komitənin üzvlərinin sayının artırılmasına

çalışması və digər mühüm planlar haqqında yazır və əsas diqqəti Almaniyada nəşr olunan "Azərbaycan jurnalı"na yönəldir" [4].

1951-ci ildə Münxendə "Azərbaycan" jurnalının ilk nömrəsi çapdan çıxanda sanki almaniyalı mühacirlərin həyatına yenidən günəş doğdu. Ə.Fətəlibəyli maddi çətinliklərə baxmayaraq, nəin bahasına olursa-olsun jurnalın iki nömrəsinin çapına çalışırdı. "Azərbaycan" jurnalı həm Azərbaycan, həm də rus dilində çap olunurdu. Ə.Fətəlibəyli Moskvada hərbi təhsil aldığından rus dilini mükəmməl bilirdi. Ə.Fətəlibəylidən sonra jurnalın redaktoru olan C.Hacıbəyli də rus dilli olduğundan (C.Hacıbəyli Sankt-Petersburqda təhsil almışdı) jurnalın hər iki dildə nəşrini davam etdirə bildi. "Azərbaycan" jurnalının qarşıya qoyduğu məqsəd, mövcud Sovet rejimi və ideologiyasının yararsızlığı, uçuruma yuvarlanması, despotizmə və şəxsiyyətə pərəstişə xidmət edən bu dövlətin dayaqlarının siyasi süquta məruz qalacağını, bunun gec-tez baş verəcəyini göstərmək idi.

Zaman bu ideyanın dahiliyini sübut etdi, əlbəttə ideya müəllifləri bunu görməsələr belə...

Qeyd etməliyik ki, Ə.Fətəlibəyli mükəmməl, yüksək təlim görmüş hərbiçi, dərin siyasi biliyə malik bir şəxsiyyət olmaqla bərabər, həm də məharətli bir yazar idi. Onun "Azərbaycan" jurnalının səhifələrində zaman-zaman çap etdirdiyi məqalələr və yazdığı kitablar da bunu sübut edir. Xüsusən 50-ci illərdən etibarən Ə. Fətəlibəylinin mətbuatdakı fəaliyyəti təqdirəlayiqdir [4]. Onun böyük Azərbaycan bəstəkarı Ü.Hacıbəyliyə həsr olunmuş məqaləsini Münxendə çap olunan "Azərbaycan" jurnalında oxuyuruq. Müəllif bu məqaləsində Şərqin və Böyük Türk Dünyasının dahi bəstəkarına Sovet rejiminin göstərdiyi təzyiqlərdən yazmaqla bərabər, bütün ciddi-cəhdlərə baxmayaraq onun dünyavi şöhrətinə heç bir xələl gətirməyə nail olmayacağını vurğulayırdı. O, Stalinin sifarişi olan, "Uydurma Kommunizm" xülyasını ciddi tənqid edirdi. Onun "Kommunizm xalqlara həyat təmin edə bilərmi?" məqaləsi də despotizmə, diktaturaya hesablanmış bir qurumun, gec-tez iflasa uğrayacağını göstərirdi. Bolşevizmə, şovinizmə qatı düşmən olan Ə.Fətəlibəyli bütün ömrünü bu rejimə qarşı mübarizəyə və azərbaycan xalqının azadlığı uğrunda çalışmağa həsr etmişdir desək, yəqin ki, yanılmarıq.

Əlbəttə belə bir şəxsiyyətin durmadan Sovetlər Birliyinin məhvə məhkum ideologiyasını tənqid etməsi, dünyanın müxtəlif nöqtələrinə casuslar göndərə bilən dövlətin ciddi narazılığına səbəb olurdu və onlara rahatlıq vermirdi. Ə.Fətəlibəyli 1954-cü ildə, noyabr ayında Sovet İttifaqından göndərilən bir casus tərəfindən qətlə yetirildi. Ə.Fətəlibəyli – Düdənginskini Münxen yaxınlığındakı Noy-Ulm şəhərində dəfn etmişlər.

Sonralar SSRİ-nin müdafiə naziri olmuş, Sovet İttifaqı marşalı A. Qreçko belə onun haqqında yazırdı: "O, heyrətedici bir aydın ağıla və təhlil düşüncəsinə malik idi. O, anadangəlmə komandir idi. Hərbi taktika məsə-

lələrində bizim heç birimiz onunla müqayisə oluna bilmərik”[3]. Qeyd etməliyik ki, A.Qreçko, Ə.Fətəlibəyli ilə Moskvada Baş Qərargah Akademiyasında birlikdə oxumuşdur.

Ölümüylə sarsılan dostları və bu ölümlə barışmayan M.Ə.Rəsulzadə Ə.Fətəlibəylinin Almaniyadakı fəaliyyətini yüksək qiymətləndirmiş və onun Azərbaycan konfransının təşkil edib, keçirməsini, legionerlərlə apardığı işləri, cəbhədəki şücaətindən və vaxtsız vəfatından ürək ağrısı ilə yazmışdır.

Ə.Fətəlibəyli yaxın silahdaşlarından əslən çeçen millətindən olan Əbdürrəhman Avtoxanovun dediyi kimi: “Abo doğma Azərbaycanı ürəkdən sevirdi, lakin şovinist deyildi. O, alovlu və inamlı Qafqaz patriotu idi. Qafqaz bu gün çox ağır və kədərli günlərini yaşayır. İnanıram ki, bizim ümumi Qafqaz evimiz qardaşlıq dünyasına qayıdacaq və bu Fətəlibəyə qoyulan ən yaxşı heykəl olacaq [3].

A.Hitlerin SSRİ-yə xəbərdarlıqsız hücum etməsi, müharibənin ilk illərində zəbt etdiyi şəhərlər, SSRİ-nin verdiyi itgilər, onun tezliklə qələbə çalacağı inamını artırırdı. Bolşevizm despotundan, diktaturasından canadoymuş azərbaycanlılar da buna ümid edirdilər. Həmin illərə, Azərbaycanda Xalq Cümhuriyyətinin süqutundan sonra, müharibə başlayanadək müddətə nəzər salsaq, “hərdəmxəyal hökümət” in özünü gah kəndli-fəhlə dövləti adlandırmaq, kəndlillərə torpaq payı verməsi, gah da əllərindən alaraq kolxozlar yaratması, şəhərlərdə çalışan fəhlələrin acınacaqlı halı onsuz da azərbaycanlıların bolşevizmə nifrətini artırmışdı. Odur ki, alman əsirliyində olan azərbaycanlılar da digər qafqaz xalqları kimi legionlarda birləşməyə can atırdı. Azərbaycanlıların vahid legionlarda birləşməsində mayor Ə.Fətəlibəyli ilə bərabər bu işdə Fuad Əmircanın da rolunu xüsusi qeyd etmək lazımdır. 1943-cü il noyabrın 6-da “Milli Azərbaycan Qurultayı”nda çıxış edərək, “Daxildə və Xaricdə gedən bu mübarizənin bir tək ilham mənbəyi vardır – 28 may” [3]. deyən F.Əmircan 1911-ci ildə Bakıda dünyaya göz açmışdı, ilk təhsilini Türkiyədə, sonralar isə Fransa və Almaniyada almışdı. Atası Əbdüləlibəy Əmircanov Xalq Cümhuriyyəti dövründə Azərbaycanın maliyyə naziri vəzifəsində çalışmışdır. 1941-ci ildə “Təsviri Əfkar” qəzetinin müxbiri kimi Almaniyaya gələn F.Əmircan, 1961-ci ilə qədər burada mühacir həyatı yaşayır. Müharibənin elə ilk illərindən azərbaycanlı legionerlərlə əlaqə yaratmağa çalışır və bu işdə ona bolşevizmin və şovinizmin barışmaz mübarizi olan M.Ə.Rəsulzadə ilə tanışlığı çox kömək edir. “Azərbaycan”, “Hücum” qəzetləri və “Milli birlik” jurnalı o zaman Almaniyada əsas mətbuat orqanı olduğundan, bu nəşrlərlə yaxından əməkdaşlıq edir, yazdığı yazılarda bolşevizm rejiminin puçluğunu sübut etməyə, azərbaycan legionerlərində qələbə əzminin güclənməsinə inamı artırır. M.Ə.Rəsulzadə, Ə.Fətəlibəyli, C. Hacıbəyli və digər məsləkdaşları ilə suveren Azərbaycan dövlətinin yaradılmasına xidmət edir. Hətta müharibədən sonra belə, Almaniyada fəaliyyətini davam etdirərək 1955-1961-ci illərdə

Almaniyanın Bonn şəhərində Tükiyə səfirliyində mətbuat attaşesi vəzifəsində çalışır. 1993-cü ildə Azərbaycana gəlir, bu onun ən böyük arzusu idi və 1995-ci ildə mayın 8-də Almaniyanın Bonn şəhərində vəfat edir [3].

İkinci Dünya Müharibəsi dövründə Almaniyada siyasi mühacir həyatı yaşamış həmyerlilərimizdən Süleyman Təkinər, Fərman Məmmədov, Məcid Musazadə, Murad Muradlı və digər ziyalılarımızı qeyd etməliyik.[3] Bunların və digər yüzlərlə həmvətənlərimizin od-alov içində apardıqları müharibə və azadlıq uğrudakı mübarizələri təqdirəlayiqdir.

İkinci Dünya Müharibəsi dövründə Almaniyada siyasi mühacirlərdən bəhs edərkən Mehdi Hüseynzadəni xatırlamaq yerinə düşərdi. "Mixaylo" ləqəbli həmyerlimiz Yuqoslaviyanın əfsanəvi qəhrəmanına çevrilmişdi. 1918-ci il 22 dekabrda Bakının Novxanı kəndində anadan olan M.Hüseynzadə,ilk fəaliyyətinə müəllim kimi başlasa da, arzusu rəssam olmaq olmuşdu. O, fransız, alman, ispan, italyan və rus dillərini mükəmməl bilirdi. Müharibə başlayarkən Leninqrad Xarici Dillər İnstitutunun tələbəsi olsa da, Ordu sıralarına gedir və 1942-ci ildə Tiflisdə piyada hərbi məktəbini leytenant kimi bitirir və 223-cü Azərbaycan atıcı diviziyasının 1041-ci alayına taqım komandiri göndərilir [2]. 1942-ci ildə Stalinqrad ətrafında gedən döyüşdə Kaliç şəhəri yaxınlığında ağır yaralanır və almanlara əsir düşür [2]. Lakin əsirlikdən qaçmaq ona müyəssər olur və o, Yuqoslaviya Xalq Azadlıq Ordusuna qoşulur. Həmyerlimizin göstərdiyi sücaətlər, onun alman dilini mükəmməl bildiyindən, bu dildə sərbəst danışması, alman formasından istifadə edərək azərbaycanlı hərbi əsirlərin qaçmasına kömək etməsi haqqında xeyli məlumatlar vardır [2]. Lakin həmyerlimizin Almaniyanın mətbuat orqanlarındakı çıxşları, onun yazdığı şeirlər, geniş qəlbə mübariz ruha malik olduğunu bir daha sübut edir.

O, öz şeirlərini "Qürbətzadə" təxəllüsü ilə çap etdirmişdir [5]. Onun "Yön olsaydı" şerindəki vətən həsrəti insanın qəlbini riqqətə gətirir. Almaniyada nəşr olunan qəzetlərin səhifələrində mühacirlərimizin şeir və məqalələri mühacir irsimizin zənginliyindən xəbər verir. Bu şeirlərdə vətən həsrətli mübarizə əzmi diqqəti cəlb edir.

M. Hüseynzadənin qəhrəmanlığı Sovet orqanları tərəfindən vaxtında düzgün qiymətləndirilmədiyindən, o yalnız 1957-ci il, 11 apreldə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə ölümündən 13 il sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

Müharibə illərinin siyasi mühacirlərindən biri də Məcid Musazadə olmuşdur. O. Almaniyada İkinci Dünya müharibəsi illərində nəşr olunan "Azərbaycan" qəzetinin baş redaktoru olmuşdur. Əslən İsmayıllı rayonunun Qərsələ kəndindən olan Musazadə, elə yazılarını da Qərsələ ləqəbi ilə dərc etdirmişdir. M.Musazadə əsasən folklor araşdırmaları ilə məşğul olmuşdur. M. Musazadə "Azərbaycan" qəzetinin səhifələrində Azərbaycanın görkəmli şəxsiyyətləri haqqında da qiymətli məqalələr yazmışdır. Alman xalqını, Üzeyir

Hacıbəyli kimi görkəmli şəxsiyyət və bəstəkarla tanış etməsində, onun "Üzeyir Hacıbəylinin Leyli-Məcnun Operasına İttihaf edirəm!" məqaləsi təqdirəlayiqdir. M. Musazadə müharibədən sonrakı illərdə də Sovet rejimini tənqid edən cəsarətli məqalələr yazmışdır. O, 50-ci illərdə Almaniyada "Azadlıq" radiosunda fəal iştirak etmişdir. O, Stalinin apardığı terrorçu siyasəti tənqid etmiş, Əliheydər Qarayev kimi bir şəxsiyyətin və onun kimi görkəmli şəxsiyyətlərin bu terrorun qurbanı olduğunu cəsarətlə söyləmişdir. Onun "Dağlıq Qarabağ" mövzusuna da sərt mövqeyi var idi. "Qarabağın zəngin tarixi-kitabının müəllifi olan M.Musazadə, bu kitabı yazmaqla Azərbaycan tariximizi öyrənənlərə böyük köməklik göstərmişdir"[3]. Qeyd etməliyik ki, Əsəd bəyin (Qurban Səid) yazdığı məşhur "Əli və Nino" əsərini də alman dilindən Azərbaycan türkcəsinə M. Musazadə tərcümə etmişdir[3].

Əlbəttə, İkinci Dünya müharibəsi dövründə Almaniyada siyasi mühacir həyatı yaşamış həmyerlilərimizin döyüşkən ruhunu, onların əzmini, vətən uğrunda apardıqları azadlıq mücadiləsini, vətənə olan həsrət dolu məhəbbəti bir məqalədə əhatə etmək mümkün deyil. Adlarını çəkərək, haqqında yazmadıqlarımız qəhrəmanların həyatı və siyasi fəaliyyəti haqqında sonrakı yazılarda məlumat veriləcəkdir.

## Ədəbiyyat


1. Abdullayev V. Azərbaycanlı mühacirlərin Almaniyada fəaliyyəti. Bakı, ADPU, 2024.
2. Əmrahov M. Azərbaycan legionları: Saxtalaşdırılmış Tarix və Reallıqlar. Bakı, 2013.
3. Yaqublu N. Azərbaycan legionerləri. Bakı, Bakı Universiteti, 2005.
4. Yaqublu N. İstiqlal. Bakı, 2014. 102 s.
5. Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı, 2014. 103 s.

**TARİX, İNSAN VƏ CƏMİYYƏT-2024, 4 (45), s.116-125**

# AZƏRBAYCAN TİBB İŞÇİLƏRİ 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ

**Xalidə İbrahimova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
xalideibrahimova88@mail.ru

***Açar sözlər:*** *müharibə, döyüşçü, tibb bacısı, yaralı, hərbi hospital*

*Məqalə azərbaycanlı tibb işçilərinin 1941-1945-ci illər müharibəsində döyüş cəbhələrindəki fəaliyyətinə həsr olunmuşdur. Materialda* ***Brest qalasının 84-cü piyada alayının hərbi həkimi Muxtar Qədirov, Sovet İttifaqı Qəhrəmanları*** *Məmməd Məmmədov, Səməd Abdullayev, tibb xidmətinin polkovnik-leytenantı Qədəmşah Sadıxov, tibb xidməti baş leytenantı Gülü İlyasov, həkim-cərrah Mehdi Bağırov, tibb xidməti mayorları Bəhmən Ələsgərov və Mirzəağa Əliyev, tibb xidməti baş leytenantı Əlisahib Əsədov, qadın tibb işçilərindən Aliyə Rüstəmbəyova, Əsmər Həsənova, Pakizə Manafova, Dürrə Məmmədova, Həlimə Rzayevanın döyüş yolu haqqında məlumatlar verilmişdir. 1941-ci il iyunun 22-də başlanan müharibə 1945-ci il mayın 9-da Hitler Almaniyasının məğlubiyyəti ilə nəticələndi. Təkcə Sovetlər birliyi müharibədə 29 milyon nəfərə itki verdi. Sovet İttifaqının 72 min şəhər və kəndi dağıdıldı, 32 min sənaye müəssisəsi məhv edildi, 65 min km. dəmiryol xətti sıradan çıxarıldı. Sovet İttifaqının qərbində yerləşən ən başlıca sənaye rayonları demək olar ki, iki dəfə dağıntıya məruz qaldı.*

## МЕДИЦИНСКИЕ РАБОТНИКИ АЗЕРБАЙДЖАНА В ВОЙНЕ 1941-1945 ГГ.

**Халида Ибрагимова**

***Ключевые слова:*** *Война, боец, медсестра, раненый, военный госпиталь*

*Статья посвящена деятельности азербайджанских медицинских работников во время войны 1941-1945 год. В материалах была предоставлена информация военного врача Мухтара Кадырова, Героев Советского Союза Мамеда Мамедова, Самеда Абдуллаева, полковника-лейтенанта медицинской службы Гадамшаха Садыгова, врача-хирурга Мехди Багирова, майоров медицинской службы Бахмана Алескерова и Мирзаги Алиева, старшего лейтенанта медицинской службы Алисахиба*

*Асадова, женщин-медиков Алии Рустамбековой, Эсмяр Гасановой, Пакизы Манафовой, Дурры Мамедовой, Халимы Рзаевой и др. Война начавшаяся 22 июня 1941 года, завершилась 9 мая 1945 года поражением гитлеровской Германии. Фактически Советский Союз понес в этой войне потери в размере 29 миллионов человек. В Советском Союзе было разрушено 72 тысячи городов и деревень, уничтожено 32 тысячи промышленных предприятий, выведено из строя 65 тысяч километров железных дорог. Основные промышленные районы, расположенные на западе Советского Союза, подверглись разрушению почти в два раза.*

## MEDICAL WORKERS OF AZERBAIJAN IN THE WAR 1941-1945 YEARS

**Khalida Ibrahimova**

***Keywords:*** *War, fighter, nurse, wounded, military hospital*

*The article is dedicated to the activities of Azerbaijani medical workers during the war of 1941-1945. The materials provided information from military doctor Mukhtar Kadyrov, Heroes of the Soviet Union Mamed Mamedov, Samed Abdullayev, Colonel-Lieutenant of the Medical Service Gadamshah Sadygov, surgeon Mehdi Bagirov, majors of the Medical Service Bahman Aleskerov and Mirzagi Aliyev, Senior Lieutenant of the Medical Service Alisakhib Asadov, female doctors Aliya Rustambeyova, Esmyar Gasanova, Pakiza Manafova, Durra Mamedova, Khalima Rzayeva and others. The war that began on June 22, 1941, ended on May 9, 1945, with the defeat of Nazi Germany. In fact, the Soviet Union suffered a loss of 29 million people during the war. In the Soviet Union, 72,000 towns and villages were destroyed, 32,000 industrial enterprises were demolished, and 65,000 kilometers of railway lines were rendered unusable. The main industrial regions located in the western part of the Soviet Union were subjected to almost twice the level of destruction.*

Bəşəriyyət XX əsrdə iki dünya müharibəsinin şahidi və iştirakçısı olmuşdur. Belə müharibələrdən biri 1939-cu il sentyabrın 1-də Hitler Almaniyasının Polşaya hücumu ilə başladı, 1945-ci il sentyabrın 2-də Yaponiyanın təslim olması ilə başa çatdı.

2025-ci ilin may ayında II Dünya müharibəsinin mühüm mərhələsini təşkil edən Sovet İttifaqının Böyük Vətən müharibəsində -1941-1945-ci illərdə faşizm üzərində qələbənin 80 illiyi tamam olur. Hitler Almaniyasının 1941-ci il iyunun 22-də SSRİ üzərinə hücuma keçməsi ilə başlanan müharibə 1945-ci il

mayın 9-da Hitler Almaniyasının məğlubiyyəti ilə nəticələndi. Sovet tarixşünaslığına bu müharibə Böyük Vətən müharibəsi, 9 may isə faşizm üzərində Qələbə günü kimi tarixləşdi.

Sovet İttifaqının Böyük Vətən müharibəsinin başa çatmasından 80 ilə yaxın vaxt keçməsinə baxmayaraq insanlar müharibə qəhrəmanlarını xatırlamaq, onların adlarını yad etmək istəyirlər. Ona görə də analar, bacılar öz ərlərinin, oğullarının, qardaşlarının, atalarının 1941-1945-ci illər müharibəsində göstərdiyi igidliyi haqqında heç olmazsa bir neçə söz oxuduqda təsəlli tapırlar. Bu mənada faşizm üzərində qazanılmış qələbədə nə Ali Baş Komandanın, nə sıravi döyüşçünün, nə də arxa cəbhədə çalışan əməkçinin rolunu azaltmadan qətiyyətlə deyə bilərik ki, qələbənin həqiqi yaradıcısı və qəhrəmanı xalqlardır. Sovet İttifaqının Böyük Vətən müharibəsinin tarixi Azərbaycan torpağına, doğma el-obaya məhəbbət bəsləyən Azərbaycan igidlərinin həyat salnaməsi, "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarına tabe olaraq gecə-gündüz işləyən, malını, pulunu, yorğanındakı yununu, hətta nişan üzüyünü cəbhəyə verən Azərbaycan qadınının tarixidir.

**Səfərbərlik işinin təşkili**. 1941-ci ildə Azərbaycan SSR-in əhalisi 3.331.800 nəfər idi. Müharibə ərəfəsində Azərbaycan SSR-də 50 yaşına qədər olan hərbi vəzifəlilərin sayı 335.378 nəfər olmuşdu. Respublika rəhbərliyinin tələbi əsasında 1941-ci ilin dekabrında respublika üzrə hərbi mükəlləfiyyətlilərin yenidən qeydiyyatının aparılmasına başlanılmış, 1942-ci ilin mart ayının 1-dək yeni təşkil olunan hərbi birləşmələrə 247.043 nəfər çağırılmışdır. Ümumilikdə müharibənin başladığı gündən 1942-ci ilin sonuna kimi Azərbaycan SSR-dən 464.468 nəfər hərbi hissə və birləşmələrin komplektləşdirilməsinə yönəldilmiş, respublikanın xalq təsərrüfatından 6948 avtonəqliyyat vasitəsi (o cümlədən 528 minik və 5140 yük maşını, 301 xüsusi avtomobil, 471 traktor, 238 motosiklet və 265 yedək cəbhənin sərəncamına verilmişdir [9,s.410]. 1943-cü ilin yanvarında 1925-ci il təvəllüdlü vətəndaşların hərbi xidmətə çağırılması haqqında qərar respublika hərbi komissarlığı tərəfindən 98,6 faiz yerinə yetirilmişdi [9, s.419].

Ümumilikdə müharibənin başladığı gündən 1945-ci il də daxil olmaqla respublika hərbi komissarlığı tərəfindən faşizmə qarşı mübarizəyə 623.096 nəfər səfərbər edildi. Onlardan 48.2581 nəfəri hissələrin komplektləşdirilməsinə, 43.893 nəfəri müdafiə əhəmiyyətli sənayedə işləməyə göndərildi. Bunlardan başqa 14.789 nəfər ehtiyatda olan zabit, 6.254 nəfər ehtiyatda olan HDQ zabiti, müharibə ərəfəsində xidmətə yollanmış 75.579 nəfər də Azərbaycandan müharibəyə səfərbər olunanlar arasında idi [2]. Beləliklə 1941-1945-ci illərdə Azərbaycan SSR-dən **719.718 nəfər** faşizmə qarşı mübarizəyə cəlb olunmuşdu.

Müharibə illərində Azərbaycanda hərbi hissələr üçün 15 min tibb işçisi və sanitar drujinaçısı, 750 rabitəçi, 3 min sürücü hazırlandı. Azərbaycan SSR

ərazisində 87 batalyon, 1.123 özünümüdafiə dəstəsi, 77-ci, 223-cü, 271-ci, 396-cı, 402-ci, 416-cı atıcı diviziyalar formalaşdırılmış və onlar müxtəlif orduların tərkibində döyüş əməliyyatlarında iştirak etmiş [7,s.22]. 350 mindən artıq döyüşçüdən “qara kağız” alınmışdı.

**Döyüş cəbhələrində**. 1941-1945-ci illər müharibəsi tibb işçiləri üçün də ciddi sınaq oldu. 1941-1945-ci illər müharibəsi cəbhələrində göstərdiyi misilsiz qəhrəmanlığın ilk nümunələrindən biri Brest qalasının əfsanəvi müdafiəsi oldu. Qalanın müdafiəsində Azərbaycandan iştirak edən 40 nəfərdən çox döyüşçüdən biri Bakıdan anadan olmuş **84-cü piyada alayının hərbi həkimi Muxtar Məmməd oğlu Qədirov** döyüşlərdə qalanın müdafiəçilərinə tibbi yardım göstərmiş, hərbi xəstəxananın müdafiəsini təşkil etmiş, düşmənin aramsız atəşi altında cərrahiyyə əməliyyatları apararaq əsgərləri həyata qaytarmışdı.Yaralı əsgərlərə yardımla kifayətlənməyən M.Qədirov düşmənlə əlbəyaxa döyüşlərdə də iştirak etmiş, döyüşlərin birində ağır yaralanmış və faşistlər tərəfindən əsir alınmışdı [3, s.167].

Məmmədov Məmməd Cəbrayıl oğlu (1920-1945) Qax rayonunun Baydarlı kəndində doğulmuş, 1940-cı ildə hərbi xidmətə çağırılmışdı. I Ukrayna cəbhəsində 52-ci Ordunun 373-cü atıcı diviziyası tərkibində Qafqazdan Berlinədək döyüş yolu keçmiş sanitar təlimatçısı baş serjant M.Məmmədov 1945-ci il yanvarın 24-də Oder çayını keçərkən son döyüşündə 40 hitlerçi əsgər və zabit öldürərək yaralı döyüşçülərinin həyatını xilas etmişdi. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1945-ci il 10 aprel tarixli Fərmanı ilə Oder çayını keçərkən göstərdiyi qəhrəmanlıq və igidliyə, alman faşist işğalçıları ilə vuruşlardakı mərdliyinə görə M.C.Məmmədova ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir [1,s.121].

Tibb xidməti starşinası Səməd Həmid oğlu Abdullayev 1939-cu ildə Ağdaş rayonunun Qolqəti kəndindən hərbi xidmətə çağırılmış, müharibəni həqiqi hərbi xidmət borcunu yerinə yetirərkən qarşılamışdı. 1941-1943-cü illərdə Pribaltika və Krım cəbhələrində alman faşistlərlə döyüşlərin iştirakçısı olan S.Abdullayev Moldaviya uğrunda döyüşlərdə həlak olmuş, 1943-cü il sentyabrın 17-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür [11, s.61-62].

Müharibəni tibb xidməti polkovnik-leytenantı kimi başa vuran Sadıxov Qədəmşah Məşədi Hüseyn oglu 1941-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmiş, 1941-ci ilin avqust ayında 261-ci diviziyanın 974-cü alayında xidmət etməyə başlamış, Moskvanın müdafiəsində iştirak etmişdi. Kryukov kəndi uğrunda gedən döyüşdə o, döyüşdə həlak olan batalyon komandirini əvəz edərək hücuma şəxsən özü başçılıq etmiş, "Qırmızı Döyüş Bayrağı" ordeni ilə təltif olunmuşdu. Q.Sadıqov Xarkov yaxınlığında, Don, Volqa, Belqorod, Smolensk yaxınlığında, həmçinin Şərqi Prussiya, Mancuriya və Koreyada döyüşlərlərdə iştirak etmiş, hərbi şücaətlərə görə "Qırmızı Ulduz" və II dərəcəli

"Vətən müharibəsi" ordenləri, "İgidliyə görə", "Hərbi şücaətə görə", "Moskvanın müdafiəsi uğrunda", "Varşavanın azad edilməsi uğrunda", "Yaponiya üzərində qələbəyə görə", "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif olunmuşdur.

17 yaşı tamam olmamış öz xahişi ilə ordu sıralarına gedən şəkili Gülü Göyüş oğlu İlyasov özünü təkcə feldşer kimi deyil, həm də qəhrəman döyüşçü kimi göstərmişdi. 1943-cü ilin avqustunda Taqanroq yaxınlığında baş vermiş hücum zamanı, Mokry Elançik kəndi yaxınlığında kəskin döyüşdə İlyasov və onun həmkarları döyüş meydanından 200-dən çox əsgər və komandiri çıxararaq tibbi yardım göstərmişlər. 1943-cü ilin oktyabrında Melitopol yaxınlığındakı döyüşlərdə G.İlyasovun dtaborunun 100-dən çox əsgər və komandirə kömək etmişdir. Bu döyüşlərdə göstərilən igidlik və qəhrəmanlığa görə leytenant İlyasov 24 noyabr 1943-cü il tarixli 416 nömrəli tüfəng bölüyünün 42/n nömrəli əmri ilə "Qırmızı Ulduz" ordeni ilə təltif edilmişdir. 1944-cü ilin fevralında Dneperin sağ sahilində yerləşən körpü uğrunda gedən döyüşlərdə düşməni təqib edən leytenant İlyasov yaralılara yardım göstərmiş və şəxsən çay buzunun üstündəki döyüş meydanından ağır yaralanmış beş əsgəri çıxarmışdı. [12,s.57]. Gülü Hüseynov 416-cı Taqanroq diviziyasında Qafqazdan Berlinədək şanlı döyüş yolu keçərək, Visla çayı boyu hücumda, Kustrin, Brandenburq və Berlinin alınmasında fəal iştirak etmiş, tibb xidməti baş leytenantı rütbəsinədək yüksəlmişdi. 1945-ci il iyunun 29-da Berlin əməliyyatı komandanlığı zamanı yaralıların həyatını xilas etdiyi üçün leytenant Gülü Göyüş oglu İlyasov İkinci dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif olunmuşdur. G.İlyasovun döyüşlərdə göstərdiyi igidlik və qəhrəmanlığına görə dəfələrlə komandanlıq tərəfindən təşəkkür almış [13, s.133], birinci dərəcəli "Vətən müharibəsi", "Qırmızı Ulduz" ordenləri, "Qafqazın müdafiəsinə görə" medalı, ümumilikdə 6 orden və medalla təltif olunmuşdu [4, s.67].

Azərbaycan Dövlət Tibb Tibb İnstitutunun (indiki Tibb Universiteti) bitirmiş Bağırov Mehdi Abbas oğlu müharibənin başlandığı günün səhərisi-iyunun 23-də cəbhəyə yollanmışdı. Döyüş yoluna 19-cu ordunun 43-cü tank diviziyasının motoatıcı batalyonunda başlamış M.Bağırov 1942-ci ildə 10-ci tank briqadasının tərkibibdə Stalinqradın azad edilməsində iştirak etmiş, 1943-cü ildə döyüş xidmətlərinə görə ona kapitan rütbəsi verilmiş, "Stalinqradın müdafiəsinə görə" medalı ilə təltif olunmuşdur. Stalinqrad döyüşlərində mina partlaması nəticəsində kontuziya alan M.Bağırov bir aylıq müalicədən sonra yenidən öz batalyonuna qayıtmış, Stalinqrad kompaniyası müvəffəqiyyətlə başa çatdıqdan sonra 199-cu ehtiyat tibb-sanitar taqıma rəis təyin edilmişdir. M.Bağırov 1943-cü ildə 510-cu əlahiddə atıcı– tank batalyonunda Kursk altında döyüçdə iştirak etmiş və ikinci dəfə yaralanmış, 1944-cü ildə Vitenskin azad edilməsində döyüşlərində iştirak etmişdir. 1944-cü il sentyabrında M.A.Bağırov "Qırmızı Ulduz" ordeni, 1945-ci ildə Varşavanın azad edilməsi döyüşlərinə

görə "Varşavanın azazd edilməsinə görə" medalı ilə ilə təltif olunmuşdur. M.A.Bağırov müharibədən sonra həkimlik peşəsinin davam etdirmiş, 1955-ci ildə "Səhiyyə əlaçısı" döş nişanı almış, 1956-cı ildə Azərbaycan Respublikasının əməkdar həkimi, 1984-cü ildə "SSRİ Xalq həkimi" fəxri adına layiq görülmüşdür [12,s.52].

Tibb xidməti mayoru, Stalinqradın müdafiəçisi Ələsgərov Bəhmən Səttar oğlu 1912-ci ildə Azərbaycanın Qazax rayonunun Sofulu kəndində anadan olmuşdu. 1937-ci ildə Bakı Tibb İnstitutunun məzunu olan B.Ələsgərov 1941-ci ilin sentyabrında döyüşən orduya səfərbər olunmuş, Şimali Qafqazda döyüşmüşdü. 1942-ci ildən 51-ci ordunun 302-ci atıcı diviziyasının 393-cü əlahiddə tibb-sanitar taqımın həkim-ordinatoru olan B. Ələsgərov 1942-ci ilin iyulundan 1943-cü ilin martınadək çoxsaylı mürəkkəb cərrahi əməliyyat keçirərək çoxsayda döyüşçünün həyatını xilas etmiş, onun rəhbərliyi ilə keçirilən 1795 əməliyyatın 281-ni şəxsən özü yerinə yetirmişdir. Ələsgərov Bəhmən Səttar oğlu 1945-ci ildə "Qırmızı Ulduz" ordeni ilə təltif olunmuşdur [12,s.50].

1905-ci ildə Bakıda doğulmuş Əliyev Mirzəağa İbrahim oğlu 1936-cı ildə Azərbaycan Tibb İnstitutunu bitirmiş, 1941-ci ildə orduya səfərbər olunmuşdur. Mirzəağa Əliyev 1944-1948-ci illərdə Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru olmuş, 1948-ci ildə tibb elmləri namizədi alimlik dərəcəsi almış, "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə", Böyük Vətən müharibəsində igidliyinə və fədakar əməyinə görə medallarla təltif olunmuşdur.

Tibb xidməti leytenantı Nağdalı Əliyev Qafqazın müdafiəsində 157-ci atıcı briqadanın sanitar rotasında döyüşmüşdür. Qroznı altındakı döyüşdə güllə altında 35 yaralının, o cümlədən mülki şəxsləri döyüş meydanından çıxarmışdır. Müharibəni Berlində başa vurmuş N.Əliyev 2 "Qırmızı Ulduz" ordeni və II dərəcəli "Vətən müharibəsi" ordenləri ilə təltif olunmuşdur.

Tibb xidməti baş leytenantı Əsədov Əlisahib İbrahim oğlu 1910-cu ildə Heftçala rayonunda dünyaya gəlmişdi. 416-cı diviziyanın 510-cu əlahiddə tibb-sanitar batalyonunun sarğı taqımda Şimali Qafqaz və Cənub cəbhələrində döyüşmüşdür. 1943-cü ilin avqust ayının 27-də gərgin döyüşlərdə Ə.Əsədov şəxsən 219, o cümlədən 90 halda ağır yaralılarda cərrahi işləmə aparmış, 20-cı ordunun 18 oktyabr 1943-cü il əmri ilə "Qırmızı Ulduz" ordeni ilə təltif olunmuşdur.

1910-cu ildə Bakıda doğulan, Azərbaycan Tibb İnstitutunun məzunu Aşurbəyli Rəşad Balabəy oğlu 1942-ci ildə ordu sıralarına səfərbər olunmuşdu. Cənub və I Belarusiya cəbhəsində 133-cü kavaler alayının tərkibində döyüşmüş, Şimali Qafqaz döyüşlərində iştirak etmişdir. Faşistlərlə döyüşlərdə dəfələrlə igidlik göstərmişdir. 1944-cü ilin aprelində Odessanın azad edilməsundə kontuziya almışdır. 1944-cü ilin iyulunda 30-cu kavaler diviziyası

Belarusiyanın azad edilməsində iştirak edərkən 216 yaralı zabit və əsgərə yardım etmiş R.Aşurbəyli I Belarusiya cəbhəsi komandanlığının 1944-cü il 30 sentyabr tarixli 289 № li əmri ilə "Qızıl Ulduz" ordeni ilə təltif olunmuşdur. 30-cu kavaler diviziyasının 133-cü kavaler polkunun kiçik hərbi həkimi Aşurbəyli Rəşad Balabəy oğlu 1944-cü il oktyabrın 7-də Macarıstanın Debresen şəhərindən 40 km cənub-qərbdə Tetetlen kəndi yanında döyüşdə qəhrəmanlırla həlak olmuşdur [12, s.51].

1939-cu ildən orduda olan, Qafqazın müdafiəçiləri arasında öz cəsarəti ilə seçilən, Qərb cəbhəsi qoşunları 43-cü ordusunun I qvardiya motoatıcı diviziyası tərkibində döyüşən, 6-cı qvardiya motoatıcıalayın6-cı rotasının sanitar təlimatçısı Hüseynov Malik Ağa Məmməd oğlu 1941-ci ilin dekabrında yağış kimi yağan güllələrin altından yaralı 40 nəfər komandir və döyüşçünü silahları ilə birgə çıxardığına görə Qərb Cəbhəsi qoşunlarının 1942-ci il 22 mart tarixli 03103 li əmri ilə "Döyüş Qırmızı Bayrağı" ordeni ilə təltif olunmuşdu [12,s.55].

1943-cü ilin avqustun 18-dən polkun baş həkimi olan M.Hüseynov Dneprin keçilməsi dövründə döyüşlərdə, Puşkarev gölü və Puşkarevka kəndi uğrunda yay hücumlarında 1200 nəfəri tibb sanitar batalyonuna təxliyyə etmiş, 120 nəfər sanitar alayda tibb kömək almışdır. Təşkilatçılıq qabiliyyətinə və yaralı komandir və döyüşçülərə vaxtında tibb yardımı təşkil etdiyinə görə 1944-cü il iyulun 7-də II dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif edilmişdir. 692-ci diviziyanın səhra hospitalının rəisi olan Malik Hüseynov 1944-cü il martın 31-də 26 yaşında - həyatının son günündə 8 ağır yaralını əməliyyat etmişdi. Ümumilikdə hərbi xidmət dövründə M.Hüseynov 160-dan çox hərbçini əməliyyat etmiş, ağır və çətin döyüş vəziyyətində alayda sanitar xidməti yaxşı təşkil etdiyinə görə "Qırmızı ulduz" ordeni ilə təltif olunmuşdu. 1961-ci ildə Bakının Yasamal rayonundakı 3 №li poliklinikaya Malik Hüseynovun adı verilmiş, Rauf İsmayılov onun həyatı və qəhrəmanlığından bəhs edən "Qardaş torpaqda" pyesini yazmışdır. Malik Hüseynovun qardaşı Məmməd Hüseynov da faşizmə döyüşlərdə cəbhədə həlak olmuşdur [12,s.56].

230-cu alayın komandirinin İ.İsmayılova verdiyi xarakteristikada yazlılrdı ki, "230-cu Ordunun Ehtiyat atıcı alayına gəldiyi tarixdən (05.03.1944) o, sanitar xidməti təşkil etməyi bacardı. Hər bir vəziyyətdə şəxsi heyər arasında tibbi və preventiv işlərlə vaxtında təmin edirdi. ...İsmayılov hərbi fərqlənməyə görə "Qırmızı Ulduz" ordeni, həmçinin "Qafqazın müdafiəsinə görə", "Budapeştin azad olunmasına görə", "Praqanın azad edilməsi uğrunda", "Almaniya üzərində qələbəyə görə", "Yaponiya üzərində qələbəyə görə" medalları ilə təltif olunmuşdur.

Müharibə illərində Azərbaycandan olan qadın tibb işçiləri də döyüş cəbhələrində kişilərlə birlikdə böyük və şərəfli döyüş yolu keçmişlər**.** Smolensk vilayətində "partizan həkim" ləqəbli Aliyə Fətulla qızı Rüstəmbəyova tibb

təhsilinə Azərbaycan Tibb Universitetində başlamış, yuxarı kurslarda təhsilini I Leninqrad Tibb İnstitutunda davam etdirmiş, bir müddət Özbəkistanda işləyəndən sonra görkəmli terapevt-alim, akademik M.S.Vovsinin klinikasında əmək fəaliyyətinə başlamışdı. Müharibənin ilk günlərindən cəbhə bölgələrində yerləşən tibbi -sanitar hissələrindən birində iştirak edən A.Rüstəmbəyova 1942-ci ildə keçirilən döyüşlər zamanı mühasirəyə düşmüş, Smolensk vilayətində olan partizan dəstələrindən birinə qoşulmuşdu. O, dəfələrlə döyüşlərin ən qızğın çağlarında faşistlərin atəşləri altında yaralı partizanlara tibbi yardım göstərmiş, 1942-ci ilin iyun ayında keçirilən döyüşlər zamanı həlak olmuşdur. Ulu öndər Heydər Əliyev "Oktyabr" jurnalının 1972-ci ildə çap edilmiş 6-cı nömrəsindəki yazısında Smolensk vilayətində partizan dəstələrindən birində döyüşən şərəfli azərbaycanlı qızı, hərbi həkim Aliyə Rüstəmbəyovanın igidliyini yüksək dərəcədə qiymətləndirmişdir [11,s.59].

1960-cı ildə general-leytenant Y.İ.İdilov "Biz Sevastopolu qoruyuruq" xatirə kitabında yazırdı: "…Sanitar hissənin rəisi Marmanşteyn öz təsərrüfatının boşaldılmasına başlayır. Tibb bacıları və sanitarlar tibb alətləri və sterilizə edilmiş materiallarla dolu qutuları və yükləri daşıyırlar. Nəzərim ixtiyarsız olaraq iki qız sanitar üzərində dayanır. Ciddi donanma forması bu qızlara necə də yaraşır! Gürcü Keto Xomereki və azərbaycanlı Əsmər Həsənova… Əsmər arıqdır, incə sifətli, qarayanızdır" [6,s.27].

Tibb bacısı Əsmər Əkbər qızı Həsənova Sevastopol müdafiəçilərinin ən yaxın köməkçisi idi. O. qanlı döyüş meydanında onlarca yaralı döyüşçünün həyatını ölümdən xilas etmişdi. Ə.Həsənova öz döyüş rəfiqəsi Keto Xomeriki ilə 25 nəfər yaralı əsgəri sıldırım qayalar arasındakı bir mağarada gizlədərək, iki həftədən artıq onların qayğısına qalmışdı. Cəsur vətənpərvərlər yaralıları yemək və su ilə təmin etmək üçün dəfələrlə faşistlər tərəfindən ciddi nəzarət olunan rayona getmiş, ölümlə üz-üzə gəlməkdən belə çəkinməmişdilər. Həmin yaralılardan biri, zabit B.Süleymanov tibb bacısı Ə.Həsənovaya məktubunda yazırdı: *"Əsmər bacı! Mən 1942-ci ilin iyun ayını xatırlayıram, həmin ağır günlərdə Sevastopolun tunellərində darısqal mağaralarda yaralı əsgərlərə sizin necə qayğı ilə xidmət etdiyinizi yadıma salıram, mən də həmin yaralılar içərisində idim, o günləri xatırlayıram və heç bir zaman unutmayacağam*". Sevastopolda vəziyyət gərginləşərkən Ə.Həsənova sualtı qayıqda Tuapseyə göndərilən 50 nəfər ağır yaralı əsgər və zabiti müşayət etmiş, onlara tibbi yardım göstərmişdi. Sevastopolun müdafiəsində şöhrət qazanmış məşhur 7-ci dəniz briqadasının komandiri general leytenant İ.İ.Sidirov "Biz Scvastopolu müdafiə edirdik" adlı əsərində Ə.Həsənovanın və onun rəfiqəsinin xidmətlərini yüksək qiymətləndirərək yazır ki, bu, bədəncə zəif, qaraqaş, qaragöz qızlar ... bütün müsbət keyfiyyətləri özlərində təcəssüm etdirmişdilər [11, s.61].

1921-ci ildə Nuxada (indiki Şəki) anadan olmuş Manafova Pakizə Yaqub qızı Nuxa Tibb Məktəbini bitirmiş, 1941-ci ilin payızında orduya

səfərbər olunmuşdu. Pakizə Manafova yüzlərlə yaralını ölümdən xilas etmiş, yeri gələndə əsgərlərlə yanaşı döyüşmüş, 1943-cü il fevral ayının 28-də Azov dənizi sahilində gedən döyüşlər zamanı həlak olmuşdur. P.Manafovanın döyüş xidmətləri orden və medallarla qeyd edilmişdir. Şəkidəki küçələrdən biri P.Manafovanın adını daşıyır [3. s.196].

Məmmədova Dürrə Abbas qızı 1923-cü ildə Nuxada dünyaya gəlmiş, 1940-cı ildə Bakı Əczaçılıq Texnikumunu bitirmiş, müharibə başlayana qədər Nuxadakı 85 №-li aptekdə işləmiş və könüllü cəbhəyə getmişdir. Novorossiysk şəhəri 43 nömrəli hərbi-dəniz donanmasının sərəncamına göndərilən gənc Dürrə sonralar Novorossiysk Hərbi-Dəniz Donanmasının sanitar anbarına köçürülmüş, tibb işçisi kimi 18-ci ordunun Qara dəniz hərbi hissələrinin dərmanlar, sarğı ləvazimatları və tibbi avadanlıqlarla təchizi məsələləri ilə məşğul olmuş, yaralılara yardım göstərmişdi. D.A.Məmmədovanın döyüş şücaətləri "Qırmızı Ulduz" ordeni, 13 medal və fəxri fərmanlarla qiymətləndirilmişdi.

1948-ci ildə tibb xidməti leytenantı rütbəsi ilə ordudan tərxis olunan D.Məmmədova 1949-1951-ci illərdə Leninqradda (indiki Sankt-Peterburq), 1951-1961-ci illərdə Uzaq Şərqdə hospitallarda, 1961-ci ildən respublika Baş Apteklər İdarəsində çalışmışdı. 1965-ci ildən Müharibə Veteranları Sovet Komitəsinin Bakı şöbəsinin sədr müavini, 1978-ci ildən Respublika əhəmiyyətli fərdi pensiyaçı olan D.Məmmədova "Tibb xidməti əlaçısı" döş nişanına, "Azərbaycanın əməkdar səhiyyə işçisi" fəxri adlarına layiq görülmüşdü. Onun döyüş yolu haqqında oçerk, şeir və povest yazılmışdır. Dürrə Abbas qızı Məmmədova 2010-cu ildə vəfat etmişdir [3, s.239].

1942-ci ilin iyulunda Stalinqrada gələn tibb bacısı Həlimə Miri qızı Rzayeva 3 ay ərzində 300-dən çox döyüşçünün həyatını xilas etmişdi. Tibb və döyüş xidmətlərinə görə o. yüksək dövlət mükafatları almışdı [10,s.65-66].

Tibb xidməti leytenantı 416-cı diviziyanın 1373-cü polkunun sanitar taqımının komandiri, Mozdokdan Berlinə qədər döyüş yolu keçmiş Rübabə Əhmədova II dərəcəli "Vətən müharibəsi", "Qırmızı Ulduz" ordenləri və "Döyüş xidmətlərinə görə" medalı ilə təltif olunmuşdur [12,s.51].

1941-ci il iyunun 22-də başlanan müharibə 1945-ci il mayın 9-da Hitler Almaniyasının məğlubiyyəti ilə nəticələndi. Təkcə Sovetlər birliyi müharibədə 29 milyon nəfərə itki verdi [8, s.7]. Sovet İttifaqının 72 min şəhər və kəndi dağıdıldı, 32 min sənaye müəssisəsi məhv edildi, 65 min km. dəmiryol xətti sıradan çıxarıldı. Sovet İttifaqının qərbində yerləşən ən başlıca sənaye rayonları (sənaye müəssisələrinin əksəriyyəti də məhz SSRİ-nin Avropa hissəsində yerləşirdi) demək olar ki, iki dəfə dağıntıya məruz qaldı.

Müharibədə 50 milyondan çox insan həlak olmuş, 100 milyondan çox insan yaralanmış və şikəst qalmışdı. Faşizmə qarşı mübarizədə 121 nəfər Azərbaycan SSR vətəndaşı (onlardan 43 nəfəri milliyyətcə azərbaycanlı idi) Sovet

İttifaqı Qəhrəmanı adına, Həzi Aslanov bu ada iki dəfə (1942 və 1991) layiq görüldü, 30 nəfər "Şöhrət" ordeninin tam üç dərəcəsinin (onlardan 15 nəfəri milliyyətcə azərbaycanlı idi) kavaleri oldu.

## Ədəbiyyat


1. Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı, İşıq, 1975, 318 s.
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai Sənədlər Arxivi (ARPİİİSSA),
   Fond №1, siyahı № 26, iş № 239, vərəq-1-3
3. Azərbaycan SSR II dünya müharibəsində (1939-1945). Bakı, İdeal-Print MMC, 2021, 970 s.
4. Hacıyev N. Unudulmaz qəhrəmanlıq. Bakı, Gənclik, 1969, s.67
5. İsmayılov İ. Z. Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı. Bakı, Qızıl Şərq mətbəəsi, 2000, 192 s.
6. Məmmədov S.S. Azərbaycanın şanlı qızları. Bakı, 1988.
7. Mədətov Q. Azərbaycan Böyük Vətən müharibəsində. Bakı, AzSSR EA, 1965, 503 s.
8. Sultanov Ç. Bakı nefti dünya şahmat taxtasında. 1939-1945-ci illər (rus dilindən tərcümə) Bakı, TEAS Press, 2016. 564 s.
9. Süleymanov M. Azərbaycan Ordusunun tarixi. IV cild. Bakı, Maarif, 2018. 800 s.
10. Zeynalov Ə. Azərbaycan tibb işçiləri Böyük Vətən müharibəsində, Tarixin metodoloji və aktual problemləri. Beynəlxalq elmi-nəzəri konfrans. Tezislər. Bakı, 2007, s.65-66.
11. Zeynalov Ə. Azərbaycanin tibb işçiləri 1941 1945-ci illər müharibəsində, Azərbaycan 1941-1945-ci illər maharibəsində (Məqalələr toplusu). Bakı, Elm, 2008. 224 s.
12. Вклад Азербайджана в победу над фашизмом / авторский коллектив: В.А. Кулиева, А.А. Гусейнов, Г.А. Мадатов [и др.] ; главный редактор Вафа Кулиева, Курск Планета, 2022, 312 с.
13. Они освобождали Молдавию, они штурмовали Берлин: (Воспоминания и очерки о 5-ой ударной армии) /Сост. Свиридов И.К. Марчук Ю.А. / Кишинев, 1984, (Библ. Серия МССР), 183 с.

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2024, 4 (45), s.126-131

# AZƏRBAYCANDA XEYRİYYƏÇİLİK HƏRƏKATINA MƏNƏVİ VƏ SOSİAL –İQTİSADİ FAKTORLARIN TƏSİRİ ( XIX ƏSRİN 70-Cİ İLLƏRİ-XX ƏSRİN ƏVVƏLLƏRİ)

**Zakir Kərimov**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
zakir.kerimov.1955@ mail.ru

***Açar sözlər:*** *mənəvi, sosial-iqtisadi, yoxsulluq, xeyriyyəçilik*

*XIX əsrin ikinci yarısı-XX əsrin əvvəlləri Azərbaycanın sosial-iqtisadi həyatı ciddi və köklü dəyişikliklər ilə əlamətdar olmuşdur: burjua münasibətləri təşəkkül tapır, cəmiyyətin sosial strukturunda ciddi kəmiyyət və keyfiyyət yeniləşməsi gedir, sosial təbəqələşmə dərinləşir, əhalinin sürətlə kasıblaşması prosesi gedirdi. Bu xüsusilə cəmiyyətin əsas məhsuldar qüvvəsi olan fəhlə və kəndlilərin simasında özünü aydın biruzə verirdi. Rus imperiyası onlara qayğı göstərmirdi, bu imperiyanın sinfi mahiyyətindən, həm də qeyri-rus xalqlara münasibətindəki şovinizm siyasətindən doğurdu.*

*Məqalədə göstərilir ki, məsələ belə olduqda milli ziyalılar və burjuaziya cəmiyyətin ehtiyac içində yaşayan hissəsinin faydasına xeyriyyəçilik fəaliyyəti ilə məşğul oldu. Bu daha çox islam dinin təsirindən, milli təəssübkeşlikdən və siyasi amillərindən irəli gəlirdi. Beləliklə, göstərilən məqalədə XIX əsrin 70-ci illəri –XX əsrin əvvəllərində ölkəmizdə xeyriyyəçiliyə təsir edən mənəvi, sosial-iqtisadi aspektlər araşdırılmışdır.*

## ВЛИЯНИЕ ДУХОВНЫХ И СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИХ ФАКТОРОВ НА БЛАГОТВОРИТЕЛЬНОЕ ДВИЖЕНИЕ В АЗЕРБАЙДЖАНЕ (70-Е ГОДЫ 19 ВЕКА - НАЧАЛО 20 ВЕКА)

**Закир Каримов**

***Ключевые слова:*** *моральная, социально-экономическая, бедность, благотворительность.*

*Во второй половине XIX - начале XX века социально-экономическая жизнь Азербайджана ознаменовалась серьезными качественными изменениями: формировались буржуазные отношения, социальная структура общества претерпевала серьезное количественное и качественное обновление, социальное расслоение углублялась, а население быстро обеднело, это особенно проявилось в лице рабочих и крестьян, которые являются основной производительной силой общества.*

*Российская империя не заботилась о них , это было связано с классовым характером империи и политикой шовинизма по отношению к нерусским народам.*

*В статье показано, что в таком случае национальная интеллигенция и буржуазия занимались благотворительной деятельностью на благо малоимущей части страны. Это происходило главным образом под влиянием ислама, национального фанатизма и политических факторов.Так, в указанной статье страна в 1870-е годы - начале XX века -исследованы моральные, социально-экономические аспекты, влияющие на благотворительность.*

## HE INFLUENCE OF MORAL AND SOCIO-ECONOMIC FACTORS ON THE CHARITY MOVEMENT IN AZERBAIJAN (1970S-EARLY 20TH CENTURY)

**Zakir Karimov**

***Keywords:*** *moral, socio-economic, poverty, charity*

*The second half of the 19th century-early 20th century The socio-economic life of Azerbaijan was marked by serious qualitative changes: bourgeois relations were forming, serious quantitative and qualitative renewal was taking place in the social structure of society, social stratification was deepening, and the process of rapid impoverishment of the population was taking place. This was especially clearly manifested in the face of workers and peasants, who were the main productive force of society. The Russian empire did not care for them, which was due to the class nature of the empire, as well as the chauvinistic policy in its attitude towards non-Russian peoples.*

*The article shows that, in this case, the national intellectuals and the bourgeoisie engaged in charitable activities for the benefit of the needy part of society. This was mainly due to the influence of the Islamic religion, national fanaticism and political factors. Thus, the article examined the moral, socio-economic aspects that influenced charity in our country in the 70s of the 19th century - the beginning of the 20th century.*

Xeyriyyəçilik Azərbaycan xalqının min illər ərzində təşəkkül tapmış mentalitetinin üzvi hissəsidir. Xeyriyyəçilik cəmiyyətin faydasına yönəlmiş təmannasız fəaliyyətdir. Göstərilən zaman çərçivəsində xeyriyyəçilik əsasən iki formada təzahür edirdi: fərdi təşəbbüslər və xeyriyyə cəmiyyətləri.

Tarixən ölkəmizdə insanlarda xeyriyyəçilik hissinin formalaşmasına inancların, xüsusən islam dininin dərin təsiri olmuşdur. İnsanların savab əməllərinə görə axirətdə allah tərəfindən mükafatlandırılacaqları inamı da bu

işdə az rol oynamamışdır. Unutmaq olmaz ki, insanların xatirələrində müsbət şəxsiyyət kimi iz qoymaq və əbədiləşmək arzusu da bu hissin formalaşmasına öz təsirini göstərmişdir. Bəhs olunan dövrdə ölkəmizdə öz toplumunun faydasına təmənnasız çalışan qeyri-azərbaycanlıların da bizim yeni formalaşan sahibkarlar sinfinə, ziyalılar təbəqəsinə örnək ola biləcək fəaliyyəti də danılmazdır. XX əsrin əvvəllərində ölkəmizdə xeyriyyəçilik hərəkatı kütləvi xarakteri hal almışdır. Təbii ki, bu kapitalist münasibətlərinin inkişafı və yaratdığı sosial-iqtisadi reallıqlarla bağlı idi. Bu sistemin bütün mütərəqqi cəhətlərinə baxmayaraq məhz bu dövrdə zəhmətkeşlərin istismarı güclənmişdir.

Azərbyaycanda kapitalizmin inkişafı burjuaziya ilə eyni vaxtda fəhlə sinfinin meydana çıxıb təşəkkül tapmasına səbəb oldu. Bakı proletariatının sayı 60-65 min, bütün Azərbaycanda isə 90-100 min nəfər idi. Bakı proletarları neft sənayesi ilə yanaşı yüngül və yeyinti sənaye müəssisələrində, dəniz donanmasında, inşaat işlərində, dəmir yolunda və s., digər bölgələrdə isə fəhlələr dağ-mədən, tikinti pambıq təmizləmə, ipək emalı, balıq vətəgələri kimi müəssisələrdə çalışırdılar.

Çar Rusiyasında, xüsusən onun ucqarlarında fəhlə sinfinin vəziyyəti son dərəcə ağır idi. Azərbaycan proletariatının iş şəraiti və həyatı dözülməz idi. Çar mütləqiyyəti və burjuaziyanın hökmranlığı dövründə onların nəsibi üzücü iş, aclıq və dilənçilik, tam hüquqsuzluq olmuşdur.

İmperyanın başqa ucqarlarında olduğu kimi, inkişaf etməkdə olan kapitalist münasibətlərinin kapitalizmdən əvvəlki münasibətlərlə çulğaşdığı Azərbaycanda da fəhlələr xüsusilə şiddətli istismar və əsarətə məruz qalmışdır. Burada həm kapitalist, həm də yarımfeodal istismar üsulları geniş tətbiq olunurdu. Azərbaycanlı fəhlələr çarizmin polis əsarəti ilə bərabər, həm də şiddətli milli əsarəti üzləşirdi. Azərbaycanlı fəhlələr nəinki yerli kapitalistlər–azərbaycanlı, rus, erməni, həm də, xarici burjuaziya tərəfindən şiddətli şəkildə istismar edilirdilər.

Azərbaycanın sənaye müəssilərində son dərəcə uzun iş günü mövcud idi, 12-14 saat işləmək adi hal idi. Neft mədənlərində iki növbəli iş sistemi mövcud idi. Hər növbədə fəhlələr azı 12 saat şləyirdilər. Bir çox hallarda mədən və müəssisələrdə iş günü 14-16, bəzi hallarda isə gündə 18 saata çatırdı. Fəhlələrin istirahət günləri yox idi. Bakının neft mədənlərində iş günlərinin sayı bir ildə 360 gün, Rusiyanın daxili quberniyalarında isə 230-300 günə çatırdı.

Azərbaycan fəhlə sinfi ağır zəhməti müqabilində cüzi əmək haqqı alırdı. Aşağı ixtisaslı fəhlələr xüsusilə az məvacib alırdı.

XIX əsrin sonlarında neft mədənlərində müxtəlif maaş formaları mövcud idi: aylıq, gündəlik, görülən iş . Aylıq iş forması daha çox yayılmışdı.

Əmək haqlarının ödənilməsində qeyri-bərabər müstəmləkəçilik prinsipi hökm sürürdü. Maaşlar ödənilən zaman milli mənsubiyyət nəzərə alınırdı. Azərbaycanlı fəhlələr, xüsusən Güney Azərbaycandan olan fəhlələr eyni işə

görə başqa millətlərə nisbətən az maaş alırdılar. Bu da onlara ailələrinin maddi-məişət, səhiyyə ehtiyaclarını və uşaqlarının təhsil xərclərini ödəməyə kifayət etmirdi. 1893-cü ildə neft mədənlərində ixtisası olmayan fəhlələr il ərzində orta hesabla 226 manat, başqa sözlə ayda 20 manat əmək haqqı aldıqları halda, ixtisaslı fəhlələr müvafiq olaraq 556 manat, yaxud ayda 50 manat qazanırdılar [1, s. 313-314 ]. Qadın və uşaqlara daha az əmək haqqı verilirdi. Onlar kişilərlə bərabər səviyyədə işləsələr də 20-50 faiz az əmək haqqı alırdılar.

Azərbaycan fəhlələrinin mənzil şəraiti təsəvvür edilməz dərəcədə ağır idi. Onlar kirayə etdiyi kazarmalarda, ailəli fəhlələlər isə daxmalarda, damlarda yaşayırdılar. Fəhlələrin əmək haqqının çox hissəsini mənzil kirayəsinə xərcləyirdilər. Kirayə haqqı Bakı şəhərində ölkənin digər rayonlarına nisbətən daha yüksək idi. Burada fəhlələr ən yararsız mənzillərə maaşlarının 20%-ni verməyə məcbur idilər. Əmək haqqına əlavə verilən “mənzil pulları”nı fəhlələrin çox cüzi hissəsi alırdı. İşçilər çox hallarda yemək bişirmək üçün istifadə etdikləri neft və mazuta, mənzillərin isidilməsinə və istifadə etdikləri suya görə də haqq ödəyirdilər.

Əgər 1897-ci ildə Şimali Azərbaycan əhalisi 1.876.7 min nəfər idisə, 1910-cu ildə 2.317 min, 1913-cü ildə 2.339 nəfər idi. Əhalinin say artımı təbii amillərlə yanaşı digər ölkələrdən, o cümlədən Cənubi Azərbaycandan gələn köçkünlərin gəlişi və çarizmin köçürmə siyasəti ilə də bağlı idi. Azərbaycanda yeni istehsal sahələrinin meydana çıxdığı yerlər həm müflisləşmiş əhalinin bir hissəsini, həm də Rusiya quberniyasıdakı və Cənubi Azərbaycandakı kəsbkarları bura cəlb edirdi [ 2 , s.93 ]. Fəhlələr taleyin ümidinə buraxılmış olurdu. Cüzi əmək haqqı, ağır mənzi-məişət şəraiti fəhlələrin həyatını dözülməz edirdi.

Deməli, digər müstəmləkə ucqarlarında olduğu kimi Azərbaycanda da fəhlələrin hüquqsuzluğu, dilənçi vəziyyəti , maarifdən və mədəniyyətin digər sahələrindən təcrid olunması özünü daha qabarıq göstərirdi.

Kapitalist münasbətlərinin inkişafı ilə bağlı istər dövlət, istərsə də sahibkar kəndliləri arasıda təbəqələşmə prosesi gedirdi. Kəndlilər sürətlə yoxsul, ortabab və varlılara (qolçomaq) ayrılırdı. H.Həsənov qeyd edir ki, Şamaxı və Göyçay qəzalarında dövlət kəndlilərinin torpaqlarının bəylər və hər cür sahibkarlar tərəfindən tutulmasının genişlənməsi onların vəziyyətini çox ağırlaşdırmışdı. Əslində qəzaların hamısında bütün kəndlilərin vəziyyət belə idi [ 5 , s.19 ].

Dövlət kəndində az torpaqlı və ortabab kəndlilərinin bir hissəsi öz təsərrüfat müstəqilliyini itirir, əsarətə düşür, var-yoxdan çıxırdı. Əgər 1884-cü ildə Şimali Azərbaycanda 18.831 nəfər torpaqsız kəndli vardısa, 1895-ci ildə onların sayı 36709 nəfər olmuşdur [6 , s.282 ]. 1870-ci il 14 may islahatından sonra nəinki sahibkar torpağında yaşayan kəndlilərin, həm də dövlət torpağında yaşayan kəndlilərin torpaqlarının mülkədarlar tərəfindən tutulması genişləndi. XIX əsrin 80-ci illərində Bakı quberniyasında dövlətə məxsus olan

təxminən 1077 kənddən 31-i, Yelizavetpol quberniyasınının 707 kəndindən 7-si tamamilə torpaqsız idi [ 7, s.72-74 ]. Torpaqsız kəndlilər ağır şərtlər altında ya kənddə, ya da şəhərlərdə muzdlu kimi çalışırdılar. Maddi vəziyyətin ağırlığı, vergilərin çoxluğu və digər səbəblər kəndliləri pay torpağını satmağa vadar edirdi. Çar hökuməti qadağa etməsinə baxmayaraq kimsə buna əməl etmirdi [ 4 , s. 19 ].

Əhalinin çox hissəsini təşkil edən kəndlilər də məhrumiyyət içində yaşayırdılar . Həm dövlət (xəzinə), həm də sahibkar kəndlilərinin ən adi hüquq və azadlıqları yox idi. Pay torpaqlarının bəylər, ağalar tərəfindən zəbt edilməsi, ağır vergi və mükəlləfiyyətlər, suvarma suyunun çatışmaması və s. onların həyatını ağırlaşdırır, onların ailələrinin, həmçinin övladlarının maddi-mənəvi və s. ehtiyaclarının normal ödənilməsinə mane olurdu.

Kəndlilərin bir hissəsinin ümumiyyətlə torpağı yox idi , əksəriyyətini aztorpaqlılar təşkil edirdi. 1917-ci ilin əvvəllərində Yelizavetpol(Gəncə) və Bakı quberniyalarında 16 min ailənin (76 min nəfərin )torpağı yox idi [ 3 , s.23 ] . Yalnız Bakı quberniyasında torpağı olmayan ailələrin ümumi sayı 16 mini keçmişdi [ 3, s.29]. Bu cümlələrdə də müəyyən fərqli cəhət olsa da, fakt faktlığında qalır, hər iki quberniyada torpaqsız ailələrin sayı çox idi. Aztorpaqlı və torpaqsız kəndlilər ya varlıların torpaqlarını ağır şərtlərlə icarəyə götürür, ya da ruzu qazanmq üçün kəsbkarlığa gedirdilər .

Dövlət kəndliləri təsərrüfatlarını ayaq üstə saxlamaq və ailələrini dolandırmaq üçün sələmçilərdən borc almaq məcburiyyətində qalırdılar. Bununla da onlar sələmçilərin acgöz istismarına məruz qalırdılar. Borcu məhsulla ödəyən kəndlilər onun dəyərinin 30-40%-ni itirirdilər [ 5, s.186 ]. Kəndlilərdən alınan çoxsaylı vergilər onların vəziyyətini daha da ağırlaşdırırdı . Sahibkar kəndliləri bəy-mülkədar torpaqlarından istifadə əvəzində məhsulun onda bir hissəsindən yarisına qədərini onlara verirdilər. Dövlət kəndliləri də bir sıra mükəlləfiyyətləri icra etməklə yanaşı, bəzi vergilər də ödəyirdilər.

1870-ci il 14 may Kəndli Əsasnaməsinə görə Rusiyadan fərqli olaraq , Azərbaycanda pay torpaqlarının ödənclə satın alınması məcburi deyildi və bu işdə hökumət kəndlilərə heç bir pul yardımı göstərmirdi. Azərbaycan kəndlilərinin pay torpaqlarının çatışmamazlığına baxmayaraq çarizmin müstəmlə və ruslaşdırma siyasətinə uyğun olaraq Rusiydan ölkəmizə köçürülənlərin sayı getdikcə artırırdı. Bu da yerli kəndlilər üçün ağır fəlakətə çevrilirdı. Yerli kəndlilərin torpaqlarını alıb Rusiyadan köçürülənlərə verirdilər. Bunun nəticəsində yerli əhali torpaqlarından qovulur, onlar aztorpaqlılıqdan kəskin əziyyət çəkirdilər.

Məsələ onda idi ki, Azərbaycanda əhalinin artımı Rusiyadakı artımından yüksək idi. 1913-cü ildə Azərbaycanda 57 min uşaq doğulmuşdu. Əgər Rusiya imperiyasının Avropa hissəsisində doğulanların hissəsi hər 1000 min nəfərə 439 idisə, onlardan 271-i ölür, cəmi 168 –si qalırdısa , Azərbaycanda doğulan-

ların sayı 442, onlardan ölənlərdən 255, qalanlar isə 187 idi [ 2 , s.94 ]. Lakin çar hökuməti əhalinin artım sürəti ilə bağlı ortaya çıxan problemlərin həlilinə diqqətlə, qayğı ilə yanaşmırdı.

Kəndli həyatının mühüm məsələlərindən biri uşaqların tərbiyəsi idi. Kəndlərdə mədəni-maarif müəssisələri olmadığından və ya kəndlərin çox az hissəsində məktəblər olduğundan uşaqların tərbiyəsiylə valideynləri məşğul olurdu. Lakin onlar zehni və mənəvi inkişaf cəhətdən geri qalırdı. Çünki onların valideynləri də savadsız idi. Digər tərəfdən iri kəndlər və qəza mərkəzləri olan şəhərlərin çoxunda məktəb, kitabxana, klub və digər mədəni-maarif ocaqları yox idi. Çar Rusiyası ölkəmizdə xalq maarifinin inkişafına önəm vermədiyi üçün kəndlərdə savadlı adamlar az idi.

Lakin təzad onda idi ki, çarizmin istəyib – istəmədiyindən asılı olmayaraq sənaye və kənd təsərrüfatında kapitalistcəsinə inkişafı savadlı kadrlara tələbatın atrtmasına səbəb olurdu. İstehsalatda gedən texniki tərəqqi və məhsuldarlığı artırmaq amili fəhlələrin savadlanmasını zəruri edirdi. Təbii ki, çar hökuməti azərbaycanlıları da “ yad”, “özgə” xalq hesab edərək, həm də savadın onların milli şüuru oyadacağından narahat olaraq kütləvi şəkildə savadlanmasıda maraqlı deyildi. Belə olanda azərbaycanlı xeyriyyəçilər fəaliyyətə keçdi. Xeyriyyəçiliklə əsasən cəmiyyətin imkanlı hissəsi sayılan sənayeçilələr, tacirlər , mülkədarlar, müəyyən dərəcədə ziyalılar məşğul olurdu. Xeyriyyəçilik xalqımızın maariflənməsində, şəhər və digər yaşayış məntəqələrimizin abadlaaşmasında , əhalinin imkansız hissəsinin ehtiyaclarının müəyyən dərəcədə ödənilməsində müsbət rol oynamışdır. Xeyriyyəçiliyin coğrafi hüdudları bütün Azərbaycanı əhatə etmişdir. Azərbaycan qadınları da öz xeyrixah əməlləri ilə heç də kişilərdən geri qalmamışdır. Xeyirxah əməllər insanları böyüdür, ucaldır, bədxah əməllər isə cılızlaşdırır, kiçildir. XIX əsrin sonu –XXəsrin əvvəllərində xeyriyyə cəmiyyətlərinin yaranması üçün fərdi xeyriyyəçilik bir növ zəmin olmuşdur.

## Ədəbiyyat

1. Azərbaycan tarixi. 7 cilddə, IV cild. Bakı, Elm, 2000, 508 s .
2. Azərbaycan tarixi. 7 cilddə, V cild. Bakı, Elm, 2001, 672 s.
3. XX əsr Azərbaycan tarixi. Bakı, Təhsil, 2009 , 558 s.
4. Niftəliyev R. XIX əsrin II yarısında Azərbaycan kəndlilərinin azadlıq hərəkatı. Avtoreferat, Bakı, 1999. 24 s.
5. Гасанов Г. Государственная деревня Азербайджана в конце XIX – начале XXвв. (По материалам Шемахинского и Геокчайского уездов). Автореферат. Баку, 1986. 25 с.
6. Гасанов Г. Из истории Северо Азербайджанской деревни в конце XIX –начале, Баку, Тахсил, 2007. 224 с.
7. Сегаль И.Л. Крестьянское землевладение в Закавказье. Типография К.П.Козловскаго. Тифлис, 1912. 154 с.

**TARİX, İNSAN VƏ CƏMİYYƏT-2024, 4 (45), s.132-142**

# ХРОНОЛОГИЯ 28-ЛЕТНЕЙ ГЕГЕМОНИИ СКИФОВ НА БЛИЖНЕМ ВОСТОКЕ

**Заур Гасанов**
Институт археологии и антроплоогии НАНА
zaurmail@gmail.com

***Ключевые слова****: Гегемония скифов, Мидия, Мадий, Киаксар, Ниневия.*

*В статье рассматривается хронология скифских походов и их 28-летней гегемонии на Ближнем Востоке в VII-VI веках до н.э. Основными источниками являются античные и ближневосточные письменные источники, включая работы Геродота, Страбона и других авторов. Геродот представляет три версии происхождения скифов, наиболее важной из которых является историческая, описывающая миграцию скифов из Азии. Скифы, победившие мидян, установили господство в Азии на 28 лет, которое завершилось в 595/4 году до н.э. Исследователи предлагают различные даты этого периода, с 640 по 585 гг. до н. э. Наиболее точной считается хронология 623/2–595/4 гг. до н.э. К важным историческим событиям, связанным с пребыванием скифов с Ближнем Востоке, относится падение Ниневии (612 г. до н. э.) и Мидийско-Лидийская война (590-585 гг. до н. э.). Также обсуждаются ошибки и неточности в интерпретации событий, касающихся мятежных скифов и их подчинения Киаксару.*

# SKIFLƏRİN YAXIN ŞƏRQDƏ 28 ILLIK HEGEMONLUĞUNUN XRONOLOGIYASI

**Zaur Həsənov,**

***Açar sözlər****: Skiflərin hegemonluğu, Midiya, Madiy, Kiaksar, Nineviya*

*Məqalədə, skif yürüşlərinin xronologiyası və onların eramızdan əvvəl VII—VI əsrlərdə Yaxın Şərqdə 28 illik hegemonluğu araşdırılır. Əsas mənbələr qədim Yaxın Şərq və Yunan yazılı mənbələri, o cümlədən Herodot, Strabon və başqa müəlliflərin əsərləridir. Herodot skiflərin mənşəyinin üç versiyasını təqdim edir, bunlardan ən mühümü skiflərin Asiyadan köçünü təsvir edən*

*tarixidir. Midiyaları məğlub edən skiflər 28 il ərzində Asiyada hökmranlıq qurdular və bu, e.ə 595/4-cü ildə başa çatdı. Tədqiqatçılar bu dövr üçün e.ə. 640-dan 585-ə qədər müxtəlif tarixlər təklif edirlər. Ən dəqiq xronologiya e.ə. 623/2-595/4 illər hesab olunur. İskitlərin Yaxın Şərqdə* ***mövcudluğu*** *ilə bağlı mühüm tarixi hadisələrə Ninevanın süqutu (e.ə. 612) və Midiya-Lidiya müharibəsi (e.ə. 590-585) daxildir. Üsyankar skiflər və onların Kiaksara tabe olması ilə bağlı hadisələrin alimlər tərəfindən şərhindəki səhvlərdən və qeyri-dəqiqliklərdən də bəhs edilir.*

## CHRONOLOGY OF THE 28-YEAR SCYTHIAN HEGEMONY IN THE MIDDLE EAST

**Zaur Hasanov,**

***Keywords****: Scythians hegemony, Media, Madyes, Cyaxares, Nineveh.*

*The article examines the chronology of the Scythian campaigns and their 28-year hegemony in the Middle East in the 7th-6th centuries BC. The main sources are Middle Eastern and ancient Greek written sources, including the works of Herodotus, Strabo and other authors. Herodotus presents three versions of the origin of the Scythians, the most important of which is the historical one, describing the migration of the Scythians from Asia. The Scythians, having defeated the Medes, established dominance in Asia for 28 years, which ended in 595/4 BC. Researchers offer different dates for this period, from 640 to 585 BC. The most accurate chronology is considered to be 623/2-595/4 BC. Important historical events associated with the Scythian presence in the Middle East include the fall of Nineveh (612 BC) and the Median-Lydian War (590-585 BC). Errors and inaccuracies in the interpretation of events concerning the rebellious Scythians and their subjugation by Cyaxares are also discussed.*

Информация о миграциях скифов и их государственных образованиях в период VII-VI вв. до н.э. приводиться в ближневосточных и античных письменных источниках. Ближневосточные письменные источники о скифах можно разделить на четыре группы: 1) ассиро-вавилонские; 2) иудейские; 3) ахеменидские; 4) вавилонские источники ахеменидского периода. Античные письменные источники представленны древнегреческими и римскими авторами, такими как Аристей, Ктесий, Страбон, Помпей Трог и Диодор Сицилийский. Наиболее ценным

письменным источником по этой проблеме является работа Геродота посвятившего скифам одну из девяти книг своей работы.

Геродот приводит три различные версии происхождения скифов. В первой из них описывается "происхождение скифов от Таргытая". Вторая версия посвящена “происхождению скифов от Геракла и дочери реки Борисфен". Эти две версии являются мифологическими и практически описывают социальную и этническую структуру скифского общества [см.: 10; 11]. Третья версия – историческая. Она описывает миграцию скифов из Азии в Северное Причерноморье, на Южный Кавказ и Ближний Восток. Геродот особо подчеркивает достоверность этого варианта, когда пишет – “ему я сам больше всего доверяю”. В соответствии с ней скифы, преследуемые массагетами, вышли из Азии, перешли реку Аракс (Волга) и продвинулись в Северное Причерноморье, вытеснив оттуда киммерийцев. Киммерийцы, убегая от скифов, держались справа от Кавказа, двигаясь по берегу Черного моря, пока не вторглись в Анатолию. Скифы сбились с пути, держась слева от Кавказа, и вторглись в Мидию [12, IV, 11-12].

Близкая версия этой истории была рассказана греческим поэтом Аристеем. Обе версии похожи с той лишь разницей, что у Аристея вместо массагетов скифов изгоняют из Азии исседоны, преследуемые аримаспами [12, IV, 13]. Эти сообщения указывают на то, что в Азии в VIII-VII вв. до н.э. происходили события, последствием которых стала миграция целой группы этносов. Наиболее западным из них были скифы, которые перешли Волгу. Это была серия военных конфликтов, происходивших по принципу цепной реакции.

Геродот дважды отмечает, что скифы прошли на Южный Кавказ не через Колхиду, а более длинной дорогой, оставив Кавказские горы справа. То есть они прошли через Дербент или же по одному из горных проходов в Грузии [12, I, 104; IV, 11-12]. В соответствии с Геродотом, в Мидии произошла битва скифов с мидянами, в результате которой было сломлено могущество мидян, а скифы распространили свое могущество по всей Азии.[1] Это могущество продолжалось 28 лет. В другом отрывке Геродот отмечает, что скифы во главе с Мадием, сыном Прототия, вторглись в земли мидян в то время, как Киаксар начал осаду ассирийской столицы Ниневии [12, I, 103-104]. Мадий помешал мидянам победить ассирийцев. Информацию о Мадие приводит и Страбон. Он пишет, что царь скифов Мадий победил и изгнал треров во главе с Кобом. Треры происходят из

[1] И.А.Бабаев пришел к выводу, что сражение между мидянами и скифами происходило на территории современного Северного Азербайджана [7, с.77].

Фракии. Страбон называет треров киммерийским племенем [19, I, 3, 21, XI, 8, 4, XIV, 1, 40].

Геродот объединяет информацию о преследовании скифами киммерийцев и сражении Мадия с мидянами в одном и том же отрывке. Он пишет: "Скифы во всяком случае, вступили в Мидию не этим путем, но, свернув с прямой дороги, пошли верхним путем, гораздо более длинным, оставляя при этом Кавказские горы справа. Здесь-то и произошла битва мидян со скифами. Мидяне потерпели поражение, и их могущество было сломлено. Скифы же распространили свое владычество по всей Азии" [12, I, 104]. Таким образом, согласно письменным источникам, битва мидян и скифов произошла где-то в центральной или восточной части Южного Кавказа. В соответствии с Геродотом, владычество скифов в Азии закончилось после того, как "Киаксар и мидяне пригласили однажды множество скифов в гости, напоили их допьяна и перебили" [12, I, 106]. Это событие исследователи относят к началу VI в. до н.э. После этого скифы возвращаются на Северный Кавказ и в Причерноморье. Возвратившись, они обнаружили, что их женщины вошли в связь со слепыми рабами, ухаживающими за скифскими лошадьми. От этого родилось новое поколение. После этого начинается война между скифами и потомками рабов [12, IV, 1-2]. В другом отрывке Геродот приводит информацию о том, как орда мятежных скифов-кочевников переселилась в Мидию и попросила у Киаксара убежища. Он дружественно принимает их и отдает им своих сыновей для обучения искусству стрельбы из лука. [12, I, 73-74]. Под термином "мятежные скифы" Геродот, несомненно, имеет в виду скифское племя, восставшее против царских скифов. Это "сыны слепцов" [см.: 9, с. 33-34]. Следует обратить внимание на распространенную ошибку исследователей, многие, из которых смешивают царских и мятежных скифов, которые были их рабами. Исходя из этого они приходят к ошибочному выводу о том, что царские скифы Мадия якобы были подданными Киаксара.

Существуют различные версии исследователей относительно упоминаемой Геродотом 28-летней гегемонии скифов на Ближнем Востоке. Е.Д.Филипс считает, что достаточно сложно точно установить даты 28-летнего правления скифов в Азии [2, p.129]. Другие авторы предлагают точные датировки владычества скифов в Азии. По мнению Г.Н.Курочкина, скифское владычество в Азии относится к 640-612 гг. до н.э. Это его утверждение основывается на мнении о том, что в 612 г. Ниневия могла быть взята мидянами во главе с Киаксаром [16, с.120].

И.М.Дьяконов относит 28-летнее господство скифов в Азии к 652-625 гг. до н.э. Его выводы основаны на предположении о том, что Геродот допустил ошибку в изложении событий. Дьяконов пишет: "У него

[Геродота] выходит, что Киаксар впервые осаждал Ниневию и потерпел поражение от скифов уже после проведенной им реформы армии и даже после войны с Лидией, которая, по словам самого же Геродота [12, I, 73], имела своим поводом изгнание скифов из Мидии, происшедшее по крайней мере на 28 лет позже. Очевидно, что геродотов порядок событий надо переставить…" [14, с.289]. Дьяконов неправильно интерпретирует информацию древнегреческого историка. В главе Геродота, на которую он ссылается в связи с проблемой "изгнания скифов из Азии", говорится о мятежных скифах, а не о царских скифах, возглавляемых Мадием.

А.И.Иванчик, исследуя информацию Геродота о 28-летнем могуществе скифов в Азии, ставит под сомнение длительность этого владычества. В качестве доказательства он так же, как и Дьяконов, приводит отрывок Геродота о конфликте мятежных скифов с Киаксаром. Иванчик пишет: "Здесь нет и речи о победе скифов над мидийцами; Киаксар вовсе не подчинен скифам, а наоборот принимает их на свою службу" [15, с.227]. В данном случае Иванчик неправильно понимает данные письменных источников. Он считает, что скифское господство в Азии следует относить к промежутку между 626 и 616 гг. до н.э. Он отмечает, что в это время Ассирия слабела и теряла территории, а Вавилон и Мидия недостаточно окрепли. По этой причине скифы получили значительную свободу действий [15, с.243]. Датировки Иванчика построены на его мнении о том, что скифы какое-то время были подчинены Киаксару. Как мы смогли убедиться выше, царские скифы никогда не были подчинены Киаксару. Датировки Иванчика и Дьяконова основаны на ошибочном прочтении письменных источников.

Существуют различные датировки периода ухода царских скифов из Мидии. М.И.Артамонов датирует его 585 г. до н.э. Согласно его точке зрения, окончание владычества скифов в Азии и их возвращение в Северное Причерноморье должно было произойти после поражения мятежных скифов, то есть к моменту заключения мира между Мидией и Лидией. Артамонов считает, что истинной причиной войны между Лидией и Мидией было не столько желание Лидийского царя Алиата укрыть беглецов, сколько ослабить Мидию с помощью мятежных скифов и усилить свой контроль в Каппадокии. Мнение Артамонова основывается на его калькуляции 28-летнего господства скифов в Азии, которое он отсчитывает с падения ассирийской столицы Ниневии в 612 г. до н.э. Если отсчитать с этой даты 28 лет, то мы остановимся на 585 г. до н.э. [6, с.33-34]. Датировка Артамонова не подтверждается историческими данными. А.Д.Гудли приводит точную дату окончания войны между Мидией и Лидией – 28 мая 585 г. до н.э. Эта дата точно устанавливается благодаря сообщению Геродота о том, что во время сражения, после которого

начались мирные переговоры, произошло солнечное затмение [1, I, 74, note 1]. Если война между Мидией и Лидией закончилась в 585 г. до н.э., то мятежные скифы убежали от Киаксара в Лидию в 590 г. до н.э. Соответственно, они прибыли в Мидию за несколько лет до этого. Если предположить, что они прибыли в Мидию в 593 и 592 г. до н.э., то возвращение царских скифов в Северное Причерноморье можно датировать 595 г. до н.э., поскольку именно это возвращение явилось причиной восстания и бегства "сынов слепцов", т.е. мятежных скифов.

И.Н.Медведская также считает, что рассказ Геродота о мятежных скифах и их подчинении Киаксару является доказательством того, что скифы не правили Азией, а напротив, служили мидянам [17, с.208]. С.Завадский считает, что конец гегемонии скифов было бы более правильно связывать с уходом скифов от Киаксара к лидийскому царю Алиату в 590 г. до н.э., то есть за пять лет до окончания войны между Мидией и Лидией. Другими словами, Завадский считает, что гегемония скифов оканчивается после того, как мятежные скифы убегают из Мидии [4, p.82].

Артамонов, Дьяконов, Завадский, Иванчик и Медведская допускают одну и ту же ошибку: они смешивают царских скифов возглавляемых Мадием с мятежными скифами, которые восстали против царских скифов в Северном Причерноморье. Мятежные скифы никак не могли быть властителями Азии, поскольку они в начале подчинялись царским скифам Северного Причерноморья, а затем (в начале VI в. до н.э.), убежав от них, подчинились мидянину Киаксару [12, I, 73]. Совершенно очевидно, что под мятежными скифами Геродот имеет в виду скифов, восставших против правителей скифской империи [12, IV, 1-2]. Ранее мы детально исследовали проблему сынов слепцов и мятежных скифов. Исследование показало, что под этими названиями имеются в виду киммерийцы, ассимилированные к VI в. до н.э. скифами и, соответственно, потерявшими свое этническое название [9; 11, с.359-382].

Смешивание царских и мятежных скифов прослеживается в работах большинства исследователей. Лишь небольшое количество авторов понимает, что мятежные скифы не могут быть правителями, то есть царскими скифами. Э.А.Грантовский отмечает, что различные скифские племена могли иметь различное происхождение и историю. Он отличает мятежных скифов от скифов Мадия и пишет, что "в начале VI в. до н. э. из-за одной группы скифов началась война мидян с лидянами" [13, с.43]. А.Ю.Алексеев также понимает, что под мятежными скифами Геродот имеет в виду "взбунтовавшихся скифов" переселившихся в Мидию уже после ухода царских скифов возглавляемых Мадием [5, с.122].

И.Н.Медведская ставит под сомнение информацию Геродота о 28-летнем владычестве скифов в Азии. Ее выводы основаны на малообоснованных калькуляциях Д.С.Раевского о длительности военной дееспособности скифского воина [18]. Выводы Медведской также основаны на фантастическом предположении о том, что Геродот сознательно дал ложную информацию о 28-летнем владычестве скифов для того, чтобы “объяснить таким образом причины некоторых событий более позднего времени” [17, с.162]. Э.А.Грантовский критикует концепцию Медведской и относит период скифской гегемонии к промежутку между серединами 630-х и 610-х гг. до н.э. [13, с.43].

С.Завадский считает, что скифы в период гегемонии, описанной Геродотом, контролировали только восточную часть Анатолии, а Мидия не была подчинена им. Что касается их 28-летнего правления, то Завадский не пытается привести его конкретные даты [4, p.89].

А.Ю.Алексеев, анализируя различные хронологические указания, вначале приходит к выводу, что Мадий скифский вторгся в Переднюю Азию в промежутке между 640 и 625 гг. до н.э. Он предлагает следующую хронологию событий, описанных Геродотом: 1) скифы во главе с Мадием вторгаются в Мидию в 620-х гг. до н.э., в то время, когда Киаксар брал Ниневию. Скифы побеждают мидийцев и становятся властелинами Азии [12, I, 104]; 2) затем в период до 610 г. до н.э. они доходят до границ Египта где их дарами и уговорами останавливает фараон Псаметих [12, I, 105]. на обратном пути часть скифов грабит храм в Аскалоне; 3) после всего этого Киаксар заманивает часть скифов на пир и, напоив, перебивает их. После этого восстанавливается власть мидян и они завладевают ассирийской Ниневией [12, I, 106; см. также: 5, с.122-123].

Что касается информации Геродота о том, что мидийцы завоевали Ниневию, то Алексеев считает, что здесь идет речь о взятии Ниневии в 612 г. до н.э. [5, с.122-123]. Однако Геродот ничего не говорит о том, когда мидийцы взяли Ниневию и покорили ассирийцев. Мидийцы могли взять Ниневию вместе с её ассирийским населением у скифов, получивших ассирийское наследие после 612 г. до н.э.

В.А.Белявский предлагает следующую датировку 28-летней гегемонии скифов в Азии основываясь на детальном сопоставительном исследовании древнегреческих, библейских и ассиро-вавилонских источников;

1) падение ассирийской столицы Ниневии – 612 г. до н.э. Это четырнадцатый год правления вавилонского царя Набопаласcара [3, p.15-16];

2) завершение войны между Мидией и Лидией вследствие солнечного затмения – 28 мая 585 г. до н.э. [1, I, 74, note 1];

3) победа персидского царя Кира над последним мидийским царем Астиагом – 550/549 гг. до н.э. Это шестой год правления Набонида [8, с.95, прим. 5].

Основываясь на этих данных, а также на информации о длительности правления Фраорта (22 года), Киаксара (40 лет) и Астиага (35 лет), представленной в работе Геродота, Белявский предлагает схему согласно которой, если сделать обратный отсчет от 35-летнего правления Астиага, то мы получим следующую хронологию правления мидийских царей:

585/84 – 550/49 годы до н.э. – 35-летнее царствование Астиага заканчивается после победы над ним Кира [12, I, 130].

625/24 – 585/84 годы до н.э. – 40-летнее царствование Киаксара [12, I, 106].

647/46 – 625/24 годы до н.э. – 22-летнее царствование Фраорта [12, I, 102].

В соответствии с Геродотом, Фраорт пал в бою во время своего похода на Ассирию [12, I, 102]. Таким образом, удается установить, что осада Нина (Ниневии) Киаксаром (месть за его отца Фраорта), о которой говорит Геродот [12, I, 103], не могла произойти ранее 625/24 гг. до н.э., поскольку Киаксар только тогда приходит к власти. Соответственно, версии Дьяконова, Курочкина и Иванчика, последовательно датирующих начало гегемонии скифов в Азии 652, 640 и 626 гг. до н.э., не могут быть приняты. Скифы не могли победить царя Киаксара в эти годы, поскольку он в это время еще не являлся царем. В целом вся хронология исследуемых событий по версии Белявского выглядит следующим образом:

647/46 – 625/24 гг. до н.э. – 22-летнее царствование Фраорта в Мидии [12, I, 102].

625/24 г. до н.э. – поражение и гибель Фраорта в войне с Ассирией [12, I, 102].

625/24 – 585/84 гг. до н.э. – 40-летнее царствование Киаксара в Мидии [12, I, 106].

Между 625/24 и 612 годами до н.э. – неудачная осада Ниневии Киаксаром и нашествие скифов. Начало 28-летней гегемонии скифов на Ближнем Востоке [12, I, 103-106].

612 г. до н.э. – падение Ниневии [3, p.15-16].

До 590 г. до н.э. – конец гегемонии скифов [12, I, 106; 8, с.96].

590-585 годы до н.э. – пятилетняя война между Мидией и Лидией [12, I, 73-74].

585 г. до н.э. – окончание войны между Мидией и Лидией в результате солнечного затмения [12, I, 74, 103; 1, I, 74, note 1].

585/84-550/49 гг. до н.э. – 35-летнее царствование Астиага в Мидии [12, I, 130; 8, с.95-96].

Белявский в результате сопоставления данных ближневосточных и древнегреческих источников приходит к выводу, что к концу 623 г. мидиец Киаксар начал осаду Ниневии. В этот период скифы вторглись в Мидию и победили Киаксара. Белявский отмечает, что только после этого скифы завоевали всю Переднюю Азию. Нашествие скифов он датирует 623/22 гг. до н.э. Белявский датирует скифскую гегемонию в Азии 622-594 гг. до н.э. [8, с.105, 127]. Наши собственные наблюдения позволяют прийти к выводу, что после того, как царские скифы уходят из Азии, события разворачиваются следующим образом.

594 гг. до н.э. – царские скифы уходят из Мидии, и возвращаются в Северное Причерноморье. Начинается война между ними и сынами слепцов [12, IV, 3].

593-592 гг. до н.э. – сыны слепцов убегают от царских скифов и под именем мятежных скифов прибывают в Мидию, где их принимает Киаксар [12, I, 73]

590 г. – мятежные скифы убегают от Киаксара в Лидию. Начинается война между Мидией и Лидией, которая длится 5 лет [12, I, 74].

585 г. до н.э. – заканчивается война между Мидией и Лидией.

В качестве дополнительного подтверждения Белявский приводит библейские свидетельства из Ветхого завета о “народе с севера”, который в науке идентифицируется со скифами. Первая информация приводится во “Второзаконии”, которое Белявский датирует 621-609 гг. до н.э. В нем говорится о “народе издалека, от края земли”, “народ, которого языка ты не разумеешь” [20, Дварим, 28: 49-57]. В книге пророка Софония, современника царя Иосии, есть информация об опустении и истреблении многих городов и захвате их земель пастухами, строящими там загоны для скота [20, Цфанья, 2: 4-6]. В книге пророка Иеремии, датируемой 622-594 гг. до н.э., говорится о народе издалека, “народ, которого языка ты не знаешь”, “колчан его - как открытый гроб; все они люди храбрые” [20, Пророк Ирмияу, 5:15-18]. Белявский отмечает, что все эти источники датируются периодом после 623 г. до н.э. То есть они являются современниками описанных ими событий [8, с.105-106]. Далее Белявский отмечает, что в 585 г. до н.э. пророк Иезекииль говорит о “властелинах севера”, как о погибшем народе [20, Пророк Иехезкель, 32: 30]. В завершение своей мысли он отмечает, что “рассказы Библии в целом ряде очень важных деталей буквально совпадают с тем, что говорит Геродот о скифах в Передней Азии” [8, с.107].

Как мы можем наглядно проследить на примере исследования Белявского, сопоставительное изучение древнегреческих и

ближневосточных письменных источников указывает на достоверность информации Геродота. Белявский отмечает, что информация Геродота о 28-летнем владычестве скифов указывает на то, что скифы участвовали во взятии ассирийской столицы Ниневии [8, с.96].

Исследование древнегреческих источников и их сопоставления с ближневосточными источниками позволило установить следующую хронологию событий приведших к гегемонии скифов в Азии. В 625/24 гг. до н.э. Киаксар становится царем Мидии. В 623/22 гг. до н.э. скифы под предводительством Мадия вторгаются в Мидию и побеждают Киаксара, затем они завоевывают весь Ближний Восток и правят им 28 лет. В период их 28-летней гегемонии скифы взяли Ассирийскую столицу Ниневию. В 595/94 гг. до н.э. после того, как Киаксар напоил и перебил скифов они уходят обратно в Северное Причерноморье. Начинается война между ними и сынами слепцов. В 593-592 гг. до н.э. сыны слепцов убегают от царских скифов и под именем мятежных скифов прибывают в Мидию, где их принимает Киаксар. В 590 г. до н.э. мятежные скифы убегают от Киаксара в Лидию. Начинается война между Мидией и Лидией, которая длится ровно 5 лет. В 585 г. до н.э. заканчивается война между Мидией и Лидией.

## Ədəbiyyat


1. Herodotus. The Persian Wars. Books I-II. Trans. Goodley, A. D. Cambridge–London, Harvard University Press, 1920, 528 p.
2. Phillips E. D. The Scythian Domination in Western Asia: its Records in History, Scripture and Archaeology. WorldArch, 1972. Vol. 4, No.2, p.129-138.
3. Wiseman D. J. Chronicles of Chaldaean Kings (626-556 B.C.) in the British Museum, London, The Trustees of the British Museum, 1956. 99 p.
4. Zawadzki S. The Fall of Assyria and Median-Babylonian Relations in the Light of Nabopolassar Chronicle. Poznan: A. Mickiewicz Univ. Press, 1988. 176 p.
5. Алексеев А. Ю. Хронография Европейской Скифии VII-IV веков до н.э. Санкт-Петербург: Гос. Эрмитаж, 2003. 416 с.
6. Артамонов М. И. Киммерийцы и скифы (от появления на исторической арене до конца IV в. до н.э.), ртамонов. Лениград: Ленинградский Университет, 1974, 156 с.
7. Бабаев И. А. Юго-восточный Кавказ в Мидийско-ахеменидское время (на основе письменных источников и новейших археологических исследований) Труды международной

конференции "Место и роль Кавказской Албании в истории Азербайджана и Кавказа". Баку: б.и. 2012, с.76-81.

8.Белявский В. А. Война Вавилона за независимость (627-605 гг. до н.э.) и гегемония скифов в Передней Азии, А. Д. Желтяков (ред.). Исследования по истории стран Востока. Ленинград: Изд. Ленинградского унив, 1964, с.93-127.

9.Гасанов З. Г. Киммерийцы и их место в истории Азербайджана: автореферат диссертации на соискание ученой степени кандидата исторических наук), Баку, 2008, 48 с.

10.Гасанов З. Г. Социально-культурные ценности скифов: древних ашгузов/ишкузов/гузов Астана: Тюркская академия, Prosper Print, 2013, 392 с.

11.Гасанов З. Царские скифы: этноязыковая идентификация «царских скифов» и древних огузов, New York: Liberty Publishing House, 2002, 486 с.

12.Геродот И. Пер. Стратановского Г.А. Ленинград: Наука, 1972. 600 с.

13.Грантовский Э. А. О хронологии пребывания киммерийцев и скифов в Передней Азии. ВДИ, 1994. № 3, с. 23-48.

14.Дьяконов И. М. История Мидии: от древнейших времен до конца IV в. до н.э, Москва, Ленинград АН СССР, 1956. 480 с.

15.Иванчик А. И. Накануне колонизации. Северное Причерноморье и степные кочевники VIII-VII вв. до н.э. в античной литературной традиции: фольклор литература и история. Москва–Берлин, Paleograph, 2005, 311 с.

16.Курочкин Г. Н. Хронология переднеазиатских походов скифов по письменным и археологическим данным. РА, 1994. №1, с. 117-122.

17.Медведская И. Н. Древний Иран накануне империи: история Мидийского царства, Санкт-Петербург: Петербургское востоковедение, 2010, 264 с.

18.Раевский Д. С. К толкованию числовых данных в древних исторических свидетельствах, Москва: Живая старина, 1997, №3, с. 18-21.

19.Страбон. География: в 17 книгах. Пер. Стратановского Г. А, Ленинград: Наука, 1964. 944 с.

20. URL: http://www.moshiach.ru/tanach.

# ŞAMAXIDA TURİZMİN İNKİŞAFI (2003-2023-CÜ İLLƏR)

**Zərifə Cavadova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
cavadova.zerife@mail.ru

***Açar sözlər:*** *İlham Əliyev, Şamaxı, turizm, turizm sənayesi , inkişaf*

*Azərbaycanda turizmin inkişafı prioritet sahələrdən biri kimi böyük maraq dogurur. Prezident İlham Əliyev 2003-cü il prezident seçkilərində qalib gəldikdən sonra bütün sahələrdə oldugu kimi, turizm sektorunda da mühüm qərarların qəbul edilməsinə, tədbirlərin həyata keçirilməsinə nail olmuşdur. İqtisadiyyatımızın prioritet sahələrindən biri kimi turizmin inkişaf tendensiyası həm də regionlarda, o cümlədən Şamaxıda da özünü qabarıq şəkildə göstərmişdir. Bəhs olunan bu illər ərzində Şamaxıda yeni turizm infrastrukturunun yaradılması, turizm sektorunun inkişafına nail olmaqdan ötrü sahibkarların bu sahəyə cəlb edilməsi, reklam marketinq işinin təşkili məqsədilə, ərazinin cografi mövqeyi, təbii şəraiti, təbiəti, mətbəxi, tarixi-mədəniyyət abidələri, turizm istirahət mərkəzləri haqqında məlumatlar toplanaraq sistemləşdirilmişdir.* *Şamaxıda təkcə yay və qış turizmi deyil, həm də kənd yaşıl turizmi də inkişaf etmiş, bu məqsədlə turistlərin cəlb edilməsi üçün müvafiq şərait yaradılmışdır. Bu isə regionlarda, o cümlədən Şamaxıda dövlət tarəfindən turizm sektoruna olan diqqət və qaygının nəticəsində mümkün olmuşdur.*

## РАЗВИТИЕ ТУРИЗМА В ШЕМАХЕ (2003-2023 ГГ.)

***Зарифа Джавадова***

***Ключевые слова:*** *Ильхам Алиев, Шемахы, туризм, туристическая отрасль, развитие*

*Туризм как одно из приоритетных направлений вызывает в Азербайджане большой интерес. После победы на президентских выборах 2003 года президент Ильхам Алиев сумел принять важные решения и реализовать меры как в сфере туризма, так и во всех сферах. Как одно из приоритетных направлений нашей экономики, тенденция развития туризма также заметно проявилась в регионах, в том числе в Шемахе. В целях создания в эти годы в Шемахе новой туристической инфраструктуры, привлечения предпринимателей в эту сферу. Для достижения развития туристической сферы, а также для организации*

*рекламно-маркетинговой работы собраны и систематизированы сведения о географическом положении района, природных условиях, природе, кухне, памятниках истории и культуры, туристско-рекреационных центрах. В Шемахе развит не только летний и зимний туризм, но и сельский зеленый туризм, и с этой целью созданы соответствующие условия для туристов. Это стало возможным благодаря вниманию и заботе государства о туристической сфере в регионах, в том числе в Шемахе.*

## TOURISM DEVELOPMENT IN SHAMAKHI (2003-2023)

**Zarifa Javadova**

***Key world:*** *Ilham Aliyev, Shamakhi, tourism, tourism industry, development*

*Tourism is of great interest in Azerbaijan as one of the priority areas. After winning the 2003 presidential elections, President Ilham Aliyev, as in all areas, has achieved the adoption of important decisions and the implementation of measures in the tourism sector. The development trend of tourism as one of the priority areas of our economy has also been clearly manifested in the regions, including Shamakhi. During these years, information about the geographical position of the territory, natural conditions, nature, cuisine, historical and cultural monuments, and tourism recreation centers has been collected and systematized in order to create a new tourism infrastructure in Shamakhi, attract entrepreneurs to this field in order to achieve the development of the tourism sector, and organize advertising and marketing work. Not only summer and winter tourism, but also rural green tourism has developed in Shamakhi, and for this purpose, appropriate conditions have been created to attract tourists. This was possible as a result of the attention and care paid to the tourism sector by the state in the regions, including Shamakhi.*

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında qarşıya qoyulmuş məsələlərin həllinə göstərilən diqqət bu gün ölkəmizin ən qabaqcıl məmləkətlər sırasına çıxmasına gətirib çıxarmışdır. Müasir dövrdə ölkəmizdə iqtisadiyyatın sürətlə inkişafı, dünya ölkələri arasında nüfuzunun yüksəlməsi ölkəmizə marağın artmasına səbəb olmuş, respublikamıza gələn əcnəbilərin ildən-ilə çoxalmasına, bir sözlə turizm fəaliyyətinin genişlənməsinə şərait yaratmışdır. Həmçinin Azərbaycan Respublikasında həyata keçirilən Dövlət Proqramları turizm sənayesinin inkişafına yol açmışdır. Bu sahədə qanunvericilik bazası yaradılmış, infrastruktur yenidən qurulmuşdur.

Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra cəmiyyət həyatının digər sahələri kimi həm də turizmin inkişaf etdirilməsi istiqamətində də mühüm islahatlar keçirilmiş və müvafiq qanunlar qəbul edilmişdir. Belə ki, 1999-cu il 4 iyun tarixli Azərbaycan Respublikasının "Turizm haqqında" Qanunu qəbul edilmiş və bu sahənin inkişafı üçün müvafiq şərait yaradılmasına nail olunmuşdur. Turizm sahəsində işlər Ulu Öndərin layiqli davamçısı cənab prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilmişdir. Belə ki, Nazirlər Kabinetinin 2004-cü il tarixli qərarı ilə təsdiqlənmiş "Turist-ekskursiya xidmətlərinin sertifikatlaşdırılması qaydası" sənədlərinin qəbulu respublikada turizm işinin təşkilində normativ hüquqi baza rolunu oynamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2010-cu il 6 aprel tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nı təsdiq etmişdir. Dövlət Proqramının məqsədi turizm infrasturkturunu beynəlxalq tələblər səviyyəsində qurmaq, beynəlxalq təcrübədən istifadə etmək və turizm sahəsini əhatə edən xidmət sahələrinin keyfiyyətini artırmaq olmuşdur.

Turizm sahəsi həm də regionların inkişafı, ölkənin iqtisadi potensialının möhkəmlənməsi üçün, Azərbaycanın imici, dünyaya inteqrasiyası üçün çox mühüm bir vasitədir. Bu baxımdan da turizm sahəsində həyata keçirilən tədbirlər respublikanın digər bölgələri kimi həm də Şamaxıda da müsbət nəticəsini vermiş, burada beynəlxalq səviyyəli turizm infrastrukturun yaradılmasına imkan yaranmışdır. Bölgənin təbii-coğrafi şəraiti də burada turizmin hərtərəfli inkişafında mühüm rola malik olmuşdur. Burada turizmin inkişafı üçün region daxili komplekslər-infrastruktur, rekreasiya obyektlərinin istifadəyə verilməsi də əlverişli coğrafi şəraitlə bağlı olmuşdur. Coğrafi şəraitlə yanaşı bölgənin istər dövlət, istərsə də yerli əhəmiyyətli tarix və mədəniyyət abidələri turizmin inkişafına müsbət təsir göstərmişdir və bu ərazidə turizm potensialının artımına səbəb olmuşdur.

Respublikaya gələn turist axınının çoxalmasında Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarına uyğun olaraq burada müasir standartlara uyğun turizm obyektlərinin istifadəyə verilməsi və turizm sənayesinin inkişafına müvafiq şərait yaradılması da təsir göstərmişdir. Bölgənin turizm sənayesinə turist təşkilatlarının fəaliyyəti, müxtəlif sərnişin nəqliyyatı növlərinin xidməti, yerləşdirmə və iaşə vasitələri, rekrasiya, mədəni xidmətlər, idman tamaşaları, əyləncəli xidmət və köməkçi xidmətlər də daxildir. Hələ 2004-cü ildə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 16 iyul tarixli 97 saylı qərarı ilə "Turist ekskursiya xidmətlərinin sertifikatlaşdırılmasının keçirilməsi" qaydaları da təsdiq edilmişdir. Bununla yanaşı Şamaxıda yeni turizm infrastrukturunun yaradılması, turizm sektorunun inkişafına nail olmaqdan ötrü sahibkarların bu sahəyə cəlb edilməsi, reklam marketinq işinin təşkili məq-

sədiylə, ərazinin coğrafi mövqeyi, təbii şəraiti, təbiəti, mətbəxi, tarixi-mədəniyyət abidələri, turizm istirahət mərkəzləri haqqında məlumatlar toplanaraq sistemləşdirilmişdir.

2011-ci ilin "Turizm ili" elan edilməsi ilə ölkədə bu sahəyə olan diqqət və qayğı daha da çoxalmışdır. Bu sahədə beynəlxalq əməkdaşlığı inkişaf etdirmək üçün Azərbaycan Respublikası Turizm və Mədəniyyət Nazirliyi Ümumdünya Turizm Təşkilatı, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi Turizm Şurası, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və s. kimi beynəlxalq təşkilatlarda əlaqələrini gücləndirmişdir . Bu isə Azərbaycan dövləti tərəfindən həyata keçirilən tədbirlər nəticəsində bölgəyə turist axınının gücləndirilməsinə səbəb olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 20 noyabr 2012-ci ildə "Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə viza rəsmiləşdirilməsi sahəsində təxirəsalınmaz tədbirlər haqqında" sərəncam imzalamışdır. Onun icrasının təmin edilməsi məqsədilə 15 mart tarixindən elektron viza sisteminin tətbiqinə başlanılmışdır [1, s.359] . Bununla ölkəmizə və bölgəyə gələn turist sayında da artım müşahidə olunmaga başlanmışdır. 2012-ci il ərzində bölgənin mehmanxana və mehmanxana tipli müəssisələrində yerləşdirilmiş şəxslərin sayında da fərqlər nəzərə çarpmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2016-cı il 29 mart tarixli "Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında" Sərəncam imzalamışdır. 2014-2018-ci illərdə bölgədə fəaliyyət göstərən turizm obyektlərindəki xidmət səviyyəsinin araşdırılması məqsədiylə müvafiq qurumlar tərəfindən monutoriqlər keçirilmiş, Bakı şəhərində keçirilən "AİTF" beynəlxalq turizm sərgisində bölgənin turizm potensialını əks etdirən stendlər təşkil olunmuş və turizm mərkəzləri geniş təbliğ olunmuşdur. Çünki, daha çox turist cəlb edilməsi üçün müvafiq təbligatlar aparılması da mühüm əhəmiyyətə malikdir.Bu məqsədlə sərgilərin keçirilməsi , təbligatın aparılması da vacib amillərdəndir. Buna görə də "turizm sənayesi artıq dünyada ən gəlirli və perspektivli sahəyə çevrilmişdir. Rayonumuzda da getdikcə turizm infrastrukturu möhkəmlənməkdədir. 2011-ci il aprelin28-dən 30-dək Bakı sərgi mərkəzində gerçəkləşən "Beynəlxalq turizm və səyahətlər" və"Ümumrespublika daxili turizm"sərgilərində Şamaxının turizm imkanları yüksək səviyyədə nümayiş etdirilmişditr" [ 6. s.14].

Yaradılmış turizm-istirahət mərkəzləri, otellər, müalicəvi sağlamlıq mərkəzləri bölgədə turizmin inkişafında əsas rol oynamışdır. Bu məqsədlə Şamaxıda yeni turizm obyektlərinin tikilməsi işi davam etdirilmişdir. O cümlədən, 2012-ci ildə Şamaxı şəhərində müasir "Şirvan"mehmanxanası tikilərək turistlərin və qonaqların istifdəsinə verilmiş,"Şərədil"istirahət mərkəzində 5 ulduzlu otelin , "Fəxriguşə"istirahət mərkəzinin bazasında müasir standartlara cavab verəcək yeni turizm obyektinin tikintisi davam etdirilmişdir.2012-ci ilin

aprel ayında da Bakı şəhərində davam edən Beynəlxalq turizm və səyahətlər , ümumrespublika daxili turizm sərgilərində Şamaxı rayonu turizm imkanlarını nümayiş etdirmişdir" [7,s.18].

Şamaxının zəngin təbii ehtiyatları imkan vermişdir ki, burada ekoturizm, kənd turizmi, etnoqrafik turizm, mədəni turizm və idman turizmi inkişaf etdirilmiş olsun.Şamaxıda həm yay, həm qış turizmi , eləcə də kənd yaşıl turizminin də inkişafı üçün dövlət tərəfindən müvafiq tədbirlər həyata keçirilmişdir.Bu məqsədlə mehmanxanaların tikintisi, yolların çəkilməsi, müvafiq işlərin həyata keçirilməsi üçün dövlət tərəfindən tədbirlər görülmüşdür. O cümlədən, "2013-ci ildə Şamaxı rayonunda 25 mehmanxana və mehmanxana tipli obyekt qeydə alınmışdır. Şamaxı-Avaxıl avtomobil yolunun yenidən çəkilməsi,743-cü ildə inşa olunmuş tarixi memarlıq abidəsi Şamaxı Cümə məscidinin təmir-bərpa və Şamaxı astrofizika Resədxanasının təmirdən sonra istifadəyə verilməsi Şamaxıya böyük turist axınına səbəb olmuşdur. 2013-cü ildə "Şərədil"istirahət mərkəzində 5 ulduzlu otelin , "Fəxrguşə"istirahət mərkəzinin bazasında müasir standartlara cavab verəcək yeni turizm ovyektinin tikintisi davam etdirilmişdir. 2013-cü ildə Şamaxıya 80 min nəfərdən yuxarı turist gəlmişdir"[5, s.3].

2010-2015-ci illərdə Şamaxıya turizm axını,gecələmələrin sayında da müəyyən fərqlər olmuşdur. Bunu aşagıdakı cədvəldən də görmək olar:

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|
| Mehmanxana və mehmanxana tipli müəssisələrin sayı ,vahid | 24 | 24 | 24 | 23 | 23 | 22 |
| Nömrələrin sayı ,vahid | 240 | 240 | 240 | 233 | 322 | 297 |
| Birdəfəlik tutum ,yer | 556 | 556 | 556 | 538 | 739 | 704 |
| Yerləşdirilmiş şəxslərin sayı,nəfər | 2670 | 6288 | 4695 | 3364 | 8252 | 5968 |
| Gecələmələrin sayı,adam-gecə | 4687 | 10796 | 11591 | 13095 | 13382 | 13076 |

[2, s.815].

Şamaxıda yay aylarında turizm sahəsində aktivlik müşahidə olunsa da, burada qış turizmi də özünəməxsus yer tutur. Ən çox Yeni il ərəfəsində tətilə çıxanlar qış turizm komplekslərinə üz tuturlar. Təbii ki, fəslin iqlim normalarına uygun keçməsi də burada əsas faktorlardan biridir. Havanın qarlı olacagı vaxtlarda bölgələrə,o cümlədən Şamaxıya üz tutanların sayı çox olur. Belə yerlərdən biri də Şamaxıdakı Pirqulu ərazisidir. Aparılan müşahidələr və

qiymətləndirmələr göstərir ki, Şamaxıya gələn turistlərin əksəriyyəti dag massivində,şəhər mərkəzindən 14 km şimalda yerləşən Pirquluya üz tutur. Çünki qış aylarında bu yerlər daha cəlbedici olur. Ona görə də turistlərin çoxu burada fəaliyyət göstərən otel və istirahət mərkəzlərinin xidmətlərindən yararlanmaga üstünlük verir. Dəniz səviyyəsindən 1400 m yüksəklikdə yerləşən Pirqulu qış turizmi üçün ideal potensiala malik ərazi hesab olunur. Xizəkçilik üçün keyfiyyətli sayılan qar turistləri,qonaqları həmişə cəlb edir. Bu da turizm və idmanın qış növləri üçün əlverişlidir.

Öz istirahətini təbiətin qoynunda keçirmək istəyənlər üçün vətənimizin səfalı rayonlarından olan Şamaxıda dövlətin diqqət və qaygısı sayəsində hər cür şərait yaradılmışdır. Belə ki, AMEA Şamaxı Astrofizika Rəsədxanası öz cazibədar təbiəti, xoş mühiti ilə hər kəsin,turistlərin möhtəşəm istirahəri üçün hər cür imkana malikdir. Ailəvi istirahət üçün rəsədxananın ərazisində sıx meşənin qırağında yerləşən kotejlər qonaqlara xoş əhval-ruhiyyə bəxş edir , mütəşəkkil infrastruktura və müasir şəraitə malik kotejlərdə təbiət və dağ mənzərələri müşahidə olunur.Rəsədxananın ərazisində muzey, restoran və park da mövcuddur ki, qonaqlar gündüzlər meşə gəzintisinə gedə, axşam teleskop vasitəsilə səma cisimlərini müşahidə etmək imkanı əldə etmiş olurlar.

“Şamaxıda turistlərin üz tutdugu məkanlardan biri də Qaleybugurd kəndidir. 2386ha sahəsini əhatə edən Qaleybugurd nümayəndəliyi səfalı və yerli resurslarla zəngin bir ərazidə yerləşir. Burada həm də turizmin inkişaf etdirilməsi üçün şərait vardır [8,s.2]. Bugurt qalası da bu ərazidə yerləşir. Qala Şamaxı şəhərindən 20 km şimal-qərbdə Qəleybuğurt kəndi yaxınlığındakı dağın zirvəsində yerləşir.Qala hələ Monqol işğalları dövründə Şirvanşahın sığınacaq yeri olmuşdur. Şirvanşah Keyqubad və Kavus dövründə də istifadə olunmuşdur. 1509-cu ildə I Şah İsmayıl Şirvana hücum edəndə Şirvanşah Şeyxşah Buğurt qalasında müdafiə olunmuşdu. 1518-ci ildə Səfəvi qoşunları Əlqas mirzə Səfəvinin başçılığı ilə Şirvana hücum etmişdi. Buğurt qalasına çəkilən Şahrux və vəkil Hüseyn bəy bir neçə ay Səfəvilərə müqavimət göstərə bilmişlər. Qala yerləşən dağı cənubdan Qız qalası və Cəngi dağları, şərqdən Tənə dağı və Alçalı pir meşəsi, şimaldan Ülgüc dağı, qərbdən Qaladərəsi əhatə edir. Yay aylarında,hətta qışda da qar bol oldugundan həmişə diqqət mərkəzində olan ərazilərdən biridir. Buranın təbiəti,abidələr,tarixi mədəniyyət abidələri istirahət etmək istəyənlər,turistlər üçün çox əlverişlidir.

Turizm sənayesi artıq dünyada ən gəlirli və perspektivli sahəyə çevrilmişdir.Rayon üçün də bu sahə gəlirli oldugundan turistlərə xidmət üçün rayonun Pirqulu zonasında müasir standartlara cavab verəcək yeni turizm obyektləri tikilmişdir.2015-ci il məlumatına əsasən Şamaxıda 986 yerləşmə yeri olan 24 mehmanxana və mehmanxana tipli obyekt qeydə alınmışdır. Təsadüfi deyildir ki, son illərdə rayona gələn turistlərin sayı da sürətlə artmışdır. Belə ki, 2015-ci ildə rayona gələn turistlərin sayı 90420 nəfər olmuşdur ki, bu da ötən

illə müqayisədə 5170 nəfər çox olmuş ,turistlərdən 22402 nəfəri isə xarici turistlərdən ibarət olmuşdur.” [9,s.18].

“2020-ci ilin qışında Şamaxıda turistlərin ,istirahətə gələnlərin rahat, təhlükəsiz və yadda qalan günlər keçirməsi,dincəlməsi,əylənməsi üçün turist qəbul edən (Hotel və İstirahət Mərkəzlərində) obyektlərdə öncədən böyük hazırlıq işləri görülmüşdü.Qış tətili günlərində rayon ərazisində yerləşən bütün hotel və lstirahət mərkəzlərində 100% dolum müşahidə olunmuşdur. Buindan əlavə kənd yerlərində evlərdə də qalan turistlər də çox olmuşdur. Onlar Çuxuryurd, Nagaraxana, Məlhəm, Avaxıl və Dəmirçi kəndlərində qalmaga üstünlük vermişdilər [10, s.10].

Şamaxıya gələn xarici turistlərin adi günlərdən çox bayram günlərində daha çox olması da müşahidə olunmuşdur. Onlar əsasən Rusiyadan, BƏƏ-dən, Türkiyədən, Asiya və MDB ölkələrinin vətəndaşları idilər. Xarici turistlər tətil günlərində Astrofizika rəsədxanası, Dəmirçi kənd turizm kompleksi, Şamaxı Cümə məscidi, Yeddi Gümbəz abidəsi, Şahxəndan türbəsi və eləcə də təbii mənzərəli yerlərlə böyük maraqla tanış olmuş, müxtəlif tikililərə üstünlük vermişdilər. Ötən ilin sonlarında əvvəlki ildəki illə müqayisədə, yəni 2020-ci ilin əvvəllərində rayona turist sayının 7 % artdığı məlum olmuşdur .

Şamaxıya gələn turistlərin əksəriyyəti daha çox Şamaxıda olan qədim və orta əsrlərə aid olan abidələri görmək ,tarixləri haqqında müvafiq məlumatlara malik olmaq istəyirlər. Müxtəlif günlərdə bölgəyə gələn turistlər tarixi abidələrə daha çox maraq göstərirlər. Şamaxıda tarixi abidələrin olması da buraya olan maragın artmasına səbəb olmuşdur. Dövlət tərəfindən bütün bunları nəzərə alaraq mühüm tədbirlər həyata keçirilmişdir. Nəticədə Şamaxı rayonun ərazisində 1 dünya, 23 ölkə,47 yerli əhəmiyyətli abidə qeydə alınmışdır. Son dövrlərdə 23 yeni abidə aşkarlanmışdır.Rayonun ərazisində mövcud olan abidələr 7 abidə mühafizəçisi tərəfindən qorunur. Cari ilin may ayında isə Mirzə Ələkbər Sabirin Yeddi Günbəz qəbristanlıgında yerləşən qəbrüstü abidəsi (inventar nömrəsi 5685)sökülmüş və yenidən bərpa olunmuşdur [11.s.17].

Şamaxıya gələn turistlərin istirahəti üçün də müvafiq şərait yaradılmışdır. Belə ki,Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirinin 24 may 2016-cı il tarixili 189 nömrəli əmrin icrasını təmin etmık məqsədilə Şamaxı rayon Mədəniyyət şöbəsində turizm müəssisələrinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi, rayona gələn yerli və xarici turistlər üçün yay mövsümündə mədəni xidmətlərin təşkili məqsədilə plan-qrafik tərtib edilmişdir. Plan-qrafikə uygun olaraq yerli əhali və turistlər üçün gündəlik Heydər Əliyev parkında, Heydər Əliyev mərkəzində konsertlər,aşıq gecələri.əyləncəli proqramlar.yerli rəssamların rəsm əsərləri,sənətkarların əl işlərindən ibarət sərgilər təşkil olunmuşdur.” [12,s.17]. 2016-cı il məlumatına əsasən “Şamaxıda həmin vaxt beş ulduzlu üç otel,21 turist istirahət mərkəzi fəaliyyət göstərmişdir. Şamaxıda yay və qış turizmi ,kənd yaşıl turizmi,idman,dini turizm,astro turizminin

inkişaf etdirilməsi nəticəsində isə rayona gələn turistlərin sayının günbəgün arması müşahidə olunmuşdur. 2016-cı ilin birinci yarısında Şamaxıya 32004 nəfər turist gəlmişdir." "[13, s.11].

Şamaxı Cümə məscidi Şamaxıya üz tutan turistlərin ən çox oldugu bir məkandır.Şamaxı Cümə məscidi Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində əsaslı təmir olunmuşdur. Bərpa və yenidənqurma işlərinə 2010-cu ilin martında başlanılmış və 2013-cü il mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məscidin açılış mərasimində iştirak etmişdir.Ümumi sahəsi bir hektara yaxın olan məscidin ilkin görkəminə qaytarılması üçün bərpa və yenidənqurma işləri zamanı Şirvan memarlıq məktəbinin ənənələrinə maksimum diqqət yetirilmişdir. Minarələrinin hündürlüyü 36,4 metr olan məscidin giriş, orta böyük, həmçinin sağ və sol günbəzləri nəfis şəkildə bərpa olunub. Orta salon milli memarlıq üslubunda yenid ən qurulmuşdur. Burada eyni vaxtda 1500 nəfər ibadət edə bilər. İkimərtəbəli inzibati binanın sahəsi 804 kvadratmetrdir. Məsciddə konfrans salonu, zəngin kitabxana yaradılmışdır..520 kvadratmetrlik məişət binasında 250 nəfərlik mərasim salonu və müasir avadanlıqla təchiz edilən mətbəx yerləşir.Şamaxı Cümə Məscidi Dövlət Tarix-Memarlıq abidəsinin ətrafında qədim hücrələr də bərpa olunmaqla əsaslı abadlıq işləri aparılmışdır. Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidi Xəlifə Xalid ibn Vəliyədin dövründə onun qardaşı Müslüm ibn Vəliyədin Azərbaycana gəlməsinin şərəfinə 743-cü ildə inşa olunmuşdur. Bəzi mənbələrə görə, Xilafət ordularının məğlub etdiyi Xəzər xaqanı məhz bu məsciddə islam dinini qəbul etmişdir.1859-cu ildə Qafqazın ən böyük quberniyalarından olan Şamaxıda baş verən dağıdıcı zəlzələ şəhəri alt-üst etdiyindən quberniyanın mərkəzi Bakıya köçürülmüşdür. Zəlzələdən sonra məscidin bərpası əslən Şamaxıdan olan Qasım bəy Hacıbababəyova həvalə edilmişdir. 1902-ci ildə baş verən növbəti zəlzələ zamanı da məscid dağılmamışdır. Bundan sonra məscidin bərpasının əvvəlki özül üzərində aparılmasına qərar verilmişdir. Bərpa işlərini əvvəl memar Zivərbəy Əhmədbəyov, sonra isə polşalı memar-mühəndis İozef Ploşko aparmışdır.. Ploşkonun bir qədər fərqli və orijinal layihəsi əsasında aparılan bərpa işləri başa çatdırılmamışdır.

Şamaxıya gələn turistlərin əksəriyyəti daha çox Şamaxıda olan qədim və orta əsrlərə aid olan abidələri görmək ,tarixləri haqqında müvafiq məlumatlara malik olmaq istəmişdilər. Müxtəlif günlərdə bölgəyə gələn turistlər tarixi abidələrin öyrənilməsinə daha çoxmaraq göstərmişlər.

"Qədim tarixə, füsnkar təbiətə,əlverişli iqlim şəraitinə malik, özünəməxsus adət ənənələri , milli mətbəxi ilə məşhur olan Şamaxı bütün fəsillərdə yerli və xarici turistləri daim özünə cəlb edir. Şamaxıda son illər müasir turizm infrastrukturunun yaradılması istiqamətində görülən işlər,ənənəvi olaraq hər il

keçirilən respublika səviyyəli tədbirlər,turistlərin bu qədim diyara olan marağını daha da artırmışdır. Turizm istirahət mərkəzləri otel və mehmanxanalarla yanaşı fərdi evlərdə qalmaq istəyənlər üçün də hər cür şərait yaradılmışdır. Bundan əlavə yeni turizm obyektlərinin yaradılması istiqamətində də işlər aparılmaqla turistlərə göstərilən xidmətin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə əməkdaşlar üçün xüsusi təlimlər də keçirilir ki, bu da turistlərə daha mədəni və səviyyəli xidmət göstərilməsi istiqamətində əhəmiyyət kəsb etmişdir. İlin hər fəslində turistlərin cəlb edilməsi və onların istirahətlərinin səmərəli keçməsi üçün hər cür şərait yaradılmışdır. Yay turizm mövsümündə yerli əhali və turistlər üçün gündəlik Heydər Əliyev parkında ,otellərdə və istirahət mərkəzlərində müxtəlif əyləncəli proqramlar, sərgilər, konsertlər təşkil edilmişdir. Hazırda Şamaxı rayonunun ərazisində üç beş ulduzlu otel, 22 istirahət turist mərkəzi mövcuddur. Son vaxtlar bölgənin füsnkar guşəsində “Dəmirçi”istirahət mərkəzi fəaliyyətə başlamışdır. “Pirqulu”otelinin tikintisi isə davam etdirilir. Təsadüfi deyildir ki, ötən il Şamaxıya 90422 nəfər yerli və xarici turist gəldiyi halda cari ilin on bir ayında gələn turistlərin sayı 94700 nəfər olmuşdur.Təkcə yay turizm mövsümündə rayonumuza 67352 nəfər yerli və xarici turist gəlmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı ilin sentyabarın 1-də imzaladıgı “Azərbaycan Respublkasında turizmin inkişafı ilə baglı əlavə tədbirlər haqqında” sərəncamı respublikamızda , o cümlədən Şamaxıda da bu sahənin daha dinamik inkişafına yeni imkanlar açmışdır. Şamaxıda ümumiyyətlə yay və qış turizmi, kənd yaşıl turizmi,idman,dini turizm,astro turizm ,ovçuluq turizmi də inkişaf etdirilir.

Şamaxı rayonu beynəlxalq və ölkə standartlarına cavab verən turist xidmət göstəricilərinə, yerli və xarici qonaqlar qəbul etmək imkanına malik olmuşdur. Belə ki, hələ 2018-ci ildə Şamaxı rayonunun ərazisində 3 beş ulduzlu otel,22 istirahət-turist mərkəzi mövcud olmuşdur. Turistlərin cəlb edilməsi istiqamətində də işlər davam etdirildiyindən 2017-ci ildə Şamaxıya 114500 nəfər turist gəlmişdir ki,onların da 77000-i yerli, 37500 nəfəri isə xarici turistlər olmuşdur. Pirqulu zonasında müasir standartlara cavab verəcək yeni üç ulduzlu və beş ulduzlu otellərin tikintisi isə davam etdirilmişdir.

Respublikamızın bütün bölgələrində turizm obyektlərinin yaradılması kompleks xarakter daşımışdır. Bu komplekslərdən biri də rayonun Dəmirçı kəndində yaradılmışdır. Cənab Prezidentin göstərişi ilə ölkəmkizin ən qədim dini ocaqlarından olan 755-ci ildə inşa edilən Dəmirçi məscidi bərpa olunmuş ailə biznesinin qurulması və bu biznesdən alınan məhsulların satışını nəzərdə tutan Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin nəzdində yaradılmış”ABAD”publik hüquqi şəxsin fəaliyyəti üçün şərait Müasir dövrdə ekoturizmin geniş yayılmış növlərindən biri də safari turizmidir. Ölkəmizin müxtəlif guşələrində xüsusi mühafizə

olunan təbiət əraziləri – milli parklar, qoruqlar xarici turistlərin belə turlara cəlb edilməsində mühüm rol oynayır.Ərazisinin böyüklüyünə eləcə də heyvanlarının sayının və növünün çox olmasına görə Şamaxı Safarı Parkı nəinki Azərbaycanda, ümumiyyətlə Qafqazda yeganə və tək hesab edilən parkdır. Şamaxı Safari Parkı "Azərbaycanda ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"dəki tapşırıqlara uyğun olaraq yaradılmışdır. Ümumi ərazisi 1200 hektar olan parkın 830 hektarıq hissəsi beynəlxalq standartlara uyğun formada çəpərlənmış, Latviya, Polşa, Slovakiya, Çexiya və Macarıstandan gətirilən nəcib maral, xallı maral, Altay maralı, muflonlar yəni, dağ qoyunları alkapa, lama və zubrların genetik qiymətli heyvanlar kimi xüsusi mühafizə olunan əraziyə buraxılması təmin edilmişdir. Görülən seleksiya və baytarlıq tədbirləri nəticəsində bu heyvanların sayı iki dəfəyə yaxın artırılmışdır. Parkın ərazisində inzibati bina və qonaq evi də inşa olunmuş, inzibati bina və qonaq evinin ərazisində geniş abadlıq işləri aparılmışdır.

Bu gün safari turizmi ovçuluq və ya fotoovçuluq,balıq tutmaq,açıq məkanda təbii halda heyvanları müşahidə etmək məqsədilə təşkil olunan turizm növü kimi məşhurdur. Son dövrlər sırf fotosafarilər üstünlük təşkil edir. Azərbaycanda,o cümlədən ,Şamaxıda da fotosafari turlarının həyata keçrilməsi üçün güniş imkanlar vardır. Ölkəmizin müxtəlif guşələrində, həmçinin Şamaxıda xüsusi mühafizə olunan təbiət əraziləri-milli parklar, qoruqlar xarici turistlərin belə turlara cəlb edilməsində mühüm rola malikdir.

Azərbaycan respublikasının Prezidenti İlham Əliyev qeyd etmişdir ki, "Turizmin inkişafı sürətlə getməlidir. Nə qədər çox turist gəlsə,o qədər də çox adam Azərbaycanı tanıyacaq və turistlər ölkəmizə valyuta gətirəcəklər. Azərbaycanın turistləri maraqlandıran ənənəvi sənət növləri də inkişaf etdirilməlidir, o cümlədən xalçaçılıq .Bu bizim böyük sərvətimizdir"[4,s.182]. Bu məqsədlə həmçinin Dəmirçi kəndində də Şamaxı Tarix - Diyarşünaslıq Muzeyinin eksponatlarından ibarət sərgi açılmış və xalçanın toxunub turistlərə satılması üçün "Azərxalça"ASC-yə də yer verilmişdir."

XIX əsrlərə aid olan yeddi günbəz abidələri, Pir-Mərdəkan xanəgahı, Göylər kəndindəki XII əsr kurqanları, VIII-XV əsrlərə aid Gülüstan qalası və ən nəhayət, XII-XV əsrlərə aid Qaleyi-Bugurd qalası (Buğurd qalası da deyilir) turistlərin,qonaqların yaddaşında unudulmaz səhifələrə çevrilmişdir.

2020-ci ildə mehmanxana və mehmanxana tipli müəssisələrdə yerləşdirilmiş şəxslərin sayı 8364 nəfər olmuşdur. Bu göstərici keçən ilin müvafiq dövründən 13256 nəfər və yaxud 61,3 faiz azdır ki, azalmanın başlıca səbəbi isə Pandemiya ilə əlaqədar turist fəallığının olmamasıdır. Həmin müəssisələrdə yerləşdirilmiş vətəndaşların 8059 nəfərini Azərbaycan vətəndaşları ,305 nəfərini isə xarici ölkə vətəndaşları təşkil etmişdir.

2020-ci ildə mehmanxana və mehmanxana tipli müəssisələrin məhsul (xidmət)satışından əldə olunan ümumi gəlirləri 2347,5 min manat təşkil

etmişdir ki, bu da keçən ilin müvafiq dövründən 3307,5 min manat və yaxud 58,5 faiz az olmuşdur [3,s.9-10]. "Ölkəmizdə turizm infrastrukturu formalaşmış və Dövlət tərəfindən turizm sektoruna dəstək verilməsi nəticəsində turizmin inkişafına əlverişli iqtisadi mühit yaranmışdır.2020 ci ildə Şamaxı rayonunda 25 mehmanxana və mehmanaxana tipli müəssisələr qeydiyyatda olsa da faktiki olaraq cari ildə cəmi 23 mehmanxana və mehmanaxana tipli müəssisələr fəaliyyət göstərmişdir. Qalan 2 müəssisə fəaliyyətini müvəqqəti olaraq dayandırmış, 1 müəssisə isə tamamilə sökülərək ləgv olunmuşdur. Bu nömrələrin sayı 366 vahid olmuşdur. Həmin nömrələrdə yerlərin sayı (birdəfəlik tutum) 841 çarpayı-yerdən ibarətdir. Həmin müəssisələrin əsas hissəsi rayonun daglıq hissəsi olan Pirquluda yerləşir.

2020-ci ildə mehmanxana və mehmanaxana tipli müəssisələrdə gecələmələrin sayı 8560 adam gecə olmuşdur. Bu göstərici keçən ilin müvafiq dövründən 15475 adam, gecə və yaxud 35.6 faiz çoxdur. Cari ildə gecələmələrin 8350 gecəsi Azərbaycan vətəndaşları tərəfindən , 310 adam gecəsi isə xarici ölkə vətəndaşları tərəfindən olmuşdur. Həmin dövrdə nömrələrdən 10145 nömrə -gün istifadə edilmişdir.

2020-ci ildə aylar üzrə yerləşdirilmiş şəxslərə və gecələmələrə nəzər salsaq ən yüksək göstərici iyul və avqust aylarında olmuşdur. Şamaxının iqlim şəraiti əlverişli oldugundan buraya gələn turistlər və qonaqlar ildənilə çoxalmaqdadır. Lakin pandemiya vaxtlarında bu sahədə də azalmalar məlim səbəblərdən olmuşdur.

2020-ci ildə mehmanxana və mehmanaxana tipli müəssisələrin məhsuln (xidmət) satışından əldə olunan ümumi gəlirləri 2347,5min manat təşkil etmişdir ki, bu da keçən ilin müvafiq dövründən 3307,5 min manat və yaxud 58,5 faiz azdır. Əldə oliunan gəlirin 537,3 min manatı yerləşdirmə xidmətlərindən (nömrələrin satışından), yəni keçən ilin müvafiq dövründən 1253, 8min manat az, 1786,9 min manatı iaşə xidmətlərindən , yəni keçən ildəkindən 2015,7min manat və yaxud 47 faiz az, qalan 23,5min manatı isə digər xidmətlərdən daxil olmuşdur.

2020-ci ildə mehmanxana və mehmanxana tipli müəssisələrdə xidmətə çəkilən xərclər 2376,6 min manat olmuşdur. Bu göstərici keçən ilə nisbətən 2499,1 min manat azdır. Çəkilən xərclərin 858,2 minmanatı içkilərin və yeməklərin hazırlanması üçün istifadə olunan ərzaq məhsullarının alınmasına, 37,4 min manatı yanacaq və enerji xərcləri, 5,7 min manatı suyun alınması xərcləri, 1055Ş6 min manatı əmək haqqı xərcləri, 17,8 min manatı əsas vəsaitlərin təmirinə çəkilən xərclər, 216,9 min manatı yerli büdcəyə ödənilən ödənişlər, 10,8 min manatı reklam və 31,1 min manatı isə digər xərclərdir.

2020-ci ildə mehmanxana və mehmanxana tipli müəssisələrdə yerləşdirilmiş xarici ölkə vətəndaşlarının sayı 305 nəfər,keçən ilin müvafiq dövründən 2543 nəfər az, gecələmələrin sayı isə 310 gecə olmuşdur ki, bu da

keçən ilə nisbətən 2940 gecə azdır. Həmin xidmətə xarici ölkə vətəndaşları tərəfindən 25,5 min manat məbləgində pul ödnilmişdir ki, bu da keçən ilin müvafiq dövründəkindən 936,0min manat azdır. Bir işçiyə düşən orta aylıq əməkhaqqı 494,0 manat olmuşdur. Bu göstərici keçən ilin müvafiq dövründəkindən 61,8 manat azdılr. Qeyd edək ki, həmin işçilərdən 14 nəfəri turizm istisası üzrə təhsil almış işçilərdir. 2019-cu ildə fəaliyyət göstərən mehmanxana və mehmanxana tipli müəssisələrin 3-ü 5 ulduzlu müəssisələrdir.Həmin müəssisələrin 6-sı hüquqi müəssisələr olmuşdur.

Şamaxıya gələn turistləri həm də Şamaxının bənzərsiz bulaqları,o cümlədən Əngixaran bulagı da çox maraqlandırır. Onlıarı cəlb edən amillərdən biri də Şamaxının milli mətbəxidir. Şamaxı-Pirqulu,Şamaxı-Şərədil, Şamaxı-Kələxana turist marşurutları ilə rayonun füsünkar təbiəti,tarixi-memarlıq abidələri ilə tanış olmaq ,əsaslı təmir tikinti işlərindən sonra Astrofizika Rəsədxanasında teleskopla ulduzlar aləmini seyr etmək də hər bir turist üçün çox maraqlıdır. Bütün bunların gerçəkləşdirilməsi üçün isə şəraitin yaradılması dövlət tərəfindən həyata keçirir. Nəticədə isə turizm sektoru regionlarda da inkişaf etdirilir. Koronavirus (COVİD-19) pandemiyasının iki il sürən mənfi təsirindən sonra ölkəmizdə də turizm sektorunda bərpa prosesi başlamışdır. Nəticədə 2022-ci ilin 4 ayında ölkəyə gələn turistlərin sayı ötən ilin eyni dövrünə nisbətən 103 faiz artmışdır.

2022-ci ilin 23-24 may tarixlərində Şamaxı şəhərində təşkil edilmiş Türk Dövlətləri Təşkilatının Turizm üzrə Nazirlərinin 7-ci iclasında Şamaxı şəhəri 2023-cü il üçün "Türk dünyasının turizm paytaxtı" seçilmişdir. Bu məqsədlə də Şamaxıda və müvafiq ərazilərdə bu mövzuda tədbirlər keçirilmişdir. Tədbirlər zamanı da Şamaxı rayonu barədə məlumatları əks etdirən tarixi məkanlar, istirahət mərkəzləri və digər turizm sahələri barədə geniş məlumatlar əks olunmuş videoçarxlar nümayiş etdirilmiş,məlumatlar verilmişdir. Bunlar da Azərbaycanın dilbər guşələrindən olan qədim tarixə malik olan Şamaxının adət-ənənələrinin, mədəniyyətinin, tarixinin, turizm imkanlarının tanıdılmsı istiqamətində görülən işlər sırasına daxil edilir.

Pandemiyadan sonra hər il Şamaxıda Üzüm və Şərab Festivallarının keçirilməsi də buraya turist axınlarına səbəb olmuşdur. Belə festivallar Dövlət Turizm Agentliyi və Şamaxı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Şamaxı rayonunun Meysəri kəndində baş tutmuşdur."Şirvan şərabları" MMC-nin üzümçülük və şərabçılıq kompleksinin ərazisində təşkil olunan festivallarda ziyarətçilər üzüm istehsalı və şərabçılıq, Azərbaycanın turizm potensialı ilə daha yaxından tanışlıq imkanı qazanmaqla, müxtəlif əyləncə və şou proqramlar da izləmiş olurlar.Festivalda yerli və xarici istehsalçıların şərab məhsullarının dequstasiyaları təşkil edilməklə, şərab evlərinin maraqlı hekayələrini izləmək imkanı yaradılır.Ölkəmizin ayrı-ayrı bölgələrindən olan üzüm emalı və şərab

istehsalı zavodları çeşidli şərablarını da bu festivalda nümayiş etdirilir, ziyarətçilər bəyəndikləri məhsulları ən sərfəli qiymətə əldə edə bilirlər

Son illər Şamaxıda təşkil olunan Hava Şarları Festivallarının da əsas məqsədi ölkəmizin, o cümlədən festivalın keçirildiyi Şamaxı rayonunun turizm potensialına töhfə verməkdir.

Baş tutan uçuşlar zamanı Şamaxının Meysəri kəndi üzərindən səmaya müxtəlif rəng, forma və dizaynda hava şarları qalxaraq bu mənzərə izləyicilərində unudulmaz təəssüratlar yaradır.

İlk gündən bu festivalda iştirak edən hər bir kəsdə bu böyük maraga səbəb olmaqla ərazini gəzmək imkanı əldə etmiş olurlar.

Hazırda respublikamızın hər bir regionu kimi Şamaxı da öz yeni bir dinamik inkişaf mərhələsinə qədəm qoymuşdur. Azərbaycanın tarixinə, mədəniyyətinə və incəsənətinə xüsusi diqqət yetirilir ki, bunların sayəsində zəngin təbiətə malik ölkəmizin turizm potensialı daha da artır.Cənab Prezidentin diqqət və qayğısı nəticəsində qədim tarixi-mədəni irsə malik, öz turizm potensialı və coğrafi mövqeyi ilə fərqlənən Şamaxı rayonu da gündən-günə inkişaf edir. Dövlət Başçısının təşəbbüsü ilə Şamaxı Cümə məscidində, Pirsaat Baba ziyarətgahında, Şahxəndan türbəsində və digər tarixi-mədəni abidələrdə aparılmış yenidənqurma işləri xalqımızın mənəvi dünyasına verilmiş yüksək qiymətlə yanaşı, turizm sahəsinin də inkişafında xüsusi əhəmiyyət kəsb edir.

## Ədəbiyyat

1.Azərbaycan Respublikasının tarixi (2003-2016). 2 cilddə, II cild. İlham Əliyev dövrü. Bakı, ATİ, 2016, 716 s.

2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Azərbaycan regionları. Bakı, 2016, 820 s.

3.Azərbaycan Respublikası. Dövət statistika Komitəsi Şamaxı Rayon statistika İdarəsi Şamaxı rayonunun 2003-2020-ci illər statistik göstəriciləri. Şamaxı, 2021, 84 s.

4.Əliyev İlham inkişaf-məqsədimizdir. Bakı, Azərnəşr, 2018, 400 s.

5.2013-cü ilin sosial-iqtisadi inkişafının yekunları və 2014-cü ildə qarşıda duran vəzifələr haqqında rayon icra hakimiyyətinin başçısı Asif Ağayevin hesabat məruzəsi. Şirvan qəzeti №1-2(6506) 2014, s.4.

6.Şamaxı rayonu İcra hakimiyyəti başçısının yanında Şuranın iclas protokolu (№04.22. 02.2012-ci il).Azərbaycan Respublikası Dövlət Arxivinin Şamaxı filialı, Fond 30, siyahı 1, iş № 178 , vərəq- 20

7.Şamaxı rayonu İcra hakimiyyəti başçısının yanında Şuranın iclas protokolu (№04. 22 fevral 2013-cü il). Azərbaycan Respublikası Dövlət Arxivinin Şamaxı filialı, Fond 30, siyahı1, iş № 228 ,vərəq- 49

8.Şamaxı rayonu İcra hakimiyyəti başçısının yanında Şuranın iclas protokolu (№09.17 may 2005-ci il).Azərbaycan Respublikası Dövlət Arxivinin Şamaxı filialı, Fond30, siyahı1, iş № 41, vərəq- 7

9.Şamaxı rayonu İcra hakimiyyəti başçısının yanında Şuranın iclas protokolu (№04.19fevral 2016-ci il).Azərbaycan Respublikası Dövlət Arxivinin Şamaxı filialı, Fond 30, siyahı 1, iş № 321, vərəq- 69

10.Şamaxı ildən-ilə turistlər üçün daha cəlbedici məkana çevrilir. Şirvan, 2020, s.10.

11.Şamaxı rayonu İcra hakimiyyəti başçısı yanında Şuranın iclas protokolu ( №18.30 .09.2016-cı il) Azərbaycan Respublikası Dövlət Arxivinin Şamaxı filialı Fond30. siyahı1, iş № 335, vərəq- 36

12. Şamaxı rayonu İcra hakimiyyəti başçısı yanında Şuranın iclas protokolu (№18.09 .07.2016-cı il ). Azərbaycan Respublikası Dövlət Arxivinin Şamaxı filialı Fond30. siyahı1, iş № 335 . vərəq- 36

13.Şamaxı rayonu İcra hakimiyyəti başçısı yanında Şuranın iclas protokolu (№13.19 .07.2016-cı il ) Azərbaycan Respublikası Dövlət Arxivinin Şamaxı filialı Fond30. siyahı1. iş №330, vərəq-16

## MÜNDƏRİCAT

**Elçin Vəliyev.** *ŞƏKİ ŞƏHƏRİNDƏ TURİZMİN İNKİŞAFINA DAİR (2004-2018-Cİ İLLƏR)...............................................................................3-13*
**Naibə Əhmədova, Aybəniz Məmmədova.** *XIX ƏSRİN İKİNCİ YARISI - XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN TARİXİ MƏSƏLƏLƏRİ DÖVRÜN MƏNBƏLƏRİNDƏ..........................................14-23*
**Nərmin Bayramova.** *AZƏRBAYCANIN QALA VƏ İSTEHKAM TİKİLİLƏRİNİN MEMARLIQ XÜSUSİYYƏTLƏRİ...................................24-32*
**Nərmin Məmmədli.** *KİŞ-DOXUN NEKROPOLUNDA İZLƏNİLƏN DƏFN MƏRASİMLƏRİ...........................................................................33-41*
**Nəsrin Mehdiyeva.** *AZƏRBAYCAN-GÜRCÜSTAN MÜNASİBƏTLƏRİNDƏ ƏRAZİ-SƏRHƏD PROBLEMLƏRİ (ZAQATALA MAHALININ MƏNSUBLUĞU MƏSƏLƏSİ).........................42-50*
**Pərviz Səfərov.** *XX ƏSRİN 90-CI İLLƏRİNİN BİRİNCİ YARISINDA AZƏRBAYCAN - TÜRKİYƏ ƏLAQƏLƏRİNİN TƏŞƏKKÜLÜNDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İŞTİRAKI.............................51-63*
**Ramilə Mustafayeva.** *XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ VƏZİYYƏTİ STATİSTİK MƏLUMATLARDA.............64-71*
**Rəşid Mehdiyev.** *HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN ELMİNƏ QAYĞISI  (XX ƏSRİN 70-80-Cİ İLLƏRİ)...................................................72-82*
**Sahibə Musayeva.** *ŞƏKİ-ZAQATALA BÖLGƏSİNDƏ YAŞAYAN AZSAYLI XALQLARIN İNANCLARI.........................................................83-88*
**Səlimə Quliyeva.** *FRANSANIN ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRİ KİMİ FƏALİYYƏTİ (1997-2003)........................................89-97*
**Taleh Cəfərov.** *FRANSADA TÜRK DİASPORUNUN FORMALAŞMASI PROSESİ..................................................................98-107*
**Vüqar Abdullayev**. *İKİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ ALMANİYADA AZƏRBAYCANLI SİYASİ MÜHACİRLƏR...................108-115*
**Xalidə İbrahimova.** *AZƏRBAYCAN TİBB İŞÇİLƏRİ 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ..............................................................116-125*
**Zakir Kərimov.** *AZƏRBAYCANDA XEYRİYYƏÇİLİK HƏRƏKATINA MƏNƏVİ VƏ SOSİAL–İQTİSADİ FAKTORLARIN TƏSİRİ ( XIX ƏSRİN 70-Cİ  İLLƏRİ-XX ƏSRİN ƏVVƏLLƏRİ).......................126-131*
**Заур Гасанов.** *ХРОНОЛОГИЯ 28-ЛЕТНЕЙ ГЕГЕМОНИИ СКИФОВ НА БЛИЖНЕМ ВОСТОКЕ....................132-142*
**Zərifə Cavadova.** *ŞAMAXIDA  TURİZMİN İNKİŞAFI (2003-2023-CÜ İLLƏR)..................................................................143-156*

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – jhhsadpu@mail.ru göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 12 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal 2024, 4 (45)*

***Çapa imzalanmış 21.12.2024-cü il***
***Kağız formatı 60x84 1/16, çap vərəqi 10***
***Sifariş 384, sayı 100***

***ADPU-nəşriyyatı***
***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Telefon: (+994 12)493 05 85***
***E-mail:** jhhsadpu@mail.ru*
***www.adpu.edu.az***